100t 250q

Qasımlı Gülnar Vaqif qızı 1986-cı ildə Tovuz rayonunun Dondarquşçu kəndində anadan olub. "Mən sehrli səmayam" (2001), "İçimdəki söhbətlər" (2011), "Gül" (2016) şeir kitablarının və Mehmet Nuri Parmaksızın "Həsrət, eşq və sükût" (2015) tərcümə kitabının müəllifidir. 2018-ci ildə Latviyada rus dilində "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında poema janrı" adlı monoqrafiyası çap olunub. 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna Ədəbi Tənqid şöbəsinə Azərbaycan ədəbiyyatı ixtisası üzrə doktoranturaya qəbul olub. 2009-2014-cü illərdə Tovuz rayonu Muncuqlu kənd ümumi-orta məktəbində, 2014-2015-ci tədris illərində "Hədəf" hazırlıq kurslarında müəllim işləyib. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin elmi işçisidir. 2009 və 2014-cü il bələdiyyə seçkilərində Tovuz rayonu Dondarquşçu kənd bələdiyyəsinin üzvü seçilmişdir. 2014-cü ildən Azərbaycan Yazıçılar Birliyinin və Dünya Gənc Türk Yazarlar Birliyinin üzvüdür. 2015-ci ildə "Kaspi" qəzetinin keçirdiyi Hüseyn Cavidlə bağlı müsabiqənin üçüncüsü olmuşdur. 2015-ci ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin "Gənclər mükafatı"na və Prezident təqaüdünə layiq görülmüşdür. Türkiyənin Qəhrəmanmaraş və Trabzon şəhərlərində təşkil olunmuş ədəbiyyat festivallarında və UTEF-2-də iştirak etmişdir. Bir sıra beynəlxalq konfrans və simpoziumlarda, televiziya-radio verilişlərində çıxış etmişdir. Bədii, publisistik, elmi yazıları mətbuatda müntəzəm olaraq çap olunur.

SÖZÜMÜZ SÖZDÜR

GÜLNAR SƏMA

SÖZÜMÜZ SÖZDÜR

GÜLNAR SƏMA

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

GÜLNAR SƏMA

SÖZÜMÜZ SÖZDÜR

Publisistika

"Elm və təhsil"
Bakı -2019

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 17 dekabr 2018-ci il 15 saylı qərarı ilə nəşr edilir.

Elmi redaktor: ***Asif Rüstəmli***
filologiya elmləri doktoru, professor

Rəyçi: ***Elçin Mehrəliyev***
filologiya elmləri doktoru

Fotoqraf: ***Nofəl Ümid***

Gülnar Səma. Sözümüz sözdür. Publisistika.
Bakı, "Elm və təhsil", 2019, 352 səh.

Üç şeir, türkcədən bir tərcümə kitabı və rus dilinə çevrilmiş monoqrafiyanın müəllifi olan Gülnar Səmanın bu kitabında müxtəlif illərdə yazdığı ədəbi-publisistik məqalələri toplanmışdır.

ISBN 978-9952-8175-0-7

©"Elm və təhsil",, 2019
© Gülnar Səma AMEA, 2019

ÖN SÖZ YERİNƏ

... Ədəbi prosesdə imzaları yeni-yeni görünməyə başlamış müəlliflərin də gənclər haqqında yazılarına, hətta bəzən ciddi və səriştəli yazılarına rast gəlmək mümkündür. Misal üçün mən Gülnar Səmanın "Ədəbi gəncliyimizin 2015-ci ildəki fəaliyyətinə bir baxış" ("525-ci qəzet" 4 iyun 2016) adlı xülasə tipli məqaləsini maraqla oxudum və bu məqalənin yaxşı cəhəti ondadır ki, oxuyursan və aşkar hiss edirsən: haqqında bəhs olunan, bax, bu gəncləri oxumaq lazımdır, onların yaradıcılığından daha ətraflı, daha artıq bir təfərrüatla, daha mütəmadi yazmaq lazımdır.

***Elçin Əfəndiyev**:*

"Söz azadlığı tənqidimizə nə verib?" III məqalə. Ədəbiyyat qəzeti. 4 noyabr 2017. № 39 (5110) səh. 8-9

Azərbaycan jurnalı. №12. 2017. səh.182

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

28 may 1992-ci ildə Naxçıvanla qardaş Türkiyə arasında "Ümid körpüsü"nün açılışını edən böyük şəxsiyyət Heydər Əliyev həmin günün tarixi çəkisini daha da artırdı. 28 Mayın 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin yaradılış günü olduğunu çox yaxşı bilən ümummilli lider Azərbaycana ikinci dəfə rəhbər təyin ediləndə bunu xüsusilə vurğuladı. O, 15 iyun 1993-cü il Milli Məclisdə çıxışı zamanı Azərbaycanın tarixi müstəqilliyinə bir daha diqqət yetirir: "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır". Bu sözləri dediyi vaxtdan ölkəni milli ənənələr üzrə dünya standartlarına uyğun şəkildə idarə edən ulu öndərin 95 illik yubileyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə eyni ilə və eyni aya təsadüf edir.

Yaşadığı ömrünün hər anını milli dirçəlişin və bəşəri dəyərlərin inkişafına həsr edən Heydər Əliyev bu işdə həm ziyalıları müdafiə edir, həm də onların dəstəyinə arxalanırdı. Bunu ikinci dəfə ölkə rəhbərliyinə gəldikdən sonra 21 sentyabr 1993-cü ildə AMEA-da ölkənin ziyalıları ilə görüş keçirməsi də təsdiq edir. Bir nüansı da unutmayaq ki, bu onun hələ sovetlər dönəmindən əsasını qoyduğu rəhbər və xalq təmasının ənənələri əsasında baş verirdi. Bütün hakimiyyəti boyu ziyalıların və ziyalılığın himayədarı olan Heydər Əliyev ədəbiyyat insanlarını da həmişə diqqətində saxlamışdır. İstər yazarların, istərsə də ədəbiyyatşünasların əsas dayağı və istinad nöqtəsi olan ulu öndər həm ədəbiyyata bələd olmuş, həm də ona bu bələdçilikdən

irəli gələn sevgi ilə yanaşmışdır. Bunu onun hələ sovetlər dönəmində yazarların V, VI, VII, IX qurultaylarında iştirak etməsi də sübut edir. O, həmin qurultaylarda iştirak etməklə həm qurultay iştirakçılarına stimul verir, həm də onların məsuliyyətini daha da artırırdı. Heydər Əliyevin söz adamlarına diqqəti və qayğısı bununla kifayətlənmirdi. Qüdrətli Azərbaycan ədəbiyyatı tarixinin müasir dövrdə mühafizəkarına çevrilirdi. Ölkənin bütün hüdudlarını əhatə edən ayrı-ayrı bölgələrdə yerli şəraitin tələblərinə uyğun milli mədəniyyət ocaqlarının və abidələrinin yaradılmasına xüsusi əhəmiyyət verirdi. Bu həm müasir inkişafa, həm də tarixin qorunaraq gələcəyə ötürülməsinə zəmin yaradırdı. Deyilən fikirlərə sübut olaraq hələ sovetlər vaxtı yaradılmış ədəbiyyat ocaqlarını misal göstərə bilərik.

Hakimiyyətə gəldiyi ilk dönəmlərdə 12 avqust 1969-cu il Qazaxda Molla Pənah Vaqifin ev muzeyinin yaradılması qərarının verilməsi öz dövrü üçün böyük ədəbi hadisə olmaqla yanaşı, milli hadisə idi. 1978-ci ildə isə Şamaxıda Ədəbiyyat muzeyi yaratmaq haqqında qərar qəbul edilməsi həmin bölgənin tarixi şöhrətini daha da artırdı. Bu, qədim Şamaxı torpağının hələ orta əsrlərdən söz-sənət yuvası olduğuna bələdçilik və ona qayğının təzahürü demək idi. Tarixə nəzər saldıqda görürük ki, Heydər Əliyev 60-70-ci illərdə olduğu kimi 80-ci illərdə də ədəbiyyatın keşiyində xüsusi inamla dayanmışdır. 1980-ci ilin 11 dekabrında Naxçıvan şəhərində Hüseyn Cavid kimi bir şəxsiyyətin ev muzeyinin yaradılması qərarına imza atmaq həmin zaman kəsiyi üçün əvəzolunmaz böyüklük idi. Bunu Hüseyn Cavidin faciəvi həyat tarixçəsinə əsaslanaraq söyləmək daha inandırıcı olar. Bir imperiyanın məhv etdiyi bir dahini hələ o imperiyanın mövcud olduğu bir zamanda, məhvindən yarım əsr keçməmiş öz vətəninə təmtəraqlı surətdə təhvil vermək tarixi ədalətsizlik üzərin-

də milli qələbə idi. Görülən ədəbiyyatyönümlü işlər bunlarla kifayətlənmirdi. Heydər Əliyev 15 yanvar 1982-ci ildə Şuşada M.P.Vaqifin məqbərəsinin açılışında iştirak edir. Bu hadisənin tarixi əhəmiyyətini həmin tədbirin iştirakçısı və şahidi olmuş şairlərimiz sonralar əsərlərində xüsuilə qeyd etmişlər. Onlardan biri də Cabir Novruzdur. O, "Şuşa yolu" poemasında həmin açılış mərasiminin incəliklərinə belə toxunur: "Mənfur, paxıl ermənilər məzlum-məzlum baxırdılar, süzürdülər. Özlərini üzürdülər... Vaqifin bu mavzoleyi onlar üçün Göz dağıydı bilirdilər".

Bütün bunlarla yanaşı, onun hakimiyyətinin birinci mərhələsində istər müasir, istərsə də klassik şair və yazıçıların yubileylərinə xüsusi qayğıkeşliklə yanaşmasını unutmaq olmaz. 1969-cu ildə ölkə rəhbəri təyin edilən Heydər Əliyev 1970-ci ildə Rəsul Rzanın 60 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasına nail olur. Bu, o dövr üçün yaşayan yazarlara böyük etimadın göstəricisi idi. Bu göstərici hər il daha da artır, daha geniş arenanı əhatə edirdi. Belə ki, 1973-cü ildə həm Nigar Rəfibəylinin 60, həm də Nəbi Xəzrinin 50 illik yubileyləri böyük təntənə ilə gerçəkləşdirilir. Həmin dönəmlər klassiklərə olan diqqətdən danışarkən ilbəil keçirilən yubiley tədbirlərini xatırlamaq lazımdır. 1972-ci ildə Nəriman Nərimanovun 100 illik yubileyi qeyd edilməklə bərabər heykəlinin ucaldılması ədəbiyyat tariximiz üçün önəmli hadisə idi. Həmçinin 13 sentyabr 1973-cü ildə bəşəri klassikimiz İmadəddin Nəsiminin 600 illik yubileyinin Bakı ilə yanaşı Moskvada da keçirilməsi bütün imperiyanı Azərbaycana diqqət ayırmağa sövq etmək demək idi. Nəticədə 1980-ci ildə Bakıda İ.Nəsimin abidəsi qoyuldu. Qarşıdan bəşəri şair Nizami Gəncəvinin yubileyləri gəlirdi. Bu münasibətlə 6 yanvar 1979-cu ildə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini,

nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edilir. Dövrün bütün ziddiyyətlərinə baxmayaraq qərarda Nizami Gəncəvinin məhz Azərbaycanın şairi olmasının qabarıq vurğulanması siyasətin ədəbiyyatda qələbəsi idi. Bu, o demək idi ki, böyük bir imperiya Nizami Gəncəvini Azərbaycanın şairi olaraq öyrənir və təbliğ edirdi. Baxmayaraq ki, müasir dövrümüzdə də bu məsələlərlə bağlı müəyyən lazımsız müzakirələr davam edir, ulu öndər zamanında həmin məsuliyyətli işin öhtəsindən də milli peşəkarlıqla gəlmişdir. Qərarın icrasından irəli gələrək 1981-ci ildə şairin 840, 1991-ci ildə isə 850 illiyi dövlət səviyyəsində keçirilmişdir. Sovet dövründə həyata keçirilən yubiley mərasimlərinə nəzər saldıqda heç bir diqqətsizliyin edilmədiyini, hər bir mütəfəkkirə vaxtında və yüksək səviyyədə diqqət ayrıldığını hiss edirik. Yubilyarlar müxtəlif zümrələri əhatə edirdi. Məsələn: 1974-cü ildə 90 illiyi keçirilən Hüseyn Cavid repressiya qurbanı olmuşdur. 25 may 1979-cu ildə romantik şair Məhəmməd Hadinin 100 illiyi, 17 oktyabr 1980-ci ildə isə mollanəsrəddinçi tənqidi realist şair Əliqulu Qəmküsarın 100 illiyi qeyd edilmişdir. 12 iyul 1982-ci ildə isə qadın şair olan Mirvarid Dilbazinin 70 illiyi dövlət səviyyəsində keçirilmişdir.

Heydər Əliyevin sovet hakimiyyəti dövründə yazarlara olan etimadını və qayğısını sadaladığımız faktlarla məhdudlaşdırmaq olmaz. O həmçinin 27-31 oktyabr 1980-ci il Bakıda keçirilən dünya yazıçılarının "Ədəbiyyatların dostluğu-xalqların dostluğudur" Ümumittifaq konfransını təşkil edərək dünya yazıçılarını bir araya yığmağı bacarmışdır. Zamana və məkana diqqət yetirsək görərik ki, o cür tarixi dönəmdə bu qədər dünya yazarları Moskvaya yox, məhz Bakıya gətirilmişdir. Bu hadisədən cəmi bir il sonra 12 iyun 1981-ci ildə yazarların VII qurultayında

Heydər Əliyev birbaşa Cənubi Azərbaycan ədəbiyyatı məsələlərinə toxunur. Bunun təfərrüatlarını Vilayət Quliyevin tərtib etdiyi "Ədəbiyyatın yüksək borcu və amalı" kitabında görmək olur. Kitabda 1969-1999-cu illər Heydər Əliyevin ədəbiyyatla bağlı fəaliyyəti əhatə olunmuş, çıxışlarından sitatlar verilmişdir. Həmin sitatlardan birində deyilir: "Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər... Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır". (səh. 146) Sovet dövründə cərəyan edən bu hadisələr müstəqillik illərində anbaan reallaşdırılmaqda davam edirdi. Çünki cənubi Azərbaycan ədəbiyyatı və onlarla əlaqə həmişə ulu öndərin diqqətində olan məsələlərdən olub. Bunun nəticəsi olaraq 29 oktyabr 1997-ci ildə "Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalanmışdır. Ümumiyyətlə, söz adamlarına qarşı göstərilən dövlət qayğısı ölkəmiz müstəqillik qazandıqdan sonra da davam etdirilmişdir.

90-cı illərdə ölkəmizin düçar edildiyi ədalətsiz müharibənin fəsadlarına baxmayaraq Heydər Əliyev yenə də ədəbiyyat sahəsinə öz diqqət və qayğısını azaltmırdı. 1994-cü ildə satirik qələm ustası Cəlil Məmmədquluzadənin 125 illik yubileyinin keçirilməsi həmin çətinliklər dövründə böyük hadisə idi. Həmçinin Azərbaycanın azadlıq mücadiləsində fərqlənən şairlərin dövlət tərəfindən mükafatlandırılması milli müstəqilliyə xidmət edirdi. 1995-ci ildə ilk dəfə Heydər Əliyev tərəfindən Bəxtiyar Vahabzadəyə verilən "İstiqlal" ordeninə sonralar Məmməd Araz və Xəlil Rza Ulutürk də layiq görülmüşdür. Milli xidmətlərinə görə

daim Atatürklə müqayisə edilən Heydər Əliyev 6 noyabr 1996-cı ildə Türk Dünyası Yazıçılarının III Qurultayında çıxışı zamanı bəşəri və ortaq türk abidələrinin adlarını vurğulamaqla böyük türk coğrafiyasının xəritəsini cızmışdır: "Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqlarımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, xalqlarımızı dünyada tanıdan ölməz əsərlər yaratmışlar…" Sitatda adı çəkilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin UNESCO çərçivəsində keçirilməsi deyilən fikirlərin əməli təsdiqidir.

Heydər Əliyev sovet hakimiyyəti illərində olduğu kimi müstəqillik illərində də yazıçıların qurultayında iştirak etmişdir. 1997-ci ilin oktyabrında Azərbaycan Yazıçılar Birliyinin X qurultayında iştirakı və söylədiyi "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm" - sözləri yazarlar üçün böyük etimad idi. Həmin qurultayın səmərəli nəticəsi olaraq Azərbaycan Yazıçılar Birliyinin mətbu orqanları olan "Azərbaycan", "Ulduz", "Qobustan", "Literaturnıy Azerbaydjan" jurnalları və "Ədəbiyyat qəzeti", dövlət tərəfindən maliyyələşdirilərək nəşr edilməyə başladı. Heydər Əliyevin ədəbiyyat sahəsində xidmətlərindən söz düşəndə onun folklora və folklor nümunələrinə biganə olmadığını da söyləmək lazımdır. 1997-2000-ci illərdə "Dədə Qorqud" dastanının Bakı ilə yanaşı, Drezden və YUNESKO-da yubileyinin təşkili fikirlərimizi əsaslandırır. 2000-ci ildə "Kitabı-Dədə Qorqud" eposunun 1300 illiyi münasibətilə həyata keçirilən kütləvi silsilə tədbirlər nəinki folklorşünaslığa, o cümlədən ədəbiyyatşünaslığa böyük

təkan verdi. Bu ənənəni davam etdirən Prezident İlham Əliyev 28 dekabr 2013-cü ildə "Dədə Qorqud" dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında" və 20 fevral 2015-ci ildə "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzalamışdır. "Dədə Qorqud" eposuna verilən dövlət dəyəri milli kimliyə verilən əvəzolunmaz dəyər idi. Heydər Əliyevin bu tipli xidmətlərini nəzərə alan beynəlxalq qurumlar onun fədakarlıqlarını dəyərləndirməyi də unutmamışlar. 1986-cı ildən təsis edilən Beynəlxalq Atatürk Sülh Mükafatının 1 noyabr 1999-cu ildə Heydər Əliyevə verilməsi də həmin dəyərin bir parçasıdır. Bundan bir il sonra 22 iyun 2000-ci il Moskvada azərbaycanlıların ümumrusiya konqresində çıxış edən milli rəhbər bir daha hər bir azərbaycanlının yanında olmaqdan qürurlandığını sübut edir. Harada yaşamasından asılı olmayaraq milli dövlətçilik marağına xidmət etməli olduqlarını vurğulayır. Öz fəaliyyətində bunun ən yaxşı nümunəsini göstərir. 9 mart 2001-ci ildə paytaxtda Atatürk Mərkəzinin yaradılması ilə milli xidmətlərə daha bir töhfə əlavə edir.

Heydər Əliyev yalnız ədəbiyyatın yox, həmçinin ədəbiyyatın əsas istinadgahı olan dilin də inkişafını diqqətdən kənarda saxlamamışdır. 18 iyun 2001-ci il "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" AR Prezidentinin Fərmanı ilə uzun illər dilimiz üzərində hökmranlığa can atmış rus dilinin hegemonluğunu azaltdı. Bir neçə ay sonra, 1 avqust 2001-ci ildə "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" AR Prezidentinin Fərmanı verilməklə kril əlifbasının da yarım əsrdən çox davam edən hökmranlığına son qoyulmuşdur. 4 yanvar 2003-cü il "Azərbaycan Respublikası Dövlət dili haqqında" Qanunu"nun tətbiq edilməsi barədə" AR Prezidentinin Fərmanı isə bütün bu işlərin

məqsədyönlü uğurlu nəticəsi idi. Heydər Əliyevin ədəbiyyat adamlarına qarşı sevgisi birtərəfli olmamış, onlar da daim bu şəxsiyyətin fəaliyyətini müxtəlif janrlarda olan əsərlərlə işıqlandırmışlar. Hələ sovetlər zamanında, 1974-cü ildə Cənubi Azərbaycan şairi Bulud Qaraçorlu Səhəndin yazdığı "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" şeiri sonralar çoxlu ardıcıllar tərəfindən davam etdirilmişdir. Müstəqillik dövründə eyni mövzulu çoxlu lirik şeirlər yazılmaqla bərabər irihəcmli poemalar da qələmə alınmışdır. Bu əsərlərə nümunə olaraq Elxan Zal Qaraxanlının "Anıt məzar dastanı", Zəlimxan Yaqubun "Əbədiyyət dastanı", Sabir Mustafanın "Qayıdış", Ramiz Məmmədzadənin "Zirvə", Fikrət Qocanın "Gərək bu günləri görəydin özün", Fəridə Ləmanın "Onu zaman seçib", Rəfiq Zəka Xəndanın "Heydər baba", Elman Həbibin "Heydərnamə", Ramiz Duyğunun "Prezidentin ürəyi", Ramiz Heydərin "İlhamlı gələcək", Mirkazım Seyidovun "Heydər dühası" və s. göstərə bilərik. Eyni zamanda Heydər Əliyevin obrazı yaradılmış səhnə əsərlərinə Hidayətin "Burdan bir atlı keçdi" pyesini, Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı", Aqşin Babayevin "Xilaskar" tamaşalarını, İftixar Piriyevin "Qurtuluş dastanı" dramı misal gətirə bilərik.

Bir nüansa da toxunmaq lazımdır ki, Heydər Əliyevin həyat və fəaliyyəti yalnız bədii əsərlərdə deyil, tədqiqat əsərlərində də əksini tapmışdır. Bu əsərlərdən biri ilk nəşri 1998-ci ildə, ikinci nəşri 2009-cu ildə olmuş "Heydər Əliyev və Azərbaycan Ədəbiyyatı" kitabıdır. 2010-cu ildə AMEA Ədəbiyyat İnstitutu tərəfindən təqdim olunan bu kitab ədəbiyyat sahəsi üzrə Azərbaycan Respublikası Dövlət mükafatına layiq görülmüşdür. Bunlardan əlavə Tərlan Novruzovun "Heydər Əliyev və ədəbiyyat məsələləri", Elmira Axundovanın 2014-cü ildə

çap olunmuş 6 cildlik "Heydər Əliyev: şəxsiyyət və zaman" publisist romanı da bu fenomenal şəxsiyyətin ədəbiyyatla bağlılığını əsaslandırmış, oxuculara təqdim etmişdir. Göründüyü kimi, Heydər Əliyev hər bir ədəbiyyat insanına xüsusi qayğı göstərmiş, yeri gəldikcə onların layiqli dəyərlərini almaqlarına birbaşa vəsilə olmuşdur. Bunlarla yanaşı onun özəl olaraq sevdiyi sənətkarlar və əsərlər də olduğu heç kəsə sirr deyil. Həmin sıraya C.Məmmədquluzadənin "Ölülər", S.Vurğunun "Azərbaycan", M.Şəhriyarın "Heydərbabaya salam", Ü.Hacıbəylinin "Koroğlu", H.Cavidin "İblis" əsərləri və "Molla Nəsrəddin" jurnalı daxildir. O, bu sevginin qarşılığını daim öz xalqı tərəfindən hiss etmiş, bundan ilham almışdır.

"Kaspi" qəzeti. 12-14 may 2018

İLHAM ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

Azərbaycanın dövlət müstəqilliyi tanrının ərməğanı olmadı, xalqımızın layiq olduğu halal haqqı idi. Müstəqilliyimizin qazanılmasında ziyalıların və qələm adamlarının payı olduğu kimi, onun qorunub saxlanılmasında da yazarlarımızın töhfəsi inkar edilməzdir. Onlar milli mücadilədə öndə gedərkən, bəlkə də, heç düşünməmişdilər ki, vaxt gələr həmin əziyyətləri dövlət səviyyəsində dəyərləndirilər. Bu həqiqətlər və faktlar müstəqil dövlətimizin başçısı tərəfindən təsdiqini tapdı. Çünki ziyalıların və söz adamlarının dəyərini bilən Heydər Əliyev hələ sovetlər dönəmində yazarların V, VI, VII, IX qurultaylarında iştirak etmişdi. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə həm bədii ədəbiyyatın və yazarların, həm də ədəbiyyatşünaslıq elminin və alimlərin himayəsi sözün qüdrətini məğlubiyyətdən xilas etdi. Ədəbiyyat nə qədər azad təfəkkürün məhsulu olsa da, yaradıcı insanların dövlət tərəfindən dəyərləndirilməsi onlara stimul verir. Bu mənada 1997-ci ilin oktyabrında Heydər Əliyevin Azərbaycan Yazıçılar Birliyinin X qurultayında iştirakı yazarlar üçün böyük etimad idi. Habelə, AYB-nin Mingəçevir, Aran, Moskva bölmələri də həmin qurultaydan sonra yaradıldı. Bu tarixi ənənə Prezident İlham Əliyev hakimiyyətə gəldikdən sonra uğurla davam etdirildi.

Azərbaycan yazıçılarının 2004-cü ildə XI, 2014-cü ildə XII qurultayı dövlət səviyyəsində yüksək şəkildə həyata keçirildi. Həmçinin hər il müxtəlif şair və yazıçıların Prezident təqaüdünə layiq görülməsi ədəbi prosesin daha da stimullaşdırılmasına hesablanmış addımdır. Bununla belə, 2 fevral "Gənclər günü" münasibətilə xüsusi fərqləndirilən gənclər içərisində yazarlar da yer alır. Hətta

gənc yazar Pərvin bu münasibətlə Prezident mükafatına layiq görülmüşdür. Eyni zamanda hər il Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi "Gənclər günü" ilə əlaqədar olaraq iki nəfər gənc yazarı da il ərzindəki uğurlu fəaliyyətinə görə mükafatlandırır. Unutmaq olmaz ki, layiqli olanların qayğıkeşliklə fərqləndirilməsinin öz ənənəsi və təməl prinsipləri vardır. Yaradıcı insanlara qayğıkeşlik ənənəsini davam etdirən Prezident İlham Əliyev xalq yazıçısı Anarı "Unudulmaz görüşlər" kitabına görə Heydər Əliyev mükafatı ilə qiymətləndirmişdir. Söz adamlarına ən böyük etimadlardan biri Ədəbiyyat sahəsi üzrə Azərbaycan Respublikası Dövlət mükafatının təsis edilməsidir. Bu mükafata 2010-cu ildə AMEA Ədəbiyyat İnstitutunun hazırladığı "Heydər Əliyev və Azərbaycan Ədəbiyyatı" kitabı layiq görülmüşdür. 2014-cü ildə Elmira Axundovanın 6 cildlik "Heydər Əliyev: şəxsiyyət və zaman" publisist romanı, 2016-cı ildə Fikrət Qocanın on cildlik əsərləri də həmin yüksək mükafatla dəyərləndirilmişdir. Bütün bunlar ədəbi prosesdə bir canlanma yaratmış, ümumədəbiyyat mənafeli bir rəqabət formalaşdırmışdır. Rəqabətə davam gətirən və sanbalı ilə xüsusi seçilən əsərlərin dəyərləndirilməsi üçün müxtəlif mükafatlar yaradılmışdır. Bunlardan biri də 2008-ci ildən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsis edilmiş "Qızıl kəlmə" Ədəbi Mükafatıdır. Həmçinin 2009-cu ildən "Əli və Nino" nəşriyyatı tərəfindən Milli Kitab Mükafatı verilməyə başlamışdır.

Mükafatların verilməsi ədəbi mühitdə müəyyən canlanma yaradır. Qalib müəlliflər və əsərlər xeyli müddət müzakirəyə səbəb olur. Beləliklə, ədəbi proses durğunluqdan xilas edilir. Bu mənada 2013-cü ildən Yusif Səmədoğlu, Əli Kərim, Yaşar Qarayev, Tofiq Bayram, Nəcəf Nəcəfov mükafatlarının təsis edilməsi də təqdirə layiq haldır. AYB-nin qərarı ilə Bəxtiyar Vahabzadə adına Türk

dünyası ədəbiyyatına xidmət mükafatı da təsis olunmuşdur. Bütün bunlar isə müstəqillik dövrü ədəbiyyatımızın dünya əbəbi prosesinə aktiv inteqrasiyasını təmin etməlidir. Dünyəvi təcrübədə olduğu kimi ölkəmizdə də nəşriyyatların müəlliflərlə əməkdaşlığı ümumədəbi inkişafa təkan verməlidir. Bu baxımdan 2014-cü ildən "Hədəf nəşrləri" və Kitabevim.az Kitab Mağazaları Şəbəkəsinin birgə layihəsi olan "Anamın kitabı" Ədəbi Mükafatının yaradılması dövlətin yaratdığı şəraitdən lazımınca yararlanmaq anlamına gəlir. Bütün bunlar yaradıcı insanların vahid mərkəzdən idarə olunması demək deyil, azad yaradıcılığın dövlət idarəçiliyində mühafizə olunmasıdır. Əsl söz sahibləri xüsusi fəxri adlarla təltif olunur. Azərbaycan ədəbiyyatında bu proses sovet dövründən başlasa da, müstəqillik illərində də həmin ənənə davam etmişdir. Ümumilikdə ölkəmizdə 22 nəfər "xalq şairi", 25 nəfər "xalq yazıçısı" vardır. Onlardan xalq şairləri Sabir Rüstəmxanlı, Nəriman Həsənzadə və Zəlimxan Yaqub 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən bu ada layiq görülmüşlər. Yazıçılardan isə Maqsud və Rüstəm İbrahimbəyov qardaşları, Mövlud Süleymanlı məhz cənab prezident tərəfindən "xalq yazıçısı" adına layiq görülüblər. Dünya şöhrətli yazıçımız Çingiz Abdullayev 2009-cu ildə 50 yaşı tamam olarkən prezidentin fərmanı ilə həm "Şöhrət" ordeni, həm də "xalq yazıçısı" fəxri adına layiq görülüb.

Cənab prezidentin diqqət və qayğısı sayəsində bir sıra mühüm yubiley mərasimləri də gerçəkləşdirilmişdir. İlk növbədə Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsini diqqətə çatdırmaq lazımdır. O cümlədən, "Ədəbiyyat qəzeti"nin 80, "Azərbaycan" jurnalının 90 yaşı da yüksək səviyyədə qeyd olunmuşdur. Prezident İlham Əliyev tərəfindən 100 illik yubileylərinin

keçirilməsi ilə bağlı sərəncam imzalanmış yazarlarımıza S.Vurğunu, S.Rüstəmi, M.Cəlalı, M.Hüseyni, Ə.Ələkbərzadəni, M.İbrahimovu, R.Rzanı, İ.Əfəndiyevi nümunə gətirə bilərik. Xüsusi olaraq vurğulayaq ki, bu sərəncamlar imzalanarkən bir sıra şairlərin keçdikləri məşəqqətli ömür yolları diqqətdə saxlanılmışdır. 100 illik yubileyi haqqında 16 aprel 2007-ci ildə sərəncam imzalanmış Almas İldırım mühacirət həyatı yaşamış, repressiyaya məruz qalmış, 2008-ci ildə sərəncam imzalamış Mikayıl Müşfiq isə repressiya qurbanı olmuşdur. Repressiyaya məruz qalaraq sürgündə ömrünü başa vurmuş Hüseyn Cavidin anadan olmasının 125 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin 17 aprel 2007-ci il tarixdə imzaladığı sərəncam da milli örnək xarakterlidir. Bu onun göstəricisidir ki, vaxtilə müxtəlif bəhanələrlə məhv edilmiş ədiblərə öz müstəqil dövlətlərinin başçısı tərəfindən yüksək qiymət verilir. Təntənəli yubileyləri keçirilən yazarlara 110 illiyi qeyd edilən S.Rəhimovla M.A.Dadaşzadəni, 130 illiyi qeyd olunan M.Ə.Rəsulzadəni, 150 illiyi keçirilən Ə.Hüseynzadəni misal çəkə bilərik. Bu yazarların yubileylərinin dövlət səviyyəsində qeyd olunması həm də onların dünyada tanıtdırılmasına xidmət edir. Buna nümunə olaraq 10 noyabr 2008-ci il tarixində M.C.Paşayevin 100 illik yubileyi münasibətilə Parisdə YUNESKO-nun iqamətgahında Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın çıxış etməsini göstərə bilərik.

Yubileyləri dövlət səviyyəsində qeyd olunan yazarların içərisində klassikləri xüsusilə vurğulamaq gərəkdir. Bunlardan Məhsəti Gəncəvinin, M.F.Axundovun, Xurşidbanu Natəvanın, M.Ə.Sabirin yubileyləri barəsində verilən sərəncamlar da klassik irsin müasir təbliğinə hesablanmışdır. Bu sırada bəşəriliyi ilə sırf Azərbaycan ədəbiyyatı hadisəsi olan Nizami Gəncəvinin yubileyini xüsusi diqqətə

çatdırmaq lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı öz icrası ilə qədim dövr ədəbiyyatımızın müasir dünyada təbliğinə xidmət etmişdir. Belə ki, yubiley ilində Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərinin Çaoyan parkında Nizami Gəncəvinin büstü qoyulmuş, 28 oktyabr 2012-ci ildə Meksikanın Akapulko şəhərində isə heykəlinin təntənəli təməlqoyma mərasimi keçirilmişdir. 23 dekabr 2011-ci il tarixli sərəncam ilə başlanan beynəlxalq tədbirlər silsiləsi 2012-ci ilin 1 oktyabrında Bakıda Heydər Əliyev sarayında başa çatmışdır. Nizaminin 870 illik yubileyi ilə əlaqədar olaraq bütün türk dünyasında "Nizami Gəncəvi ili" elan edilmiş, onun yubileyi TÜRKSOY-da beynəlxalq səviyyədə qeyd olunmuşdur. Nizamidən bir neçə əsr sonra yaşamış İmadəddin Nəsiminin Şamaxıda heykəlinin açılış mərasimi 2005-ci ilin 26 aprelində baş tutmuş, Prezident İlham Əliyev bu möhtəşəm tədbirdə iştirak etmişdir. Cənab Prezidentin ədəbiyyata qayğısı dedikdə yalnız Azərbaycan ədəbiyyatının dünyada tanıdılması deyil, həmçinin türk dünyasının nəhəng simalarının Azərbaycana olan sevgisinin nümayişi də diqqətə çatdırılmalıdır. Bu baxımdan 2008-ci ildə Çingiz Aytmatovun BDU-da görüşü, 2016-cı ildə O.Süleymenova AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun fəxri doktoru adının verilməsi türksoylu dövlətlərarası mədəni inteqrasiyanın inkişafından xəbər verir.

Ölkəmizdə yazarlara göstərilən qayğının nəticəsi kimi 5 iyun Şairlər gününün, Sabir poeziya günlərinin yüksək səviyyədə keçirilməsini də əlavə edə bilərik. Həmçinin Yazıçılar Birliyinin bir sıra inkişaf strategiyasına nəzər salmaq lazımdır. "Ayb.az saytının fəaliyyətini, "aybkitab" layihəsinin nəşrlərini, AYB gənclər üzrə katibliyin təşəb-

büsü ilə fəaliyyət göstərən Gənc Ədiblər Məktəbini də nəzərdən qaçırmaq olmaz. Bunlarla yanaşı bir sıra azad ədəbi birlikləri və təşkilatları göstərə bilərik. Azad Yazarlar Ocağı, Dünya Gənc Türk Yazarlar Birliyi, BSU-nun nəzdindəki Yaradıcılıq Fakültəsi (2007-2015), Avrasiya Yazarlar Birliyi və s. belə ədəbiyyatyönümlü müəsisələrdəndir. Bu sırada bir neçə mətbuat orqanının da adını çəkmək olar. "Tənqid.net", "Yazı", "Kitabçı", "Ustad", "Ulu çinar" jurnalları müstəqil nəşrləri ilə ədəbiyyat naminə fəaliyyət göstərmişlər. "525-ci qəzet"in şənbə nömrələrinin əbəbi yükünün ağır olmasını da yaddan çıxarmaq olmaz. Eləcə də, "Kitabxana.net", "Kult.az", "Sənət.az", "Avanqard.net", "Manera.az" və s. kimi internet portallarının fəaliyyətini də müasir ədəbiyyatın inkişaf tendensiyası kimi dəyərləndirmək olar. Çağdaş ədəbiyyatın modernist meyllər istiqamətində inkişafına şərait yaradıldığı kimi, Prezidentin sərəncamı ilə klassik irs 100 cilddə böyük tirajla nəşr olunaraq kitabxanalara paylanılıb, "Dünya Ədəbiyyatı kitabxanası" seriyasından isə 150 cilddə dünya yazıçılarının əsərləri tərcümə və çap olunaraq yayımlanıb. Bu prosesin daha təkmil və sürətli həyata keçirilməsi üçün 16 may 2014-cü il tarixli Prezidentin Sərəncamı ilə Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi yaradılmışdır. "Azərkitab" kimi müasir kitab mağazasının yaradılması da son illərin ədəbi xidmətlərindəndir.

Qeyd etdiyimiz kimi, ölkədə bədii yaradıcılıqla məşğul olanlar diqqətdə saxlanıldığı kimi, ədəbiyyatşünaslıqla məşğul olanlar da daim diqqət mərkəzindədirlər. 2013-cü ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 80 illik yubileyinin keçirilməsi buna sübutdur. Ədəbiyyat İnstitutunda "Azərbaycan mühacirət ədəbiyyatı", "Ədəbi tənqid", "Mətbuat tarixi və publisistika", "Nizamişünaslıq" şöbələri ilə yanaşı, "Füzulişünaslıq" sektorunun yara-

dılması bu sahənin tədqiqatçılarına böyük etimad göstərilməsindən xəbər verir. Həmçinin institutun ədəbi nəşrləri olan "Ədəbiyyat məcmuəsi", "Ədəbi əlaqələr", "Poetika.-izm", jurnallarının ödənişsiz nəşri elm adamlarına dövlət dəstəyinin təzahürüdür. İnstitutda 2013-cü ildən bəri hər il "Ədəbi proses" kitabları işıq üzü görür. Müstəqil dövlətimiz ədəbiyyatın qayğısını çəkdiyi kimi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu da dövlət müstəqilliyimizin 25 illiyinə iki cildlik "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitablarının çapını hədiyyə etmişdir. Cənab Prezidentin sərəncamına əsasən Dövlət Mükafatı ilə təltif edilən elm xadimləri arasında ədəbiyyatşünaslar da yer almışdır. 2010-cu il Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları ilə təltif edilməsi barədə imzaladığı sərəncamla Komissiyasının təklifləri əsasında Ədəbiyyat sahəsi üzrə Bəkir Nəbiyev, Məhərrəm Qasımlı, Teymur Kərimov, Vilayət Quliyev, Nikpur Cabbarlı, Nizaməddin Şəmsizadə Dövlət Mükafatları ilə təltif edilmişdir. Bütün bunlar müstəqillik dövrü Azərbaycan ədəbiyyatının gerçəklikləridir. Azad dövlətin azad yazarları çağdaş ədəbi prosesin tələblərinə cavab verən əsərlər müəllifinə çevrilə bilər. Ölkəmizdə yaradılmış azad ədəbi mühit söz sənətkarlarına beynəlxalq mükafatlar uğrunda mübarizə aparmağa stimul verməlidir.

"Kaspi" qəzeti. 23-25 dekabr 2017

CÜMHURİYYƏT DÖVRÜ ƏDƏBİYYATINA BİR BAXIŞ

100 il öncəyə boylanıb baxanda XXI əsrin insanı olaraq Cümhuriyyətli keçmişimizlə qürur duymaqdan həzz alırıq. Səbəblər barədə kifayət qədər deyilsə də, hələ deyiləcək çox şeylər olsa da, faktlar danılmazdır. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada türk dilinin dövlət dili elan edilməsi öz dövrü üçün müstəmləkəçiliyə qarşı bir qələbə idi. Hətta ölkədə təsis olunan ilk universitetdə M.Ə.Rəsulzadənin tarix-filologiya fakültəsində Osmanlı ədəbiyyatı tarixini tədris etməsi ümümtürk mövqeyi nəzərindən çox özəl hadisə idi. 1918-ci ilin 28 Mayında Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və bütün mövcud problemlərin qarşılığında 23 ay yaşaya bilməsi də Rəsulzadə ucalığı ilə sıx bağlıdır. Onun həmin dövlət haqqında yazdığı "Azərbaycan Cümhuriyyəti" kitabını geniş oxucu kütləsinə ilk dəfə Asif Rüstəmli 1990-cı ildə təqdim etmişdir. M.Ə.Rəsulzadənin həmin kitabda yer alan məşhur; "Azərbaycanın bu qədər fəlakətlər nəticəsində əldə etdiyi bir qazanc varsa, o da bu istiqlal fikrinin rüsuxidir. Şimdi istiqlal və hakimiyyəti-milliyyə sevdasilə yaşayan bir Azərbaycan gəncliyi vardır ki, ÇK-nın amansız edamlarına rəğmən, gecə-gündüz çalışıyor, ilk fürsət və imkanı bəkləyib duruyor. Bu fürsət gəlincə o, meydana çıxacaq və o zaman yanıq könlündə atəşin cizgilərlə mənən mənquş bulunan bayrağı maddətən yüksəldərək deyəcək ki:

- Əvət, bir kərə yüksələn bayraq bir daha enməz!" (səh. 96) - fikirlərini tarix reallaşdırmaq məcburiyyətində qaldı.

İkinci dəfə bayrağını ucaltmağın şərəfini yaşayan Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 30

yanvar 1998-ci ildə Cümhuriyyətin 80 illiyi ilə əlaqədar imzaladığı sərəncamda isə yazılır: "1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır". Deməli, XX əsr hələ sona yetməmiş M.Ə.Rəsulzadənin ideyaları özünə davamçılar qazanmışdır. Onun ideyaları və dövrün tarixi həqiqətləri müstəqillik dövründə dövlət səviyyəsində diqqətdə saxlanılır. Prezident İlham Əliyev 15 fevral 2008-ci ildə Cümhuriyyətin 90 illik yubiley sərəncamını imzalayarkən bu məsələni xüsusilə diqqətə çatdırmışdır: "Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikicildlik ensiklopediya nəşr edilsə də, tariximizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir".

Bununla belə dövrün digər faktları kimi ədəbi mənzərəsinin öyrənilməsi sahəsində də müəyyən addımlar atılmışdır. Ə.Saraclının "Azərbaycan yazıçıları Cümhuriyyət dönəmində" və A.Bayramoğlunun digər tədqiqat əsərləri ilə yanaşı "Qafqaz imdadına çatan könül nəğmələri" kitabları Cümhuriyyət dövrü ədəbiyyatı haqqında əhatəli mənbələrdəndir. Həmin dövrdə ədəbiyyatın hərtərəfli inkişafını təsdiqləyən amillərdən biri də həm, müxtəlif janrlarda əsərlərin yazılması, həm də ədəbi qurumların fəal olmasıdır. Seyid Hüseynin rəhbərliyi altında təşkil olunan "Yaşıl qələm" birliyi "Hop-hopnamə"ni nəşr etmək istəmiş, həmçinin "İsmailiyyə" binası mövzusunda yazı müsabiqəsi elan etmişdir. O dövrdə "Ədəb yurdu", "Türk ocağı" kimi milli ədəbi dərnəklərlə yanaşı, onlara alternativ olaraq 1919-cu ildə bolşeviklər tərəfindən "Qırmızı qələm" cəmiyyəti də yaradılmışdır.

Deməli, yaradılmış demokratik şərait düşüncə tərzindən asılı olmayaraq bütün yazarlar üçün eyni olmuşdur. Hətta xarici ölkələrdə çap olunan kitablar da həmin dövrün ədəbi əlaqələri haqqında müəyyən təəssürat yaradır. 1919-cu ildə Ceyhun Hacıbəylinin Parisdə fransız dilində "İlk müsəlman respublikası Azərbaycan" kitabının çap olunması ədəbi baxımından olduğu kimi, siyasi baxımdan da böyük hadisə idi. Eyni zamanda Yusif Vəzir Çəmənzəminlinin 1919-cu ildə İstanbulda "Azərbaycan ədəbiyyatına bir nəzər" monoqrafiyasının nəşri də qardaş ölkələrdə Azərbaycan ədəbiyyatının təbliğinə xidmət edirdi. Bunlardan əlavə, o dövrün nəşrləri barəsində Adilxan Ziyadxanın 1919-cu ildə çap etdirdiyi "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" kitabı və "Milli şərqilər" almanaxı da müəyyən təəssürat yaradır.

Müasir dövrdə Cümhuriyyət dönəminin ədəbiyyatını daha çox o vaxtlar yayımlanan mətbu orqanlarından toplamaq mümkündür. Həmin dövrdə 90-dan artıq mətbu orqanın 42-nin türkcə, 44-nün rusca, qalanlarının isə başqa dillərdə fəaliyyət göstərməsi məqbul hal idi. Bu orqanlar içində "Azərbaycan", "İstiqlal", "İttihad", "El", "Doğru yol", "Millət", "Məktəb", "Türk sözü", "Bəsirət", "Açıq söz", "Övraqi nəfisə", "Qurtuluş" kimi milli yönümlü, "Kommunist", "Gənc işçi", "Haqq", "Zəhmət", "Əxbar" kimi bolşevik yönümlü qəzetlər kifayət qədər tədqiq olunmuşdur. Lakin Asif Rüstəmlinin "Zirədən başlanan yol" kitabında o dövrün mətbuatı haqqında da bir sıra yeni məlumatlar toplanaraq ilk dəfə olaraq "Gənclər yurdu" jurnalı haqqında ətraflı bilgilər yer almışdır: "Gənclər yurdu" məcmuəsinin ilk sayı 1918-ci il iyulun 23-də Tiflisdə fəaliyyət göstərən "Şərq" mətbəəsində daş basması üsulu ilə işıq üzü görür. Bu nəşri Mirzə Balanın 20 yaşının tamam olmasına qeyri-adi töhfə də adlandırmaq

olar. Dərginin ilk oxunduğu və yayıldığı məkan Tiflisin Müsəlman Qiraətxanası idi". (səh. 40) Daha sonra kitabda bir sıra təzə informasiyalarla tanış oluruq: "Gənclər yurdu" məcmuəsinin ilk sayında Mirzə Balanın "Azərbaycan Cümhuriyyəti" analitik yazısı, "Əksinqilabçılar" hekayəsi, "Dilimizdə işlədilən özgə sözlər" məqaləsi, Fikrət Ziyanın "Türk yurdu" məcmuəsindən alınmış "İmamın qanunları" nəzmi, Əhməd Cavadın "Qara dəniz", "Dilimiz" şeirləri, Azər Ellinin "Türk teatrosu", "F.T." imzalı müəllifin (Firudun Tofiq oğlu Hacızadə - A.R.) "Qadınlara haqq" yazısı, "Acı sevgi" romanından bir parça, Rəbiyyə Xanımın "Altun çiçəklər", eləcə də, "Türk dünyası" adlı dövrün xəbərlər bloku və b. materiallar verilmişdir. "Gənclər yurdu" məcmuəsinin ilk sayının sonuncu səhifəsində redaktorlar yerində: "Çıxaranlar: M.Bala Məhəmməd, F.Hacızadə" – yazılmışdır". (səh. 45) Sitatda indiyə qədər az tədqiq olunmuş müəlliflərin və əsərlərin adları da yer almışdır.

Bu tipli, oxuculara az təqdim olunan həmin dövrün nasirlərinə misal olaraq Tağı Şahbazinin, M.Rəfizadənin, İ.Oruczadənin, İ.Qəmbəroğlunun adlarını çəkə bilərik. Eyni zamanda daha az müraciət edilən müəlliflərdən və əsərlərdən biri də Ağababa Yusifzadənin "Sınıq qanad" əsəridir. Lakin həmin dövrün mükəmməl nəsr əsərləri içərisində indiyə kimi kifayət qədər araşdırılmış və yayımlanmış əsərlər də var. Bunlar Cəlil Məmmədquluzadənin "Nigarançılıq", "Konsulun arvadı", "Xanın təsbehi", "Qəssab", "Rus qızı", "Zırrama", Əbdürrəhim bəy Haqverdiyevin "Şair" ("Mirzə Səfər"), "Süleyman əfəndi", Abdulla Şaiqin "Əsrimizin qəhrəmanları" romanının bir hissəsi, Seyid Hüseynin "Həzin bir xatirə", "İslamiyyə", Cəfər Cabbarlının "Parapetdən Şamaxı yoluna qədər", Abbas Səhhətin "Qaragünlü Həlimə" əsərləridir.

Cümhuriyyət dövründə nəsr sahəsində olduğu kimi dramaturgiya sahəsində də əsas ağırlıq yükünü tanınmış imzalar çəkmişlər. Həmin müəlliflərə və əsərlərə nümunə olaraq Cəfər Cabbarlının "Bakı müharibəsi", "Nəsrəddin şah", "Oktay Eloğlu", Hüseyn Cavidin "İblis", C.Məmmədquluzadənin "Anamın kitabı", "Kamança", Mirzə Bala Məhəmmədzadənin "Bakı uğrunda müharibə" pyeslərini misal göstərə bilərik. Dövrün dramaturgiyasına təsir edən amillərdən biri də 1919-cu ildə Azərbaycan Dövlət Teatrının yaranmasıdır. Eyni zamanda "Teatr xadimləri cəmiyyəti", "Müsəlman Mühərrir və Ədiblər Cəmiyyəti" kimi qurumların da fəaliyyəti ədəbi prosesə təsirsiz ötüşmürdü.

Cümhuriyyət dövrü ədəbiyyatında nisbətən daha aktiv nəzərə çarpan sahə poeziya idi. Professor Bədirxan Əhmədov "XX əsr Azərbaycan ədəbiyyatı tarixi"nin I cildində dövrün poetik nümunələrini belə qruplaşdırır:

1. Cümhuriyyət, istiqlal, müstəqillik və bu atributlardan doğan təəssüratların milli inikası

2. Milli düşüncədən uzaq, mövzu və problem etibarı ilə dövrlə səsləşməyən poetik parçalar.

Qeyd edək ki, müəllif ikinci tip əsərlərə M.S.Ordubadinin "Zavallı əcəmistan" və Ə.Qəmküsarın "Əlaman" şeirlərini nümunə göstərir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, bölgünün birinci hissəsinə aid əsərlər daha çoxdur. Bunlar o dövrdə işıq üzü görmüş Hacı Kərim Sanlının "Yeni şərqilər" kitabında və Feyzulla Sacidinin "Fəryad" kitabında da əksini tapıb. Həmin illərdə fəaliyyət göstərən, lakin indiyə kimi tədqiqatçıların nisbətən az müraciət ediyi şairlərdən Əli Misanı, Əli Şövqini, Sənan Yayılı Kərimi, Feyzulla Sacidi qeyd edə bilərik. Həmçinin Dərdli Sairin "Yürəklərə", Ə.Bağırlının "Yüz il idi", Mətləb oğlu Abutalıbın "Türkün dərdi", Şərafəddinin "Azərbaycana xitabən", Mürşüdün "Ağlayırdım, gülürəm,

güləcəyəm", Abbas ağa Qayıbov Nazirin "Miralay Cəmil Cahid bəy mədhində", Cəlal Sahirin "Qafqaz türküsü", Məhəmməd Ümid Gəncəlinin "Azərbaycan", "Vətən şərqisi", Əbdürrəhman Dainin "Bir yaralı əsgərin dilindən" kimi müəlliflər və əsərlər də geniş oxucu kütləsinə o qədər də məlum deyil. Cümhuriyyət dövründə Əli Kamalın qələmə aldığı "Vətən məni yetişdirib bu yerlərə göndərdi" - misralarıyla başlayan "Marş" şeiri daha məşhur olsa da, müəllifi haqqında geniş informasiya yayılmayıb. Salman Mümtazın "Öyün, millət" şeiri isə Nuru Paşanın Şəkiyə gəlişi zamanı bədahətən söylənilmiş, şeirdə milli özünəinam ifadə olunmuşdur:

Ziyasız rus zülmündən o yüksək ruhun ölmüşdü,
Tuturdu şişəyə hərdən şərabi nab tək qanın.
Qızılgültək açıl, gül, gör ki, Türkün şanlı ordusu
Rəvaq-ərşə nəsəb etmiş Böyük Osmanlı ünvanın.

Digər az tanınan şair İbrahim Şakirin irihəcmli "Türk ordusuna" şeirində də həm törədilən qətllər, həm də türk ordusunun xilaskarlıq missiyası pafoslu təntənə ilə əks etdirilmişdir. Şeirin əvvəlində "Fəhtiniz qıldı bizləri dilşad, Cümleyi-islama sizsiniz imdad" misralarındakı sevincin səbəbləri şeirin sonrakı misralarında bəlli olur; "Həpimiz pək əlil və nalandı, Malımız zalimanə talandı... Etdilər bihesab qarətlər, Başaçıq qaldı cümlə övrətlər". Belə müsibətlərin erməni daşnak birliyi tərəfindən törədildiyini qələmə almaqla şair tarixi həqiqəti gələcəyə olduğu kimi bədii dillə ötürmüşdür. Şeirdə əsas mətləb bu misralarda cəm olunub: "Qandılar türkün ol zaman gücünü, Gördülər çünki süngülər ucunu". Bundan əlavə Ə.Müznibin 1919-cu ildə nəşr etdirdiyi "Yuğ qığılcımı" şeiri də eyni mövzuda yazılmışdır. Şeir belə başlayır:

"Altun yurdum qalmış idi bir zaman Qan içici düşmənlərin əlində". Bunun səbəbinin də düşmənlərin, türklüyü və Quran-islamı yox etmək niyyəti olduğu etiraf edilir. Vəziyyət nə qədər mürəkkəb olsa da, Əmir Teymur nişanlı Məhəmməd Tofiq bəyin fədakarlıq edərək imdada yetişməsini şair şeirin sonunda belə təsvir edir: "Ulu tanrı "Tofiq"ini göndərdi, Gavurluğu islamlığa döndərdi".

Cümhuriyyət dövrünün milli məzmunlu digər şeirlərinə Davud Ağamirzadənin "Məqsədimiz", "Əsgər şərqisi", "Bir əsgərin xitabı", "Azərbaycan ordusuna", "Atalara", "Millətimə", Əliyusif Rainin "Azərbaycanlıya", "Bayraq", "İdeal", "Getmə", "Öpər, kim bilir, bəlkə bir xülya", "S.bəyə", "Bir türk yolçusu deyir ki", "Qarabağ xainlərinə" əsərlərini də nümunə göstərə bilərik.

Həmin dövrdə də xüsusi əzmkarlıqla yazıb-yaradan məşhur şairlərimizdən olan Məhəmməd Hadi "Əlvahi-intibah, yaxud insanların tarixi faciəsi" poemasını cümhuriyyət illərində tamamlamışdır. Onun bu illərdə yazdığı digər əsərlərə "Əsgərlərimizə, könüllülərimizə", "Məfkureyi-aliyyəmiz", "Türkün nəğməsi", "Məmayi-kainat", "Həyati-hazirəmizin ilhamları", "Mühtab şəffa", "Qürbət yellərdə yadi-vətən", "Vaxtın səsi və həyatın özü" şeirləri misal ola bilər. Onun 1919-cu ildə çap olunmuş "Şühədayi-hürriyyətimizin ərvahinə ithaf" şeiri "Sizin məzarınız iştə qülubi-millətdir" sətri ilə başlayır və şeirin sonrakı beytlərində bunun səbəbləri açıqlanır: "Sizinlə buldu bu millət şərəfli istiqlal, Sizinlə buldu bu millət həyati püriqbal". Digər aktiv şairlərimizdən Abdulla Şaiqin "Marş" ("Türk ədəmi mərkəziyyət firqəsi "Müsavat"a ithaf), "Neçin böylə gecikdin?", "Vətənin yanıq səsi" kimi əsərləri diqqəti cəlb edir. Onun 1920-ci ildə "Qurtuluş" məcmuəsində çap olunmuş irihəcmli "Arazdan Turana" şeirində nisbətən süjet elementləri də hiss olunur. Şeirdə diqqəti çəkən əsas

məsələ Araz və Kür çaylarının türkün problemlərini Quzğun dənizinə söyləyərkən istifadə edilmiş bədii priyomlar və kodlaşdırmalardır. “Girmiş sehrli divlər qızıl alma bağına, Qara quzğun ötüşmüş soluna və sağına” – tipli misralar daşıdığı məcazi mənalarla yanaşı imperialistlərin ifşasına yönəldilmişdir.

Cümhuriyyət dövrü poeziyasından bəhs edərkən o zamanlar gənc şair olan Cəfər Cabbarlının “Azərbaycan bayrağına”, “Sevdiyim”, “Sevimli ölkəm”, “Dün o gözlərdə”, “Yaşamaq” kimi şeirlərini xüsusilə qeyd etmək lazımdır. O, 1920-ci ildə çap olunmuş “Salam” şeirini Mirzəbala Məhəmmədzadəyə töhfə olaraq qələmə almışdır. “Od yurdunun yavruları dilindən Turan ellərinə salam söyləyin”- sətirləri ilə türk birliyinin arzularını ifadə etmişdir. Azərbaycanın dövlət himninin müəllifi Əhməd Cavad isə “Dalğa” kitabını AXC dövründə çap etdirmişdir. Şairin həmin illərdə yazdığı “Bən kiməm”, “Türk ordusuna”, “Azərbaycan bayrağına”, “Elin bayrağı”, “Gəlmə”, “Bakı deyir ki...”, “İngilis”, “Bismillah”, “Röyasını görmüşdüm”, “Mən bulmuşam”, “Al bayrağa”, “Qardaş”, “Milli bayrağımıza”, “O qıza”, “Qalx”, “İstanbul” şeirləri milli məfkurəyə xidməti ilə fərqlənir. Onun “Ey əsgər” şeirindən gətirdiyimiz nümunə də türk ordusunun qurtuluş qələbəsinə həsr olunub:

Şu qarşıkı duman çıxan bacalar
Sən gəlmədən iniltilər çıxardı.
Geciksəydin məzlumların fəryadı
Yeri, göyü kainatı yaxardı...

Onun “Şəhidlərə” şeiri isə Azərbaycandakı osmanlı şəhidlərinə ithaf edilib. “Sənin qanındanmı, düzlərdə söylə Qüdrət bitirmişdir sayısız lalə” – misralarında həm

axıdılmış türk qanları, həm də o qanların cücərib əbədiyaşarlılıq qazanması ifadə olunmuşdur. Dövrün digər diqqət çəkən şairlərindən biri də Ümgülsüm Sadıqzadədir. Onun "Əsgər anasına", "Çəkil dəf ol", "Səs verəlim", "Bir qız üçün", "Bu yilki mayısda" şeirləri də istiqlal sevincini əks etdirir. Şairin 1917-ci ildə qələmə aldığı "Turan düdüyü" şeirində "Bir sahil yoxmudur çıxa gəmimiz, Ağlaşır analar duyan nərədə?" - tipli misralarla bədbinlik ifadə olunsa da, 1918-ci ilin fevralında çap olunmuş "Ey türk oğlu" şeirində "Səmalardan seçilməz Türkün mavi bayrağı Yenə əski şan ilə Türk yurduna dikilsin" – sətirlərində gerçəkləşəcəyinə inandığı arzuları ifadə olunub. Nəhayət, 1919-cu ildə çap olunmuş "Yolunu bəklərdim" şeirində isə "Heç ölçüyə sığınmayan dərdlərimi ovutdun, Qara günüm hilalıyın işığıyla parladı" - söyləməklə artıq arzularının gerçəkləşdiyini ifadə etmişdir.

"Kaspi" qəzeti. 26-29 may 2018

ELÇİNİN "KÖLGƏ" HEKAYƏSİNDƏ KÖLGƏLƏRİN ARDINDAKI İŞIQLI MƏTLƏBLƏR

Xalq yazıçısı Elçin Əfəndiyevin "Kaşeyin taleyi" kitabı "Kölgə" hekayəsi ilə açılır. Əsər Şah Tutla bağlı əbədi keçmişdə qalmış uşaqlıq çağlarının xatırlanması ilə başlasa da, hadisələr onun ömrünün yetkin çağlarında baş verir. Şah Tutun Kölgəsində arzuladıqlarının bir qismi həyata keçmişdi. Bir qismi isə həyatın verməli olduğu cavabların suallarına çevrilmişdi. Özü də başdan-başa narazılıq olan bu cavablar 25-30 ildir ki, Fariz müəllimin yol yolçusudur. Yazıçı həmin sual-cavabların ağrı-acısının son günlər bu dərəcədə artmasının səbəbini fransız alimi Jan Batist Effelin "Nobel" mükafatı almağı ilə bağlayır. Elə əsərin düyünü də burada vurulur. Azərbaycan vətəndaşı olan Fariz müəllim hara, "Nobel" mükafatı alan fransız hara!?!

Bu müxtəlif məkanları və müxtəlif millətləri Cucurbita pepo L hörümçəyi birləşdirirmiş. Hörümçəyə "balqabaq" anlamı verən bu cür romantik adın qoyulmasının səbəbi qanadlarının sarı rəngdə olmasıdır. Həmin hörümçək Fariz müəllimin bir daha dünyanın ədalətsizlik üstündə bina olduğuna şübhələrini yox elədi. Yazıçı bu ədalətsizliyin bariz nümunəsini elmi kəşflə əsaslandırmağa nail olub. 21 illik zaman məsafəsi Azərbaycan alimi ilə fransız alimi arasındakı bütün fərqləri nümayiş etdirə bilmişdi. Sözün düzü, bu, tarixi ənənədən gəlmə bir ədalətsizlikdir. Kəşflərimiz, yeniliklərimiz vaxtında dəyərləndirilmədikcə yadlar onlara dədəmalı kimi sahib çıxmağı və mükafatlarını da almağı bacarmışlar. Əslində əsərin əsas ideyası və mahiyyəti də bu dəyərsizliyin acısını və ölkəmizə verdiyi ziyanın böyüklüyünü göstərməkdir.

Belə bir hörümçəyin Jan Batistin yuxusuna da girə bilmədiyi 1991-ci ilin 23 avqustunda Fariz müəllim bu "Nobel"lik kəşfə imza atmışdı. Həmin hörümçəyə Propellere F adını da qoymuşdu.

Fariz müəllimi bir obraz kimi tamamlayan Ələddinin çırağının içindən çıxan bədheybət Cinlə dost olan arvadıdır. Ailəsində digər bir tamamlayıcı surət yaşı 40-ı haqlasa da, hələ evlənməyən oğlu Mürşüddür. Yazıçı onun qəzet oxumağını çox uğurlu bir detal kimi vermişdir. Adama elə gəlir ki, əgər o, qəzet oxumayıb, internetə girsəydi, bəlkə də, həmin hörümçək barədə gözünə nəsə dəyərdi. Başqa bir tamamlayıcı obraz yaşadıqları binanın keşiyində mətanətlə dayanan qonşusu rus dili müəllimi Mürsəl Ağayeviçdir. Hər şey arvadının qonşuları kimi evi özlərinin "remont" etmək təklifini irəli sürməsiylə başlayır. Ədalətsiz dünyanın qəribə işlərinə dəxli olan məsələlərdən biri də bu idi ki, onlar evin təmirinə vanna otağından başladılar. Sonuncu dəfə nə vaxt vanna qəbul etdiyi yadına gəlməyən Fariz müəllim həmin tarixi cümə günü – 1991-ci il birdənbirə vanna qəbul etmək qərarı verdi. Şah tutun kölgəsini xatırladan bu vanna qəbulu Fariz müəllimə nəsə çox böyük bir hadisə baş verəcəyini anlatmışdı. Ədalətsiz dünyanın qəribə işlərindən biri elə Fariz müəllimin vanna otağında gözlərini xəyal aləmindən açan kimi baş verir; yamyaşıl rəngli, sapsarı qanadlı, cəmi üç ayağı olan propeller kimi yanan həmin hörümçəyi görür. Fariz müəllim əmin idi ki, dünyadakı bir milyon iki yüz min həşəratı öyrənən entomologiya elmi bu hörümçəyi tanımır. Yüksək ixtisaslı araxnoloq olan Fariz müəllimə təbii ki, araxnologiyaya məlum olan bütün hörümçəklər də məlum idi. Yazıçı əsərin əsl mahiyyətini o möcüzəylə bağlı suallarla ortaya qoyur: "Əgər bu möcüzəni kəşf etmək onun bəxtinə yazılmışdısa, o zaman nə üçün dünya

entomologiyasının bundan xəbəri olmadı, yəni xəbəri olmadı ki, bu kəşfi ilk dəfə Jan Batist Effel yox, Azərbaycanda Fariz müəllim edib? Yox əgər Jan Batist Effelin adı qızıl hərflərlə dünya entomologiyasına həkk olunacaqdısa, o zaman nə üçün 1991-ci ilin avqustun 23-də o möcüzə Fariz müəllimin vanna otağında baş verir?"

Yazıçı bu sualların cavabını dünyanın ədalətsizliyinin içində tam bir əlacsızlıq olmasıyla versə də, əsl mətləb başqadır; Milli biganəlik. Maraqlı detal budur ki, hörümçəyin yuvası və ona aid olan heç nə tapılmır. Problem onda idi ki, onların yaşadığı beş mərtəbəli binada yeddi blok var idi, hər blokda da on mənzil. Bu yetmiş beş mənzildə axtarış aparmaq mümkün deyildi. Bəlkə də, Azərbaycanda mümkün deyildi. Ola bilsin ki, yazarın diqqət çəkmək istədiyi məqamlardan da biri budur. Bəzən vacib olan, gərəkli olan nəyinsə əhəmiyyətini anlamamaq. Ümumiyyətlə, dünya üçün adi olan bəzi elmi fəaliyyət yönümlü məşğuliyyətlərə bizim ölkədə qəribə hal kimi yanaşılması sonradan böyük səhvlərlə sığortalanır. Yazar bunu belə bir epizodla verir ki, Fariz müəllim arvadının zibilliyə atdığı kafellərin arasında hörümçək axtarışı ilə eşələnərkən qonşusu Mürsəl Ağayeviç bundan təəccüblənir. Bu təəccüb azmış kimi, onların arasındakı dialoq da təbəssüm doğurur. Fariz müəllim salamsız-kəlamsız Mürsəl Ağayeviçdən onların vanna otağında hörümçək olub-olmadığını soruşur və təbii ki, əməkdar müəllimin də bundan əsəbiləşməsi Fariz müəllimin elm aləmindəki bu böyük kəşfinə bundan sonrakı münasibətlərin başlanğıcı olur. İllər sonra o, bunu zarafat adlandırmağa məcbur olacaqdır. Elmi-tədqiqat institutunda baş elmi işçi işləyən Fariz müəllim 3 gün ayaq döyəndən sonra dördüncü gün 17 ildir ki, direktor işləyən akademik Nurullayevə koridorda kəşfi barədə məlumat verə bildi. Elə əsərin toxunduğu ən böyük problem də

burada üzə çıxır. Onun aldığı cavab bu olur ki, "Get, işinlə məşğul ol". Nə olsun ki, Fariz müəllimin işi elə bu idi?! Bir neçə gündən sonra hörümçəyi akademikə göstərdisə də, aldığı cavab yalnız bu oldu; "İnteresni!.." Əslində maraqlı burası idi ki, o kəşfin özü də dünyanın "dağılması" anında baş verdi. SSRİ dağıldı, cəbhəçilər hakimiyyətə gəldi və ölkədəki bu dəyişiklik "Nobel"lik bir kəşfin özünütəsdiqinə də təsirsiz qalmadı. Hamı onun NƏSƏ kəşf etdiyini bilsə də, heç kəs bunun fərqinə varmadı. Belə anlarda Fariz müəllim məsələyə dəxli olan çox məntiqli bir qərara gəlir; "Təklik ancaq allaha yaraşır, insan gərək tək olmasın". Məsələ burasındadır ki, Fariz müəllim bu kəşfi barədə azərbaycanca böyük elmi iş də yazmışdı. Ancaq onu nə ingilis, nə də rus dilinə tərcümə etdirib, çap etdirə bilməmişdi. Bir hissəsini "Elm və həyat" jurnalında nəşr etdirə bilmişdi.

Yeni direktor isə "Gələcək internetindir!" şüarı ilə yaşasa da, bunun Fariz müəllimə bir xeyri dəyməmişdi, çünki onun heç komputeri də yox idi. O, həmin hörümçəyin Jan Batist Effel tərəfindən yenidən kəşfini keçmişin qalığı olan qəzetdən oxumuşdu. "Bütün varlığını sarsıtmış o müdhiş xəbərdən sonra həmin gecə səhərə kimi fikrində gah Haqqa məhkəməsinə, Gah İsveç akademiyasına müraciət etdi, tutarlı şikayət ərizələri yazdı..." Həmin gecə Nurullayev yuxuda onu yanına səsləyirdi. Belə bir gecədə həmin hörümçəyin, həmin romantik uçuşunu sanki görür. Onun adını dəyişib tut ağacı mənasını verən Moraseae F qoyur. Onu etibar edib verəcəyi layiqli bir adam da tapa bilmədi. Əsl çatışmazlıqdan biri də bu idi. "Dünya ədalətsiz idi, Fariz müəllimin də o ədalətsiz dünya ilə mübarizə aparmağı Don Kixotun dəyirmanla mübarizəsi kimi bir şey idi..." Fariz müəllim Şah Tutun Kölgəsi kimi yerindən tərpənə, özünü təsdiq edə bilməzdi. Jan Batist Effel isə Atlının

kölgəsi kimi dünya elmini gəzməkdə idi. Buna görə də, Şah Tutun Kölgəsi Atlının kölgəsinə - "Mən də sənin kimi qul olmaq istəyirəm" - deyə qışqırdı. Yəni məni özünütəsdiqə apara biləcək bir atlının kölgəsi olmaq da xoşbəxtlik imiş. Şah Tutun heç kəsi xatırlamayan ömrü gün yerini dəyişdikcə dəyişirdi, kiçilirdi, böyüyürdü, amma tutun ətrafından bir addım da kənara çıxa bilmirdi. Şah Tutun ömrünün sonu onun Kölgəsinin də ömrünün sonu olacaqdı. Dünyadakı bütün kölgələrin sonu belədir, onların ömrü özlərindən asılı deyil. Şah Tut yalnız dənizin kölgəsi olmadığını eşitmişdi...

"525-ci qəzet". 22 dekabr 2015

"FÜYUZAT"IN İKİ YAZARI"NA BİR BAXIŞ

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Füyuzat" jurnalının ilk sayının çapdan çıxmasının 110 illiyinə ithaf olaraq nəşr etdiyi sanballı monoqrafiyalardan biri də professor Vilayət Quliyevin "Füyuzat"ın iki yazarı" kitabıdır. Kitabın ön sözünün müəllifi akademik İsa Həbibbəyli, elmi redaktoru professor Asif Rüstəmlidir. Azərbaycanın Xarici İşlər Naziri və millət vəkili vəzifələrində çalışmış Vilayət Quliyev 1982-ci ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyalarını müdafiə etməklə ədəbiyyatşünaslığımıza mütəmadi töhfələrini verməkdədir. Azərbaycanın Dövlət Mükafatına layiq görülən tədqiqatçı-səfirin "Füyuzat"ın iki yazarı" kitabı iki hissədən ibarətdir. Birinci hissə Krımlı Asan Səbri Ayvazova (1878-1938), ikinci hissə Türkiyəli Əhməd Kamal Akünala (1873-1942) həsr edilmişdir. Öz vətənlərində kifayət qədər tanınan bu müəlliflər istinad etdiyimiz monoqrafiya vasitəsilə yenidən Azərbaycan ədəbiyyatşünaslığına və oxucusuna qazandırılır. Tədqiqatçı alim hər iki ziyalının istər şəxsi həyat və fəaliyyətlərinə, istərsə də Azərbaycanla bağlı fəaliyyətlərinə xronoloji ardıcıllıqla nəzər salır.

Müəllif Asan Səbri Ayvazovu yazıçı, dramaturq, publisist, tərcüməçi, ədəbiyyatşünas alim, dövlət xadimi və diplomat kimi təqdim edir. Bununla yanaşı, əsas diqqəti onun Azərbaycanla bağlı fəaliyyətinə və "Füyuzat"dakı çalışmalarına yönəldir. Tədqiqatda qeyd edilir ki, onun "Füyuzat" məcmuəsində çap olunan ilk yazısı "Həyat"ın qürubundan, "Füyuzat"ın tüluundan hasil olan təəssüratım"dır. Sonralar jurnalın 24 sayında ictimai-siyasi səciyyəsi ilə seçilmiş yazıları çap olunan müəllifin üslubunun

gözəlliyi və şairanəliyi ilə diqqəti çəkdiyi vurğulanır. "Füyuzat"da yayımlanan silsiləvi səciyyə daşıyan "Həyati-əqvam", "Bəşər və səy" məqalələri, "Nədən bu hala qaldıq?" üçpərdəli pyesi, "Əsarət qurbanları" hekayəsi, "Lisan qovğası", "Krımlılar nə üçün tənqid edilmiyor", "Təlimi-ətfal məsələsi" kimi məqalələri geniş təhlilə və müasir baxış bucağından dəyərləndirməyə cəlb olunur. Müəllif Asan Səbrinin "Füyuzat"dakı çıxışlarında türk toplumunun müştərək dil probleminə toxunduğunu, türk dilinin tərəqqi və mədəniyyət dili kimi inkişafına önəm verdiyini, idillik ailə modeli ortaya qoyduğunu, qadını ali ünvan kimi səciyyələndirdiyini xüsusilə qeyd edir. Tədqiqat əsərində A.S.Ayvazovun "Füyuzat"dan sonrakı ömür yoluna da nəzər salınmışdır. Yenidən vətəni Alupkaya dönən Asan bəy açdığı dil kurslarında dərs demək üçün Əli bəy Hüseynzadəni Krıma dəvət edir. Bir müddət Misirdə yaşamaqla yanaşı, üç dəfə Moskvada həbs edilən A.S.Ayvazovun təsadüf nəticəsində Leninlə tanış olması məsələsinin mübahisəli olmasına da toxunulur. Hətta üç dəfə M.K.Atatürkün qəbulunda olduğu barədə də yazılır.

1917-ci ildə Krım müstəqillik əldə etdikdə dövlətin başçısı Numan Çələbi Cahanı, parlamentin sədri isə Asan Səbri seçildiyi qeyd edilir. Bildirilir ki, 1921-ci ildən Krımda bolşeviklər tamamilə bərqərar olduqdan sonra Asan Səbri tərcüməçi, müəllim işləmiş, 1926-cı il Bakıda Türkoloji qurultayda iştirak etmişdir. 1930-cu ildə yenidən həbs edilmiş, iki aydan sonra NKVD ilə əməkdaşlıq şərtləri ilə azadlığa buraxılmışdır. Professor V.Quliyev haqqında bəhs etdiyi insanı ideal olaraq yox, reallıqları ilə təqdim edərək göstərir ki, o, məcburən böhtan atdığı keçmiş əqidə yoldaşlarından Türkiyəyə dəvət olunması ilə bağlı yardım istəsə də, nəticəsiz qalır. 1937-ci ildə Simferopolda yenidən tutulan Asan bəy həbsdə olarkən

"Krımda milli hərəkatın tarixi" kitabını yazmaqla Volqaboyundan Daşkəndə qədər türk əsilli ziyalıların həyatlarını təhlükədə qoyduğuna da münasibət bildirilir. Bugünki zaman kəsiyindən yanaşdıqda isə Asan Səbri həmin şəxsləri türkçü reallıqları ilə təqdim edibmiş, baxmayaraq ki, əsas məqsədi özünümüdafiə olub. Birinci hissənin sonlarında professor Vilayət Quliyev qeyd edir ki, "maraqlıdır ki, ona hələ də formal bəraət verilməyib". Monoqrafiyanın bəşəri və elmi prinsiplərlə yanaşı, milli prinsiplərə söykənməsi də diqqətdən yayınmır. Müəllif açıq-aşkar türk düşüncə tərzinin inkişafının və yayılmasının fədailərinin əməllərini alqışlayır. O, Asan bəyi belə xarakterizə edir: "Müsəlman ümmətindən türk millətinə çevrilmə prosesinin bayraqdarının Azərbaycan olacağına inanırdı". Tədqiqatçı araşdırdığı müəllifin Qafqazdakı türksoylu insanları Rusiya türkləri kimi təqdim etdiyini xüsusilə qabardır. Müəllif A.S.Ayvazovun türkləri siyasi müstəqillik uğrunda mübarizəyə səsləyən fədakar olduğunu örnək kimi göstərir. Araşdırılan müəlliflərin türkçülük uğrunda mübarizə kimi ortaq cəhətləri olsa da, Azərbaycana münasibətlərində fərqli tərəfləri də üzə çıxarılır. Azərbaycan vurğunu olan Asan bəydən fərqli olaraq Əhməd bəyin ölkəmizə soyuqqanlılıqla yanaşdığı da bəlli olur.

Bu barədə kitabın ikinci hissəsində daha yaxından bilgi əldə etmək olur. Səkkiz yarımbaşlıqla təqdim olunan ikinci bölüm Əhməd Kamalın keşməkeşli həyat tarixçəsinə həsr olunub. Onun hələ gəncliyində Sultan II Əbdülhəmidi öldürmək eşqinə düşməsindən, ehtiyac üzündən Bakıya üz tutmasından, nəhayət, sıradan bir insan kimi dünyadan köçməsindən hərtərəfli söz açılmışdır. Tədqiqatdan öyrənirik ki, onun "Füyuzat"da ilk çap olunan əsəri "Fəlsəfeyi-pərişan" şeiridir. Ə.Hüseynzadə Asan bəyin 34 yaşında dərgiyə gəlişini "İdarədən" başlıqlı yazı

ilə "Yeni qələm yoldaşımız" adlı qeydlə bildirmişdi. Beş ay jurnalla əməkdaşlıq edən Əhməd bəyin "Füyuzat"da 5 şeiri, 13 məqalə və publisist yazısı işıq üzü gördüyü məlum olur. Tədqiqatçı onun şeirlərinin digər müəlliflərin şeirlərinin kölgəsində qaldığını qeyd edir. Yalnız sonet janrında yazdığı "Gözəlim, açma maziyi" şeiri ilə yenilik gətirə bildiyini nəzərə çatdırır. Bununla belə, onun məcmuədəki debütünü "Simurqun qanadlarında" publisist yazısı hesab edir. O da nəzərə çatdırılır ki, "Füyuzat"dakı məqalələri yalnız ədəbi deyil, siyasi və ictimai xarakteri ilə də seçilirdi. Hələ də aktuallığını itirməyən yazısı kimi "Avropalılarla anlaşalım" məqaləsi fərqləndirilir.

Monoqrafiyadan aydın olur ki, ona qarşı olunan hörmətin qarşılığında Əhməd Kamal mütəmadi olaraq dərgiyə özəl olaraq çağırıldığını, ona xüsusi ehtiyac olduğunu vurğulayaraq, əslində bura öz yalvarışı ilə minnətçi düşərək gəldiyini unutdurmağa cəhd edirdi. Hətta azərbaycanlı şair İbrahim Tahir Musayevlə davamlı mübahisələrinə də araşdırmaçı aydınlıq gətirmişdir. Tədqiqatçı alim məsələnin aydınlaşdırılması üçün Musayev haqqında ətraflı bilgi verərək onun da obyektiv formada tanıdılması üçün şərait yaradır. Bu iki imza arasındakı əsas mübarizə yazılarının yazıldığı türkcənin üstünlüyünün daha vacibliyini isbatlamaq uğrunda olmuşdur. Bundan əlavə müəllif Əhməd Kamalın bütöv gerçəkliklərini təqdim etmək üçün yalnız füyuzatçıların deyil, molla nəsrəddinçilərin də onun haqqında olan düşüncələrinə şərh vermişdir. Bununla belə, II Sultan Əbdülhəmid-Hacı Zeynalabdin Tağıyev-Əhməd Kamal üçlüyünün jurnalın müqəddəratının həll olunmasındakı "rolu"na da yaradıcı münasibət bildirilmişdir.

Monoqrafiyada Əhməd Kamalın da "Füyuzat"dan sonrakı həyat və fəaliyyətinə güzgü tutulmuşdur. Bir müddət Bakıda Balaxanı məktəbində müdir, "Günəş" qəzetində baş

redaktor olduğu yazılır. 1911-ci ildə Bakıda polislər qəzetə basqın etmiş, Əhməd Kamal həbs olunmuş, "Şaka" şeirini də Bayıl həbsxanasında yazmışdır. Professor V.Quliyev qeyd edir ki, bu həbsdən sonra o, dekadansdan realist şeirə keçmişdir. Rifat Paşanın köməyi ilə onun vətəninə qayıtması bildirilir. Türkiyəyə döndükdən sonra Əhməd Kamal Azərbaycana etinasız yanaşmış, bura ilə bağlı tanışlarının münasibət qurmaq cəhdlərinə də cavab verməmişdir. Bu şəxslərdən biri Ə.Hüseynzadə idisə, digəri Bayıl həbsxanasında tanış olduğu milliyyətçi Abbasqulu Kazımzadə olmuşdur. Buna rəğmən yenə də ölümündən sonra Azərbaycan ziyalıları ona olan sayğılarını nümayiş etdirmiş, oğluna başsağlığı göndərmişlər.

Monoqrafiyanın özəl cəhətlərindən biri də odur ki, gizli mətləblərin açılmasında əsas vasitə kimi məktublara istinad olunmuşdur. Asan Səbrinin Əli bəyə yazdığı məktublardan əlimizdə olan üç məktuba tədqiqatçının müraciəti də bu fikirləri təsdiq edir. Nəzərə alsaq ki Asan Səbrinin arxivi yerli-dibli yox edilib, onda bu məktubların nə dərəcə önəmli sənədlər olduğu etiraf edilməlidir. Monoqrafiyada iki müəllifin timsalında bütövlükdə XX əsrin əvvəllərində Azərbaycan ədəbi-ictimai fikrinə də orijinal münasibət bildirilmişdir. O zaman baş verən hadisələr qarşılıqlı əlaqələr fonunda araşdırılmışdır. Hər iki müəllifin istər sağlığında, istərsə də ölümündən sonra barələrində yazılmış yazıların fundamental sistemləşdirilməsinin şahidi oluruq. Hətta onlar haqqında yazılmış bir sıra tədqiqatlardakı xətalara düzəliş münasibətini də görmək olur. Monoqrafiyanın mükəmməl alınması üçün elmi və publisist araşdırmalarla yanaşı, bədii mətnlərə də istinad edilmişdir. Xüsusən də, müəlliflərin öz şeirlərindən etibarlı mənbə kimi faydalanmışdır. Kitabın dili ağır elmi terminologiyadan uzaq, bir qədər də bədii çalarlarla asan-

laşdırılmışdır. Yalnız sitat kimi verilən XX əsrin əvvəllərinə aid olan parçalarda "ortaq türkcə"nin dil faktoru ilə qarşılaşırıq. Ümumiyyətlə, professor Vilayət Quliyevin "Füyuzat"ın iki yazarı" kitabı yeni dövr Azərbaycan ədəbiyyatının tədqiqi və öyrənilməsi baxımından mətbuat tariximiz üçün dəyərli bir töhfə kimi qiymətləndirilməlidir.

"525-ci qəzet". 11 may 2017

"MOLLA NƏSRƏDDİN" ENSİKLOPEDİYASI: BÖYÜK SALNAMƏNİN İŞIQLI SƏHİFƏLƏRİ

Cəlil Məmmədquluzadə özünü ifadə etməyin ən münasib yolunu tapana qədər müxtəlif sahələrdə çalışmışdır. Ona isə ömürlük damğasını vuracağı bir ocaq lazım idi. Nəhayət, həyatdakı hər şeyə Molla Nəsrəddinsayağı yanaşmağı qərara alır. Ədibin həmin adı seçməsi və Mollanın kimliyi barədə ədəbiyyatşünaslıqda bir sıra tədqiqatlar aparılmışdır. Hənəfi Zeynallı "Molla Nəsrəddin" məqaləsində bu məsələyə toxunaraq yazır ki, "Nəsrəddin Xocanın nüfuzuna gəldikdə Köprülüzadənin göstərdiyinə görə o, serblərin, bolqarların, arnavudların, buşnakların, rumların, ermənilərin belə "ruhuna qədər gömülmüşdür". Digər tərəfdən Mollanın lətifələrinin rus, fransız, ingilis və başqa dillərə də tərcümə edildiyi qeyd edilməlidir". Belə bir obraz rəssamların da fırçasında xalqın qəbul edə biləcəyi qiyafədə təqdim olundu. Bu barədə jurnal yeni çap olunduğu dönəmlərdə Firudun bəy Köçərlinin yazdıqları maraqlıdır: "...Jurnalın bütün nömrələrində eyni qaydada təsvir olunan Molla Nəsrəddin isə əlinin hərəkəti və izahlı bir heyrət ifadə edən baxışı ilə bu mənzərəni seyr edir və görür ki, bütün mömin müsəlmanlar müxtəlif vəziyyətlərdə və paltarlarda yuxu allahı Morfeyin ağuşundadırlar".

Anlaşılan odur ki, Mirzə Cəlil ən nüfuzlu "imza"dan yararlanmağa qərar vermişdi. Bu ad altında yayımlanan jurnalın tarixçəsi barədə Ü.Hacıbəyov "Molla Nəsrəddin haqqında bir neçə söz" məqaləsində qeyd edir ki, "Hələ iyirmi ildən bəri davam etmədə olan "Molla Nəsrəddin" məcmuəsi nəfasət məzhəkəsi ilə tarixi Mollanı bir yüz məruf etdi. Xalqımız Mollanı o qədər sevir ki, onun azərbaycanlı olduğunu belə ədd edir, Cəbrail qəzasında

yaşadığını belə söyləyirlər". Göründüyü kimi, bu molla kim idisə, nəçi idisə artıq onu həm bəşəri, həm də milli qiyafəsində sevdirə bilmişdilər.

7 aprel 1906-cı ildən 7 yanvar 1931-ci ilə qədər çap olunmuş ilk Azərbaycan satira jurnalı "Molla Nəsrəddin" müəyyən fasilələrlə 25 il nəşr edilmişdir. Tiflisdə "Qeyrət" mətbəəsində ilk nömrəsi çapdan çıxan dərgi sanki yolu gözlənilirmiş kimi bir çox ziyalılar tərəfindən sevinclə qarşılandı. Abdulla Şaiq "Molla Nəsrəddin" məqaləsində bu barədə yazır ki, "Birinci nömrəsindən başlayaraq yüzlərcə azərbaycanlıdan biritək mən də bu məcmuənin oxucusu oldum. Demək olar ki, onun bütün nömrələri məndə yüksək hiss və fikirlər oyadırdı... Mən tək deyildim. Çoxları belə idi". Bununla belə, bir çox həmkar mətbu orqanları da jurnala xeyir-dua verməkdən çəkinməmişlər. Əlibəy Hüseynzadə "Molla Nəsrəddin" və "Dəbistan" məqaləsində öz mövqeyini bu cür ifadə etmişdir: "...Hər halda "Molla Nəsrəddin"in müdiri və Molla Nəsrəddinin müridi Cəlil Məmmədquluzadə cənablarını müvəffəqiyyətdən təbrik və qəzetəsinin qiraətini bütün qarelərimizə tövsiyə edəriz". Fəaliyyəti zamanı mövhumat və cəhalət əleyhinə "susmağın əhəmiyyəti"ndən, müsəlman ruhanilərinin və müsəlman arvadlarının özəl həyatından, "Qızıl İranın" və imperialist dövlətlərin "sarsılmaz qüdrətindən", uşaqların təhsil problemlərindən və.s bəhs edən jurnal müəyyən "xeyirxahlar" da qazanmışdır. Qafqaz general-qubernatoru və başqa vəzifəli şəxslər "Molla Nəsrəddin" jurnalını məhkəməyə vermiş, bir sıra nömrələrinin mətnini ruscaya çevirib yuxarı dairələrə göndərmişdilər. Tiflisdən sonra Təbrizdə çap olunan dərginin "Təbriz üzrə abunə dəftəri"nin sıra nömrəsində qeyd olunan 252 nəfər jurnalın abunəsini qran, tümən, qəbz, abbası ilə ödəmişlər. Abunəçilər sırasında şahzadə,

general, ağa, xan, bəy, tacirbaşı, konsul kimi titullarla yanaşı hacı, məşədi, seyid kimi titulları daşıyanlar da olmuşdur. Təbrizdən sonra jurnal bağlanana kimi Bakıda nəşr olunmuşdur. "Molla Nəsrəddin" jurnalı təkcə Azərbaycanda, Qafqazda və Rusiyada deyil, Asiya və Afrikanın, Şərqi Avropanın bir çox mərkəzlərində, Daşkənd, Aşqabad, Həştərxan, Ufa, Səmərqənd, Tehran, İstanbul, Qahirə və s. kimi şəhərlərdə də yayılmışdır. Jurnal bütün uğurları ilə yanaşı daim "düşmən əhatəsində" yaşamağa məhkum edilmişdi. Bu barədə Üzeyir Hacıbəyovun "Molla Nəsrəddin" adlı yarımsəhifəlik yazısında oxuyuruq: "...Və Haqq və həqiqət acı olduğuna görə. Bizim həmişə "şirni" yeməyə öyrənmiş hökumətimizin xoşuna gəlmədi və gəlməyən surətdə "hökumət" hökumətə danos verib, haqq və həqiqət ağzını yumurdu".

Mirzə Cəlilin vəfatından sonra jurnal çıxmasa da, onun qoyduğu iz bir çox yollara bələdçilik etmişdir. İstər bədii, istərsə də elmi yaradıcılıqda mollanəsrəddinçilərin fəaliyyəti daim diqqət mərkəzində olmuşdur. Ə. Haqverdiyev "Molla Nəsrəddin" haqqında xatiratım" əsərini yazmış, bir sıra müəlliflər jurnalla bağlı keçmişlərindən söz açmışlar. Xalq şairi Rəsul Rzanın Mirzə Cəlil əsərlərinin motivləri əsasında qələmə aldığı lirik-fəlsəfi silsiləyə "Bəhlul, İsgəndər və mən", "Kefli İsgəndər", "İsgəndər, Çatski və Çayld Harold", "Ölülər", "Zeynəbin qisası", "Bəlkə də qaytardılar", "Kamança", "Nazlılar", "Anamın kitabı" şeirləri daxildir. Mir Cəlalın "Yolumuz hayanadır" (1957) romanında mollanəsrəddinçilərin obrazları yaradılmış, onun "Dirilən adam" romanını Həmidə xanım Məmmədquluzadə rus dilinə çevirmişdir. T.Hacıyevin "Molla Nəsrəddin"in dili və üslubu", Ə.Mirəhmədovun "Azərbaycan Molla Nəsrəddini", F.Hüseynovun "Molla Nəsrəddin" və mollanəsrəddinçilər", Mir Cəlalın "Cəlil

Məmmədquluzadə realizmi haqqında", Qulam Məmmədlinin "Molla Nəsrəddin salnaməsi", Nazim Axundovun "Molla Nəsrəddin" və.s tədqiqatlarda jurnalın gördüyü böyük işlərdən bəhs edilmişdir

Bütün bunlarla yanaşı, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində "Molla Nəsrəddin" ensiklopediyası hazırlanır. Ensiklopediya İsa Həbibbəyli, Teymur Kərimli, Vilayət Quliyev, Asif Rüstəmli, Qəzənfər Paşayev, Alxan Bayramoğlu, Elçin Mehrəliyev, Abid Tahirli, Ayaz Vəfalı, Rauf Sadıxov, Qurban Bayram, Elmira Qasımova, Gülbəniz Babayeva, İslam Qəribli, Lütfiyyə Əsgərzadə, Müştəba Əliyev, Solmaz Həyatova, Aynurə Paşayeva, Gülnar Qasımlı kimi müəlliflərin məqalələri əsasında tərtib edilir. Ensiklopediya jurnalın gizli imzalarından Hop-hop, Sancaq, Cırcırama, Dabanı çatdax xala, Hərdəmxəyal, Xortdan, Kefsiz, Qızdırmalı, Lağlağı, Məşədi Mozalan bəy, Mozalan, Filankəs, Molla Nəsrəddin, Dəmdəməki, Məşədi Sijimqulu, Heyvərə, Dərviş, Cüvəllağı, Teleqraf Güllü, Mirzə Qoşunəli, Qəmişqulu, Anaş qurbağa, Əbunəsr Şeybani və s. haqqında ətraflı bilgilər verilir.

Bundan başqa ensiklopediyada jurnalın əsas janrları olan "Felyeton", "Karikatura", "Elanlar", "Atalar sözləri", "Tapmacalar", "Ordan-burdan", "Səyahətnamələr", "Lüğət", "Poçta qutusu", "Bəhri-təvil", "Yoldaşlıq şarjı", "Taziyanə" və.s haqqında da yazılar yer alır. Jurnalın müxbir və publisistlərindən Nəsrulla Qənbərov, Əli Razi Şəmçizadə, Rzaqulu Nəcəfov və başqaları ilə yanaşı, nisbətən az tədqiqata cəlb olunmuş Bayraməli Abbaszadə (Mirzə Gülzar Sərabi), Həbibulla Səmədzadə, Əli Səbri, Hüseyn Minasazov, Şürbi Mirzəyev, Fərhad Ağazadə, Əbdülxalıq Axundov, Mirzə Məhəmməd Axundov kimi

mollanəsrəddinçilər də ensiklopediyaya daxil edilən mövzulardandır. Həmçinin şairlərdən Mirzə Ələkbər Sabir, Əli Məhzun, Əli Razi, Mirzə Əli Möcüz, Əliqulu Qəmküsar, Əliabbas Müznib, Molla Mahmud Çakər və s. rəssamlardan O. Şimerlinq, İ.Rotter, Əzim Əzimzadə, Seyidəli Behzad, Xəlil Musayev, İsmayıl Axundov, Qəzənfər Xaliqov və başqaları haqqında məlumatlar da ensiklopediyada yer alır.

Ensiklopediyanın önəmli tərəflərindən biri də odur ki, jurnalla bağlı tədqiqat aparmış Qarayev Yaşar, Kamal Talıbzadə, Əli Nazim, İsa Həbibbəyli, Mir Cəlal, Məhəmməd Əmin Rəsulzadə və.s kimi tədqiqatçılar barəsində də məqalələr vardır. Bütün bunlarla yanaşı, ensiklopediyada jurnalın əməkdaşlıq etdiyi və ya hər hansı bir formada əlaqəsi olduğu mətbu orqanları barədə də yazılar nəzərdə tutulub. Belə jurnallara "Kukureku", "Əqrəb", "Zənbur", "Füyuzat", "Çayan" gülgü jurnalı (Kazan), "Nəsrəddin Xoca" (Türkiyə) və s. aid etmək olar. Qəzetlərdən isə "Kavkazski raboçi listok", "Nəsimi-Şimal" (Tehran-Şiraz), "Təbriz", "Türkmənistan" (Aşqabad), "Zəhmət" (Aşqabad), "Məzhər" (Tiflis), Yeni fikir" (Tiflis), "Açıq söz", "Novruz", "Qoç-Dəvət" və s. adlarını çəkə bilərik. Günümüzdən baxanda isə "Molla Nəsrəddin" bu gün də öz həmkarları ilə əməkdaşlıq edir. Mirzə Cəlilin "doğrunu yazmaq" tövsiyəsinə əməl etməklə onun əbədi yaşarlılığını təmin etmək olar.

"525-ci qəzet". 21 iyul 2018

AQİL ABBASIN YAĞDIRDIĞI "DOLU"

Qarabağ müharibəsi mövzusunda yazılmış, iki hissədən ibarət olan "Dolu" həm aktual problemi, həm də bədii strukturu ilə diqqət mərkəzində olmalı əsərlərdəndir. Elnarə Akimovanın sözləriylə desək; "Aqil Abbasın "Dolu" romanı müharibə görüntülərini sərgiləyən romandır, həm düşmənə qarşı apardığımız, həm də öz içimizdə gedən iç aləmini görk edən roman". Yazıçı əsərin adını həqiqi mənasıyla yanaşı rəmzi çalarlarla da işlətmişdir. Müəllif dolunu təbiət hadisəsi olaraq tanrıdan başqa heç bir bəstəkarın bəstələyə bilmədiyi musiqi kimi mənalandırır. Əslində sənətkarın niyyəti dolunun iç üzünü açıb göstərməkdir; "Göydən dolu yağmırdı əzrayıl yağırdı!" Cavanşir Yusifli qeyd edir ki; "Dolu həm də ruscadan tərcümədə "qırad" sözünə uyğun gəlir..." Seçilmiş ad yazıçıya yardım edir ki, o çatdırmaq istədiyi fikirləri simvolik şəkildə göstərə bilsin. Bu, xanəndə Baratın qolunun birini evdə qoyub xəstəxanaya aparan Doludur. Evinə "dolu" düşmüş Kefli Çapayın sözlərində isə müəllifin ironik hiddətini görürük:

- Bunu kim göndərdi Ə?!

Yaxud jurnalistlə ev sahibinin dialoqunda isə sənətkarın daha istehzalı qəzəbi ilə qarşılaşırıq: "...belə dolunun çarəsi bir şüşə araqdı. Köpəkoğlunun arağı qıradın dərmanıdı". A.Abbas bu əsər vasitəsilə əslində dolunun öz xoşuyla yağmadığını göstərmək istəyir, problemin tarixi-siyasi qatlarına nüfuz etməyə çalışır. Yazar xüsusi vurğulayır ki, bütün bunların kökündə Böyük Dövlətlərin Böyük Saraylarında ssenaristlərin illərlə çəkdikləri zəhmətin gerçəkləşməsi dayanır. "Hollivud"un (fikirimizcə bu Qərb diplomatiyasının simvolu kimi verilib) və "Mosfilm"in (yəqin ki xristian dünyası, bir

sözlə, keçmiş bizimkilər-SSRİ nəzərdə tutulur) birgə istehsalı olan bu kinoda ssenaristlər və rejissorların ermənilərin qohum-əqrəbaları olması xüsusilə qabardılmışdır. Romanda həmin "filmin" çəkiliş meydançası kimi Dünyanın Ən Varlı Şəhəri göstərilib. C.Yusiflinin simvollaşdırılmış bu ada münasibətinə nəzər salaq: "Dərhal tanınan "rəmzin" daha gizlin qalmağa, ondan ixtiyari bir şəhər kimi bəhs etməyə ehtiyac qalmır..." Tənqidçi bu yerin hamımızın tanıdığı məkan olduğunu qeyd etsə də, yazıçı Dünyanın Ən Varlı Şəhərini orijinallığı ilə fərqləndirmişdir. Ümumiyyətlə, bu şəhərdə sovet hökuməti yoxuydu. Bunu sübut edəcək faktlar da göstərilir; "Şəhərin bir saytal ağsaqqalını iclasda təhqir eləyən Təyinatlı Katibin qalustukunu Təyinatsız Katibin göstərişi ilə Fazil müəllimin Kinoteatırının qabağında qayçı ilə kəsib döş cibinə qoymuşdular". Sənətkar şəhərin müəyyən tarixi dönəmlərdəki taleyini də qarşılaşdırır. "Amma indi elə bir zaman gəlmişdi ki, bir pulemyota bir ovuc qızıl verirdilər... Bu bostanı uralamaq üçün hər yerdən tökülüb gəlirdilər, hətta Gürcüstandan belə". Dolu çərxini döndərəndən sonra bura mollası çatmayan məkana çevrilmişdi, hətta ölüm də adiləşmişdi. Müharibə çılpaqlıqlarını göstərmək üçün şəhərin acınacaqlı durumu diqqəti çəkir: "Bu şəhərin sakinləri gün ərzində o qədər nəzir-niyaz deyirdilər ki, ev-eşiklərini satsalar da, Tanrıya olan borclarını ödəyə bilməzdilər". Əsərdə məqsədli şəkildə "varlı" şəhərin keçmişi və hazırkı durumu müqayisə edilir. Bununla da, müharibənin insanın məişətindən tutmuş xarakterinə qədər təsir etmə gücü göstərilir. Romanda müharibə şəraitində yaşayan insanlar üç qrupda cəmləşdirilir:

- döyüşçülər, - tank belində şəkil çəkdirənlər, - müsahibə verənlər

Yazıçı həmin şəxslərin də çoxunun adını ümumi atirbutlarıyla vermişdir. Məsələn, döyüşənlər sırasına Vurğun Vurmuş Cavanlar aid edilir. İki ad qazanmış bu cavanların bir adını ataları qoysa da, o biri adlarını Dədə-Qorqudsuz filansız özləri qazanmışdılar. Əsərdə onların keçmişdə özündənrazı, bir az da əhlikef insanlar olduğu, lakin mövcud şəraitdə isə müharibənin içində deyil, öz içlərində müharibə yaşadanlara çevrildiyinin şahidi oluruq. Amma onların daha səciyyəvi cəhətləri onda idi ki, yazılan ssenarini pozub, rejissorları pis vəziyyətdə qoymuşdular. Yazar məqsədli şəkildə onları türklük kultu hesab edilən canavar sürüsünə bənzədir. O cavanları indi bir amal birləşdirsə də, danılmaz çətinliklər göz önündədir - o boyda müharibə meydanında cəmi iki tank varıydı ki, Dünyanın Ən Varlı Şəhərini qorusun. Yazıçı bu yerdə Şelli Eldarın sözlərində - bədii priyomla reallığı göstərir: "Bizimki lap Molla Nəsrəddin anekdotuna dönüb. Döyüşə əliyalın gedirik, deyirik, bəlkə, bir erməni öldürüb silahını götürdük". Acınacaqlı həqiqətlərə etiraz edən sənətkar, hər kəsi, hətta dolunun törətdiyi faciələrə göz yuman tanrını da başa düşə bilmir. Ona görə də, elə bir vəziyyət yaranmışdır ki, tanrının da istədiyini tapmaq (Tanrı özü də nə istədiyini bilmirdi) mümkünsüz olmuşdu. Əvəzində Qədir Rüstəmovun səsini aparmışdılar. Bunu tutarlı fakt kimi təqdim edən müəllif Yiyəsiz Dövlətin Yiyəsiz Övladlarının taleyi üçün narahat olacaq insan axtarışının bir əlaməti kimi qələmə alır.

Sarsıdıcı gerçəkliklərə rəğmən müharibənin anasını ağlar qoyan "cavanlar" da varıydı. Bu cavanlardan ikisi - Drakonla Pələng əsərdə bir-birini tamamlayan obrazlardır. Romanda onların səciyyəvi cəhətlərini göstərən, mükəmməl obraz kimi diqqətə çəkilən xüsusiyyətləri də sadalanır. Qardaşı gözünün qabağında güllələnmiş, ağası

olduğu sözünə görə gedib Maqadonda ağ ayıları görüb gələn Təyinatsız Rəislərdən biri də Drakon idi ki, onun canını almaq olardı, amma maşınını sataraq Tiflisdən aldığı silahını yox. Vəzifəlilərin çoxu batalyona köməyi onun qorxusundan edirdi. Hətta komandirə UAZ-ı da kolxoz sədri öz xoşuyla bağışlamamışdı. Bəzən elə olurdu ki, rəisin, prokurorun da ona işi düşürdü. Bakıdan gələn zənglər böyüklərin telefonlarını bağrıqan eyləyəndə, Pələngin Palıd ağacından düşərək oğurladığı Rəşid Behbudovun qılıncıyla xəncərini də o tapmışdı. Elə o vaxtdan zirəng uşaq olan Pələngi gözaltılamışdı. Səngərdə kürək-kürəyə yatan bu oğullar At Belində Olan Adama görə düşmən kəsildilər. Bununla əsərdə konfilikt daha da dramatikləşir. Dəfələrlə erməni gülləsindən qoruduğu Pələngi indi özü məmnuniyyətlə güllələmək istəyirdi, güllələyəcəkdi də - söz ağzından çıxmışdı.

Qarnı otuz iki güllədən ötrü ölən, pulla hər şeyi almağa öyrənən At Belində Olan Adam Pələngə Drakonu öldürmək üçün pul təklif edir. Bu zaman yazıçı Pələngin daha dramatik və özünəməxsus cəhətlərini nümayiş etdirir: “Pələngin gözünün qabağına Musanın ayaqları kəsilmiş anası gəldi, həkimə verilməsi üçün... Komandirin barmağından çıxardığı nişan üzüyü gəldi, ətsiz yedikləri borş gəldi... Amma bu çox şeylərin içində nə ev vardı, nə maşın, nə də toy...” Onun kişiliyini də satın almaq istəyən At Belində Olan Adama Pələngin: - nə deyirəm ki? - cavabı nə qədər psixoloji gərginlik yaratsa da, elə həmin andaca bu razılaşmanın hədəfinin Drakon olmayacağına insanın içində inam yaranır. Romanda Drakon-Pələng qarşıdurmasının həlli elə ustalıqla verilib ki, müharibə qanunlarının insanlıq qanunları qarşısında aciz qaldığına şübhə yaranmır. Əsər müharibə dövrü hadisələrindən bəhs etsə də, cəmi bir günlük döyüş səhnəsi təsvir edilir.

Komandir üç yerdən hücum planı hazırlayır. Drakon buraları beş barmağı kimi tanıdığını, sovet hökumətinin onu üç il tuta bilmədiyini deyib beempeni aşırmağa yarım saatlıq icazə istəyəndə Pələng deyir:

- Komandir, mənə də icazə ver. Biz həmişə kəşfiyyata bir getmişik.

Drakon:

- Qoy gəlsin, Qorxma, mən onu bulvarda vuracam.

Bütün döyüşün taleyi Pələngin köhnə və etibarsız qumbaraatanla erməni BMP-ni vurmasından asılı idi və o, BMP-nin 100-150 addımlığında qumbaraatanı öpdü…

... BMP alovlandı.

Qatırın tank göndərmək xəbərinin sevincini yaşayan əsgərlər BMP-ni Drakonun vurduğunu zənn etmişdilər, çünki Pələng Drakonun arxasınca icazəsiz gəlmişdi. Əli karabinli erməni Drakonu nişan alsa da, Pələng atəşin qabağına keçir. Yazar həmin epizodlarda onların iç dünyasını və gerçək mükəmməl xarakterlərini sevdirə bilir.

... Pələng Şuşadaydı, yəni Pələngin arzusu orada ölmək idi. Drakon dünyanın ən gözəl ölüsünü qucaqlayıb elə hönkürdü ki, göz yaşlarından heyfini aldı. Silahdaşı qolları arasında canını tapşıran Drakon ölümsüzlüyün onu qoruyacağına əmin olaraq hücuma davam etdi. Eyni andaca partlayan iki qumbaranın vahiməsindən ermənilər elə bildilər səngərə mərmi düşdü... Sağ qalan ermənilər Drakonu da avtomat atəşinə tutdular. Drakon da qızıl qanın (yazıçı bilərəkdən qızılgülün yazmayıb) içində şirin yuxu tapmışdı. Əsərdə bu səhnələr nə qədər gərgin təsvir edilsə də, əməliyyat uğurla başa çatmışdı. Batalyon zirvəni götürmüş, bayrağı da sancmışdı. Bu itkilərə görə Komandir həyatında ilk dəfə ağladı. Şəhid olmuş həmin igidlərin dəfnində gözünün ağı-qarası oğlunu itirən Pələngin anası deyir:

- Hamınıza qurban olum! Təki siz salamat olun!

Yazar birinci hissəni qeyri-adi təsvirlərlə yekunlaşdırır: "Batalyonun həyətində qaldırılan isə Türkiyənin bayrağı deyildi, Drakonun köynəyiydi, Pələngin qanıyla boyanmış köynəyi". Əsərin ikinci hissəsində sağ qalan komandirin timsalında müharibədən sonrakı ictimai-siyasi tarixi proseslər təhlil və təsvir edilir. Sərxoş polkovniki öldürdüyü üçün həbs edilən komandir əsl döyüşçü olub, yurduna sədaqətlə xidmət etdiyinə görə indi vətəndə baş verən hadisələrlə barışa bilmir. Döyüşlərdə öldürülməyən həmin obraz vasitəsiylə sənətkar müharibədən sonrakı Azərbaycan gerçəkliklərini göstərməyə çalışıb. Musanın anasının timsalında qaçqınlıq taleyi yaşayan Azərbaycan qadınlarının əsl faciəsi qabardılıb. Musanın anası - oğlu ölmüş bir ana - neçə vaxtıdır oğlunun ölümünü bilməməyin xoşbəxtliyini yaşayırdı. Komandirin yenidən demaqoqluqla məşğul olan jurnalistlə qarşılaşdırılması epizodu ilə müəllif bir daha beynəlxalq siyasi arenanın Dağlıq Qarabağ müharibəsinə ikili standartlarla yanaşmasını qabarıq şəkildə göstərir. Əsərin qəribə və səciyyəvi cəhətlərindən biri də odur ki, komandiri doğulduğu torpağa At Belində Olan Adamın oğlu aparır. İnsanlar isə elə toy-bayramlarında, elə şou-bizneslərində idilər ki, sanki romanın birinci hissəsində göstərilən hadisələr heç bu xalqın başına gətirilməyib. Yazıçı lap sonda komandiri balıq cildində təzahür edən Pələng və Drakonun yanına göndərir. Romanda XX əsrin sonunda millətimizin başına gətirilən faciələrin səbəbləri və nəticələri cəsarətlə bədiiləşdirilib. Yaradılmış dolğun obrazlar vasitəsilə müharibə dövrü insanlarının xarakter xüsusiyyətləri və mücadiləsi aktuallaşdırılmışdır.

"Azad Azərbaycan" qəzeti. 26 sentyabr 2012

CAVİDANƏ UÇURUM

Hüseyn Cavid yaradıcılığının çoxşaxəliliyi danılmazdır. Hətta onun əsərlərinə sadəcə bir mövzu çərçivəsindən nəzər salsaq, yenə də sonsuzluqla üz-üzə dayanırıq. Ədibin toxunduğu ən aktual problemlərin içərisindən uçurum daha çox diqqətimi çəkdi. Bəlkə də, tədqiqatçılar Cavid yaradıcılığının birinci mərhələsinin "Uçurum"la bitməsini qeyd etməkdə haqlıdırlar. Amma bu bitkinlik özü də nisbidir, çünki uçurumlu mövzular onun dramaturgiyasını addımbaaddım izləyib. Maraqlısı budur ki, böyük sənətkar ən müxtəlif situasiyaları uçurumun bir parçası kimi ayrı-ayrı əsərlərində canlandıra bilib. Bir sözlə, uçurum xofu onun yaradıcılığını qarabaqara izləyib.

Elə ilk dramaturji əsəri olan "Ana" pyesində uçurumun ən türlü sıldırımlarıyla rastlaşırıq. İsmət qardaşı Səlimə Orxan barədə həqiqəti demək istəmədikdə belə bir tərəddüd keçirir: "And içməsəm, susdurmaq olmaz onu, And içsəm olurum Allah düşmanı". Çıxılmaz vəziyyətin ən mükəmməl və fəlsəfi pıçıltıları. Qardaşın bacıya inanması üçün bacı andmı içməlidir?! Bir Allah adı bu iki doğmanı qütbləşdirir. Digər tərəfdən Allah düşmənı olmaq qorxusu onları birləşdirir. Onlar uçurumun kənarında dövrə vururlar və son anda həqiqət qalib gəlir. O həqiqət ki, Cavid həmişə onu axtarıb, nə qədər acı və amansız olsa da, söylənilməsinin tərəfdarı olub. Nəhayət, İsmət Orxan barədə həqiqəti qardaşına demək zorunda qalır: "Qüdrətindən varından çoq söylədi, Sonra birdən elanı-eşq eylədi". Bir uçurumu dəf etməyə sadəcə bir cəsarət gərək imiş. Maraqlı bir ənənəvi qarşıdurmanın təqdimi verilib. Yəni qüvvət və var-dövlətin, eşqlə-insaniyyətlə çarpışması bütün əsərlər boyu davam etməkdədir. Lakin Cavid sadəcə

bir beytdə bir növ ümumiləşdirmə aparıb. İsmətin uçurumlardan nə qədər uzaqda olmaq arzusunu dramaturq belə ifadə etmişdi. "Ah, fəqət intiqam dilərsə Orxan, İsmət xoşbəxt ikən olur bağrı qan". İntiqam və xoşbəxtlik! Çox böyük ustalıqla bir-biri ilə konpensasiya edilmişdir. Həm də diqqətlə yanaşdıqda bu iki məfhum bir-birinə bərabər tutulmuşdur; Orxanın intiqamına qarşı mən də xoşbəxt olmaqla ondan intiqam alacağam. Əsərin sonlarında isə yazıçı daha yaradıcı bir manevr edir. Səlma ananın ilahi əmri ilə qanımız donur. "Yarəb mərhəmət! Mərhəmət yarəb!" Tanrıdan özünə qarşı mərhəmətli olmağı tələb edən bir ana ikinci bir tələbini də edir, onun özünün - Səlmanın da mərhəmətli olmasına təminat verilsin. Amma hər şey cəmi ikicə sözlə və sözlərin yerdəyişməsi ilə deyilir. Çünki mövcud durumun nə qədər ağır olmasına baxmayaraq, ana uçuruma yaxın getmir. "Bir də nə yapsam, bu dərd silinməz, Məhv olsa, aləm Qanpolad dirilməz" - həqiqətinin gözünün içinə dik baxır.

Uçurumun dibində olan Muradı çıxarmağa gücü çatmayan ananı yazıçı, uçurumdan uzaqlaşdırır. Amma elə tükürpədici təzad yaradır ki, bütün uçurumları uçurmaq istəyirsən: "Öldürdüyün Qanpolad, Səlma pənah". Yazar sadəcə Muradı uçurumun kənarına gətirmir. Orada obrazın hansı qərarı verəcəyini bəşəriyyətin ixtiyarına buraxır. Amma ən əsası odur ki, sənətkar insanın özünü uçuruma necə apara biləcəyini çox ustalıqla göstərə bilib. Növbəti pyesi olan "Maral"da da uçurumlu döngələr və bu döngələrin dönümləri bədiiləşdirilib. İki fərqli düşüncəli bəy obrazı əsl ustalıqla qarşılaşdırılır:

"Turxan bəy: Hiç bir hiss, hiç bir qüvvət, hiç bir yer yoq ki, orada altın, gümüş rol oynamasın. Əminim ki, dünyanın bütün izzəti, bütün səadəti ancaq para ilə əldə edilə bilər.

Nadir bəy: Əvət, hər şey para ilə əldə edilir, illa fəzilət və insaniyyət!..

Turxan bəy: Xayır! Xayır... Fəzilət də, paradadır, insaniyyət də...

Nadir bəy: Yanılıyorsunuz, əfəndim, sizə insan qılığında öylə çulsuz-palansız uzunqulaqlar göstərə bilirim ki, yalnız altından yapılmış bir palanları əskikdir".

Dialoq özlüyündə üstüörtülü şəkildə hər şeyi açıq-aşkar göstərir. Bu epizodda ən çox diqqəti çəkən hər iki obrazın bəy titulu daşımasıdır. Amma maraqlı budur ki, əsərin açıqfikirli bəylərinin sayı və keyfiyyəti daha çoxdur. Yazar Turxan bəyin hansı uçurumda olduğunu göstərmək üçün digər bəylərin fərqli xüsusiyyətlərini çox qabarıq şəkildə ortaya atır:

"Çingiz bəy: Azacıq insaf etməli, iştə hər millətin tarixi meydanda... əcnəbilər böyük İsgəndər, böyük Napoleon deyə öz qəhrəmanlarına abidələr yapdırıyor, heykəllər dikdiriyorlar. Fəqət bizlər!.. Bizlər isə Çingiz kibi cihangirlərə, Teymur kibi qəhrəmanlara xunxar, canavar deyə ləkələmək istiyoruz!"

Bu sözlərlə elə anındaca Bəypolad da həmfikir olur. Həmin obrazın sözlərində Cavid millətimizin tarixi uçurumlarını gizlətməmişdi, əksinə milli uçurumlarımızın faciələrini qabartmışdı. Turxan bəyə qarşı yönəldilmiş ən parlaq ziyalı bəy obrazı isə onun öz oğlu Cəmil bəydir. Bəlkə də, bu, Cavid müdrikliyinin məntiqi nəticəsi idi. Övladların atalarının hansı uçurumlarda məhv olduqlarını görməsi və ondan nəticə çıxarması idi. Bu, türkün gələcəyinə inamlı ümidin işartılarıdır. Çünki uçuruma yuvarlanmış valideynlər barəsində Cəmil bəyin ümumiləşdirilmiş fikirləri çox önəmlidir. "Demək ki, bir qızı və ya bir oğlanı məhv etmək için yalnız ana-babasının rizası kafi imiş". Nə qədər zərbəendirici bir etiraf! Milli

uçurumlara gedən yollar elə fərdi uçurumlardan istiqamət götürür. Sən demə, valideynin öz aləmində xeyir-dua sandığı razılıq əslində nə qədər xeyirsiz bir əməl imiş. Öz balana qarşı ediləcək cinayətlərin təkanvericisi olmaq elə uçuruma yuvarlanmaqdır. Və nəhayət, "Ana" pyesindən fərqli olaraq, bu əsərdə yazar artıq uçurumun əlamətlərini göstərməklə kifayətlənmir, hətta onun adını da çəkir. Və elə bundan sonra onun dramaturgiyasında Cavidanə uçurumlar əmələ gəlir. İlkin olaraq sənətkar Nadir bəyin dili ilə belə bir qənaətini bölüşür: "Şəriət insanların nicat və səadəti için yapılmış bir qanundur. Xalqı təhlikəli uçurumlara yuvarlayan bir qanun isə pək çürük və mənasız bir əfsanə deməkdir". Maraqlı bir üçbucaq yaranır; qanun-uçurum-əfsanə. Cümlələrin qrammatik quruluşu və sözlərin düzülüşü də elədir ki, yenə də uçurum ortada qalır. O nə qanuna tabe olur, nə də əfsanəyə çevrilib öz reallığını itirir. Hər tərəfə lağım atır.

Daha maraqlı bir açıqlama isə "Şeyda" əsərində Məsudun dilindən verilir: "Əvət, bu gedişlə ki, biz gediyoruz, daima önümüz uçurumdur. Həm də öylə fəlakətli uçurum ki, əsla qurtuluş yoq". Lakin elə həmin əsərdəcə yazar sanki özünü təkzib edir. Bu vaxta qədər içini didib-parçalayan uçurumların əsl səbəbini göstərməyə nail olur. Sən demə, əsarət ən təhlükəli və ən qorxunc uçurum imiş. Bu əsarətin havadarlarını da, qurbanlarını da Rəuf obrazı vasitəsilə bizə təqdim edir: "Yəqindir ki, qocaman Şimal ayısının dərisi parçalansın və hər millət kəndi yurduna, kəndi hüququna qavuşsun". Bəlkə də, ilk baxışda bu cümlələrdən çar Rusiyasının dağılmasıyla Sovet quruluşunun səadət bəxşedici vədlərini görmək olar. Amma əslində isə yenə də uçurumlu bir vəziyyət yaranır. Qocaman Şimal ayısının dərisi parçalansa da, müstəmləkədə olan xalqlar növbəti uçuruma yuvarlanırlar. Ən qəribəsi də

odur ki, onlar bu uçurumu əlçatmaz, fəthedilməz bir zirvə kimi qarşılayırlar. Bax elə əsl uçurum da burada yaranır ki, reallıqla qeyri-reallığı ayırd etmək mümkün olmur. Bir sıra müstəmləkələr uzun sürə özlərini dünyaya hallarından məmnun kimi göstərmək zorunda qalırlar. Bu yerdə Şeydanın sözləri yada düşür. "İnanın ki, əhv etmək intiqam almaqdan daha müdhişdir". Çox qəribə bir nəticədir. Özlüyündə bütün durumlarda təsdiqlənən bir hökmdür. Lakin müstəmləkə xalqlarının vəziyyətində bu hökm nə qədər ədalətli olar?! Yalnız bir çıxış yolu var ki, tarix geriyədönməzdir prinsipini yaddan çıxarmamaq. Keçmişdə heç nəyi dəyişdirmək olmaz. Yalnız keçmişin gələcəyinə təsir edə bilərik, yalnız gələcəyi uçurumdan xilas edə bilərik.

Uçurumlarla bağlı bu qədər eyhamlar Cavidə bəs etmir. Nəhayət, o, "Uçurum"a atılır. 1919-cu ildə həmin əsər yazılır. Əsərdə Əkrəmin diliylə maraqlı bir açıqlama verilir. "Əyləniyorsun qorqunc Uçurumlar önündə". Bütün insanlara tək-tək göndərilmiş bir xəbərdarlıq mesajıdır bu cümlə. Hər kəs özünə yenidən ciddi baxış keçirir. Uçurumlar önündə olduğunu, yaxud önündə uçurumlar olduğunu müəyyənləşdirmək üçün fikirləşməyə vaxt verilir. Bu suala Anjel də cavab tapır. "Düşün, bitmiş artıq tabım, təvanım. Uçurumdur sağım, solum, hər yanım". Avropanın əxlaqını itirmiş qadınlarının ümumiləşdirilməsi olan Anjel hər yanının uçurum olduğunu bildirir. Deməli, onunla ətrafdakılar arasında bir uçurum dayanıb. O özü də bu uçuruma düşə bilər və ya ətrafındakıları özünə tərəf çəkməklə həmin uçurumun o tərəfində dayanan şəxs Anjelə sarı getdikcə aradakı uçurumun varlığının fərqinə varmır. Onu yalnız uçurumun o tayında dayanan Anjel maraqlandırır. Anjelin xəbərdarlığı yaddan çıxarılır. "Hər yanım uçurumdur!!!" Hər yanım! - o deməkdir ki, mən uçurumun mərkəzindəyəm. Mənə tərəf atılan hər addımın

son nəticəsi ilk addımdanca bəllidir. Anjeldən fərqli olaraq "Şeyx Sənan"dakı Qafqazlı əxlaqına sahib olan Xumar obrazı anasının;

"Bana söylərdi daima: Yavrum!
Ərə getmək həyat için uçurum...
Yoqdur erkəklərin vəfası, Xumar!
Yerin olsun fəqət monastrlar" –

nəsihətlərini ciddiyə alır. Həyat üçün əslində nəyin uçurum olduğu aşkarca göstərilmişdir. Bir əsərdə ailə qurmağa can atanlar, digər əsərdə isə artıq qurulmuş ailəyə sahib olanlar müqayisə edilə bilər. Amma Xumar ucalığıyla Anjel çökəkliyinə eyni gözlə baxmaq olmaz. Buna görə də, yazar Uluq bəyin timsalında əsl məqsədini ortaya qoyub:

O gün ki, İstanbulda gənclik fransızlaşdı,
Getdikcə türk evladı uçuruma yaqlaşdı.
Yurdumuzu sardıqca düşük Paris modası,
Hər kəsə örnək oldu, sərsəm firəng ədası!

Dramaturq maraqlı bir nüansa toxunur. Əgər eyni zaman kəsiyində Azərbaycan Rusiyanın əsarəti altında idisə russayağı ədaların, modaların Azərbaycana ayaq açması başa düşüləndir. Ən azından Azərbaycan müstəmləkə bir ölkə idi. Lakin Osmanlı imperiyasının dağılma mərhələsini yaşamasına baxmayaraq, hələ də azadlıqlarına sahib olduqlarını nəzərə alsaq, onda gərək nəticə belə olaydı ki, türk əsarəti altında olan Avropa xalqları türk modasına keçəydilər. Lakin göründüyü kimi, tam fərqli bir durum yaranır. Yəni mədəniyyətlərarası uçurumlar formalaşır. Avropanın lazımsız qalıqları türk mədəniyyətinə hücum

etməyə başlayır. Hətta Anjelin simasında gəlib İstanbulu da, şəhərətrafı köyləri də gəzişib geri qayıdır. Diqqət yetirin, sənətkar Anjeli İstanbula qədər gətirsə də, orada saxlamır, yenidən gəldiyi yerə qaytarır. Özü də onu Yıldırım kimi bir türk oğlu öz xoşluğuyla yola salır. Yəni uçurumdan müdafiəyə hazır olan nəsil yetişir ki, bu nəsil Türk cümhuriyyətinin özülünü qoydu. Lakin bəzi nəsillər isə artıq uçurumun yetirməsi idilər.

Bunu biz "Şeyx Sənan"da da görə bilərik: "Uçurum, iştə hər tərəf uçurum! Anlamam bən, nədir bu taleyi-şum!?" sözlərini elə Şeyxin özü söyləyir. Ən ümumiləşdirilmiş obraz olan Cəlal isə çox şeyi etiraf edir ki,

"Uçurum: qaranlıq, çıqılmaz yolum,
Uçurum: uçurum həp sağım, solum
Uçurum: duyduğum həqiqət, xəyal.
Uçurum: uçurum yıldızlı amal.
Uçurum: çağlayanlar, kəhkəşanlar.
Uçurum: dənizlər, dağlar, ormanlar.
Uçurum: üfüqlər, əngin fəzalar.
Uçurum: uçurum çılğın dəhalar.
Uçurum: sürəkli, coşqun alqışlar,
Uçurum: uçurum süzgün baqışlar.
Uçurum: şu çirkin, şu alçaq həyat
Uçurum: uçurum bütün kainat!.."

Bu fikirlərin doğruluğu Mənəkşə kimi bir övladını itirmiş Gövərçinin timsalında görünür. Ədib 1914-cü ildə yazılmış əsərdə açıq qoyduğu bir problemi beş il sonra yazılmış əsərdə tamamilə çözür. Qeyd etdiyimiz kimi "Uçurum" əsəriy ilə Cavid yaradıcılığının birinci mərhələsi başa çatsa da, bu mövzu davam edirdi. Sonralar "Peyğəmbər" əsərində görünür ki, bu uçurumların kökü

neçə əsrlər əvvələ gedirmiş. Deməli, "Uçurumlar, alev saçan ovalar. Ruhu qəsvətə yıldıran havalar..." hələ peyğəmbərin zamanında da varıymış. Hətta Şəmsa ona xəbərdarlıq da edir ki, "Uçurum izlədiyin qorxulu yol". Bu qorxulu yolun da yolunu dahi mütəfəkkir elə həmin əsərdəcə Baş rəisin vasitəsilə təqdim edir. "Kəssə hər kim dökülən qan izini, Qurtaran dahi odur yer üzünü". Fəqət, tarix öz qanunauyğunluqlarıyla davam edir. Peyğəmbərin zamanından yüz illər ötsə də, onun dinini qəbul etmiş iki türk cahangiri nə din, nə də milli birliyi düşünmədən türk xalqlarının sonrakı taleyini dərin bir uçuruma atdılar.

Dramaturq bunu "Topal Teymur" əsərində Divan-bəyinin nitqində çox ifadəli şəkildə göstərir. "Şu iki qütb bir-birlə çarpışırsa, arada fəlakətli bir uçurum açılmış olur. Və bu nifaqdan istifadə edərək, ətrafı saran əcnəbi devlətlər türk dünyasına saldırmağa fürsət bulur". Bundan sonra nələr oldu və onlar necə yozumlandısa çoxlarımıza məlumdur. Lakin ən qəribəsi o qərarın verilməsi anındankı vəziyyət-dir. İldırım bilə-bilə özüylə birlikdə bütün türklüyü uçuruma aparır: "Əvət, bu məktubla Yıldırım böyük bir məsuliyyət- bir məsuliyyəti-tarixiyyə altında qalacaqmış!" Əslində bu ən böyük tarixi məsuliyyətsizlik idi. Xəzərin sağında və solunda yaşayan türk xalqları əsrlər boyu bir-birini anlamamış, bir-birinə yadlaşmışlar. Xəzər sanki real uçurum rəmzinə çevrildi; dini, dili, mənşəyi bir olan bu türk etnosları bir araya gəlməkdə tarixi bir çaba göstərmək zorunda qaldılar, lakin sonuc nailiyyət oldu.

Axı Cavid özü "Xəyyam" əsərində Xəyyamın dili ilə deyirdi: "Binlərcə şəhər yox, ya qala almaqdan əmin ol, Bir sadə çoban könlünü almaq daha məqbul". Xəyyam bu cür düşünsə də, onun ən yaxın həmfikri olan Xərabatını camaat: "Alçaq, haylaz!"- deyə vurub yanındakı uçuruma düşürür. "Şeyx Sənan"dakı kimi bu epizodda da yazar

uçurumun həqiqi varlığına da diqqət yetirmişdir. Çünki bu uçurumlar nə qədər məcazi olsalar da, bir o qədər də həqiqi idilər. Elə Cavidi məhv edən cəllad da əsərdəki oxşarı kimi düşünürdü. "Qatil deyilim, aləti qətlim". Məhz bu qətl alətlərinin əli ilə Hüseyn Cavidi məhv etmək istədilər. Lakin həqiqətdə uçuruma yuvarlananlar özləri oldular. "Şeyda-Cavid isə uçduqca uçdu, yüksəldikcə yüksəldi. Nihayət, buludlara qavuşaraq büsbütün qeyb oldu".

"Azad Azərbaycan" qəzeti. 24 dekabr 2014

TAHİR TALIBLININ "VAXT VAXTINDA GƏLİR" KİTABI

"Dünya yaranan gündən sözdən tuta-tuta gəlir" – inancına tapınan Tahir Talıblı 70 illik yubileyinə sanballı bir kitabla qədəm qoyub. Bir çox mətləblərə toxunulan "Vaxt vaxtında gəlir" adlı kitabda diqqətimi daha çox türkanə mübarizə çəkdi. "Türk Dünyanın Söz qədər qədim xalqıdı" - qənaətinə gələn yazar hər bir yazısında, hər bir sözündə bu qədimliyin çağdaş dövrümüzə qədər gələn qüdrətini qoruyub saxlamaq üçün bizlərə sətir-sətir yol göstərir. Gördüklərinin, götürdüklərinin yekun nəticəsi bu olur ki, "Hər halda, türk dünyanın ən ağrılı taleyi olan bir xalqıdı..." Özü ağrılı tale yaşayan bu xalqın dünya mədəniyyətinə bəxş etdiyi dəyərli abidələr də taleyin ağrılarını dadmaq məcburiyyətində qalıb. Bunlardan birinə canlı şahid olan müəllif gördüklərini qələmə almaqdan başqa haqsızlıqdan qisasını almaq yolunu ayırd edə bilməyib.

Dərbənddə Vəlikənddə aşkarlanmış kurqan muzeyin başına gətirilənləri yazmazdan öncə tarixin sirlərini lentin yaddaşına köçürmək üçün həmin məkana yollansalar da, Bakıya gələndə məlum olur ki, çəkiliş materialları yararsız hala düşüb. Tahir Talıblı istədiyi verilişi ərsəyə gətirə bilməsə də, demək istədiyini məqaləsi ilə çatdırmaq qərarına gəlir. Məqalədən məlum olur ki, həmin ərazidə əvvəl Mahaçqala alimləri qazıntı aparsalar da, sonradan Moskva alimləri də bu işə girişirlər. "Qazıntı onların gözlədiklərini, istədiklərini üzə çıxarmır. Üzə çıxan isə tamam başqa həqiqətlər idi - türklərlə bağlı tarix. Tez qazıntı dayandırılır, üstü ört-basdır edilir..." Amerikalı alimlər isə bu tarixin qədim türklərə məxsus olduğunu etiraf etsələr

də, ən nəhayət, həmin ərazidə fabrik tikmək qərara alınmaqla türk tarixinin bir parçasını da beləcə gömürlər.

Yazar başqa bir tarixi istinadımız olan Koroğlu qalası haqqında müfəssəl məlumat verdikdən sonra əsas mətləbə keçir: "Çox güman ki, o tuneldə qədim oğuzların həyat tərzlərindən bol-bol nişanələr olmamış deyil". Bu nişanələrin yox edilmə ağrılarını içində yaşadan və həqiqətləri gələcək nəsillərə ötürməkdə israrlı olan müəllif hətta başqa xalqlara məxsus mütəfəkkirlərin türklər haqqında olan fikirlərini də dilimizə çevirmişdir. Monteskyodan etdiyi tərcümədə türklər haqqında deyilir ki, "Türklər Avropaya, Asiyaya, Afrikaya istilaçı yürüşlər eləmiş, ağlasığmaz qələbələr qazanmış, dünyanın üçdə birini zaman-zaman öz hakimiyyətləri altında saxlamışlar". Dünyanın üçdə birini hakimiyyəti altında saxlamağı bacaran bu xalq sadəcə istilaçılıqla məşğul olmamış, əsrlər sonra dünya türkoloqlarını etiraf etmək məcburiyyətində qoyan tarixi salnamələr də yaratmışdır.

Tahir Talıblının yazılarında həmin salnamələrin də əbədi yaşarlılığına əminlik ifadə olunub. "Yaşı iki min ilədək bir tarixi üstələyən Orxon-Yenisey və digər onlarca abidələrimiz əslində dilimizə qoyulan abidələr deyilmi?" - sualı ilə tarixi cavab verilmişdir. Yazılarının leytmotivini türklüyə söykəniş təşkil edən yazar "Türk özünə qayıtdıqca güclü olur" - həqiqətini daha çox alqışlayır. Lakin bu, o demək deyildir ki, onun bütün yazıları eyni mövzuludur. Bir mətləbdən qaynaqlanan, müxtəlif mövzuları əhatə etsə də, sonunda yenə də türkün dərdlərinə hesablanmış digər mövzulu yazıları da kifayət qədərdir.

Onun fikrincə, "özünüdərk isə etnomühiti yaratmaqla, yeddi arxa dolanını tanımaqla, soy-kökə bağlılıqla mümkün olur". Özünüdərkin yollarını faşizm vaxtı faşist, kommunizim vaxtı kommunist, demokratiya vaxtı demokrat olmaqda

görənlərin yaşamını faciə hesab edən yazar, əsl faciəni qaçqınlıq vaxtı qaçqın, köçkünlük vaxtı köçkün ömrü yaşamaqla görür. Tarixi Azərbaycan torpaqlarından deportasiya olunmağın acısını unuda bilməyən müəllif etiraf edir ki, "mənim üçün ən faciəli, ən ağır gün-axırıncı gün, evimdən axırıncı çıxdığım gün oldu". İçində bir türk ailəsinin xatirələri məskunlaşan o evin sonrakı aqibəti də yazar tərəfindən nağıl edilir: "Mən qırmızı daşla tikilən ikimərtəbəli evimi ermənilə beton mənzilə dəyişmişdim". Özünün məhkum edildiyi zülmlər azmış kimi, xalqının da sürükləndiyi fəlakətlərə daim vətəndaşlıq mövqeyi ilə münasibət bildirmişdir. "Qəsd" sərlövhəli yazısında havasından qan qarışıq qurğuşun iyi gələn 20 Yanvar faciəsi haqqında bir çox önəmli faktlara toxunulmuş, "Şəhidlərin ilini görən şəhid" yazısında isə Maşayev İmran Hacı oğlunun timsalında şəhidliyə gedən şərəfli həyat tarixçələri keçmişdən gələcəyə diqtə edilmişdir.

Bir yazısında bir neçə mətləbə ustalıqla toxunmağı bacaran yazar ağır islam xurafatından, bolşevizm tuğyanından adlayan aşıqlıq sənəti, xalqdan aldığını xalqa qaytarmağa başlayan "Bulaq" verilişi haqqında da oxucusunu intizardan qurtarır. Bütün bunlarla yanaşı, həmin kitabda özü öz içinə oturuşmuş Müslim Munis, ziyalılığımızın bütün mənalarda qaymaqlarından olan İsrafil Məmmədov, Məmməd Arazın şeirlərini rutul dilinə çevirən Aşıq Sakit, öz torpağını tozundan tanıyan, torpaq məsələsində heç Allahın özünə də güzəştə getməyən Söyün kişi, oxuduqları başqa dünyanın səsi olan Qədir Rüstəmov, səkkizlik şeir formasını Azərbaycan ədəbiyyatına ilk dəfə gətirən Kələntər Kələntərli haqqında da bilmədiyimiz bir çox mətləblərə aydınlıq gətirilir. Bunlardan əlavə, Qars sözünün ODƏRƏŞ (KİƏRƏŞ), Kür sözünün isə ODƏR (KİƏR) sözündən formalaşdığını iddia edən İsa Muğanna, dünya

elmində qeyri-səlis məntiqin atası olan həmyerlimiz Lütfi Zadənin həyat və yaradıcılığına həsr olunmuş "Dünya dahilərsiz yaşaya bilmir" kitabının müəllifi Möhbəddin Səməd, əsərlərində ən çox "Nar" təsvir olunan Toğrul Nərimanbəyov, Akif Səmədin, Ağamalı Sadiq Əfəndinin qəbirüstü abidəsinin müəllifi Məmməd Dəmirçioğlu haqqında da kitabda özəl sevgi ilə söz açılır.

Tahir Talıblıya ünvanlanmış məqalələrin də yer alması kitaba xüsusi çəki verir. Onun "Əziz Əliyev, dövrü, həyatı, şəxsiyyəti" kitabı barəsində məqalə yazmış Əsgər Zamanovun fikirlərinə nəzər saldıqda böyük bir zəhmətin şahidi oluruq: "Müəllif bu kitabı yazmaq üçün Bakının, Mahaçqalanın arxivlərində axtarışlar aparmış, xeyli sənədlərə baxmış, istifadə etmiş, Ə.Əliyevlə təmasda olmuş müxtəlif peşə adamları və qohumları ilə görüşmüş və sanballı bir əsəri ərsəyə gətirmişdir". Hətta müsahibələrini oxuduqca müəllifin bir jurnalist peşəkarlığı ilə həmsöhbətini danışdırmağı bacarması diqqəti çəkir.

Onun Bəxtiyar Vahabzadə ilə olan müsahibəsində müsahibinin söylədiyi bir fikir hələ də aktuallığını qoruyur: "Çox vaxt gənclərin gətirdiyi yeniliyi qəbul edə bilmirik və bizə elə gəlir ki, tapdanmış yolumuzla gəlməyən gənclik bizi inkar edir". Hətta bəzi müsahibələrindən yaxından tanıdığımız söz adamlarının bələd olmadığımız tərəflərini də öyrənirik. Məmməd Arazdan aldığı müsahibədə ustad şair etiraf edir ki, "Mən şeiri sistemli şəkildə yazmıram, yəni əvvəldən axıra doğru. Bəzən əvvəl sonu yazılır. Ümumiyyətlə, hissə-hissə yazıram, sonra isə yuxarıda dediyim kimi calaq eləyirəm". Göründüyü kimi, Tahir Talıblı özünün 70 illiyinə hədiyyə etdiyi kitabında bizlərə də bilməli olduğumuz bir çox mətləbləri hədiyyə etmişdir. Bəlkə də, hər hansı bir yazısını qələmə alarkən onun alt qatlarındakı yanğını nümayiş etdirmək kimi bir fikri də

olmayıb, amma haldan anlayan oxucu bu yazıların ürəkdən gələrək ürəklərə getdiyinin fərqinə varır. Fikrimizi təsdiqləmək üçün müəllifin qələmdaşlarından olan Sarı Ömər Mollaosmanoğlunun sözlərinə diqqət yetirmək kifayətdir: "Sən üsyançı deyilsən, baxta, yazıya boyun əyən – kulun başına nə gələrsə, Allahdan gələr düşüncəsini mənimsəmiş bir aydınsan, qələm adamısan".

"Türküstan" qəzeti. 13-19 fevral 2018

ALIN YAZISINA YAZI

Arif müəllim!!! Belə bir yazını bu qədər tez yazacağımı heç vaxt xəyalıma da gətirməzdim. Hələ də qəbul edə bilmirəm ki, onu bu qədər tez itirdik. Əslində biz bir dəfə bunun qorxusunu yaşamışdıq. Belə ki, Arif müəllimin ölümündən iki il öncə olardı, bir magistr yoldaşım tələşla mənə zəng edib dedi ki, efirdən belə bir xəbər eşidib ki, Arif müəllim avtomobil qəzasına düşüb. İkimiz də yerə-göyə sığışa bilmirdik. Tez bütün mümkün variantlarla həqiqəti öyrənməyə cəhd etdik. Hətta digər tələbə yoldaşlarımızdan da məlumat öyrənməyə çalışdıq. Ən nəhayət, ağlıma gəldi ki, Nadir Məmmədlidən soruşum ki, Arif müəllimdən bir xəbəri varmı. Sağ olsun Nadir müəllim necə qorxuya düşdüyümü hiss edib, Arif müəllimlə əlaqə saxlaya bilmişdi. Nəhayət, Nadir müəllimdən xoş xəbər gəldi ki, Arif müəllim sağ-salamatdır. İlahi, bu necə də sevindirici xəbər idi. Hətta Nadir müəllim yarızarafat, yarıciddi qeyd etdi ki, Arif müəllimə qibtə elədim, onu bu qədər sevən tələbələri var!!! Onunçün bu qədər narahat olurlar!

Doğrudan da, tələbələri tərəfindən birmənalı şəkildə sevilən müəllimlərdən birincisiydi Arif Əmrahoğlu. Mənim taleyimin mənə ən böyük töhfələrindən biri də o idi ki, mən dəfələrlə onun tələbəsi olmaq sevincini yaşamışdım. İlk dəfə BDU-nun filologiya fakultəsinin ikinci kursunda oxuyarkən düz bir il Türk xalqları ədəbiyyatı fənnini bizə tədris etdi. Yenə də bakalavrın dördüncü kursunda oxuyarkən bir semestr bizə Türkiyə ədəbiyyatı fənnini keçmişdi. Ən sonda mən magistraturanı Azərbaycan Müəllimlər İnstitutunda oxuyanda taleyin növbəti xoşbəxtliyindən biri də bu oldu ki, həmin vaxtlar Arif müəllim orada dərs dedi və yenə də mən onun tələbəsi

oldum. Daha bir şanslılığım o idi ki, elmi rəhbərim də Arif müəllim təyin edildi. Bu səbəbdən də, onunla daha sıx təmasda olurdum. Hətta bəzən görüşlərimiz AYB-də olardı. Beləcə, onunla işləyən xanımlarla da yaxından tanış oldum... GÖZƏL İNSANLAR, səmimi etiraf edim ki, onu ürəkdən sevmək üçün bu qədər uzun zamanın keçməsinə və daha da yaxından təmasda olmağa gərək yoxuydu. Çünki hələ BDU-da oxuduğumuz ilk vaxtlardan onu layiq olduğu qədər sevirdik. Bununçün o qədər səbəblər var idi ki, ilk növbədə onun özünəməxsus insani keyfiyyətləri. Daha sonra bütün tələbələrin müəllimlərində arzu etdikləri əsl elmi savada malik olmaq keyfiyyəti onu xüsusilə sevdirirdi. Həm də peşəkar pedaqoji təcrübəsi də özünəxas idi. Bir sözlə, o, hər bir tələbənin müəllimi olmağı bacarırdı.

Bilirik ki, Arif müəllim həm də Yazıçılar Birliyində çalışırdı. Amma, ancaq, fəqət, zira, lakin o, bəlkə də, yeganə insan idi ki, öz tələbələrinə digər iş yerində də vaxt ayırırdı. Biz də bundan gərəyincə faydalanırdıq. İlk öncə onun iş otağındakı kitab rəfi tələbələrinin üzünə açıq idi. Mən də o kitablardan artıqlamasıyla bəhrələnmişəm, hətta xeyli kitabı da özüm üçün seçib götürmüşəm. Onun AYB-də çalışmasından biz yazar tələbələr daha çox faydalanırdıq. Mənə dəfələrlə bədii yaradıcılığımla da bağlı ən aktual məsləhətlərini verib. Ən düzgün yolu göstərib. Hətta lazım olan köməyini də əsirgəməyib. Belə ki, mən ikinci kitabımı çapa hazırlayarkən ən böyük əziyyət çəkənlərdən biri də O oldu. Həm şeirlərin seçimində, həm də nəşriyyatın seçimində ən düzgün istiqaməti müəyyənləşdirdi. Onun tövsiyəsi ilə kitab "Nurlan" nəşriyyatında çap olundu. Bu da mənimçün qürurverici hisslərdən biri idi. Elə o vaxtlardan Nadir müəllimi də Arif müəllimin sayəsində qazandım. Bütün həyat hekayələri bir istiqamətə aparır ki, onun sayəsində insanlar yalnız bir-biri ilə xoş

münasibətə başlayırdı. Ona o qədər öyrəşmişdik ki, bir gün onu itirəcəyimizi təsəvvür belə etməzdik. Hətta ağır xəstə olduğunu eşidəndə də çox ümidli idim. Heç cür ölüm həqiqətini yadıma salmırdım, belə bir şey olacağını yuxuma da gətirməzdim. Ailəsi ilə əlaqə saxlayıb vaxtaşırı səhhəti ilə maraqlanırdım. Tezliklə onun sağalacağını gözləyirdim, amma, ancaq, fəqət, zira, lakin...Eşitdiyim həqiqəti hələ də həzm edə bilmirəm. Heç cür onu itirdiyimizlə razılaşa bilirəm. Yenə də AYB-yə gələndə qeyri-ixtiyari gözüm onu axtarır. Hərdən mənə elə gəlir ki, hər şey yazının əvvəlində xatırlatdığım o əhvalat kimi bir anlaşılmazlıqdır, yenə də Nadir müəllim zəng vurub deyəcək ki, boşuna tələş etməyin, Arif müəllim sağ-salamat dostları ilə baş-başadır. Kaşkilər nə qədər çox olsalar da, ən əlçatmaz arzulardır. Sağlığında həmişə ruhumuzu şad eləmisən. Biz də sizi yad edirik. Ruhunuz isə əbədi şad olsun...

Hər kəs üçün yaxşı. "Xan" nəşriyyatı.
2016. səh. 259-261

ƏBÜLFƏT İSLAMI XATIRLAYARKƏN

Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Əbülfət İslam 2016-cı ilin avqustunda 66 yaşında ömrünü başa vurdu. O, 1950-ci ildə Tovuz rayonunun Bozalqanlı kəndində anadan olmuşdu. Mənim həyatımda xüsusi rola malik olan bu insan ədəbiyyatımızın istedadlı qələm sahiblərindən idi. Bölgədə yaşasa da, müasir ədəbi prosesi daim diqqətdə saxlayan Əbülfət İslam uzun müddət Tovuz rayonunda fəaliyyət göstərən Aşıq Hüseyn Bozalqanlı adına "Varislər" ədəbi dərnəyinə rəhbərlik etmişdir. Onun ilk kitabı "Heyf ki ömür azdır" adlanır. Sonralar "Nəsihətlər " və "Təmsillər", "Ürəyimlə oynama" kitabları da işıq üzü görmüşdür. O, az ömründə kifayət qədər sanballı əsərlər müəllifinə çevrilə bildi. Bir neçə kitabı çap olunan Əbülfət İslamın çapını gözləyən bir sıra irihəcmli əsərləri də var. Əsasən bədii yaradıcılıqla məşğul olan şairin araşdırma xarakterli yazıları da mövcuddur.

Əsas peşəsi müəllimlik olan Əbülfət İslam uzun müddət Tovuz rayon Təhsil Şöbəsinin əməkdaşı olmuşdur. İstər pedaqoji fəaliyyətində, istərsə də bədii yaradıcılığında sağlam düşüncəli gənc nəslin formalaşmasına hər şeydən çox önəm vermişdir. Rayonda yaşayıb-yaradan bir çox gənc qələm sahiblərinin özlərini təsdiqləmələrinə dəstək olmuşdur. O, bütün ədəbi növlərdə qələmini sınamışdır. Maraqlı nəsr əsərləri ilə yanaşı sanballı poemaları da vardır. Şairin "Hikmət dəfinəsi" kitabında bir neçə poeması yer alıb. Onun "Ehtiyac" poeması avtobioqrafik xüsusiyyət daşıyır, özünün keşməkeşli həyat tarixçəsi əks olunmuşdur. "Xanəndə" poemasında isə el sənətkarı İsmayıl Məmmədovun poetik obrazı yaradılmışdır. Tarixi rəvayət əsasında qələmə alınan "Duel" poeması A.S.Puşkinə ithaf olun-

muşdur. Müəllifin folklor motivləri əsasında yazdığı poemalara "Ləyaqət", "Salsal əfsanəsi", "Xeyirxahlıq və qüdrət", "Sehrli fəs", "Üç qız", "Qoşa dağ əfasnəsi" əsərlərini misal göstərə bilərik. Eləcə də, onun bir neçə alleqorik poeması da vardır. Həmin sıraya "Ayğır məğrurluğu", "Ala öküzün nağılı", "Çaqqal südü əmən şirin nağılı", "Donuz hökmü" poemalarını nümunə çəkə bilərik. Ümumiyyətlə, onun təmsillərində son dərəcə tipik ümumiləşdirmə özünü göstərir. Bir nümunədə bunu müşahidə edə bilərik:

Dovşan ilə kirpini
Yarışa göndərdilər.
Qaçış üzrə Kirpiyə
Birinci yer verdilər.

Kirpinin mükafatı
Qucağıyla bir idi.
Çünki onu tapşıran
Dayısı Bəbir idi.

Yaxud da onun "Danışan kaman" poemasında insan ürəyinin dərinliklərinə bələd olan bir yazarın dünyagörüşü ilə tanış oluruq. Heca vəznində yazılmış əsərin əsas qəhrəmanı mükəmməl kaman ustası Rizvandır. Onun kamanına məftun olan Kamal on beş yaşlı qızı Gülnazı öyrənmək üçün Rizvanın yanına gətirir. Musiqinin sirlərini tezliklə mənimsəyən "Qız kamançanı indi, Ustadıtək çalırdı". Lakin ustadı bir musiqini çalmağı ona öyrətmir. Gülnaz isə söz verir ki, bu havanı özü öyrənib ustadına sürpriz edəcək. Bir gün Rizvan öz kamanında həmin mahnını çalanda qonşu otaqdan tələbəsi ifası ilə onun səsinə səs verir. Bu uğura ustadı çox sevinir. Bundan

sonra bir neçə həftə dərslərində fasilə yaranır. Narahat olan Gülnaz ustadıgilə gəlir. Ustadının xəstələndiyini görüb sarsılır. Həkim bildirir ki, o, komadadır. Onun yanında pıçıltı ilə də danışmaq olmaz. Qız yalvarır ki, mən kaman çalıb olun dərdini almaq istəyirəm. Axır ki, həkim razılaşır. Qızın həmin melodiyanı çalması ilə "...Xəstə sanki qımışdı, Gülnazın gözlərində sellər suya qarışdı". Eləbil möcüzə baş verir, ustadı gözlərini açır. Üç gün sonra kamanlar yenə də məhəbbətin dilində danışır. Poemada insan duyğuları və onun hər cür çətinliklərə qalib gəlməsinin gücünə inamdan söhbət gedir. Ümumiyyətlə, Əbülfət İslamın istənilən əsərində tamamilə özünəməxsus üslubun və xüsusiyyətlərin şahidi ola bilərik. Mövzusundan asılı olmayaraq bütün şeirlərini kamillik və mükəmməllik nümunəsi kimi ortaya qoymağın tərəfdarı idi. O, bütün yaradıcılığı boyu bu istəyini gerçəkləşdirməyə sadiq qaldı.

"Palitra" qəzeti. 23 avqust 2017

VAQİF YUSİFLİ - 70

"Gülnar Qasımlı mənim doktorantımdır" – bu sözlər 2016-cı ildə çap olunan "Gül" şeirlər kitabımın ön sözünün ilk cümləsidir. Müəllifi də elmi rəhbərim Vaqif Yusifli-dir. Azərbaycan ədəbiyyatşünaslığının sanballı tənqidçi kimi qəbul etdiyi Vaqif Yusifli həm də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiridir. Bu faktları əbəs yerə qeyd etmirəm, çünki həmin şöbə ilə birbaşa bağlılığım olduğu üçün yazımda daha çox Vaqif müəllimin doktorantı kimi çıxış etmək fikrindəyəm. Mən 2014-cü ildə Ədəbiyyat İnstitutuna doktoranturaya qəbul olunanda həmin şöbə yeni yaradılmışdı. Həm şöbənin, həm də Vaqif müəllimin ilk doktorantı olmaq şərəfinə nail oldum. Qəribədir ki, Vaqif müəllim də 1979-cu ildə namizədlik dissertasiyasını müdafiə edəndə mənim indiki yaşlarımda olmuşdur.

Bununla belə, digər bir maraqlı tərəfimiz barəsində Vaqif müəllim "Gül"ün ön sözünün yekununda yazır: "Onun da atasının adı Vaqifdir, elə mən də onun şeirlərinə mənəvi Ata xeyir-duası verirəm". Qeyd etdiyim faktlardan əlavə bizim doğum günümüz də eyni aya və qonşu günlərə təsadüf edir. Aprelin 20-də Vaqif müəllimin, 22-də mənim ad günümdür. Cümhuriyyətimizin 100 yaşı qeyd edildiyi 2018-ci ildə Vaqif müəllimin də 70 yaşı tamam olur. Bir alim ömründə bir ölkənin ədəbi sözünün məsuliyyətinin öhtəsindən şərəflə gəlməyi bacarmaq özü böyüklük əlamətidir. Bu böyüklüyün dəyəri Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin "Yusifli Vaqifdən Vaqif Yusifliyə" məqaləsində də verilmişdir. İsa Həbibbəyli kimi görkəmli şəxsiyyətlərin Vaqif müəllimə

bu cür yüksək dəyər verməsinin tutarlı səbəbləri var. Bunlardan ən əsası onun ciddi ədəbiyyatşünaslıq prinsipləri ilə yazıb-yaratmasıdır. Həmin prinsiplərə arxalanaraq ədəbiyyatşünaslıq elminə bəxş etdiyi kitablara on illiklər üzrə nəzər salsaq, zəhmətkeş bir alimin məhsuldar yaradıcılığı ilə qarşılaşmış olacağıq. 70-ci illərin sonunda "Müasir Azərbaycan nəsrində konflikt və xarakter" mövzusunda namizədlik dissertasiyası müdafiə edən Vaqif Yusifli 80-ci illərdə "Nəsr, konfliktlər, xarakterlər" kitabını ədəbi aləmə təqdim edir.

XX əsrin 90-cı illərində isə "Məmməd Araz dünyası", "Tənqid yarpaqları", "Karvanbaşı, yolun hayanadır", "Yollar hayana aparır", "Bu nə sehrdir belə" məqalələr toplusundan ibarət kitablarını nəşr etdirir. Eyni ənənə XXI əsrdə də yüksək xətlə davam edir. Demək olar ki, hər il ardıcıl olaraq bir sanballı kitab ədəbi ictimaiyyətə təqdim olunur: "Tənqid və bədii söz" (2002), "Tənqid də yaradıcılıqdır" (2003), "Yolayrıcı" (2004), "Fikrət Qoca-70 il" (2005), "Yaxşı ki sən varsan" (2007), "Sındır qəfəsi" (2008), "Poeziyanın yolları və illəri - 1960-2000-ci illər" (2009), "Rəsul Rza və müasir Azərbaycan poeziyası" (2010).Əsrin ilk illəri ilə müqayisədə onilliyin sonlarına yaxın məqalələr toplularını monoqrafiyalar əvəzləməyə başlayır. 1997 – ci ildə yazılmış "Ürəyimi sərdim günəşə" monoqrafiyası təkmilləşdirilərək, 2005-ci ildə "Fikrət Qoca-70 il" adı ilə yenidən çap olunur. 2009-cu ildə "Poeziyanın yolları və illəri - 1960-2000-ci illər", 2010-cu ildə "Rəsul Rza və müasir Azərbaycan poeziyası", 2011 - ci ildə "Şeirimizin Nərimanı", 2012-ci ildə "Poeziya və zaman" monoqrafiyaları işıq üzü görür. 2011-ci ildə "Müasir Azərbaycan poeziyasında ənənə və novatorluq" mövzusunda doktorluq dissertasiyasını müdafiə edən Vaqif Yusifli 2014-cü ildə yenidən məqalələr toplusu olan "Ədəbi həyat" kitabı ilə

sözünü deyir. Həmin kitab "Ədəbi mənzərə - Poeziya (2011-2012)" araşdırması ilə başlayır. Bundan sonra hər il akademiyanın Ədəbiyyat İnstitutunun nəşr etdirdiyi "Ədəbi proses" kitablarında geniş məruzələrlə çıxış edir. 2014-cü ildən başlayaraq ardıcıl olaraq "2013-cü ilin ədəbi mənzərəsi", "Ədəbi mənzərə - 2014", "Bölgələrdə ədəbi həyat" (2015), "Bölgələrdə ədəbi həyat" (2016) məqalələri ilə hər il üzrə sanballı araşdırma aparır.

Vaqif müəllimin kitablarının adlarını əbəs yerə qeyd etmədim. Həmin kitablara bir mütəxəsis nəzərləriylə diqqət etdikdə görürük ki, Vaqif Yusifli heç bir istedadı ədəbi təhlildən kənarda qoymaq istəməyib. Bu həm artıq sözünü demiş yaşlı nəslə, həm də ilk qələm təcrübələrini təqdim edən gənc nəslə şamil edilə bilər. Təkcə "Ədəbi həyat" kitabında onun gənc yazarlar haqqında doqquz məqaləsi yer alıb. Bütün bunlardan əlavə gündəlik mətbuatda Vaqif müəllimin hətta bölgələrdə yaşayıb-yaradan yazarlara da münasibət bildirdiyini izləyə bilirik. Həmçinin çoxsaylı mətbu orqanlarda gənc qələm sahibləri haqqında peşəkar yazılarını bu gün də oxuyuruq. 70 illiyində isə "Azərbaycan qəzəli" kitabı ilə oxucuların görüşünə gəldi. Həmişə böyük şövqlə yazıb yaradan Vaqif müəllimin bundan sonra da Azərbaycan ədəbiyyatşünaslığına əvəzolunmaz töhfələr verəcəyinə inanırıq. Həmçinin yetişməkdə olan yeni gənc alimlərə dəstəyini də diqqətdən kənarda qoymaq olmaz. Bu səbəbdəndir ki, institutun Ədəbi tənqid şöbəsi ölkənin savadlı və peşəkar tədqiqatçılarını bir arada cəm edib. Həmin şöbənin doktorantı kimi elmi rəhbərim, filologiya üzrə elmlər doktoru Vaqif Yusiflini yubileyi münasibətilə təbrik edir, zəhmətkeş komandası ilə birlikdə uğurlar diləyirəm.

"Kaspi" qəzeti. 7-9 aprel 2018

YANAR ÜRƏYİN İŞIĞINDA

Əsl yaradıcının zəka məhsulu cəmiyyətin qida mənbəyidir sözlərinin müəllifi müasir Azərbaycan ədəbiyyatına yorulmadan töhfələr verən Əlirza Xələflidir. O, bu dəfə nəinki siyasi mühitə siyasi hazırlığı ilə eləcə də, ədəbi mühitə istedadı və hazırlığı ilə gəlmiş Mədət Məmmədovu oxuculara yenidən təqdim edir. Bu təqdimat sanballı bir kitab vasitəsilə reallaşır. Kitabda publisist Mədət Məmmədovla şair Mədət Əyyuboğlunun bir-birini tamamlayan obrazı ilə qarşılaşırıq. Müsahibələrlə kifayətlənməyən, ayrı-ayrı vaxtlarda mükəmməl publisistik əsərlər də yazan M.Əyyuboğlu növbəti yubileyinə dostlarının dəyərli yazılarından tərtib olunmuş bir kitabla qədəm qoyur. Kitab yalnız yubilyara həsr edilmiş yazılardan ibarət deyil, həmçinin kitabın "Publisistik düşüncələr" bölməsində Mədət Əyyuboğlunun publisistik yazıları təqdim olunur. Kitabda 1959-cu ildə Ağdamın Güllücə kəndində zəhmətkeş ailəsində doğulan Mədət Əyyub oğlu Məmmədovun yaradıclığı işıqlandırılır.

Qarabağı işğal olunan, Ağdamı yağı tapdağında inləyən, dünyanın paytaxtı sandığı Güllücəsi göz dağına çevrilən şair "Xoşbəxtəm, xoşbəxtəm təkcə onunçün Üstümdə insanlıq adı var mənim" misraları ilə poetik mövqeyini nümayiş etdirir. Onun bu cür şeirləri Ə.Xələfli tərəfindən müfəssəl təhlilə cəlb olunur. Bununla yanaşı, Ə.Xələflinin təqdimatında biz kitabın ümumi qayəsi ilə yaxından tanış oluruq. Təqdimatdan məlum olur ki, onun Ulu Öndər Heydər Əliyev haqqında düşüncələri "Bir ürək yanırdı" başlığı ilə verilmişdir. Həmin yazıda Heydər Əliyevin xilaskar obrazının təqdim edilməsi, hərtərəfli təqdimatda verilməsi diqqətə çatdırılır. Ə.Xələfli xüsusi olaraq vur-

ğulayır ki, "başsız karvana bənzəyən Azərbaycan xalqı, bəlkə də, həyati göstəriş kimi Ulu Öndərə üz tutmuşdu". Məhz belə bir şəxsiyyətin ömür yolundan bəhs edən yazı geniş təhlilə cəlb edilməklə yanaşı, müəllifin seçmə yazılarından biri kimi kitabda özünə yer tutmuşdur.

M.Əyyuboğlunun "Bir ürək yanırdı" sərlövhəsi ilə verilmiş bu yazısında Heydər Əliyevin həyat və fəaliyyətinin incəliklərinə toxunulmuş, onun 20 Yanvar hadisələri zamanı nümayiş etdirdiyi mövqe dəstəklənmişdir. Müəllif yazır ki, "1990-cı ilin yanvarında baş verən həmin hadisəyə siyasi iqtidardan təcrid olunmuş, Moskvanın özündə nəzarətdə saxlanılan və dünyanın yaxşı tanıdığı görkəmli siyasi xadim Heydər Əliyev heç nədən – hətta canından qorxmayaraq Azərbaycan nümayəndəliyinə gəlmiş və Qorbaçov başda olmaqla siyasi intiriqantların gözü qarşısında onları ifşa etmişdi". Bütün bunlardan əlavə onun hakimiyyətə gəlməsi və əməli işlər görməsi də lütfkarlıqla yad edilir: "Tarix göstərdi ki, içdiyi andın keşiyində dura bilməyənlər də var. Ancaq Heydər Əliyev qüdrət sahibi kimi Ali Baş Komandan kimi və ən başlıcası, bütün dünya xalqlarının gözü qarşısında böyük faciələrə düçar edilmiş Azərbaycan xalqını axıracan qoruyacağına andı ilə inandırdı". Bütün bunları müşahidə edib diqqətdə saxlayan M.Əyyuboğlu "Böyük yolun davamı" yazısında cənab Prezidentin əməlisaleh işlərindən bəhs edir. Onun dövlətimizin dünəninə və sabahına işıq salan əməllərindən söz açır. Yazıda qeyd olunur ki, "Azərbaycan Demokratik Cümhuriyyətinin tarixi yubileyinin keçirilməsi, cümhuriyyət liderlərinin ayrı-ayrılıqda yubileylərinin qeyd olunması, onların mənəvi irslərinin öyrənilməsi naminə görülən işlər prezident İlham Əliyevin tarixi sərəncamlarından qaynaqlanır. Cümhuriyyət dövrü Azərbaycan Parlamentinin sənədləri nəşr olunur, tədqiqatçılar üçün hər cür şərait yaradılır ki, həmin

dövrü müstəqil Azərbaycanımızın özülü, sələfi kimi daha yaxşı öyrənək". Müəllifin bu cür sanballı əsərlərini bir araya toplayan, onlara layiqli şərh verən Əlirza Xələfli yazır: "Mədət Məmmədovun "Gözəlliyin əməldə təzahürü" əsərini Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uğurlu siyasi, mədəni, mənəvi fəaliyyətinin tərənnümü də adlandırmaq olar". Həmin yazıya diqqət etdikdə Ə.Xələflinin fikirləri ilə tamamilə razılaşırıq. "Gözəlliyin əməli təzahürü" məqaləsində Azərbaycan mənəvi mühitinin birmənalı şəkildə sevgi ilə qəbul etdiyi Mehriban xanımın Azərbaycanın mənəvi həyatında qeyri-adi görünüşdə təzahürünün təsadüfi olmadığı, tarixən türk qadınlarının dövlətçilik siyasətində yaşarı ənənələri olduğu iftixarla yad edilir. Həmçinin, M.Əyyuboğlu bir faktı da unutmur ki, "Mehriban xanım Əliyeva türk xalqlarının mənən daha yaxınlaşmasına, müştərək mənəvi irsin öyrənilməsinə də xüsusi diqqət göstərir". Bununla belə, onun şəxsi həyatında da örnək bir türk qızı olması alqışlanılır, müəllif bu yönümdə düşüncələrini belə ümumiləşdirir: "Azərbaycanı idarə edən mərkəz sevgi düsturuna güvənir". Hər üç yazıda Mədət Əyyuboğlunun dərin zəkası və həyati müşahidə qabiliyyəti diqqətdən yayınmır. "Qəlbimdə bir işıq var" yazısında isə həyatında böyük rolu olan insanlardan biri və bəlkə də, birincisi M.C.Paşayevin əzəmətli obrazı yaradılır, onun insani keyfiyyətləri böyük sevgi ilə anılır.

Ümumiyyətlə, kitabdakı yazıların seçimi və geniş şərhlərlə oxuculara çatdırılması Əlirza Xələfliyə məxsusdur. İlk yazılarda biz Mədət Əyyuboğlunun şeirlərinin layiqli dəyərləndirilməsi ilə qarşılaşırıq. Ə.Xələfli əsərlərində insanlığın geniş mənzərəsini verməyə çalışan M.Əyyuboğlunun poeziyasının incəliklərinə varır, şeirlərini və poemalarını təhlilə cəlb edir. Hər sözə, hər misraya ürəklə yanaşır. Bu

da poeziyanı içdən duyan bir insan üçün təbii haldır. "Poeziya bütün məqamlarda görünə bilən, həyatın bütün künc bucağında, təbiətdə və cəmiyyətdə hər yerdə cilvə göstərə biləcək bir gözəldir" - fikirlərinin müəllifi təhlil etdiyi bədii nümunələrlə bu sözlərə haqq qazandırır. Sözün öz haqqını istədiyi bir dönəmdə o, Mədət Əyyuboğlunun şeirlərində onun tərcümeyi-halını görür. Hər kəsin öz həyatını yaza bilməsi üçün indi daha çox şəraitin olduğu bir dövrdə dərdi və ağrını unutmaq insanı yaddaşsızlıq bəlasına düçar edə bilər qənaətinə gəlir. Bu baxımdan "Sözün ahı Vətənin ahı qədər ağırdır" – deyir. Əlirza müəllim sığal çəkdiyi misralara o qədər həssaslıqla yanşır ki, istər-istəməz onun səmimiliyinə şübhə qalmır. Bunun səbəbini belə açıqlayır: "Mədət Əyyuboğlu sözdən xəsisliklə istifadə edir. Misraların arasına artıq söz və ifadənin girə bilməsinə yer qoymur". "Sənətkarın bütün həyatı gözəl sözlər arasında keçir".

Yəqin elə bu səbəbdən də şair dünyanın gələcəyini və gedəcəyini unudaraq, necə deyərlər, öz işi ilə məşğul olur. Nəticədə isə yazılmalı olanlar yazılır. Onların necə yazılmasını isə belə təqdim edir: "Mövzu isə yalnız o zaman şairin mənəvi aləminə, dünyasına qonaq gəlir ki, onu qabaqcadan şair hiss edir, duyur, qarşılamağa hazırlaşır". Şair nə qədər hazırlıqlı olsa da, nə qədər ustalıqla sözlərə toxunsa da, öz səmimiliyindən uzaq düşmür. Buna görə də söylənilmiş bu fikirlər inandırıcı görünür: "...M.Əyyuboğlunun şeirlərini oxuyanda sadə və aydın düşüncənin gücünü görmək olur". Bu güc həm də insana, insanlığa olan inamdır. Ə.Xələfli qeyd edir ki, şair M.Əyyuboğlu üçün dünyanın ən böyük problemi dünyanı idarə edən və dünyanın özünə cavabdeh olan insandır. Hər şey insanın xeyrinə, onun xoşbəxtliyinə hesablanmalıdır. Hətta

"sənətin qızıl kərpicləri ilə dünyanın – insanlığın mənəviyyat sarayı tikilməlidir".

Sənətin bu missiyasını öz yazılarında əks etdirən Mədət Əyyuboğlunun yaradıcılığı haqqında görkəmli insanların əhatəli təhlilləri də kitabda yer alıb. Hər bir yazıda onun söz dünyası müxtəlif prizmalardan araşdırılır, lakin ortaq qənaət bu olur ki, istinad edilən mətnlər dəyərli mənbələrdir. Tahir Paşayevin onun şeirləri haqqında ümumiləşdirməsini məqbul hesab etmək olar: "Çoxlarından fərqli olaraq, Mədət Əyyuboğlu poeziyasında şairin mövzu, obraz fürsətcilliyi, zamanın kiçicik səhvlərindən yararlanıb..." Zamanın səhvlərini bağışlamasa da, zamanın süzgəcindən keçməyi bacaran müəllif haqqında Cəbrayıl Qəhrəman deyir ki, "Mədət müəllim xaraktercə səmimi, istiqanlı, həddindən artıq duyğusal və xeyirxah bir insandır".

Ən maraqlısı da odur ki, o, "... xeyirxahlıqdan, yaxşılıqdan çox böyük zövq alan, mənəvi rahatlıq tapan insandır". Bütün bunları cəmləyərək belə ümumiləşdirmə aparır: "Mədət müəllim bütöv insandır. Bütövlük - böyüklükdür". Böyüklüyün də özünə görə xırdalıqları, çeşidli incələnməsi var. Bu da hərənin öz baxış bucağına uyğun nəzərə çarpır. Tahir Orucov fikirlərini belə ifadə edir: "M.Əyyuboğlunun şeirlərini oxuyanda Vətənə sevgi, ona ürəkdən bağlılıq duyğuları öndə gəlir və bu hisslər onun yaradıcılığının əsas leytmotivini təşkil edir". O həm də M.Əyyuboğlunun şeirlərinin mövzu rəngarəngliyi və müxtəlifliyi ilə daha çox diqqəti çəkməsi qənaətinə gəlir. Tahir müəllim onun şeirlərinin nəzəri aspektlərinə də biganə qalmayaraq söyləyir ki, "şair bir qayda olaraq şeirlərində poetik fiqurlardan bacarıqla yararlanıb, canlı və cansız varlıqlara sanki yeni bir həyat tərzi verir". Bu deyilənlər yalnız poeziyaya deyil, həm də publisistik yazılara da şamil edilə bilər. Prinsipial və əqidəli mövqe

nümayiş etdirən Mədət Məmmədov "Tarixdən günümüzə" adlı yazısında xalq yazıçısı Elçinin yaradıcılığına və böyük şəxsiyyətinə dərin hörmətlə yanaşır. Onu bir yazıçı kimi belə xarakterizə edir: "Elçin "iç üzü" kifayət qədər görə bilən sənətkardır". Həm də onun xeyirxah əməllərini tarixi əhəmiyyət daşıyan fikir və düşüncələrini, tarixi təcrübə kimi sevdirir. "Məni sevindirən nədir" yazısında isə mənəvi dəyərlərə xidmət edən, hər cür şoudan kənar qəzet buraxmağın hədsiz dərəcədə çətin olduğu bir dönəmdə yaranmış "Kredo" qəzetindən bəhs edir. Bir qəzet barəsində yazı ilə bütöv mətbuat tarixi haqqında təsəvvür yaradır, hadisəyə öz münasibətini də gizlətmir: "Mən o vaxt çox sevinirdim ki, "Kredo"nun nəşrə başlamasını ziyalılar böyük sevgi ilə qarşılayır və münasibət bildirməkdən çəkinmirlər".

Göründüyü kimi, kitabda müəlliflərin bir-birinə qarşı sayğısı və bir-birinin yaradıcılığından xəbərdarlığı maraq doğurur. Bütün bunlar isə ortaya mükəmməl bir kitabın çıxması ilə nəticələnir. "Və bu yerdə - yəni bu kitabda şair Mədət Əyyuboğlu ilə publisist Mədət Məmmədov birləşir". Bu birlikdən onun həmkarlarının dünyagörüşü də boy verir. Biri haqqında yazılmış yazı ilə başqa birinin yazma bacarığı nümayiş olunur. Hərə özünəməxsus şəkildə öz sözünü deyir. Kitabda müxtəlif müəlliflər bir araya gəlsələr də, tərtibatçı və bir neçə məqalə ilə yanaşı yekun sözün müəllifi Əlirza Xələflidir. O, böyük zəhmət hesabına bir neçə yaradıcının izinə düşür, onların paralel düz xətlərini ədəbiyyatın sonsuz fəzasında birləşdirir. Çünki, inandığı bir həqiqət var ki, "yaradıcı adamların izi asanlıqla pozulmur".

Əli Rza Xələfli. Şair-publisist Mədət Əyyuboğlu. Adiloğlu. 2018. səh. 303-308.

NECİP SARAÇOĞLUNUN "GÜLƏ HƏSRƏT" DUYĞULARI

2017-ci il aprel ayının sonlarında iştirakçısı olduğumuz Uluslararası Trabzon Ədəbiyyat Festivalında Trabzonu yaxından tanımaqla bərabər onun maraqlı yaradıcı insanları ilə də yaxından tanış olduq. Bunlardan biri də Türkiyə Yazarlar Birliyinin üzvü Necip Saraçoğludur. Necib bəy də digər festival iştirakçıları kimi bədii yaradıcılıqla məşğuldur. Hətta şeirlərdən ibarət "Gülə həsrət" kitabını bizə hədiyyə də etdi. Lakin onun yaradıcılığı çoxşaxəliliyi ilə diqqətimizi çəkdi. Necip Saraçoğlu 1954-cü ildə Qars şəhərində anadan olsa da, əslən Gümüşhanədəndir. Əvvəlcə Sivasda, sonralar isə Trabzonda təhsil almışdır. Ən böyük hobbisi foto çəkməkdir. Bunlardan əlavə cam boyama (şüşə üzərində rəsm), tezhip (yarpaq üzərində naxışlar), yağlıboya, ebru sənətləri ilə də məşğul olur. Səkkiz dəfə cam boya sərgisi təşkil olunmuşdur. UTEF tədbirləri silsiləsində Hüseyn Kakaz Kültür Mərkəzində yenə də əl işlərindən ibarət sərgisi nümayiş olunurdu. Bu sənət incilərinin necə hazırlanmağı barədə müəlliflə orada həmsöhbət olduq. Necip bəy bildirdi ki, 15 ildir məşğul olduğu bu işləri öyrənmək üçün heç bir təhsil almayıb. Televizorda bir verilişdə necə hazırlanması qaydasını görüb, fərdi şəkildə məşğul olmağa başlayıb. Sonralar sadəcə miniatür kurslarına gedib. Yaratdığı motivləri isə müxtəlif rəsmlərdən götürür. Yarpaq üzərində hazırlanan əl işləri barədə onu dedi ki, yarpaqları yaş ikən alıb qəzetlərin arasında qurudur. İki-üç ay keçdikdən sonra onları boyayaraq üzərində yazılar yazır. Bu cür əsərlərinə "Qərənfil", "Dörd xəlifə və Allah, Məhəmməd", "Ya Allah", "Qadın-kişi", "Kirpi" və s. nümunə gətirə bilərik. Daha iri yarpaqlar üzərində "Üç vav", "Çiçək",

"Osmanlı laləsi", "Quş və bismillah" əsərlərini işləmişdir. Cam boyasına gəldikdə isə rəsm əsəri əvvəlcə şüşə üzərində işlənilir, sonra arxasına parlaq kağızdan fon verilir. Lakin əsərə tamaşa edəndə insanda elə təəssürat yaranır ki, sanki kağız üzərində işlənmiş rəsm şüşə çərçivəyə salınıb. Bu tip əsərlərinə "Tutuquşu", "Günəbaxan", "Naxış", "Üzüm", "Gəmi", "Üzüm yarpağı", "Çobanyastığı" və s. misal çəkə bilərik. Onun yaradıcılıq sferasının çoxşaxəliliyi ilə fındıqdan hazırladığı təsbehi Rəşad müəllimə, xurma çəyirdəyindən hazırladığı fiquru da mənə təqdim etdikdə bir daha tanış olduq. Bununla yanaşı, Azərbaycana xatirə olaraq həm cam boya əsərindən, həm də yarpaq üzərində işlədiyi əsərindən hədiyyə də etdi. Qəribədir ki, bu cür özəllikləri olan insanın peşə davamçısı yoxdur. Özü isə böyük həvəslə öyrənmək istəyəni öyrətməyə hazırdır.

Necip Saraçoğlunun bədii yaradıcılığına gəldikdə isə ilk şeirlərini liseydə oxuduğu vaxtlar yazmışdır. "Qırmızı mozaik daşlar" adlı bu şeirin sonrakı taleyi sual altındadır. 2009-cu ildə çap edilən ilk şeirlər kitabı olan "Gülə həsrət"in ön sözü yazar Halit Macitə məxsusdur. Kitabın ilk şeirləri gülə həsr olunub. Gülün indiki, gələcək və keçmiş zamanlardakı halı vəsf olunur. Doğma yurdu olan Gümüşhanəyə həsrət dolu misralar ithaf edib. Bununla belə bəzi şeirləri islamın müqəddəs şəxsiyyətlərinə və torpaqlarına həsr edilib. Şair hətta "İşgəncə çəkən vişnə ağacı"na, "Qarı dələməyən on qardələn"ə, "Şanlı Çanaqqala"ya, "Su"ya, "Yalnızlıq duyğusu"na, "Asfalta yapışmış pişik quyruğu"na maraqlı şeirlər yazıb. Hazırda Türkiyənin Trabzon şəhərində yaşayıb-yaradan Necip Saraçoğlu müxtəlif-yönümlü istedadı ilə fərqlənən bir türk insanıdır. Özünəməxsus yaradıcılıq yolları ilə türk mədəniyyətinə töhfəsini verməkdədir.

"525-ci qəzet". 9 may 2017

ÇANAQQALA ZƏFƏRİ VƏ YA 26 MİNANIN TÜRKANƏLİYİ

İbrətamiz Çanaqqala savaşı haqqında mükəmməl əsərlərdən biri də Turqut Özakmanın "Diriliş Çanaqqala. 1915" romanıdır. Əsər dörd böyük hissədən ibarətdir. 1.Rus ruleti, 2. Dənizin tutuşduğu gün, 3. Hazırlıq, 4. Diriliş birinci dönəm. Əsərə ön sözü də müəllifin özü yazıb. Müəllif bu savaşı diriliş, Türkün geri dönüşü, milli mücadilənin və cümhuriyyətin, bir sözlə, yeni Türkiyənin ön sözü kimi qələmə verir. Savaş olub bitəndən həmin döyüşə üç cür yanaşma olduğunu vurğulayır. Birincilər həmin zəfərdə Mustafa Kamalı yox sayaraq anlatmışlar. İkincilər M.Kamalın rolunu kiçiltməyə çalışmışlar. Üçüncülər Çanaqqala savaşını möcüzələr, kəramətlər sərgisi kimi anlatmışlar. Onların fikrincə, bu əsgəri bir savaşın qələbəsi yox, ilahi, gizli bir gücün sayəsində qazanılmış zəfərdir.

Ön sözdə o da qeyd edilir ki, hətta bəzi yazarlar savaşa Allahı da qatırlar. Belə ki, Tanrı Cavad paşaya röyasında çiçəklərlə bəzənmiş kəf və vav hərflərini göstərir. Bu ilahi işarətin anlamı əbcəd hesabıyla 26 deməkdir. Yəni paşaya ilahi xəbərdarlıq gəlir ki, 26 mayını - sualtı partlayıcını dənizin dibinə döşət ki, qələbə qazanasan. Bu cür qəribə yozumlara qarşı müəllif əsaslı bir sualla müraciət edir: "Nədən yalnız Çanaqqala savaşında ordumuza yardımçı oldular, möcüzələr, xariqələr yaratdılar, digər cəbhələrdə heç yardımçı olmadılar?!" Həm də bu qələbədən sonra savaş 9 ay sürdü, bir döyüşə tanrı himayədarlıq edirdisə o döyüş niyə 9 ay uzanmalıydı?! Müəllif son olaraq qərar verir ki, Çanaqqala da eyni ilə milli mücadilə kimi bir yazarın xəyal gücünə ehtiyacı olmayan dastandır. Bu səbəbdən də yazar uzun illərin

fundamental araşdırmalarının nəticəsi olaraq ortaya mükəmməl bir roman qoymuşdur.

Roman 27 Temmuz 1914, 27 Ekim 1914, 25 Temmuz 1915 tarixləriylə başlayır. Birinci hissədə ilk bir ildə baş verən hadisələrə diqqət edilir. Hər bir durum tarixi əsaslarıyla qabardılır. Bildirilir ki, 500 ildə qazanılan torpaqlar bir neçə həftə içində itirilmişdi. Dünya tarixində Qanuni dönəmindəki kimi zənginliyi, güclülüyü, gəlişimliliyi əldə etdikdən sonra bu zavallı duruma düşmüş tək bir dövlət yoxdu. Bununla yanaşı türk öz türklüyündə idi. Qərbin Türkiyə və türklər haqqında heç bir zaman doğru təxmin və tanıması olmayan siyasətçiləri yenə də çaşıb qaldılar. Müdhiş bir millilik, yurdsevərlik partlayışı oldu. Yazıçı bunu qabartmaq üçün elə epizodlardan sənətkarlıqla istifadə edir ki, bu da romanı daha da qüvvətləndirir. Kimsəsiz, yoxsul bir qadının da unudulmayacaq qəhrəmanlıq etdiyi yazarın diqqətindən yayınmır. O qadın yeganə varı olan saçlarını kəsib sataraq pulunu orduya verir. Bu da bir daha göstərir ki, xalq yüz illik durğunluğu üzərindən atmış, milli həyəcanı paylaşırdı.

Yazıçı birinci hissədə Çanaqqala zəfərinə gedən yolun müəyyən incəliklərinə də yer ayırmışdır. Məsələn, Ədirnənin geri alınması, Ənvər bəyin bu münasibətlə milli qəhrəman kimi yaddaşlara köçməsi bütün yurdu düyün evinə çevirdi. Böyük dövlətlər bu oldu-bitdini qəbul etmək məcburiyyətində qaldılar. Romanda üç əsas şəxsin tutduğu vəzifəsi xüsusilə qeyd edilir. “Çatalca Kolordusunun öncü birliğinin başında Kolordu Kurmay Başkanı Yarbay Enver Bey, Gelibolu Kolordusunun öncü birliğinde de Kolordu Kurmay Başkanı Yarbay Fethi Okyar ve Harekât Şubesi Müdürü Binbaşı M. Kemal vardı”. Bununla yanaşı ordu başına gətirilən əslən alman olan Liman von Sander Liman paşa deyə çağrılmağa başlandı. Özünəməxsus xarakteri

olan bu qərbli hər kəsdən bir alman kimi davranmasını tələb edirdi. Onun qabalığı türk əsgər və zabitlərində milliyyətçi ruhunu daha da gücləndirdi. Türk paşalarından alman heyranı olaraq tanınan Ənvər paşa da ordu başına keçdi və Liman paşa anladı ki, Əvər paşa nə qədər alman heyranı olsa da, özünə daha çox heyrandır. O, yeni və gəncləşmiş bir ordu qurdu, Liman paşa Ənvər Paşa ilə hesablaşmalı olduğunu anladı. Birinci dünya müharibəsi başladı və türk ordusu da almanların tərəfdarı olaraq bu müharibəyə qatıldı. Rusiyadan sonra İngiltərə, Fransa və Belçika da rəsmən Osmanlı dövlətinə müharibə elan etdilər. Hətta Yaponiya da formal olaraq onlara qoşulacaqdı. Yazıçı bu yerdə bir məqamı xüsusilə qabardır. Savaş başlayar-başlamaz Rus çarı Osmanlıda yaşayan ermənilər üsyan etməyə çağırdı.

Romanda ayrıca başlıq olaraq "Osmanlı-Almanya ilişkisinin özəti" də verilmişdir. Lakin biz əsas diqqəti məhz möhtəşəm Çanaqqala zəfərinin gedişatına yönəltmək istəyirik. "Çanaqqala Boğazı" adlanan hissəsdə əsas diqqəti çəkən döyüş hazırlığıdır. İstifadəyə yararsız bilib tulladıqları 13 top və digər lazımsız silahlar döyüş vəziyyətinə gətirildi. Hətta muzeyə göndərilmiş hava topları da istifadə edildi. Komandirlər Gəlibolu yarımadası ilə Ege dənizi ətrafını ovuclarının içi kimi bilirdilər. Romanın birinci bölümü "Rus ruleti" adı ilə təqdim olunur. Burada əsas hadisələr Sarıqamış fəlakəti ilə bağlı olaraq cərəyan edir. Bu bölümdə yazıçı müharibənin hərbi-texniki gücü ilə əsl vətəndaşlığın mənəvi durumunu ustalıqla qarşılaşdırır. Yüzbaşı Hilmi Şanlıtop əsgərlərinə son tapşırığını verir. "...Burada yenilmək başqa yenilgilərə bənzəməz... Düşmən güclü. Amma biz də çox qərarlıyıq. Çünki vətənimizi qoruyacağıq...Savaş zamanı kimsə yaralı və şəhidlərlə məşğul olmayacaq..." İkinci bölüm "Dənizin tutuşduğu

gün" adlanır. 19 Şubat saat 09.50-də ilk atış topçu zabiti yüzbaşı Harry Minchinin "Atəş!" əmriylə olur. Cornvallis zırhlısı-hərbi gəmisi tərəfindən atəş açılmasıyla Çanaqqala savaşı başlayır. Ağır topların atəşi saat 13.00-dək sürdü. Savaşın ikinci hissəsi saat 14.00-dan 17.30-a kimi davam etdi. Türklər 4 şəhid 11 yaralı vermişdilər. Bəlkə də, təsadüfi xoşbəxtlikdən beş gün hava çox pis keçdi. Türklər bu fürsətdən yararlanaraq, saxta partlayıcıları keçidlərə düzdülər.

Yazar xüsusilə vurğulayır ki, bəşər tarixində ingilislərlə türklər ilk dəfə savaşacaqdılar. Fevralın 25-dən Çanaqqala dəniz savaşı yenidən başlandı. İlk olaraq saat 10.15-də düşmənin"Queen Elizabeth"i div toplarıyla Səddülbahir tobyasını atəş altına aldı. Romanın bu hissəsində müəllif hər günün saatbasaat hesabatını yazır. Döyüşlərin nə vaxt başlamasından tutmuş nə vaxt bitməsinə kimi böyük bir sevgi ilə təsvir edilir. Hər bir düşmən gəmisinin atdığı addım və onun necə cəzalandırılması böyük ustalıqla canlandırılır. Yazıçı bir məqamı da önə çəkməyi unutmur. Cavad paşa Erenköy körfəzinə ölü nöqtə adlandırılan yerə də mina döşəməyi əmr etmişdi. "Öylə sıradan bir şey kimi söyləmişdi ki, bu önərinin tarixin axışını etkiləyəcəyi düşünülə bilməzdi". Nə qədər təhlükəli olsa da, bu tapşırıq yerinə yetirilməliydi. Yüzbaşı Nazmı Akpınarın rəhbərliyi altında "Nusrat" gəmisi ilə əldə olan son 26 partlayıcını paralel olaraq Qaranlıq limanına tökdülər. Müəllif döyüşün taleyini həll edən həmin anları çox həyəcanlandırıcı şəkildə anbaan göz önündə canlandırır. "...Nusrat" mayın gəmisi mayınların arasında 100-150 metr aralıqda, 80 kq ağırlığındakı minaları su üzərindən təxmini 4,5 metr altına sıralayacaqdı. 11 minalanmış xətt çəkdilər və saat 8.00-da Çanaqqalaya döndülər". Yazıçı düşmən tərəfin də əsl simasını göstərməkdən çəkinmir. "Lord Kitchener so-

nucdan o qədər əmindir ki, Hamiltona gözəl şans diləməyə də ehtiyac duymadı. L.Kitchener türklər haqqında yanılırdı...” Birləşmiş donanmanın rəhbərliyinə Cardenin yardımcısı Amiral John Michael de Robek gətirildi. Əsas hücumun isə 18 mart Perşembe günü başlanmasını qərarlaşdırdılar. Onların planında yalnız bir cəhət nəzərə alınmamışdı. “Yurdunu anası kimi, qadını kimi, uşağı kimi sevən, canından əziz tutan çılğın Türklər...”

Birləşmiş donanma 3 hücum qrupu hazırlamışdı. Birinci qrup 4 ingilis hərbi donanması idi: “Queen Elizabeth”, “Agamemnon”, “Lord Leson” və “İnflexible”. İkinci qrup 4 fransız hərbi gəmisi idi: “Gaulois”, “Charlemagne”, “Suffren”, “Bouvet”. Üçüncü qrup 8 ingilis hərbi gəmisi. “Majestic”, “Ocean”, “Vengeance”, “Cornvallis”, “Canopus”. Saat 10.30-da 18 üzən qala və 600 top marşla hücuma başladı. Saat 11.15-də həmin bənzərsiz savaş başladı. İlk atəşi Triumph gəmisi verdi. 35 dəqiqə aramsız atəş türklərə imkan vermədi. Dənizdə amansız döyüşlər gedən vaxtda başbakanlıqda böyük narahatlıqla gələn xəbərlər gözlənilirdi. Elə bu məqamda yazıçının bədii manevri maraqlıdır. O, Ziya Göyalpın ümidverici sözlərini də əsərinə daxil edir. “Biz indi Çanaqqalada vətənimizi qoruyuruq. Vətənini müdafiə edən əsgərin gücü silahın gücünü aşar. İngilis vətənini qoruyan türkü nə anlaya bilər, nə də yenə bilər...”Saat 12-də fransız gəmilərinə də hücuma keçmək əmri verildi. Türk əsgərlərinə isə daha önəmli bir əmr verilmişdi. Tək mərmi belə boşuna atılmayacaqdı. Türklərin hədəfi dəqiq vuran ilk mərmisi 12.20-də “İnflexible” gəmisinin ön dirəyini parçaladı və beləcə uğurlu bombardman davam etdi. Yazıçı ən kiçik epizodlarla böyük həyəcan yaşatmağı bacarır. Topun çarəsiz qalmağı Ərdəmətli Seyidin heysiyyətinə necə toxundusa, 275 kiloluq mərmini topa təkbaşına qaldırdı. O

cür ağırlığa yenilməməsi üçün yazıçı onun elə bir məğrur obrazını yaradır ki, bunu ancaq bir türk edə biləcəyinə heç bir şübhə qalmır. O, bu cür inadkarlıqla 3 mərmini topa yetişdirə bildi ki, həmin mərmilər "Bouvetin" gəmisini çevirməyə yetərli oldu. Həmin gəminin "Nusrat"ın hələ kəşf edilməmiş 18 minasına tuş gəlməyi ilə şiddətli bir partlayış oldu. Əsərin bu yerində yazıçı daha bir türk müdrikliyini nümayiş etdirir. "Fransız Zırhlısı Bouvet batır. Türk tabya və bataryaları qurtarma çalışmalarını əngəlləməmək üçün bir yerdən əmr almış kimi hamısı birdən atəşi kəsdilər. Başqa uzaq hədəflərə yönəldilər..." Saat 14.30-da "İnflexible" də savaşı davam etdirə bilməyəcəyini anlayıb geri çəkildi. Daha sonra fransız gəmisi Gauloisi vurdular. 3 saat içində türklər 5 düşmən gəmisini, necə deyərlər, oyundan kənarlaşdırmışdılar. İndi döyüş 11 düşmən gəmisi ilə türkün hikkəsi ilə dolu 14 mina arasında gedirdi.

Saat 16.00-da "İrresidtible" də "Nusrat"ın tökdüyü minaya çarpılıb partladı. Daha sonra "Ocean" da minaya düşdü. Birləşmiş donanma hərbi gücünün yarıdan çoxunu itirmişdi. Amiral de Robek geri çəkilmə əmri verdi. Ümumiyyətlə, savaşın necə bitdiyini müəllif belə təsvir edir. "Birleşik Donanma da artık açıkça dönüşe geçmişti. O zaman inandılar. Gün batıyordu. Deniz de gök de kan kırmızıya kesmişti. Sabah marşlar çalarak Boğaza giren Birleşik Donanmanın gururlu zırhlıları, orta ve küçük savaş gemileri, torpidobotları, motorları, mayın aramatarama gemileri - Hamilton'un deyişi ile bir cenaze korteji gibi - sessizce Çanakkale Boğazı'nı terk ediyorlardı. Sonunda onlar da yenilginin acı tadını tatmışlardı. Topçular şükür secdesine kapandılar. Bu zafer yüzlerce yıllık ezikliğe, emperyalizmi yenilmez sanmaya son veriyordu. Balkan yenilgisinin, Sarıkamış felaketinin, Süveyş

fiyaskosunun cesaretkırıcı etkilerini silecekti. Emperyalistleri, parayı, çeliği, makineyi, barutu, kader sanılan zavallılığı, aşağılık duygusunu, Avrupa önünde emireri gibi durma alışkanlığını yenmişlerdi". Ən təsirləndirici məqamlardan biri də odur ki, türk əsgəri uzun fasilədən sonra ilk dəfə zəfər yeməyi yedi. Yazıçı yenə də imperialist düşüncəsiylə millət sevərlik duyğusunu müqayisə edir. Kardenin qorxduğu nə vardısa başına gəlmişdi. "Üç zırhlı batmıştı, beş zırhlı ağır yaralıydı, bine yakın denizci kaybedilmişti. Donanma çökmüştü. Nasıl olmuştu bu? Eski İngilizlerin saygıyla andıklar "Koca Türk"geri mi dönmüştü?" Romanın digər iki hissəsindən və tarixdən də bəlli olduğu kimi qocaman türklük yenidən dünya idarəçiliyində öz mövqeyini möhkəmləndirirdi.

Çanaqqala milli ruh. Apostroff.
Bakı. 2015. səh. 299-304

İNCİ OKUMUŞU OXUYURUQ

"Ey şiir, yokum yolu senden keçmeyen seadetin içinde" misraları müasir türk ədəbiyyatının aparıcı simalarından olan İnci Okumuşa məxsusdur. Onun "Aşkın elif hali" adlı kitabında poeziya barədə düşüncələri "Şiir ki, şair gönlümün nazı, Şiir ki, devasız derdine gönüllü düştüğüm sızı" - sətirləriylə izah olunub. "İncedir şairler, incelir yaşarken Bir de ağlar kalemi yüreğindekileri yazarken" – misralarında isə yaradıcı insanlar barədə düşüncələri ümumiləşib. Bu xanımın həssas qəlbinin döyüntüləri qələmə aldığı hər bir misrada eşidilir. Özü etiraf edir ki, "gözyaşlarımı içmek istediyimde şiirler okurum kırdığım kalbime".

İnci Okumuşun həmin kitabdakı şeirlərinin əksəriyyəti məhəbbətin ülviliyinə hesablanıb. Eşq onun üçün yuxularını büküm-büküm edəndir. "Bana gelirken topla kırık kalemleri" deyən şair yalnız qalmış şeirləri şair ola biləcək insana əmanət edir. Bu şeirin mükəmməl bir misrasına nəzər salaq; "bana gelirken o sahra sesinden yakılmış türkülerle gel". Fikir verək: səhranın səsi və yaxılmış türkü. Əslində səhranın yandırıb-yaxmağı, türkünün isə ifa olunanda səsi olar. Eşq bu varlıqları o qədər tamlaşdırıb ki, onlar özlərinə məxsus əlamətləri bir-biriylə əvəzləyiblər. O, misralarında etiraf edir ki, vəhdətdəki eşq ən dərin acıdan yaradılmışdır. Onun sevdiyinə müraciəti də orijinaldır; "ey ebedi aşka hükümlü mahpus", "ey gölgesiz serinlik, kabuk-kabuk sevda". Bu xitablardakı özünəməxsusluğu diqqətdən kənarda qoymaq olmaz. Çünki bu elə bir məhbusdur ki, onun hökmü eşqlə çıxarılıb. O zavallının azadlığa çıxma şansı sevgisizliyə səbəb olar. Sevilməməkdənsə, sevimli məhbus həyatı yaşamaq daha xoşdur. Kölgəsiz sərinlik təzadının özündə bir harmoniya var. Kölgə düşən yer sərinlik olar əslində.

Amma bu sərinlik eşqin gücündən kölgənin köməyi olmadan da sərinləşdirici qüdrətini nümayiş etdirə bilir. Bunun üçün də o qədər dəridən-qabıqdan çıxır ki, ortada qabıq-qabıq sevda qalır.

Yine de tahtinda sultandır kalbim
Cilvesinde kilitlense de dillerim
Sevgili şikayetsiz durur yanımda
Bense yüreğimden bir nida beklerim.

Bəndin ilk misrasındakı "taxtında" sözü həm onun taxtında, həm də öz taxtında sultandır kimi anlaşıla bilər. Eləcə də, dilləri kilidləyən cilvənin kimə aid olduğu naməlum qalır. Bu da yenə bütövlüyün parçalanmasına işarədir. O taxtın, o cilvənin kimə məxsus olmasının önəmi yox, əsas odur ki, o bizi bütövləşdirir.

Ağacın kuru dalıyım
Öz neme gerek.
Suya düşmüş arıyım
Köz neme gerek.

Misralarında da eşqin hiddət məqamını görürük. Əgər ağacın budağı quruyubdursa, onun içindəki özək nəyə gərəkdir ki. O özəyin ki, o budağı həyata qaytarmaq imkanı yoxdur, deməli, onun özünün də o budağın içindəcə ölümə təslim olmaqdan başqa yolu qalmayıb. Eləcə də, çiçəkdən-çiçəyə qonmaq üçün uçan arının suya düşməsi onun məhvini qaçılmaz edir. Çünki o, üzməyi yox, yalnız uçmağı bacarır. Uçmaq nə qədər gözəl vərdiş olsa da, suya qərq olmaq təhlükəsində heç bir işə yaramır, üzməyi əvəz edə bilmir. Belə bir məqamda yandırıcı köz də lazımsız olur. Çünki atəşlə su bir arada ola bilməz.

Közün o suyu öz atəşi ilə qurudub, arını xilas etmək gücü yoxdur. Əksinə, nə qədər yandırıcı olsa da, təbiətin öz qanunauyğunluğu var, odu suyla söndürürlər. Od həmişə suya məğlubdur. Bu da o arı timsalı aşiqi boğulmaqdan xilsa edə bilmir. "Gül vaktine ne kaldı gülüm? bir gülsen, şu toprak gülistan olur" – misralarıyla başlayan şeir "aşık, gönülden düşdüğünde yok olur" qənaətiylə möhtəşəm sonluğa ünvanlanır. "Kaybolmuş takvimde günlerin sırası söyle gün verilirmi aşka?" - sətirlərindəki bədii sualın, bəlkə də, cavabı var. Amma bu cavab yalnız "YOX!" ola bilər. Çünki eşqə düşəcək gün təqvimdən qeyb olmuşdur. Bəs elə bir gün varsa, o təqvimdə də olmayıb, harada olasıdır?! "Unuturum yokluğunu her gamzeye yüzünü bırak" - kəlmələrində necə də özünəxas bir ifadə üsulundan istifadə olunmuşdur. Harada ki, bir qəmzə, bir naz var orada üzün görünür. Səni baxdığım hər üzdə görə bilirəm, bu da yoxluğunu mənə unutdurur. "Dökülür Füzuli kasidesinden su, içimde elifçe akan ateş"- bu misralar çox güman ki, böyük Füzulinin "Su" qəsidəsinə işarədir. Amma şair çox maraqlı uyarlıq yaratmışdır. İçində baş verən yanğını söndürmək üçün sadəcə suyun adını çəkmir, böyük şairin eyni adlı qəsidəsinin adını çəkməklə heyranedici poetik manevr edir.

İnci xanımın şeirlərinin özəlliklərindən biri də təbiətlə insanı izah olunmaz bir təmasda verə bilməsidir. "Buğulanırmış her kesin gözleri kendi derdinden, böyle ağlamayı bilmese yağmurlar, çiçekler açmazdı kederinden". Zəncirvari metaforalar sistemi mükəmməl işlənmişdir. Buğlanmaq fiziki hadisə olsa da, onu insan gözlərində poetikləşdirmişdir. Buğ yalnız yüksək temperaturda qaynama zamanı əmələ gəlir. Bu, gözlərin necə atəşin ağlamağının mübaliğəsidir. Sonra isə insana məxsus olan ağlamaq hərəkəti buludların üzərinə köçürülmüşdür.

Buludlardan tökülən göz yaşları çiçəkləri açdırır. Bu çiçəklər dərdlərindən açsalar da, ürəkləri açılır. Açılmasalar əsil çiçək ömrü yaşaya bilməzlər. Beləcə, insandan buluda, buluddan çiçəyə, çiçəkdən insana ötürülən bağlantılar yaşam fəlsəfəsini şərtləndirir. Canlı və cansız varlıqların bir-biri ilə necə üzvi surətdə bağlı olduqlarını üzə çıxarır. Anasına ithafla yazdığı şeirin mübaliğəli şişirtməsiz iki misrasına nəzər salaq: "bin bir irmak olurum damarlarımda aksan. seni görürüm hangi coğrafiyaya baksam". Ana sevgisiylə damarlardan axan qan dünyanın ən bolsulu çaylarından da güclü gurlayar. O çaylar təbii coğrafiyanın hər yerində görünər. "Sevdalı bir nehir bekler avuçlarında" şeirinin suya xitabən deyilmiş bəndinə baxaq:

Ey İsmail'in gözlerinde biriken
Hüzün yumağına kard(eş) su
Yüzün kibi
Secdeden kaldırmadan yüzümü
Acizliğini lütfet bize.

İkinci misradakı "kard(eş) su" ifadəsində maraqlı bir formayla suya iki cür müraciət görürük. Biri qardaş su, digəri isə eş-yoldaş su. Sonrakı misralardakı təşbeh isə xüsusilə orijinaldır. Suyun öz yatağı ilə axıb getməsini üzünü səcdədən qaldırmaması kimi mənalandırır. Belə çıxır ki, suyun öz yolu ilə axıb getməsi elə onun tanrısına ibadətidir. Onun poeziyasında maraqlı xitablardan biri də kitaba edilən müraciətdir; "Yalnız sana emanet etmeliyim yalnızlığımı. Seni dinlerken tutmalıyım nabız vuruşlarımı". Kitabı həmişə bilik mənbəyi, düzgün yol göstərən kimi təqdim etmişlər. Lakin İnci Okumuşun kitaba tam yeni bir baxışının görüntüsü bizə görünür. O, kitabı yalnızlığını əmanət edə biləcəyi yeganə varlıq kimi görür.

Misranın özəl cəhətlərindən biri də onun "yalnız" anafor ası ilə başlayıb, "yalnız"lığını təkriri yaratmasıdır. İstanbula o qədər şeir yazılıb ki, bu şəhər sanki lirik qəhrəman olmaq üçün yaradılıb. Lakin İnci xanımın həmin şəhərə həsr etdiyi şeirdə "güzelliyindir bil ki, hüznümün kefeni" - misraları İstanbuldan başqa heç bir şəhərə ünvanlana bilməz. Hüzn o zaman kəfənlik olar ki, o yox olsun. Bu yoxluğa səbəb isə İstanbulun gözəl varlığıdır. Yazarın bu tipli qeyri-adi misraları çoxdur. Səbəbi isə odur ki, onun şeiriyyətlə öz sövdələşməsi var: "Ey şiir, ya sen hayatım ol, ya da al senin olsun hayatım".

"Ulduz" jurnalı. Fevral 2016. səh. 75-76

ÖMRÜN YARIM ƏSRİ

"Nə yaxşı gəldim dünyaya, Yoxsa yerinə düşmüşəm" misralarının müəllifi etiraf edir ki, "Yaranışdan itirir, Doğum adlı sənədi, Şairin yaşı olmur". Çağdaş poeziyamızın aparıcı simalarından olan Fərqanə Mehdiyeva 100 faizlik nəticənin tənböləni olan bir ömür sahibidir. İndən belə əllicə ili də arxada qoysa, yüzə-yüz çempionluğun dadını çıxarar. "Bilirsən söz adamıyam, sən məni sözlə aldatma" etrifi ilə yanaşı "Üçbəndlik şeirimi üçbucaq edin" pıçıltılarını da hayqırır:

Taleyin köçünə köçü çatmadı,
İstədim "beş" alam, "üçü" çatmadı.
Atamın, Anamın gücü çatmadı,
Siz məni qoymayın şair olmağa.

Beş almaq istədiyin dərsdən, üçü çatmayanda nəticənin iki olacağı məlumdur. Bu isə qiymətsizlik deməkdir. "Elə bil, başına dünya tac qoyur. Şairlər dünyanın dərdini çəkir" - söyləyərək, əslində başı taclı şahlıq taxtına layiq söz adamlarına ehtiramını bildirir. Fərqanə xanımı digər yazar həmkarlarından fərqləndirən xüsusiyyətlərdən biri də sözdən, həqiqətən də, söz qoparmağı bacarmasıdır. Onun da poeziyasına folklorun təsiri az olmamışdır. "Susdum qızıla dönmədim, Barı sən də səs eləmə" - misraları "danışmaq gümüşdürsə, susmaq qızıldır" atalar sözünə istinadən yaranıb. "Ürəyincə islanmışam, Yağışdan qorxmaram daha" - ifadəsi də eyni mənbəyə bağlıdır. Daha maraqlısı isə onun öz təxəyyülünün gücündəndir: "İnanma üzüm gülsə, İnanma, dönüb gəlsəm. Yuxuna quzu girsə, Qurd-quşlar yeyir məni" – sətirlərində üzüm gülsə də, içimdəki sızıltıya əmin ol, dönüb gəlməyimin gedişi olacağına inan xəbərdarlığı var.

Ən maraqlı tapıntı isə 3-4-cü misralarıdır. Yuxunda quzu görməyin məntiqi yozumu; bu da onu bir qələm adamı kimi orijinallaşdırır. Fərqanə xanımın şeirlərində fikrin müxtəlif cür istiqamətləndirilməsini çox müşahidə etmək olar. "Zəmanə havamı elə çaldırır, Qalxıb oynayıram əsəbim ilə" cümlələrində də hər şey aydındır. Əslində sümüyümə düşməyən havanı oynamaq məcburiyyətində qaldığım üçün əsəblərim rəqsə başlayıb. Bu baxımdan məxsusi əsərlərindən biri "Adamam" rədifli şeiridir:

Bəlkə də, adam deyiləm,
Bəlkə də, sözsüz adamam.
Bu zamanda yaşamağa,
Mən hələ üzsüz adamam.

Bəndin bütöv məna yönünü qoyaq bir qırağa. Qafiyə yaradan hər iki sözün yaratdığı mənalar seriyasına nəzər salaq. İkinci misradakı "sözsüz"ü həm modal söz, həm də sifət kimi qəbul etmək olar. Amma nitq hissələri dəyişərkən mənadan mənaya maraqlı keçidin şahidi oluruq. Eləcə də, "üzsüz" sözü həm "adamam" isminin (xəbər) təyini, həm də "yaşamağa" məsdərinin (tamamlıq) zərfliyi kimi düşünülə bilər. Üzsüz adamam, yəni ikiüzlü deyiləm, həm də çox şeyə üzüm gəlmir. Digər tərəfdən "üzsüz yaşamaq" isə kiminsə yanında etdiyin əməlin peşmançılığından üzün olmaması mənasını verir. Bu şeirin başqa bəndlərində də fərqli mənalandırma xüsusiyyəti nəzərə çarpır. "Sinəmə çəkilən dağdı, Dərəsiz, düzsüz adamam" misralarında antitezanın omonimlik əsasında meydana çıxdığı göz qabağındadır. "Dağ" sözü əvvəlki misrada tamam başqa mənaya gedib çıxır, sonrakı misrada isə dərə və düz sözlərinin antonimi kimi təqdim olunur: Həmin şeirin digər misrasında da eyni vəziyyəti görmək olar. "Könlüm

hər an açılmayır, Bir az könülsüz adamam" yenə də "könülsüz" sözü iki anlama gəlir; həm ürəksiz olmaq, həm də kefsiz olmaq. "İki aldım bu dərsdən, saatım üçə qaldı" rəqəmsal misralarında ikidən üçə maraqlı keçid edilmişdir. Şeirin digər beytində isə oxuyuruq: "Oynamadıq uduzaq, oyun heç-heçə qaldı..." Heç-heçə nəticə o zaman olur ki, oynanılan oyunda hesab açılmasın. Amma hələ başlanmamış bir oyunun nəticəsiz qalması maraqlı ideyadır.

Aramızda uzaq yol var,
Addım-addım keçir günlər.
Həsrətin evi tikilsin,
Ümidini biçir günlər.

Aramızda yolun-məsafənin uzunluğuna baxmayaraq günlər addım-addım keçir. Yəni bir addım atmadan o biri addımın reallaşması mümkün deyil. Üçüncü və dördüncü misralar isə daha maraqlı alınıb. Həsrətə elə alqış edir ki, lap sadə müraciətə oxşayır; ay evi tikilmiş kimi. Digər tərəfdən bu evin tikilməsi üçün günlər öz ümidini ölçüb-biçir ki, tarazlıq pozulmasın, özül səhv qoyulmasın. "Çobanı sürüdən çoxsa, çomaq qoymağa yer yoxdu" - misralarının da aid olduğu şeirdən bir bəndə baxaq;

Nə fərqi var beş-birmişik,
Canı cana gətirmişik,
Başımızı itirmişik,
Papaq qoymağa yer yoxdu.

Canı cana gətirmək frazeoloji birləşməsi omonimlik xüsusiyyətinə malikdir. Həm canı dincəlmək, həm də canı

bezdirmək mənasında düşünülə bilər. Başını itirmək ilk baxışdan karıxıb qalmaq, çaşqınlıq anlamına gəlsə də, yekunda daha fərqli bir ideya üçün işləndiyinə şahid oluruq. "Mənə alacağın tac əvəzinə, sonrakı ağlımı başıma qoyum" - söyləyən Fərqanə xanımın müharibə mövzusunda da eksperimentləri maraqlı alınıb:

Bir saçın ağ hörüb, bu qara qızlar,
Anamın yaşıdı o qarı qızlar.
Görür ki, saralıb qara kağızlar,
Qırmızı geyinə bilməyir Anam.

Bənddə 4 rəngin - ağ, qara, qırmızı, sarı həmahəngliyinə nəzər salaq. İlk bənddə ağ-qara ziddiyyəti nəzərə çarpır. Sonra isə matəm rəmzi verən qara kağızların zaman keçdikcə saralması yada salınır, sarı qaraya qarşı qoyulur. Lap yekunda isə qırmızı və qara rənglərin rəmzi mənaları diqqəti cəlb edir. Göründüyü kimi müharibə mövzusunun kökü uzaqlara getsə də, hələ bitməmiş müharibəmizə də yer ayrılıb.

Qan ağlar Araz da, Kür də,
Tökülüb, tökülər bir də.
Ay analar, çətin yerdə,
Qalmaz şəhidlərin qanı.

Arazın, Kürün gözündən tökülən qanlı yaşlar olsa da, şəhidlərin qanı yerdə qalmaz. Üçüncü misradakı çətin sözü həm yer-isminə aid olub onun epiteti olur, həm də çətin ki, bu qan yerdə qala mənasında yozumlana bilər. "Hardasa olacaq "ilk görüş"lərin, çoxu bu yağışla ixtisar olar" misralarından aydın olduğu kimi onun poeziyasında təbiətə münasibətin də xüsusi formasını görmək olar.

Çayların özü də donub bu yerdə,
Qayalar şüşətək buz bağlayıbdı.
Soyuqdan əlacsız qalan dərə də,
Dumanın şalını oğurlayıbdı.

Qış fəslinin min cür tərifinə, vəsfinə rast gəlmişik, amma bu bənddəki orijinallığa söz ola bilməz. "Səbrim çatmır axıracan, Gözümə oturub ömür" qənaətinə gələn şairin özünəməxsus yaradıcılıq üslubu ən müxtəlif mövzularda ortaya çıxır. 50 illik ömür yolunun sadiq yolçusuna öz sözləri ilə müraciət edə bilərik "Təzə mənzilin mübarək, Gəlib canıma köçmüsən". Bu köçün əsasında onun köçürmək istədiyi istəklər dayanır.

Özünə arxa oldun,
Hər gün qabağa getdin.
Ömrü qələmə verdin
Sözə sadağa getdin.

Sözə sadağa getməyə könüllü razı olan bu şair "Ulduz" jurnalının poeziya şöbəsinin redaktorudur. Dörd kitab müəllifi və prezident təqaüdçüsü olan Fərqanə xanıma daimi zirvələr arzulayırıq!

"Azad Azərbaycan" qəzeti. 3 iyun 2014

MƏMMƏD İSMAYILIN LİRİKASI

Bəxtinə düşən günü şair taleyi kimi yaşayan Azərbaycan yazarlarından biri də Məmməd İsmayıldır. Həmişə özünə, milli kimliyinə əsaslanan M.İsmayıl yaradıcılığı tarixi ənənəyə və köklərə söykənən, amma ondan yaradıcı şəkildə bəhrələnən bir poeziyadır. Məmməd İsmayıl misralarının haqdan su içdiyi dəfələrlə təsdiqlənib. Bununla yanaşı, folklor ədəbi ənənələrindən bəhrələnmək şairin yaradıcılığının bütün dövrlərini əhatə edir. Onun son illərdəki əsərlərindən olan "Oğuz hələ yuxudadır" şeiri bunun bir nümunəsidir. "Su pərisi, su pərisi, bu çoban şəhvət hərisi..." misralarıyla başlayan əsər "Basatın Təpəgözü öldürdüyü boy"la səsləşir. Doqquz bəndlik şeirdə həmin boy bütün təhlilləri ilə göz önündə dayanır. Lakin şair burada boyun süjetini nəzmə çəkməyib. Bir çobanın acığına bütün Oğuzu qarğayan su pərisinin başına gələnlərlə "başına təpəgöz keçən, hələ yuxuda olan" oğuz elinin acınacaqlı taleyini qələmə alır. "Nolar o baxdı, sən baxma, Baxma, sən baxsan söz çıxar. Yaxanı yaxın buraxma, İçindən, Təpəgöz çıxar..." Bir çobanın səhvi ucbatından bütün oğuz elinin fəlakətə sürüklənməsini şair tarixi ibrət kimi göstərmişdir:

Öz-özünü bulmayanlar,
Özgələrlə üz-göz olur.
Sevgidən doğulmayanlar
Doğunca, Təpəgöz olur.

Bəndin bədii strukturu mükəmməldir. İlk misralarda özünü tapa bilməyən insanların başqalarının onu başa düşməməsi bəhanəsi ilə münasibətsizlik yaratmasına

münasibət bildirilmişdir. Son misralarda isə günahkar şəhvətin bəhrəsi olan varlıqların gələcək müsibətdən başqa bir şey olmayacağı xatırlanır. Bu cür məxluqlardan olsa-olsa Təpəgöz olacaq. O da daxili düşmənə çevriləcək. Bu yerdə şairin Təpəgöz məfhumuna verdiyi anlamı Ç.Aytmatovun Manqurt obrazı ilə də müqayisə etmək olar. Yəni bu obrazların hər ikisi hansı nəslə mənsub olduğunu unutmuşlardır. Lakin Manqurtdan fərqli olaraq, Təpəgöz səma mənşəli bir bəladır. Manqurt işgəncələr nəticəsində milli kimliyini yaddan çıxarıb. Təpəgöz isə Oğuz elinin günah simvoludur, elə bir rəmzdir ki, axırda mənsub olduğu tayfaya qənim kəsilir. Şairin məharəti bu qaranlıq mətləbləri incəliklə işıqlandırmaqda üzə çıxır. Təpəgözü milli kimliyinə xain çıxanların obrazı kimi ümumiləşdirib.

M.İsmayıl istər dünya, istərsə də Azərbaycan ədəbiyyatını dərindən mənimsəmiş, yaradıcılıq prosesində onlardan örnək götürmüşdür. Milli və ya xarici ədəbiyyat nümunələrinə fərq qoymadan hər birinə hörmətlə yanaşmışdır. Türk şairi Nazim Hikmətin "Çinarlı qübbəli mavi bir liman, Məni o limana aparammazsan" - misralarını epiqraf gətirdiyi, "Su yolu, arzu yolu..." şeiri 1981-ci ildə yazılmışdır. Şair həmin epiqrafı gətirsə də, əsərə diqqətlə yanaşdıqda, orada türk dünyasının böyük yazıçısı Çingiz Aytmatovun da təsirini hiss edə bilərik: "Ordan, o sahildən bir uşaq baxar, Səssiz fəryadları suları yaxar. - Ay gəmi, ay gəmi, məni də apar. Sən canın, ay əmi, məni də apar" - parçasından aydındır ki, şeir Ç.Aytmatovun "Ağ gəmi" əsəri ilə səsləşir. Hər iki əsərdə ədəbi qəhrəman onu xəyallarına qovuşduracaq ağ gəminin sorağındadır - "Ordan o uşağın xəyalı kimi, Havaya millənər bir ağ göyərçin". Lakin M.İsmayılın arzular qoynunda xumarlanan cocuq obrazı öz uşaqlığının prototipi təsirini bağışlayır. Romandakı uşaq ağ gəminin atasını ona qaytaracağını

gözləyir, şair özü də uşaqlığından üzü bəri bu möcüzənin baş verəcəyi anın xəyalları ilə yaşayır. Türk ruhunu əsərlərinə köçürərək yaşadan və inkişaf etdirən Məmməd İsmayıl poeziyası poetik mənalandırmada novatorluğu ilə nəzəri çəkən poeziyadır. Onun şeiriyyatına çökən bu ruhu heç bir qüvvə aradan götürə bilməz. Öz-özünə cığır açan istedada güzəşt olunmasını istəməyən şair ədəbiyyata ciddi önəm vermiş, sözün dərin qatlarına nüfuz etməyə can atmışdır: "Qar idi evlərə gələn cığırlar, Qar idi... evlərə gələn yox idi..." Bircə kəlmə "qar idi..." ifadəsi yüzlərlə şahidin həqiqəti təsdiq üçün edəcəyi cəhdlərdən daha tutarlıdır. Müharibə vaxtı ərləri döyüşdə olan qadınların evlərinə gedən yollar qarla örtülübsə, heç kəsin ayaq izləri yoxdursa, deməli, o qadınların evinə naməhrəm kişi ayaq basmayıb. Şair həmin xanımların ərlərinə sadiq qaldıqlarını müxtəlif üsullarla çatdıra bilərdi. Amma elə bir taktikadan istifadə edilir ki, şərhə ehtiyac qalmır. Müəllif bununla kifayətlənməmiş, daha geniş mövzu axtarışlarına can atmışdır. Şaircəsinə baxdığı hər gözəlliyə söz qoşmağı bacaran sənətkar həmişə axtarışlarda olmuşdur. "Biz ki, görüşürük ayla gün kimi, Mən dağam sən isə çəkilən duman" - misralarından bəllidir ki, gündüzlər çıxan günlə gecə parlayan ayın görüşü necə mümkün olar ki?! Yəni lirik qəhrəmanların da günəş və ay kimi görüşə bilməməsi artıq bu eşqin nəticəsini bəlli edir. Həm də dağın başı çən-duman olar, dağlardan çəkilən duman yoxluğa məhkumdur. Bu, əbədi ayrılığa işarədir. "Sən doğma sahildən ayrılan gəmi, Mən liman, yoluna müntəzir liman". Gəmi doğma limanından həmişəlik ayrılığa istiqamətlənir. Sahilinə sadiq olan liman gəmisinin qayıdacağına ümid bəsləyərək gözləyir.

Daim müraciət olunan təbiət mövzusu da onun yaradıcılığında yetərincə özünü təsdiqləyib. "Dağların

başından keçir çən-duman, Keçir deyilməmiş bir fikir kimi. Enib dərələrə ilişən duman, Dağların qəlbində qalır sirr kimi". İlk baxışdan təbiət mövzusunda yazılmış əsər təsiri bağışlayan şeir, əslində güclü metaforik fikirlər qovşağıdır. İnsan nəyinsə haqqında düşünüb fikirləşə bilər, lakin dağların nə barədə düşündüyünü anlamaq üçün başından keçən çən-dumana nəzər salmaq gərəkmiş. Sən demə, dağların başına dolanan çən-çisək elə onların düşüncələriymiş ki, dərələrə ilişib qalanda artıq gözlə görünən fikir yox, müəmmalı qalan sirr olur. Bəzən isə şair sirrini verməkdən çəkinmir: "Eləsinə vurul, vurulanda da, Desinlər, ay Məmməd, əla gözəldir".

Oxuculara yaxşı tanış olan şeirindən gətirilmiş misalda "gözəldir" hökmü əsasdır, bu üzdən də şeirin rədifidir. Lakin bu gözəlliyi tamamlayan şərtlər ondan da əsasdır. Yar olduğun (yarın olan) insanın dərd bilən, üzə gülən olması, bircə işarədən səni tamamilə anlaması gərəkdir. Həmin gözəlliyi tamamlamaq üçün ən vacib tələb-lərdən biri yorğunluğa qalib gələrək, bircə an göz qırpmadan yolunu gözləyə bilməkdir. Həyati imtahanlardan keçərək yüksək mənəvi keyfiyyətə malik olandan sonra ona "gözəldir!" demək olar. "Ay bizim günlərin gözəl qızları"-müraciətilə, "Eləbil mənimlə düşüb acığa, Siz də bir tərəfdən gözəlləşirsiz" qənaətinə gəldiyini vurğulayır. Zaman bizdən asılı olmayaraq irəliyə addımlayır. Ətrafımızda baş verən dəyişikliyin fərqinə varmırıq, vaxt ötüb keçəndən sonra təəssüflənirik. Gözəllik ömür-günlə bəhsə girir. Sənin yaşın artdıqca yeni gözəllər doğulur. Zaman səni indinin gözəllə-rindən uzaqlaşdırır, lakin yaşadığın anın gözəlliklərindən uzaqlaşdıra bilmir. Gözəlliyi gözəllik əvəz edir. Gözlərin yenə gözəllərə tuş gəlir. Bu gözəllər sənin günlərinin gözəli olmasa da, sənli günlərin gözəlləridir. Buna görə qoymurlar ki, qaxılıb işini görəsən. Onlar gözəllikləri ilə

ürəyini oğurlasalar da, sən öz keçmişinə də boylana bilərsən: "Yoxsa, dönüb oğul oldu, qız oldu, Harda qaldı bu məhəbbət, məhəbbət?!" Sevginin sonucda çox şeyə çevrildiyini şairlər dəfələrlə yazmışlar. Amma dünənki məhəbbətin, bugünki oğula, qıza çevrilməsi deyimi tamam fərqli bir yanaşmadır.

Yazarın ən məşhur əsərlərindən olan "Hələ yaşamağa dəyər bir az da..." şeiri 1968-ci ildə yazılsa da, bu şedevr əsərdə müdrik el ağsaqqalının simasını görür, ürək çırpıntılarını eşidirik. "Bələndi", "gələndi", "qafiyələndi" ahəngdarlığı neçə poetik mənanı bir-birinə bağlayıb. Min illərdi ki, gedib-gələn yolların talada cığırlarla kəsişməsi şairin nəzərində elə harmoniya yaratmışdır ki, bunu ancaq uyğun qafiyələrlə müqayisə etmək olar. Böyük Avropa bəstəkarı Bethovinin bəstələrinin türk musiqi aləti olan sazda ifasına yaradıcı şəkildə önəm verilmişdir. Həmin əsərdə yazar belə qənaətə gəlir ki, bu, qərb təfəkkür tərzinə malik olan avropalıların türk dünyagörüşünə uyğunlaşmasıdır. Həm də türk musiqi aləti avropalının ürəyindən süzülüb gələn nəğmələri də doğmalıqla ifa etmək qüdrətinə malikdir. Bütün bunlar yaşamaq üçün stimul verən əsas səbəblər kimi göstərilir. Şairin lap gənclik illərində yazdığı məşhur "Bir ildir" (1965) şeiri poetik mənalandırmada novatorluğu ilə seçilir. "Dünyaya baxıram" kitabında 3 bəndi nəşr olunan şeir sonralar 5 bəndlə çap olunub. Şeirə yazıldığı tarixdən dillər əzbəri olmaq şansını verən səbəblər çoxdur. Şeirin yeni deyim tərzində ərsəyə gəlməsi çox uğurlu alınıb. Yaylığa folklorumuzda ayrılıq rəmzi kimi xeyli müraciət olunub. Ayrılıq rəmzinə çevrildiyinə görə göz yaşlarından islanar, quruyar. Şeirin yekun misraları-möhürbəndi xüsusilə fərqlidir. Bir il vur-tut 12 aydan ibarətdir. Üç aylıq yaşı olan körpənin dünyaya gəlməsi üçün cəmi 9 ay lazımdır. Şair bu təbii qanunauyğunluqla

riyazi hesablamadan şairanə bir gözəllik yaratmışdır: "Onun körpəsinin yaşı üçaylıq, Mənim həsrətimin yaşı bir ildir".

M.İsmayılın ən çox sevilən və möhürlənmiş şeirlərindən biri də ağacdələnə müraciətlə yazılmış şeiridir. M.İsmayıl həmin quşu elə özününkiləşdirib ki, onun poeziyası bu şeirlə bitkinləşir. Şeirin bədii gücü onun səmimi və həzin ruhda qələmə alınmasındadır. Ağacdələnin ağlı azıbsa niyə məhz şairin qapısını döyəcləyirdi? Sənətkarın dən düşmüş saçlarında dən gəzməkdə o quşun amacı nə idi?! Şair bu şeiriylə də təbiətin hər canlısında onu ürəkdən duyacaq adam axtarışının davam etdiyinə işarə edir. "Bir dəfə səhv edir minaaxtaran, Ömründə bir dəfə, cəmi bir dəfə" – misralarında isə müasir texnoloji yeniliklərin şeirdə özünə yer tutmasının izini görürük. Minaaxtaran bircə dəfə səhv edib minaya düşərsə, həyatını davam etdirmə şansı sıfıra bərabər olar. Şair bu səhvlə həyati əhəmiyyətli yanlışları müqayisə edir. Buraxılmış ciddi səhvin sonradan düzəldilməsinin mümkün olmadığını təsdiqləyir. "Deyin ki, bulağa bir qız Məmmədi, Susuz aparmışdı, susuz gətirdi". Bir zamanlar dil-dil ötən oğlan cavablar qarşısında başını elə aşağı salıb ki, sual işarəsinə oxşayır. Vaxtında fürsəti əldən verir. Ağzına su alır. Sonra o suyu yerə tökməyin nə mənası var ki! El arasında deyilən "çaya susuz aparıb, susuz gətirmək" ifadəsini şair bu məqamda çox yerində işlətmişdir. Nakam şairimiz Əli Kərimə müraciətlə yazılmış "O kim idi..." (1974) şeiri də seçilən əsərlərdəndir; "Hardasa, gələcəkdə bir gözəl yaşayırdı, Mən ona göndərərdim fikir teleqramları…" misralarıyla başlanan əsər orijinal poetizmi ilə seçilir.

Yuxularda arzumun arxasınca qaçanda,
Bir qızın dizi üstə yatdığım neçə ilmiş.

Ömrün oyanış çağı gözlərimi açanda,
Başım üstə dayanan qız yox, o qız deyilmiş…

Şeirdə güclü zaman fəlsəfəsi ilə rastlaşırıq. İndinin keçmişində yaşayan lirik qəhrəman gələcəkdəki gözələ (əslində bu yaşamaq istədiyi həyatın layihəsi-xəyallarıydı) fikrən teleqramlar göndərir. Bu ifadənin özü yeni deyim tərzi idi. O teleqramın sətirlərində gələcəyini xəyalında canlandıran təmizqəlbli insanın ürək çırpıntıları əks olunurdu. Hər ürək döyüntüsü həzin laylaya dönüb aşiqi yuxuya vermişdi. Vaxt gəlib vədə yetişəndə yuxu gözləri tərk edir. Ancaq o qədər gec olur ki, başın üstə dayanan qızın xəyallarındakı qıza heç bir dəxli olmur. Çağırılmamış qonaq həyatının daimi sakininə çevrilir. Qəlbinin hər döyüntüsü arzular qoynunda vulkan kimi püskürsə də, düşdüyü vəziyyətdə sönmüş vulkanı xatırladır. Ümumilikdə şeirin bədii gücü arzular və reallıqlar təzadı fonunda ortaya çıxır. İstədiyin həyat bir başqa, yaşadığın həyat bir başqa olanda, ziddiyyətlər ömür-gün yoldaşına çevrilir: “Yadımdan çıxarmı, o qış, o soyuq?! Yüz ümid alışa, yüz ocaq yana”. Unudulması mümkün olmayan o qarlı qış günü! İllər keçdikcə ağrılı olduğu qədər əziz xatirəyə çevriləcək yaşam! “O pula getməyib özükən toyuq, Bazardan peşman qayıdan ana”. Şeirin əvvəlində yazarın öz cavanlığına etiraf məktubu da çox səmimi hisslərlə ifadə olunmuşdur. Sevgilisindən güclə bir kinoya getmək üçün razılıq almışdı. Lakin maddi sıxıntı həll olunması mümkün olmayan problemə çevrildi. Hamısı birbirindən çətin vəziyyətdə olan qonşulardan da pul tapa bilmirlər. Ana sonuncu ümid yeri olan toyuğu Əsrikdən Tovuza piyada satmağa aparır. Sanki toyuq da satılmadığı üçün peşmançılıq hissi keçirirdi. Şeirin ən xoşagəlimli səbəbi təmiz və ülvi hisslərlə əhatə olunmasıdır. Bəlkə də,

bir toyuğun satılması bir insan taleyini dəyişə bilərdi. Bəlkə də, xoşbəxtliyə gedən yolları toyuğun satılmaması bağladı. O toyuq haradan anlasın ki, insan taleyi sözün həqiqi mənasında onun tükündən asılı idi. Sənətkar bu hadisəyə mükəmməl fəlsəfi don geydirib. Bu da şeirin özəlliyini artırır.

Məmməd İsmayılın vətənpərvərlik mövzulu şeirlərinin kökündə bütün türk dünyasının xəritəsi dayansa da, o, yeri gəldikcə Azərbaycanımızın tarixi faciələrinə üsyankarcasına münasibət bildirmişdir. Hələ vətənimizin sovet imperiyasının işğalı altında olduğu illərdə yurdumuzun ikiyə bölünməsinə qarşı açıq-aşkar etiraz edən şeirlər yazmışdır. 1961-ci ildə - lap gənc yaşlarında yazdığı misralara nəzər salaq; "Savalan düşmənə yağı dayanmış, Sinəsi dağlıdır, dağı da yanmış! Qəzəbdən saçının ağı da yanmış - Təbrizin övladı beləmi oldu?!" Göstərilən misalda "Türkmənçay" müqaviləsindən sonra vətənimizin ikiyə parçalanması sadəcə xatırladılmır. Bunun tarixi-coğrafi səbəbləri sadalanır. Savalan dağı özü dağ olsa belə, Azərbaycanda baş verən faciələr onun sinəsini dağlayıb. Qəzəb, əsəb insanın saçının ağarmasına səbəb olur. Savalan elə bir faciəvi ömür yaşayır ki, ağ saçları yanaraq qaralıb. Bu misralarda bir çox sətraltı ifadələr gizlənib. Digər tərəfdən, Savalanın zirvəsindəki ağ qar onun ağarmış saçlarıdır. Şair adi təbiət hadisəsi olan qarın əriməsinə xüsusi məna verir. Belə çıxır ki, Savalanın zirvəsindəki qar ona görə əriyir ki, vətənimizin parçalanmasına tab gətirmir. Ağ qar əridikcə, dağın qaralmış zirvəsi görünür. Şair bunu qəzəbdən yanmış saçların qaralmış yanıq yeri kimi mənalandırıb. Şairin yaradıcılığından qızıl xətt kimi keçən türklük qüruru hər şeirə çevriləndə fərəhverici misralarla nümayiş olunmuşdur: "Tarixə səpilən izi böyükdür, Orda da, burda da türk oğlu türkdür.

Elə türklüyü də dünyaya görkdür, Görkün sevgisidir, - türkün sevgisi!" Yazar fəxrlə tarixə səpilən izimizin sərhədsizliyini dilə gətirir. Harada olmağından asılı olmayaraq, dünyanın hər bir bucağında türk balası elə türkdür. Sadəcə türk olmağı da dünyaya meydan oxumağa yetərlidir. Özünün isə əsl türkanə həyat yaşadığına illər öncədən zəmanət vermişdir: "O gün seçiləcək günlər içindən, Üzüm qoyulacaq o gün haqq yerə". Bu misralarda sevib-sevilmə anlayışına yeni yanaşma üsulunu görürük. Bütün günlərdən özəlliyi ilə seçilən o gün gələcək - "Onda biləcəksən minlər içindən, Məni sevməmisən, sən nahaqq yerə". O gün ki, həmin gün üzüm haqq olan yerə qoyulacaq. Bax o zaman sən də nə qədər haqlı olduğunu, vaxtında necə düzgün addım atdığını bir daha başa düşəcəksən. Seçiminin necə uğurlu bir sonuca gəldiyini dərk edəcəksən. Biz də bunun fərqindəyik ki, Məmməd İsmayıl yaradıcılığı ilkin qaynağını xalq poeziyasından alaraq, özünəxas inkişaf qanunauyğunluqları ilə davam etmişdir.

"Senet.az" saytı. 31 oktyabr 2015

RƏŞAD MƏCİDİN "ÇİYƏLƏK QADIN"I

"Bilsəydim, əvvəldən heç başlamazdım, Öldüm yaza-yaza bu şeirləri". Bəlkə də, çoxumuz bu misraların Rəşad Məcidin olduğuna inanmazdıq. Elə mən özüm də haqqında söhbət açacağım "Çiyələk qadını" oxuyana qədər belə bir məsumluğun fərqinə varmamışdım. "Daşıdım əlimlə baş daşlarımı, Başladım yenidən savaşlarımı. Hər gün neçə dəfə göz yaşlarımı, Sildim yaza-yaza bu şeirləri" - ilk öncə belə təəssürat yaranır ki, söhbət qəbrin üstündəki baş daşından gedir, bəlkə, belə də düzdür. Ancaq diqqət edəndə görünür ki, başımıza tökülən bəla daşlarına da işarə edilir. Özümüz öz əlimizlə bu daşları ömrümüzdən ömrümüzə daşımışıq. Bəlkə də, taleyin daşa basmaq istədiyi ömrü xilas etmək bacarığıdır, başladığın savaşdan qalib çıxmaq səriştəsi?! Qalibiyyət bəllidir, neçə dəfə göz yaşlarının hücumuna məruz qalsa da, onları sildi və hər kəsdə böyük bir heyrət doğuracaq bu şeirləri yazdı. Öz təbirincə desək, "Beyninə girsəydim bir saatlığa, Bütün suallara cavab tapardım". Yaxşı ki, ürəyinə girmək cəhdim uğursuz alınmadı, hər sətrini ürəkdən ürəyə oxudum. Deyəsən, şair də bundan duyuq düşür; "Bir sözdən yüz cürə söz çıxarmasın, Baxmasın üzümə çəpəki gözəl" - müraciəti ilə dilə tutmağa can atır. Üzünə çəpəki baxmaq heç yadıma da düşmür, amma sözündən söz çıxarmamış əl çəkən deyiləm. Lap istəyirsən;

Qolla fərmanını, əmrini qolla
Çıxaram sınaqdan testini yolla.
Üşüyən qəlbimə istini yolla
Odlu baxışını gur atəş eylə.

Özünüz şahidsiniz, bu misralara necə söz eləməyəsən! Sözsüz ki, həmin misraların da bizə sözü var. Çünki bənddə yeni fikir təqdimi təzə ifadələrlə canlandırılır. Hansı əmri, hansı fərmanı imzalayırsan imzala, hər cür sınaqdan ustalıqla qalib çıxacağına əmindir. Maraqlısı isə bu əminliyin qeyri-ənənəvi sözlərlə təqdim edilməsidir. Belə əminlikdən əvvəl uzun bir tərəddüd yolu keçilmişdir. "Çayından ayrılan bu qızıl balıq, Axına gəlməzdi iki il öncə". Amma həmin balıq çaydan ayrılıb susuz da yaşamağı bacardı. "Üzdüm tərs tərəfə axına deyil, Baxdım uzaqlara yaxına deyil. Gördüm ki, bu xına o xına deyil, Bu xına gəlməzdi iki il öncə". Son dərəcə şirin dillə yazılmış sətirlərdə, xalq danışıq tərzi, folklordan sənətkarlıqla bəhrələnmə alqış doğurur.

Bu şeirlərdə inandırıcı aşiq obrazı, səmimi hisslər qəhrəmanı daha çox diqqəti çəkir: "Məni susuz dodaq, çiçəksiz bahar, Məni kilidi yox açar etmə sən". Bir anlıq çiçəksiz baharın necəliyini göz önünə gətirməyə çalışaq. Mümkünsüzlüyün son həddi görünür. Eləcə də, açarı olmayan qıfıl bağlanmaqdan da, açılmaqdan da məhrumdur. Necə ki sevgiləri olmayan insanlar bir-birilərinə bağlana bilməzlər. Ona görə də, hərdən özünə də, Ona da şübhənin doğurduğu suallar verir. "Qara gözün, uzun saçın, Bu ağ dişin mənimdimi?" Maraqlı bir bədii priyom; ilk baxışdan adama elə gəlir ki, misralarda qüvvətli epitetdən istifadə edilib. Lakin həqiqətdə göz qara, saç uzun, diş də ağ ola bildiyinə görə burada bədii təyin yoxdur. Amma digər söz ustalarından fərqli olaraq, ağ dişin poeziyaya məharətlə gətirilməsi ürək oxşayır. Ritorik suallar bitmir ki, bitmir; "De haçan düzünü dedin, De haçan aldatdın məni?" Amma deyəsən, sualın yersiz olduğunun özü də tezcə fərqinə varır: "Sonacan yüz yalan dedin, Sonacan aldatdın məni". İlk baxışdan elə təsəvvür yaranır ki, aşiq bu

aldadılmağa qarşı acizdir, sadəcə oturub nə vaxta qədər aldadılacağını gözləyir. Ancaq diqqət etdikdə ürəkli hökm verildiyini görürük. "Axır bircə dəfə gəl düzünü de, Allahım, mələyim, iblisim mənim". Müraciət obyektləri diqqəti xüsusilə çəkir; Allahım-Mələyim, Mələyim-İblisim. Çox qəribə ardıcıllıqdır. Allahla iblisin arasında mələk görürük. Bunu duyan şair hansı qərara gələcək? "Yaşaya bilmərəm mən indən belə, Qəlbimin bu sonsuz tələşlarıyla. Daşıya bilmərəm bir ömür səni, Bu qədər ağrıyla, göz yaşlarıyla". Əslində bu gücsüzlük deyil, xilas etməkdir. Yəni bunun əksini edəcəyəm, səni atmayacağam. Səni bu cür ağrılı-acılı daşımaq istəmirəm, üzünü güldürüb, könlünü sevindirərək daşıyacağam. Bu isə ayrılıq yox, daha da yaxınlaşmaqdır; "Daha səni üzməyəcəm, Üstündə əsəcəm sənin". Bunun üçün elə gözəl, elə həlim səbəblər qoyur ki, heyran qalırsan:

O gözlərin qıyğacı
Baxması bəs edər ki,
O gözlərin süzülüb
Axması bəs edər ki,
Baxışımla toqquşub
Çaxması bəs edər ki
Durum qışqırım deyim
Ölürəm sənin üçün.

Bu inandırıcı səmimiyyətə qarşı söz tapmaq çətindir, "Məni uşaqdan uşaq, Gəncdən də gənc etmisən". Şair həmin sevincinin qeydinə qalmağı, onu qorumağı sevdiyindən tələb etməyi də unutmur: "Mən sözün köləsiyəm, Sözünün ağası ol". İfadələrarası təzad xüsusi məharətlə yaradılıb. Əgər sözünə sahib çıxmağı bacarmasan, "Coşğulu nitqində kəkələyərsən, Sözlərin dilində burxular

qəfil". Dilin topuq çalması ədəbiyyatda kifayət qədər metaforalarla bədiiləşdirilib, lakin dildə sözlərin burxulması son dərəcə orijinal tapıntıdır. Bu səbəbdən də yazar etiraf edir ki, "Çox dalsan dərinliyinə, Bu qara torpaqda bitər, Söz oyunu". "Torpaqda bitər" ifadəsini üç anlamda başa düşmək olar. İlk olaraq torpaqda bitər, yəni cücərib boy atar mənası nəzərə çarpar. Daha sonra isə məlum olur ki, söz oyunu bütün dünyanı gəzib dolaşsa da, axırda gəlib qara torpaqda bitər-yekunlaşar, sona çatar. Təbii ki, insan torpağa tapşırıldıqdan sonra bir daha danışa bilmir. Üçüncü bir tərəfdən isə bu söz oyunu ki var, qara torpaqda bitər, yəni bitib tükənər anlamını da verir. Ümumiyyətlə, "Çiyələk qadın"dakı şeirlərin dili son dərəcə özünəməxsusdur. Bu şeirlərdə nə qədər klassik janrlar qorunub saxlanılsa da, bir o qədər də maraqlı söz seçimləri vardır:

İlahi, sən mənim yaddaşımı sil,
İlahi, sən mənə bir sovqat eylə.
Bilgisayar kimi, telefon kimi,
Beynimi təzələ, ya format elə.

Şeir adi dördlük formasında yazılıb. Amma dilindəki məcazlar tamamilə neologizmlər hesabına yaradılmışdır. "Yerit yaddaşıma antivirusu, Qır bu qurd püskürən həşəratları". Başqa bir şeirində isə dil yenilikləri bir az da önə çıxır:

Yaşatdığın günlərimə baxırdım
Naxış-naxış, ilmə-ilmə baxırdım.
Nootbukda sanki filmə baxırdım
Düyməsini qurdaladım, pozuldu.

"Yaşatdığın günlərim" birləşməsi ayrıca maraq doğurur. Mənim günlərimi sən, sənin günlərini də mən yaşamışam. Bu elə bir-biri üçün yaşamaq deməkdir. Əsas olan odur ki, hansı janrda, hansı sözlərlə yazır yazsın, "Mənim özgə nə işim var, Səni sevməkdən savayı" - prinsipinə həmişə sadiq qalır. Elə həmin həqiqətin də ətəyindən yapışır. "Hər günümə nəğmələr, Yazdıranım sağ olsun" - nidasına rəğbəti artırır. O nəğmələri yazdıran haradan bilsin ki, onu nələr gözləyir: "Sənə bilə-bilə laqeyd olub, Səni bilə-bilə qısqanacağam". Hədələr bitmir; "Heç qaça bilməzsən onun əlindən, Bu doğma şəhərdən getsən də belə. Bütün beynindəki xatirələri Təzə sevgilərlə ütsən də belə". Əsaslandırılmış mübaliğə çox inandırıcı tonda təqdim edilir. Mənlə bağlı nə qədər xatirən varsa, onların hər birini bir yeni sevgiylə "ütsən" də yenə də o xatirələrin əlindən qaça bilməzsən. "Ütmək" feili isə dilimizdə qeyri-fəal işlənən sözdür. Xatirələrin ütülməsi isə indiyə qədər heç kimin ağlına gəlməyən unutqanlıq metodudur.

Zamanında döyülmədi dəmirim,
Hələ çox su aparacaq xəmirim.
Topalaşır, məni qurdtək gəmirir
Cavabını tapmadığım suallar.

Qafiyə əmələ gətirən sözlərin çox ustalıqla əlaqələndirilməsi məharət istəyir. İlk iki misranın hər iki sətrində atalar sözlərindən bəhrələnilib; "Dəmiri isti-isti döyərlər", "bu xəmir hələ çox su aparacaq". Aydınca görünür ki, müəllif dilimizə yeni daxil olan sözləri nə qədər ustalıqla şeirləşdirə bilirsə, şifahi xalq ədəbiyyatımızdan da bir o qədər şairanə istifadə edir. Sözü sözə sənətkarcasına bənd eləyir. "Mənə vücudunla ruhun, qanınla Dırnaqdan saçacan tuş gələnimsən. Ömrün payızında həyəcanınla Təzə bahar

kimi xoş gələnimsən". Son misraların müxtəlif məna çalarlılığına nəzər salaq: Təzə bahar kimi xoş gələnimsən, yəni ömrümün bu payızlı günlərində öz həyəcanınla xoş gəlib, səfa gətirmisən. Başqa bir anlam da odur ki, ömrümün payız çağıdır, sən isə mənə təzə bahar kimi xoş gəlirsən, yaxşı təsir bağışlayırsan. Buna baxmayaraq "Hərdən rahat olur, hərdən qovur da Bəzən imkan vermir bircə hovur da. Mən bir bələdçiyəm bu vurhavurda Neyniyir bu bədən, bu can eyləyir". Gətirilən misralar bir yaradıcı insanın ömür ləngəridir. Bu ömür yollarında ən keşməkeşli anların sahibi oluruq. Amma hər şəraitin öz ahəngi, öz nəğməsi var. Yetər ki, sən sadəcə etiraz edə bilmək gücündə olasan:

İndi daşam, indi heykəl, indi qum
İndi məni hansı torpaq götürər?
Bu ağrını nə çıxarar canımdan
Bu qorxunu hansı çıldağ götürər?

Bütün həyati insanlar kimi onun da özünəməxsus ömür yolu var - "Anladım, çox şeyi sonradan, adam Oldun adi bəndə sıradan adam". Bu ittihamın içində bir inkarın təsdiqi də var ki, "Bütün sualların cavabı məlum, Ən pisi odur ki, sualım bitib". Yalnız bir şey bilirəm ki, ay ətri, gözəlliyi çiyələk olan, "Bir də gəlməyəcək sənintək qadın, Nə mənim dünyama, nə bu dünyaya!"

"Şərq" qəzeti. 6 yanvar 2015

İBRAHİM İLYASLININ "YUXUMA SÖYKƏNMİŞ ADAM"I

"Bir də inanmaram adam sözünə" - deyərək "öz ali ağasının nökəri" olan söz sərrafı İbrahim İlyaslının "Yuxuma söykənmiş adam" kitabıyla baş-başa qalanda "Önümdə qurub məhşəri, Heyrətdə qoyub bəşəri, Mənəm deyən aşiqləri, Tarixdən sildirə billəm" qənaətinə gəlmək olar. Özü tarix səhifəsində qərarlaşan şairin yerini-yurdunu da şairanə tərzdə öyrəndik: "Qubalı, QAZAXLI, qəbələliydik, Sumqayıtlı oldu körpələrimiz" - misralarından şairin izinə düşmək olar. Bu cığırın bizi apardığı ünvan mücərrədliyi həyatiləşdirir. "Mən sağı getdikcə, sol məni getdi, Axır ki, sol nədi, sağ nədi bildim" etirafı onun daxili xanimanına ip ucu verir: "Düyün vurulmaz ilməknən, YAZI pozulmaz silməknən, Sənin azarın bilməknən, Mənimki bilməməknəndi" - bəndinin ilk misrasının son qərarı əvəzedilməzdir. Nə uzunluqda ipi ilmək-gülmək bağlayırsan bağla, düyün sala bilməzsən. Bu həm də həyati addımların rəmzi işarəsidir. Nəzərə çatdırılır ki, sən bilə-bilə səhv edirsən, mən isə məlumları bilməməzliyə vuranları anlaya bilmirəm. Özü təsdiqləyir ki,

Kimsə bilməz nə çəkdirir,
Mənə mən çəkdiklərim.
Ölümlərə cücərirlər
Olmağa əkdiklərim.

Ənənəvi "olum və ölüm" qarşıdurmasına "cücərdib əkmək" vərdişləri yeni ruh qatır. Cücərir-əkirsən - olur-ölür. Bu qəribə zəncirdə cücərmə və ölmə hadisələri bərabərliyi andırır:

Sən köhnə zahidsən, qanımı iç, doy,
Yenə bir "ənəlhəqq" aşiqini soy.
"Mən ölü-sən diri" axtarıb, ad qoy,
Ağ baxtı qaraya ağdan savayı.

İlk üç misranın tutarlı yekunu odur ki, adı Ağ olsa da, bəxti qara olan bu rəngin taleyi üzünə ağ olur. "Nə gözəl toxunub, fələyin toru? - Adam özü qaçır ağzına doğru. İçində quldurdu, çölündə oğru, İçini-çölünü xışla da getsin" - özünə qarşı mübarizədə "xışlamaq üsulu"ndan istifadə poeziyamızda tamam yeni ifadədir. Bu yeniliyin söykəndiyi güclü ənənə var ki, o da folklordur. "Ustad, öz sözünü mərə kafirə, Sıyrılmış qılınclar sonacan deyir" xəbərdarlığından şifahi ədəbiyyata özünəuyğun səpkidə müraciətin izlərini görmək olar;

Nə ağ bayrağın yellənir,
Nə gəlir qanlı köynəyin,
Amalın yox, amacın yox,
Bəs sənin nəyin var, nəyin?!

İkinci misra "Dədə Qorqud" eposundakı "Beyrəyin boyu"nu yada salsa da, belə priyomdan ağız ədəbiyyatında tez-tez istifadə edilib. İtkin düşmüş igidin qanlı köynəyi tapılmayınca ölümünə inanmazdılar. Sənətkar həmin vəziyyəti qəti qərar verə bilməyənlərin düşdüyü durumla müqayisə edir. Başqa şeirində sevilən nağlımızdan elə bir epizoda istinad edilib ki, doğrudan da, insanı qaranlıq zülmətdən işıqlı dünyaya aparır: "Özü bir zülüm azardı, Adı dünya dolanması. Mən Məlikməmmədəm "qa"dı, "Qu"du dünya dolanması". Zümrüd quşunun çıxardığı "qa" və "qu" sədası "yemək və içmək" proseslərinin əvəzləyicisidir. Amma bu "ye, iç, kef elə" prinsipinə

əsaslanmır. Bu qidalanmanın hədəfi qəhrəmanı işıqlı dünyaya çıxarmaqdır. Bundan duyuq düşən yazara yalnız bir söz deyə bilərik; "Səni nə "mahir" öyrədib, Ay bərəkallah... "ustad"ın". Məşhur lətifənin hikmətinə əsaslanan həmin misralarda söz əhlinin sözə necə incəliklə yanaşması bəlli olur. Bu peşəkarlıq şairin hər cür mövzu seçimində özünü göstərir:

Könlümü sözə kökləyə,
Dağ çayının şırıltısı.
Bir misramı səksəndirə,
Kəkliklərin pırıltısı.

Bəndini gözə almaq kifayətdir ki, İbrahim İlyaslının təbiət mövzusuna özünəməxsusluqla yanaşmasına tamaşa edək. Cəsarətlə demək olar ki, onun yaradıcılığında sevgi mövzulu şeirlərin orijinallığı da diqqətdən yayınmır. Bir yazarın ki, misraları "Qanımı qaşına vəsməlik eylə, Bəzəsin çəkdiyim ah camalını"- yalvarışlarından doğula, həmin şairin sevgisinə sevilməmək mümkünsüz: "Mən eşq əsiriyəm, gül sevdalısı, Bircə bülbüllərə həsədim qalır. Mən eşqə düşəndə canla düşürəm, Çıxanda quruca cəsədim qalır". Məna ilə yanaşı, qafiyədəki mükəmməl ahəng imkan vermir ki, "eşqə düşəndə" canını sağ götürüb aradan çıxa biləsən.

Yollar bihuş olur sən yeriyəndə,
Qarşına yüyürür güllü cığırlar.
Quşlar budaqlardan, balıqlar sudan,
Çiçəklər çəməndən sənə baxırlar.

Bu yeriş bütün təbiəti cananın qədəmlərinə göz dikmək məcburiyyətində qoyur. Göydə quşların, suda

balıqların, çəməndə çiçəklərin eyni andaca-eyni duyğularla ürəkləri çırpınır. Üçünün də baxışları bir nöqtədə kəsişir. Həmin üçbucağın 3 təpəsi olsa da, daxili bucaqlarının cəmi 180 dərəcədir - aksiomundan belə çıxır ki, hər baxan o gözələ eyni gözlə baxır. İkinci misrada işlədilmiş "güllü cığırlar" epiteti isə bədii yaradıcılıqda rast gəlinməyən tapıntılardandır. Bu cür gözəl ancaq belə vəsf edilə bilərdi; "Yerindən tərpədir ətrin daşları, Yer üzü heyranlıq məqamındadır". Şair həmin sevimlisinə ərklərini də ismarlayır;

Möcüzətək sıyrıl sehrdən, sirdən,
Gəlin köçən kimi bəzənib, bərtən,
Yanımda beyqafil peyda ol birdən,
Əzrayılın hökmü əlində gəl çıx.

"Canım yara qurbandır" ifadəsi ədəbiyyatda yetərincə yozumlanıb, lakin göstərilən bəndin son misrası həmin fikirlərə tamamilə yeni poetik can verir. Üçüncü misrada işlədilmiş "qəflətən" sözünün dialekt forması isə şeirə xüsusi şirinlik gətirib. Yazar ilahi sevgilisinə "gəl çıx" müraciəti etsə də, qəribə nəticələrə gəlir: "Vüsal aramızda Quzğun dənizi, Həsrət aramızda körpüdü, qalsın". Xəzər dənizinin tarixi adını simvolik yüklə rəmziləşdirmişdir. Həsrət ayrı düşmüş sevənlər arasında ən sadiq körpüdür. Bu körpünü keçməsən, həsrətə məğlub olub yanğılı haray salarsan:

Daşam yolun üstə bitən,
Nə sirdi, anlamaz yetən.
Gözü, könlü dil-dil ötən,
Dilləri lalım, necəsən?

Çox mürəkkəb və mükəmməl təzad yaradılmışdır. Görmə orqanı göz ürəklə əl-ələ verib dil-dil ötür, danışıq üzvü dil isə lal ola bilmək qabiliyyətini indi yadına salıb. Bu da şairi dilləndirir; "Barmaqları bəxtəvərim, Başıbəlalım, necəsən?" Məhəbbətin təsirindən xilas olmaq çətin olsa da, xatırlamaq lazımdır ki, İ.İlyaslının digər mövzularda da şeirləri çox güclü alınır: "Qaydadır: Xan dinər-rəiyyət susar, Qanla qazan asan bir gün qan qusar. Dünənin "o"dursa, bu günün "bu"sa, Baban da yazıqdır, balan da yazıq". Sənətkarı tarixi keçmişimizlə bu günümüz arasındakı ziddiyyət o qədər narahat edir ki, "Üstü xəcalət örtüyü, Altı qızıl qan məmləkət"in halından üsyankar həddə çatır: "Harın nəfsinə kündəsən, Səfalətə sürgündəsən, Sən məndən betər gündəsən, Can, məmləkət, can məmləkət!" Bu hıçqırıqların o tayında dəfələrlə yaxın qonşuları tərəfindən öz sərhədlərindən uzaqlaşdırılan yurdumuzun acınacaqlı taleyinə etiraz hiss olunur;

Odlara düşür buzlayır,
Dərya içir susuzlayır,
Yağı gönünü duzlayır,
Duzlu gönüynən barışır.

Nümunədə reallıqla barışmazlığın bir daha şahidi oluruq. İkinci misrada işlədilmiş mübaliğə ürək yanğısını yatırtmayan, göz yaşlarından göllənmiş dəryalara etiraz motivləridir. "Kölənin köləsi olan, Hansı günüynən barışır" sualı da cavabının hayındadır. Bu əbəs yerə deyil, vətən övladının vətəninə sevgisinin təzahürüdür. Biz də bu sevginin sahibinə sahiblənməyə can atdıq, özü demişkən; "Dost-dostuynan nəfəs alar, - Şəriklidi havam sənnən".

"Azad Azərbaycan" qəzeti. 9 iyun 2013

AKİF SƏMƏDİN SÖZ AĞRISI

"Şair kəsin söz ağrısı Dünyanın son ağrısıdır" - söyləyən sənətkarımız Akif Səmədi biz öz dünyamızda yad edirik. O dünyada ki, "Ölümünü görə-görə Dünyanı sevməyə dəyər". Bəlkə də, bu, ölümündən sonra seviləcəyinə bir əminliyi idi şairin. Niyəsini də özü müəyyənləşdirmişdi: "Elə ömür yaşadım, Tamah min illər uzaq". Biz bilirik, amma anlamaq istəmirik ki, "Adam saza dönə bilir Vaxtı saz eləmək olmur". Bu dönümün içində bir özünəqayıdış da var. Saza dönmək milli soy-kökünə dönməkdir. Bu baş verərsə, vaxtın da kefi saz olar. Kefi saz olarsa, Akif Səməd kimi bəşər övladlarına da yetərincə vaxt ayırar. Daha yoxsa heç yarımca əsr də yaşamamış zamanı dayandırmaz. Yəqin ki, zamanın onunçün ayrılmış vaxtının darlığı ürəyinə dammışdı, ona görə də, hadisələrin gedişinə müdaxilə etmirdi; "Məndən özgə hamı bilir Nələrin davası gedir". Axı o haradan biləydi? Bəzən özünü bilməməzliyə vururdu. "Deyirlər cavan olmuşam Bəs niyə yadıma gəlmir?" Birdən yadına düşür ki, "Cavan olubsanmış, Akif, Od olmasa tüstü çıxmaz". Bu necə cavanlıq olub ki, heç kəs onun qocalığıyla rastlaşa bilmədi. Heç kəs də bu cismani qocalıqla üz-üzə gələ bilməyəcək, çünki Akif Səməd də cavan gedənlərdəndir. Amma arxada çox şey qoyub getdi. Bir də, bir də bizi ona bənd edəcək əsərlərini: "Misram var saralar muzey küncündə, Misram var gözümdən öndə yaşayır". Yəni gözümün qabağındaca misralarım yaşamaq haqqını qazanır, ölməzliyimə təminat verir:

Bir qızın göz yaşı gözümə durdu,
Qırdığım qanadlar yadıma düşdü.

Üç-beş misram vardı tanrıya yaxın,
Onlar da özümün oduma düşdü.

Deyəsən, rəhmətlik odla oynamağı yaman sevirmiş; Baxanı yandırır gözüyün odu, Dərdinə yananlar oduna düşmür". Oda düşmək frazemini qoyaq bir tərəfə, təkcə "düşmək" feili bu misralarda çox yerinə düşür. Üst-üstə düşür - düşmür, yəni uyğun gəlir-gəlmir məsələsi ortaya çıxır. Məsələn; bu açar bu qapıya düşür, amma hər adamın odu da bir-birinə düşmür. "Kölgə yarın olar, Yad kölgə gördünmü?" - ilk sətrin yozumları çox çözələnir. Kölgə yarın – sevgilin olar, sən gedəndə o da gedər, sən dayananda o da dayanar. Kölgə yarın – paran olar, səni bütövləşdirər, kiməsə kölgən düşər, amma heç kimin kölgəsi olma. "Bu qıza ağıl ver" şeirində də həmin fikirlərə dolayısı ilə istinad edilir:

Görsün misralarım sevgi qoxumur,
Ağac parçasıyam, daş qırığıyam.
Coddu misralarım, sığala yatmır,
Torpağın yazağzı qışqırığıyam.

Əslində bəndin bədii quruluşu da cəlbedicidir. "Qırığ"ın bütövlüyə can atması daşı qışa qırdırıb. Əsl yaşama quğrunda mübarizə qanunauyğunluğu yada düşür. "Dərdi bütöv – bütöv verin, Bölməyə qoymayın məni" - maraqlı bir qarşıdurma yaranır. Birincisi ilk baxışdan aydın olan dərdi məni bölməyə qoymayın çağırışıdır. İkincisi isə bunun tamam əksidir, məni dərdi bölməyə qoymayın. Bu məqamda kimin qismətinə nə düşəcəyini ayrıd eləmək çətinləşir. Bölməkdən iş hasil olmayanda keçirik çıxmağa: "Bir vaxtlar yoxuşu çıxa bilmirdim, İndi də özümü çıxa bilmirəm". Misraların ilk baxışdan

anlaşılan mənasıyla işimiz yoxdur. O qədər toplananlar var ki, cəmin qiyməti qiymətsizlik olub. Yoxuşu çıxmaq yalnız üzüyuxarı dırmaşmaq anlamına gəlmir, həm də yoxuşu hesaba almamaq anlamına da gəlir. Bu əslində yoxuşu çıxa bilmək mənasını verir. Yəni getdiyin yolların enişli-yoxuşlu olması o qədər də vecinə deyildi. Özümü çıxmaq isə yaxasını kənara çəkməklə və ya oyundan kənarlaşmaqla sinonim ola bilər. Yazar çıxışlıq hala da istinad edə bilərdi; indi də özümdən çıxa bilmirəm. Bu zaman təsirli feil təsirini itirəcəkdi. Şairisə orijinal ahəngdarlığa üstünlük verirdi:

Güllə səsinə boylanır,
Zəngini dəyişmir dağlar.
İgid qanına boyanır,
Rəngini dəyişmir dağlar.

Bu bəndə də çox söz qoşmaq olar, amma daha əsaslarına fikir verək. İkinci misranın ilk sözü ikili xarakter daşıyır. Biri ilk baxışdan aydın olan zəng ismidir. Dağın zəngi məlum olduğu kimi əks-sədasıdır. Digəri isə isimləşmiş zəngin sifətidir. Dağlar varlının var-dövlətini mühafizə edir, zəngini zəngin kimi qoruyub saxlayır. Həm də dəyişmək feilinin başqa bir mənası da var ki, əvəz-əvəz eləməkdir. Digər iki misra da maraqlı və qarışıq mənalandırmalarla zəngindir. Bir neçəsinə baxaq; İlk nəzərə çarpan "igid qanı" ikinci növ təyini söz birləşməsidir. Amma diqqət etdikdə görünür ki, igid sifəti hansı sualına cavab verərək, qan isminin bədii təyini olmuşdur. Bu epitet misranın mənasını tamam başqa tərəfə yönəldə bilir. Eləcə də, rəngini sözü həm dağların rəngi, həm də igidin rəngi kimi başa düşülə bilər. Bu mənsubiyyət bir-biri ilə çox əlaqəlidir. Desəm ki, bu cür

şərhlərə istənilən qədər meydan vermək olar, mübaliğə olmaz. Amma bir az da mövzu seçimlərinə diqqət ayıraq: "Qanımızla, göylə, bahar rəngiylə, Qaralar boyanıb üçrəng olacaq". Üçrəng ifadəsi mexaniki olaraq fikri bayrağa yönəldir. Bilirik ki, bayrağın hər cür mənalandırılması ədəbiyyatımızda yetərincədir. Amma Qırmızı əvəzinə qanımız, Mavi əvəzinə göy (kəhkəşan), Yaşıl əvəzinə bahar rəngi uyarlığı orijinallığı ilə seçilir. Bu bayrağın ay-ulduzu da var, bilirik. Ancaq başqa bir şeirlə bunu əlaqələndirib, siyasi yozum verə bilərik "Ulduzdan köz götürənmir, Əlində maşa fırlanır". Məncə, şərhə ehtiyac yoxdur. Yurda, təbiətə bağlı olan şairin həmin mövzularına da göz gəzdirmək lazımdır:

Yasəmən çəpərdən aşır,
Nazlı-nazlı yola çıxır.
Kola girən bildirçinlər,
Yanlarında bala çıxır.

Biz də bu yazını bir tərəfə çıxarmalıyıq. Onsuz da ustadın sözü sözdür: "Eşq yolunda döyül, əyil, Güc sevgidə isbat olur". Sizin sevginizlə sizə sevgimizi isbat etməyə çalışdıq, böyük şair. Böyüklüyünüz elə böyüklüyünüzdür.

"Azad Azərbaycan" qəzeti. 23 iyul 2014

ELŞƏN ƏZİMİN GÜLDƏN AĞIR SÖZÜ

Elşən Əzimin şeir sevənlər ilə təması da özünəməxsusdur. "Haçansabir şirin şeir yazmışam, Dişində onunmu şirəsi qalıb" sualı ilə açıq-aşkar fikir mübadiləsinə hazır olduğunu nümayiş etdirir. Oxuculardan biri kimi deyə bilərəm ki, səndən nə gizlədim, bu belədir. Sən, şeirləri dişimizin dibində şirə qoyan şairlərdənsən. Niyəsi də odur ki, özün hər şeyi səmimi etiraf edirsən; "Şeirimdən bir edam kötüyü yonub, Vurdular boynumu sözümün üstə". Elə hər şey sözünün üstündə olduğu üçün həmkarlarının yanında söz altında qalmağı özünə yaxın buraxmadın. Çünki kimin nəyi, necə yazdığına da yaxşı bələdsən: "Əli qələm tutmur ha, Qələm əlindən tutub Şeir yazmaq öyrədir". Maraqlı taktikadır, "qələm əlindən tutub" misrasını iki tərəfə çəkə bilərik. Bir tərəfi odur ki, qələm özünü sənin əlində yaxşı hiss edir, sənin şeir yazmağından məmnundur. Digər tərəfdən qələmin əlindən tutmağı məcazi məna da daşıyır. Yəni qələmi əlində bir alət edib maddi vəziyyətini tənzimləyənlərə işarə edərək konkret sözünü də çatdırırsan, "Kəsişməz sən gedən yolla, Sinəmin söz küçələri". Bu mənada Elşən Əzimin poeziyası ümumi cəhətləriylə birgə xüsusiliyi ilə seçilir. Belə ki, o da hamı kimi öz yaradıcılığında şifahi xalq ədəbiyyatından yetərincə bəhrələnib. Lakin fikri ifadə formasına görə tamamilə orijinal yol seçib. Onun "İt hürən tərəfin nağılı", "Susmaq qızıldırsa" və s. kimi şeirləri başdan-başa folklora istinadən qələmə alınıb. Lakin ənənəvi mövzularda novatorluq iddiasını təsdiqləyə bilib. Bunu istənilən şeirindən gətirdiyimiz nümunə ilə sübut edə bilərik:

Hər nağılın göy üzündən
Üç alma düşən vaxtı var.

İki başın bir qazanda,
Qaynayıb bişən vaxtı var.

Bəndin ilk misraları nağılların sonluğuna istinadən yazılıb. Nağılların söylənilib bitdiyinin çox şahidi olmuşuq, amma göylərdən almanın düşməyəcəyinə də əminik. Maraqlısı budur ki, həmin janrda alma niyə məhz göy üzündən düşür, bəyəm əcdadlarımız ağacdan üç alma düşdü deyə bilməzdilərmi?! Bəlkə də, belə olsaydı uşaqlar elə körpəliklərindən həqiqəti eşitməyə vərdiş edərdilər. Hamımıza yaxşı məlumdur ki, məhz bu səbəblərə görə böyük şairimiz Nüsrət Kəsəmənli də nağıllara inanmayıb. O da etiraf edib ki, "Gözlədim göylərdən alma düşmədi, Daha nağıllara inanmıram mən". Əgər ona da uşaqlıqdan düzünü desəydilər ki, alma ağacda bitir, o da bir ömür əbəs yerə gözləməzdi. Amma nədənsə, Elşən Əzim elə bir vaxtın gələcəyinə inanır. Bəlkə də, bu postmodernizmin təsiridir. O cərəyanın nümayəndələri sanki, əvvəl deyilmiş fikirləri təkzib edirlər. Məsələn, atalar sözlərində deyilir ki, iki qoçun başı bir qazanda qaynamaz, lakin E.Əzim isə bunun əksinin olacağına inanır. İki başın bir qazanda bişəcəyinə zamanla şahid ola biləcəyimizi xəbərdar edir. Hətta "Göydən üç alma düşəcək, Dişimin olmayan vaxtı" qənaətinə də gəlir. Əslində üç almanın düşməsi sonluğa işarədir. Dişlərin də bir bədən üzvü kimi tökülməsi qocalıqda baş verən prosesdir. Bu məntiqlə yanaşsaq, əbədi sonluğun qocalığın lap sonunda gəlməsi daha arzu olunandır. Yox əgər bu "üç alma" həqiqətən də göydəndüşmə olacaqsa və artıq onu dişləməyə dişlər də olmayacaqsa bu təəssüfə layiqdir. Digər bir tərəfdən, bəlkə, həmin almanın göydən düşməkdə məqsədi tamam ayrıdır o, İsaq Nyuton kimi başqa bir alimin başını hədəf

seçib. Bu almanın niyə və nə vaxt düşəcəyini gözləyə-gözləyə çox almalar göyə çıxıb.

Başqa şeirində isə nağıllarımızın digər bir elementinin simvolunu görürük: "Yandırsaydım hali bilib gələrdin, Hardan alım burda simurq tükünü?" "Məlikməmmədin nağılı"ndakı epizod hamımızın yaxşı yadındadır. Nağılın qəhrəmanına yardım etmək istəyən qüvvələr ona hər şeyin bir göz qırpımında hazır olması üçün simurq tükünü yandırmağı məsləhət verirlər. Şair də məhz həmin epizodu şeirə gətirməklə maraqlı bir gediş edib. Elşən Əzim nağıllarla yanaşı dastanlarımızın da poetik inikasını yaratmışdır. "Əlimizdən uçan mələk, Göydən təpəgöz gətirir" nümunəsi tamahla yanaşı, əldən verilmiş fürsətin də simvoludur. Yəni əslində əldə saxlamalı olduğumuz mələyi taleyin ümidinə qoyduqdan sonra, onun "doğuracağı" təpəgözə görə məsuliyyət daşıyırıq. Bəlkə də, biz o mələyi mələk olaraq saxlasaydıq, öz mənsub olduğu elə qarşı qənim kəsilən təpəgözlər də yaranmazdı. Başqa bir şeirində isə bu cəhdinin də uğursuz alındığının nəticələrini görürük: "Qanadı mələyə verdim, Mələk təpəgöz gətirdi". Elşən Əzimin şeirlərinin maraqlı cəhətlərindən biri də odur ki, o, xalq dilində olan deyimlərə də özünəməxsus nəfəs verir. "Başıma çoxdan kül olub, Gözümə də kül üfürmə" və ya "İsrafil çalmazdan öncə qamışı, Dünyanın boyuna ölçür deyəsən" misralarında başına kül olmaq, gözünə kül üfürmək, boyuna qamış ölçmək frazemləri xalq danışıq dilindən götürülmüşdür.

Gözümdən su içən kədər,
Heç su içmir gözüm səndən.
Hara baxdım sən göründün,
Dönən deyil üzüm səndən.

Bu bənddə də məcazi mənalı deyimlər poetik yükə malikdir. İlk misralarda maraqlı bir qarşılaşdırma edilmişdir. Kədərin susuzluqdan ciyəri yananda yalnız göz yaşıyla gözünün qurdunu öldürür. Məhz buna görə də, şairin kədərdən gözü su içmir, ona şübhəylə yanaşır. Bu şübhələrə rəğmən ondan üzü dönməyəcəyinə də əmindir. Səbəbini də açıqlayır ki, üzümü döndərməyə bir tərəf qalmayıb, hara baxıramsa sən görünürsən. Bir dəfə təsadüfən gözü ağaca sataşmışdı: "Bir ağac görmüşdüm, elə bilirdim, Mələk qanadından yaz düşüb yerə. Soruşdum kiməkib? Dedilər heç kim, Qarğa dimdiyindən qoz düşüb yerə". Nümunədə "qarğa dimdiyindən qoz düşər" ifadəsi xatırladılıb. Ənənəvi xüsusiyyətləri ilə yanaşı onun şeirləri daha çox poetik mənalandırmada novatorluğa meyllidir. Çünki son zamanlar ədəbiyyatımızda dəb halına düşən bəzi cərəyanlara qarşı müəllifin fikri də birtərəfli deyil. Məsələn o, modernizm haqqında belə düşünür: "At minmiş şəhər uşağının Vurduğu solaxay şallaqdı, Şadlığa atılan şıllaqdı" və ya "Deyəsən öyrəndim, Modernizim nədi. İşıqdan zülmətə açılan bacadı, Açmasını müəllifi də bilməyən tapmacadır". Bunlarla yanaşı, şairin zaman və vaxt haqqında bir çox orijinal düşüncələri var. "Vaxtı TOPlamadım, vaxtı VURmadım, BÖLdüm qalığını ÇIXdım qalmadı" misralarında riyazi əməllərin həmahəngliyindən istifadə edilib. "Vaxtım olmayanda qaytaran olsa - Borc verə bilərəm boş vaxtlarımı" sətirlərində isə çox güclü poetik tutum vardır. Boş baxtın borc verilməsi ifadəsi tamamilə orijinal deyimdir. Özü də onu vaxtı olmayanda qaytarmaq üçün vermək xüsusilə maraqlıdır. Şair yeri gələndə vaxtın ölçüsünü təyin edən cihaza da münasibətini bildirib: "Kor-peşman dönürdüm geri, Onda gördüm bu saatın Tənginəfəs olmuş əqrəblərini". Şair zaman anlayışına əbəs yerə xüsusi diqqət ayırmır, çünki onun həyəcan təbili

çalması göz qabağındadır; "Elə iş tapırsan, iş axtarırsan, Axırda baxırsan iş işdən keçib". Vaxt və zaman anlayışından başqa digər mövzularda da onun şeirləri mükəmməl alınır:

Sevgilim, günahım dəryadı mənim,
Səbri qayıq eylə keç günahımdan.
Ahımdı yolların dumanı-çəni,
Sən də yolu tutub keç günahımdan.

Bir dəryalıq günaha sahib olan aşiqin günahından keçmək üçün sadəcə səbr eləmək yetərliymiş. Gözəl bir ədəbi priyom; günahı qayıqla keçmək ifadəsi təptəzədir. Bəndin son misrasındakı "yolu tutub" birləşməsi də çoxçalarlıdır. Bir tərəfdən yolu əlinə alıb digər tərəfə keçmək mənası görünür. Başqa tərəfdən yolun tutulması, yolu bağlamaq anlamına da gəlir. Ayrı bir şeirində isə poeziya üçün tamam yad olan sözün çox mükəmməl cinas yaratdığını görürük. "Divarı, bəlkə də, ahım qurudub, Çiçək şəkilləri oboyda solub. Sağ olmuş taleyim elə yarıdıb, Pöhrə arzularım o boyda solub". İlk misralarda qüvvətli mübaliğədən istifadə edilmişdir. Necə ah çəkibsə, nəinki divar quruyub, hətta üzərinə yapışdırılmış oboyun üstündəki çiçəklər də solub. "Pambıq da əlimdən düşsə, daş olur ayağımacan" misraları da mübaliğəli cümlələrdir. Öz əlindən düşən pambıq öz ayağına çatana qədər daşa çevrilir. Öz əli və öz ayağı bir-biri ilə təzad yaradır. Misraların davamı da maraqlıdır; "Qələm də sözümü çalır, gözümdən varağımacan". Qələmin sözümü çalmağı iki məna verə bilər, bir odur ki, mən nə deyirəmsə, qələm də onu ifa edir, onu çalır. Bir də qələm də sözümü oğurlayır, məndən söz alır mənasında:

Bu dünya qocalıb vaxtı yetişib,
Bu dünya bəzəkli şar kimi şişib.
Nə vaxtsa Allahın gözündən düşüb,
İndi ha fırlanır yerini tapmır.

Gətirilən nümunədə kifayət qədər özünəməxsus deyimlər var. Dünyanın bəzəkli şar kimi şişirdilməsi məcaziliyi ilə yanaşı həqiqəti də əks etdirir, yəni həqiqi mənada yer kürə formalıdır. Üçüncü misrada isə Allahın gözündən düşüb ifadəsi də bir neçə cür anlaşıla bilər. Həm Allahın gözündən yerə düşüb, Yer planeti yaranıb, həm də məcazi mənada Allahın gözündə öz dünyəvilini itirib mənasını verir. Son misrada isə bədii və coğrafi qarşıdurma yaradılıb. Əslində yer öz oxu ətrafında fırlanır, şair isə ona məcazi fon verib. Bu cür taktika onun şeirlərinin özəyidir demək olar. "Bu közün işartısına, Bir körpənin gözü düşür" nümunəsindən də bunu sezmək olar. Gözü düşür həm xoşuna gəlir anlamı verir, həm də ölçüsü uyğun gəlir mənasına yaxınlaşır. Yəni bir közün ölçüsü bir körpənin gözü boydadır. Şairin satirik çalar qatdığı şeirlərində də müxtəlif yozumlu mənalandırmaya can atıldığını görmək olar. "Qal kürsüdə, qal masada, Yağ masada, bal masada, Adamlığın olmasa da, Adamın varsa adamsan". Elşən Əzim hətta bir çox tarixi proseslərə də öz baxış bucağından qiymət verib:

Qaldırmaq istədik o ağır daşı,
Qaldırdıq, altından ilanlar çıxdı.
Qırmızı çuxalı imperiyanın,
İçindən ağ donlu yalanlar çıxdı.

Biz daşı daş üstə qoyub məmləkəti dikəltmədikcə, məmləkət daş-daş daşındı. O daşlar da yağılarla yurddaş oldu, sirdaş oldu, hələ bir vətəndaş da oldu. Sonra da o

vətəndaşlar bizə yadlaşdıqca, düşmənin yaddaşına çökdü. Daha sonra da bunlar yad daşıdır - deyib saldılar başımıza. Başımızı ilan başı kimi əzmək istədilər. Onlar kim olsa yaxşıdır, "Böyük Vətən"imizin yaradıcıları. Əsarətdə yaşadığımız neçə illər tariximizə ağ yalan oldu. Zaman göstərdi ki, elə ağ da yalandır, qırmızı da. Ümumiyyətlə, onun bir çox şeirləri başdan-başa poetik tapıntılarla zəngindir. Bu şeirlərə misal olaraq "Qəmbərqulu", "Başı kəsilən adam", "Əşşi nə isə...", "Qıfıl", "Şairin halları", "Ulduz falı", "Ayağa düşən kölgələr" vəs. göstərmək olar. Həmçinin bir çox misralar haqqında da həmin fikirləri təkrar etmək ədalətlidir: "Məni ayağım aparır, Başıma iş gələn yerə" və.s Ayaq və baş ədəbiyyatın ənənəvi təzadlarıdır. Bu nümunədə isə yenilik ruhu ondadır ki, real həqiqət poetik məcaz həddində təqdim olunub. Yəni başımıza iş gələcək yerlərə öz ayaqlarımızla gedirik."İki şair iki qızdan danışdı, Saz ağladı dördümüzün yerinə" misralarında isə qəribə bir riyazi qanunauyğunluq var; (2x2=4). İki şairi iki qıza vuranda da, toplayanda da dörd edir. "Yazdığım özümün deyil, Çəkdiyim ahın şeiridi" misralarında isə "çəkdiyim" feili sifəti həm "ahın şeiri"nin təyini, həm də özü ayrılıqda mübtəda kimi də anlaşıla bilər. "Yarpaqlar ölüm hökmü almış adam kimi əsir" misrasında isə təşbeh çox poetik alınmışdır. "Ay Elşəndən nəzərini əyənim, Ay saçımda bəyaz libas geyənim. Halallıq ver, bu tayda qız bəyənim, Ay illərin o tayında qalan qız" - şair həmin qızın bütün cizgilərini fərqli formada təqdim etmişdir: "Küsəndə dodağın elə büzülür, Sanki qar üstünə çiyələk düşür". Onun sevgi yüklü bir neçə misrasına nəzər salmaq yetər ki, əsl mətləbdən hali olasan. "Heç uzağa getməyək bir-birinin dərdindən, Bir ölmək mən uduzum, bir ölmək də sən uduz", "Tapıb aparıblar itirdiyimi, Kimi axtarıram, kimi təzədən?!",

"Gülüm, sənsiz ölmək asandı deyə, Sənsiz yaşamağı seçdim, yaşadım" misralarının sevgi tutumu ürəyoxşayandır;

Yorğun gözlərimin yuxusu çindi,
Yenə yada düşdün, qəlbim uçundu.
Bir incə çiçəyə qonmaq üçündü,
Bir arı zəhməti, bir pətək ömrü.

Bənddəki qafiyələndirilmiş sözlərin seçimi heyrət doğurur."Aşiqlər bir eşqin övladlarıdır, Göz gözə sataşan kimi qan çəkir" - ilk misra iqrari hökm kimi qəbul olunandır. İkinci sətirdə isə fikirlər haçalanır. Göz gözə sataşır-qan çəkir, yəni sataşanda qan düşür. Həm də eyni eşqin övladları eyni qanı daşıyırlar. "Qan çəkir" ifadəsi dilimizdə qohumluq anlamına gələn mənada da işlənir. "Bölünmüşəm həsrətini, Param çəkməz, param çəkər" sətirləri isə param-parça olmağın zirvə nöqtəsidir. "Sonra da qış gəldi özündən razı,Gəlib bir balaca üşütdü məni.Təbiət vaxtında gətirdi yazı,Nə bilim, bəlkə də, eşitdi məni". Digər bəndində isə "Xəyalım silindi göydən iz kimi,Çünki dalğalandı göy dəniz kimi.Göy donu tərpəndi göy dəniz kimi,Yeddi rəng içində göy nədi bildim" qafiyələnməsində yepyeni bir cinasla tanış oluruq. Lakin ən maraqlısı odur ki, sonucda Göyün nə olduğu məlum olur. O həm təbiəti, həm səmanı, həm də türklüyü ifadə edir. Elşən Əzimin şeirlərinin dərinliklərinə vardıqca öz aləminə düşürsən, özün-özünə gəlirsən və onun ən ağır sözü olmaq istəyirsən:

Çəkdiyim bəsimdi, az deyərəmmi?
Elşənə tab gətir, döz deyərəmmi?
Sənə güldən ağır söz deyərəmmi?
Sənə sözdən ağır gül tapa bilsəm.

"Kaspi" qəzeti. 14-16 fevral 2015

İSA CAVADOĞLU ŞEİRLƏRİNDƏ TƏBİƏT

"Baxıb təbiətin təravətinə, İsa da qərq oldu şeiriyyətinə" - misralarının müəllifi İsa Cavadoğlu özü təbiətin əsl möcüzələrindən olan Tovuz rayonunun Aşağı Eyyublu kəndində, 1931-ci il mayın 12-də dünyaya gəlmişdir. Gəncə Dövlət Pedaqoji İnstitutunu bitirdikdən sonra (1954) əsas peşəsi müəllimlik olan İsa İsayev həm də qüdrətli qələm sahibi kimi şöhrət qazanmışdır. İsa Cavadoğlu yaradıcılığı mövzu və janr məhdudiyyəti tanımır. Lakin onun təbiət mövzusunda yazdığı şeirlər özü təbiətin güzgüsü sayıla bilər:

Mavi göylər, şiş qayalar qartala,
Geniş düzlər ceyranlara yaraşır.
Bir baxışnan aşiqini ovlamaq,
Müjgan oxlu cananlara yaraşır.
...Gül üstündə bir şeir də ərməğan
İsa təki bağbanlara yaraşır.

Elə bu misralar şairin poeziyasının təbiətlə təbii ahəngdarlığının sübutudur. Təbiətin təbii varlığı özü poeziyadır:"Ceyran gözəlliyi dırnaqlarıyla, Dərəyə yazıbdır, düzə yazıbdır" - söyləyərək peyzajın poeziyada necə təsirləndirici olduğunu göstərə bilmişdir. Onun yaradıcılığında təbiət gözəlliyi, vətən gözəliklərilə çuğlaşdırılıb. Təbiətin bütün gözəlliklərini vətən torpağına elə pərçimləyib ki bu əsrarəgsizliyi bir-birindən ayrı təsəvvür etmək mümkün deyil: "Kürü kəmənd edib Kəpəzə atdım, Şikarım Göygöldür, gölümə qurban". Bu misralar sadəcə heyrətləndirir, onun əlavə şərhə ehtiyacı yoxdur. Çünkü şair təbiət hadisələrinə tamam başqa mövqedən yanaşır:

Bəlkə də, göy coşmaz havayı yerə,
Yerin ilhamıdır göy gurultusu!
Sonsuz ulduzlara, planetlərə,
Dostluq salamıdır göy gurultusu!

Şair təbiətin naxışlarına poetik bəzək vurmuşdur. Qayaları elə heyrətamiz şəkildə vəsf edir ki,sadəcə mat qalırsan: "Zirvədən dərəyə atılsa belə,Öz qaya adını saxlar qayalar".Dağları isə etibarlı könül həmdəmi hesab edir: "Başına dolanım, a qarlı dağlar, Dərdini sizlərə deyənlər-dənəm". Ümumiyyətlə, bu mövzu şairin ilhamı ilə tarazlıq təşkil edir. Şair, doğurdan da, özünü təbiətdə tapır:

Qəlbim səhra kimi qarsalansa da,
Yağışa dönərək yağıb insanlar.
Fikrimdə buz donub qar sallansa da,
Bahar günəşitək doğub insanlar.

Qüdrətli yazarımız bəzən peyzajlar vasitəsiylə elə təzadlar görüntüsü yaradır ki, bədii ifadə vasitələri heyranedici cazibəyə malik olur:

Zirvəyə baxıram əzəmətlidir,
Zirvələr ucadır məhəbbət kimi.
Dərəyə baxıram nə dəhşətlidir.
Dərələr uçrumdur siyasət kimi.

Bu nümunələrin sayını sonsuzluğa aparmaq olar, çünki dünyanın bütün möcüzələri təbiət vasitəsiylə bizə çatdırılır. Şair də buna görə, bütün gözəllikləri tapmaq üçün sadəcə təbiətə nəzər salıb, onu qorumağa çağırır: "Diksinər, sən canın, daş atma suya, Ayın da haləsi təbiətdədir". Təbiə-timizin, vətənimizin, ümumiyyətlə, dünyamızın əsl söz

ustası olan İsa Cavadoğlu Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Onlarla kitabların ("Mən ulu tarixəm", "Ya qismət", "Düşüncələr" və s.) müəllifidir. İsa müəllim həm də Tovuzda fəaliyyət göstərən Aşıq Hüseyn Bozalqanlı adına "VARİSLƏR" ədəbi birliyinə uzun müddət sədrlik etmişdir.Yaşam və yaradıcılıq arenası çoxtərəfli olanİsa müəllimin özünəməxsus poetik dünyası var.

"Senet.az" saytı. 12 may 2016

SAQİF QARATORPAĞIN KİTABINA

"Mənə oxşamayan, mənə oxşayan, İçimdə gizlənən məni kim görər?!"- sualı üçün narahatlıq hissi keçirməyə əsas görmürük. Bu ritorikanın cavabları Saqif Qaratorpağın "Bir könül varağında" kitabını vərəqlədikcə öz əksini tapır; "Gəlmişəm, hazıram getməyə hər an, Vaxtın ətəyinə qısılmamışam. Oğurlanmış özgə medalı kimi, Sürtük yaxalardan asılmamışam". Bənd bütövlükdə şairin poetik məninin ifadə tutumuna malikdir. Üçüncü misradakı bitkin təşbeh əsl ustalıqdan xəbər verir.Böyük sənətə gətirən yollar çox olsa da, onlardan ən başlıcası şifahi xalq ədəbiyyatı pöhrələrindən bəhrələnməkdir. "Xoşbəxtliyi daş bilib, Kimsə atdı quyuya. İndi xoşbəxtlik üçün, Hamı baş vurur suya" misraları şairin folklor nümunələrindən yetərincə qaynaqlandığına işarədir. Həmin bənd "bir dəli quyuya daş atdı, yüz ağıllı yığışdı çıxara bilmədi" məsəlinin özünəməxsus yozumuyla cilalanıb. Sən demə, o dəlinin atdığı daş "xoşbəxtlik daşı" imiş. Digər tərəfdən insanlar özlərini dəliliyə vurub xoşbəxtliyin daşını atıblar:

Üstü bəzək, astarından cin hürkər,
Könül küsər, iman qaçar, din hürkər,
Qabığını çatladacaq bu sirkə,
Sənin yerin deyil, quzum, bu dünya.

Göstərilən bəndin misralarının əsasında atalar sözləri dayanır. Səbəbsiz olmayan nəticə elə budur. Şair əmindir ki, ağız ədəbiyyatı hər zaman yazarların sözünü söz eləyib. İstər fəlsəfi, istər bədii fikirlərin ifadəsi üçün ən yaxşı vasitə olub. "Yaltağı yoxlasan ayağını bas, Hazırdı vurmağa daşı əlində" fikri də folklorun təsir gücü ilə

təsdiqini tapır. Bununla yanaşı, S.Qaratorpaq poeziyasının qidalandığı digər bir mənbə klassiklərimizin yaratdığı ədəbi abidələrdir. "Füzulinin ələmindən süzülüb, Loğmanların məlhəmindən süzülüb, Vidadinin qələmindən süzülüb, Qərib ötən "Durnalar"dı şeirimiz" etirafı da bizə haqq verir:

Şəhid oğulların qanı yerdədir!
Şuşamız yıxılıb, yanı yerdədir!
Füzuli salamı hanı?- yerdədir!
Daha dərd əlindən çıxammır dağa,
"Hayıf, Qaçaq Kərəm, İsrafil ağa!"

Barat Vüsalın eyni rədifli şeirinə nəzirə yazılmış bu beşlikdə sənətkar sözün bütün poetik imkanlarını nümayiş etdirib. Bəndin ilk iki misrası vətən təəssübkeşliyinin sızıltıları kimi başa düşülür. "Yıxılıb yanı yerdə qalmaq" frazemi xalq dilindən alınaraq məharətlə bədiiləşdirilmiş ifadədir. Bəndin 3-cü və 4-cü sətirləri həm poetik ifadə imkanlarına, həm də bədii strukturuna görə çox orijinaldır. Üçüncü misra Füzulinin məşhur "salam verdim, rüşvət deyildir deyə almadılar" aforizmini yada salır. Ən maraqlısı həmin misraların mükəmməl sintezindədir. Üçüncü misradakı "Füzuli" sözüylə dördüncü misradakı "...dərd əlindən çıxammır dağa" sözlərini bir araya gətirsək "Füzuli dərd əlindən dağa çıxdı" misrası alınar. Bu da S.Qaratorpağın sözdən sənətkarlıqla istifadə edə bilməsinin təsdiqidir.

O, sözdən peşəkarcasına istifadə bacarığını 4-5 hecalı şeirlərdə elə gözəl göstərib ki, heyranlıq doğurur. Dördhecalı "Anrı" və beşhecalı "Yazıq" şeirlərindəki poetizmə baxaq: "Qanlı yaşlar, Gözümdə car, Ömür başlar, Yaşdan anrı". Qərb dialektində işlənən "anrı" sözü "o yana", "o tərəfə" anlamına gəlir. "Yazıq" şeirindəki az sözlə çoxmənalılığa diqqət yetirək: "Olan gerçək, Qalan gerçək, Yalan gerçək,

Düz-yazıq". Rədif kimi işlədilmiş "yazıq" sözü şeirin müxtəlif bəndlərində cinas təsiri də bağışlayır. İlk baxışda "yazıq" sifəti quruluşca sadə sözdür. Eyni zamanda "yazmaq" felindən əmələ gəlmiş düzəltmə sifət kimi də anlaşılır. Həm də yaz (bahar) isminin birinci şəxsin cəmi kimi də yozumlana bilər; biz yazıq-baharıq. "Yazıq-yazı" isimləri çöl, düz mənasını da verir.

Bütün bu açıqlamaları bir yerə yığdıqda şairin azhecalı şeirdə də çox irəli getdiyini çəkinmədən söyləmək olar. Yazar bəzən riyazi qaydalara da fəlsəfi çalar qatır: "Demə bu dünya heçdi, Demə bir köhnə köçdü, Ya beşdi, ya da üçdü, Dördün yanında olar". Aksioma təsiri bağışlayan rəqəmlərin düzülüşündə həyati fəlsəfə aparıcıdır. Məlumdur ki, 3+1=4, 5-1=4 olur. Həm toplama, həm də çıxma əməllərini birləşdirən 1-dir, yəni vahidlik, bütövlük. Amma diqqət yetirdikdə görürük ki, birin sayəsində 3 artır, 5 azalır. Bu qəribə qanunauyğunluqda doğumdan ölümə gedən yolun izləri sezilir. Buna bənzər başqa bir şeirinə göz gəzdirək:

Doğrunun qolunda, zamanın qandalı.
Yalan at oynadır, "İki"lər "beş"dən qabaqda.
"İkrek"lər "iks"dən böyük, Bənövşə boynubükük.
Zəhərə qatıb balı, Kim açar bu "inteqralı"?

Uzun illərdir ki, qiymətləndirmə meyarı kimi əsasən "2" və "5" rəqəmlərindən istifadə olunur. İki mənfi nəticəni, beş əla nəticəni qiymətləndirir. Lakin adi hal kimi qəbul etdiyimiz bu rəqəm düzülüşündə mənfi nəticəni bildirən ədəd müsbət anlamlı rəqəmdən qabağa keçib. "X"ın aldığı qiymətlərə əsasən "y" dəyişir. Bu riyazi asılılıqla ömür yolu arasında bir bağlılıq var. Hər keçən gün bizi doğum anından uzaqlaşdırır. "X" oxunun

oxşarı yaşadığımız günlər "Y" oxuna bənzəyənyaşlanmanı təmin edir. Əslində bu inteqralın da cavabı insan ömrünün zaman və məkan hüdudlarındakı sayılı günləridir. Həmin şeirin daha aşkar hisslərə əsaslanan eyniliyi "Zarafat" adlı əsərində həqiqətdə bu zarafatın çox ciddi olduğunu xatırladır:

Gözləyir bizi, minib gedəcəyimiz yəhərli at kimi
Şəkərli diabet, infakt kimi!
Saymaqla qurtaran deyil adı, Nə qədər həyat var,
Nə qədər insan var - Bitib tükənən deyil "Zarafat".

Göründüyü kimi, söz sərrafı ölüm reallıqlarının adını çəkmədən onun əlamətlərini təşbeh və metaforalar vasitəsilə elə ustalıqla sadalayır ki, söhbətin nədən getdiyi aydın olur. Yer üzündəki insanların sayı qədər ölümlərin sayı var. Bu say daim dəyişir. Sabitliyi mümkün deyil, doğumlarla ölümlərin sayı zaman və məkan baxımından bərabər ola bilməz. Əslində bir yaranış bərabərdir bir ölümə. Bu baxımdan şairin fəlsəfi lirikasına baş vurduqca çox şey aşkarlanır. "Uzağı görmək asan, Yaxını görmək çətin. Yüz çiçəyin içindən, Bir çiçək dərmək çətin"- ən uzaq görən dahilər də bəzən ən yaxındakı həqiqətdən xəbərsiz olublar. Məsələn, bəşəri yazıları ilə dünyanın gələcək mədəni irsini yönləndirən Puşkin duelə çıxarkən bir addımlığındakı ölümü görməməzliyə vurub, həqiqət isə yanılmağı sevmir:

Yatarsan ağın altında,
Yatma bayrağın altında!
Qəbrin ayağın altında,
Ümid başının üstündə.

İkinci misrada güclü hərbi pafos var. Bayrağın kölgəsində yuxulamaq vətəni fəlakətə sürükləyər. Üçüncü

və dördüncü misralara diqqətlə nəzər saldıqda şaquli formada yaradılmış mükəmməl təzadın şahidi oluruq. Qəbir-ümid, ayaq-baş, alt-üst antonimləri ardıcıllıqla hərəsi bir misrada orijinal bədii təzad yaratmışdır. "Həm balığam, həm quşam, Bir sevdadan bihuşam. Baxma xırda bir daşam, Öz yerimə hör məni" - balıq olmaq arzusunda olan insan zəkası gəmiləri, quş olmaq arzusu təyyarələri yaratdı. Bu sevda yaratmaq sevdası idi. Son misraların poetik tutmu ağır çəkilidir. Əhəmiyyətsiz hesab etdiyimiz xırdaca daş öz yerinə hörüləndə Misir piramidaları, Çin səddi yaratmaq olar. Həmin sətirlərdə hər şeyin öz yerində olmasına əməl etmək çağırışı da vardır. Şairin yaradıcılığında təbiətlə dərdləşmənin özəl pıçıltılarını dinşəmək olar; "Sirli könüllərin butasıydı o, Bir eşqin sonuncu xatasıydı o, Naməydi, kiməsə çatasıydı o, Bir çinar yarpağı düşdü ovcuma" bəndində həm gözəl qafiyələnmə, həm də təbiətin ahənginə uyğun ruhsallıq görünür:

İçib gözlərimin yaşını torpaq,
Yetim xatirələr boynubükülü.
Çiynimə toxunan hər qızıl yarpaq,
Payızın üşüyən xınalı əli.

Torpağı göz yaşı ilə sulamaq mübaliğəsi nə qədər şişirdilmiş olsa da, bu fikirlərin arxasında torpağa bağlılıq dayanır. Payız ömrü yaşayan yarpaqla xınalı əlin müqayisəsi gözəl epitetdir. Bərk üşüdükcə insan əsməyə- titrəməyə başlayır. Bu durumla payız küləyindən əsən yarpağın halı möhtəşəm formada müqayisə edilərək, yarpağın üşüməsi anlamına gəlir. Üşüyən yarpaq metaforası tapıntı missiyalı poetizmdir. Bütün bunlarla yanaşı şairin həzinlik süzülən xatirələrini dinlədikcə insanın içi titrəyir. "Güdüb bostançını bir qarpız üçün, kolların dibinə sindiyim

günlər” etirafını gözəlləşdirən əsas cəhət ədəbi dilimizdə az işlənən, “sinmək” felinin məharətlə yerində oturdulmasıdır. “Suyu süzülmüştək bir gün görüşdən, Peşiman-peşiman döndüyüm günlər” həqiqəti bir çox insanların reallığıdır. “O dağ döşü, kitablar, bir də körpə quzular, “Beş daş”da əllərini qanatdığım o qızlar, Bir də geri dönərmi o illər, o arzular?! Mən məktəbə gedirdim...” - bir bəndini misal gətirdiyimiz həmin şeir bütövlükdə könül tərpədən xatirələr toplusudur.

S.Qaratorpağın şeirlərində diqqət çəkən əsas məsələlərdən biri də milli kimlikdir. “Türk hardan gəlir, Saz yaxşı bilir” xəbərdarlığında Şimal yarımkürəsində tarixin o tayından sazı-sözü ilə tarix yazan türkün ayaq səsləri eşidilir. “Türkün bələkdəki qığıltısıdı, Dünyada ən böyük əlifbadı saz” misralarının birinci sətrində yeni metafora yaradılıb. Musiqinin, melodiyanın insanın ruh dünyasını yazaraq, nəsildən-nəsilə ötürməsi həmin fikirlərdə ifadə olunub. Türkçülük mövqeyində əsas məsələlərdən biri də bölünmüş vətən problemidir. “Kəsdilər Babəkin qolları kimi, Kəsdilər Təbrizin yolları kimi” beytindən vətəndaş iniltisinin hıçqırıqlarını eşitmək olar.

“Dərd burda dərman ordadı, Aparır Təbrizə yollar” fikirlərində də bölünmə xəstəliyini Təbrizə qədər yolların türkün ayağına döşənməsində görür; “Gücü hər sözə yetsin! Göyə, dənizə yetsin! Uçub Təbrizə yetsin, Gərək quş olsun könül!” Milli şeir janrlarındakı ustalıqla yanaşı, S.Qaratorpaq milliləşdirdiyimiz qəzəl janrında da qələmini uğurla sınayıb;

“Heyhat! Batacaq yelkənim eşqin dənizində,
Yarın xalı boyda mənə bir ada yazıblar”

- beytində şairin öz fikirlərini necə bədii ustalıqla ifadə etməsini görürük. “Xəyal eyləməyə xəyal qalmayıb” deyən sənətkar xəyallarıyla bizi lirikasında tanışdırır. Yaxından tanışlıq göstərir ki, “Şəmsi getmiş Mövlanədən

betərəm!” ifadəsini şair boşuna işlətməyib. O, daxili dünyasına yaxın insanlardan uzaq düşmək istəmir, çünki həmin insanların hamısını sözün qüdrəti bir araya gətirir. Söz ilə Tanrının adını çəkirik. “Tanrım elə ucasan, Söz səndən aşağıda”.

“Senet.az” saytı. 15 aprel 2015

ŞEİR BOYDA ŞAİR

Uzun illərdən bəri şirin-şirin qoşmaları, təcnisləri, gəraylıları aşıqların, xanəndələrin ifasında, poeziyasevərlərin dodağında qanadlanan Sərraf Şiruyə müasir ədəbiyyatımızın zənginləşməsində payı olan istedadlı şairlərimizdən biri kimi özünü belə özününkiləşdirir; "Görmürsənmi, saç-saqqalım qırovdu, Mənim yurdum Xan Keytidi, Murovdu"- deyən şairin simasında vətənnüma bir əzəmətin kök saldığını görürük. Ot kökü üstə necə bitibsə, onu yerindən tərpətmək mümkünsüzlüklə uğraşmağa bərabərdir: "Şəhər gur olsa da, kənd əzəlimdi, Süslü qoşmalarım, tər qəzəlimdi, Yenilməz ərənim, şux gözəlimdi, Mən elsiz yaşaya bilmərəm, qardaş". Bu xitab boş-boşuna müraciət deyil. "Pozub bu yaşımda içdiyim andı, Mən elsiz yaşaya bilmərəm, qardaş" - söyləyən şairin şəhərlə kəndi çox ustalıqla ikili standartlarla müqayisəsi diqqəti cəlb edir. Gur şəhərlə müqayisəyə əzəlimiz olan kəndi nümunə göstərir. Sonra da onun orijinal epitetlərini nümayiş etdirir; süslü qoşma, tər qəzəl.

Maraqlı janrların ortaq nöqtəsi olmayan ortaqlığını göstərməyə can atır. Belə ki, milli janrımız olan qoşma heca vəznində bəndlərlə yazılır, lakin əcnəbi janr olan qəzəl əruz vəznində beytlərlə yazılır. Bəs, görəsən, şair nədən bu iki janrın oxşarlığını tapmağa can atıb!? Yəqin ki, əsas məsələ onların hər ikisinin son misralarının eyni qafiyəyə tabe olmasıdır. Qoşmada dördüncü, qəzəldə ikinci misralar həmişə öz həmqafiyəsinə sadiqdir. Bu da sübut edir ki, şair ikinci misrada işlətdiyi "qəzəl" sözünü sadəcə "əzəl" və "gözəl"ə qafiyə xatirinə yazmayıb. Kəndlərimiz elə doğma ocaqlardır ki, orada qoşma kimi öz qanımızdan olanlar da, qəzəl kimi bizə pənah gətirənlər də mehribanlıqla yaşaya bilirlər. Şair bölgələrimizə

çəkinmədən əsl qiymətini verir: "Cənnət dedikləri düz-dürsə əgər, Cənnətdən səfalı yerdi Kəlbəcər". Vurğulanır ki, əgər həqiqətən də dini dünyagörüşünə əsaslanan cən-nətməkan bir yer varsa, onu bu dünyada da görmək olar. Amma birdən yada düşür ki, Kəlbəcər nə vaxtdır əsl cəhənnəmi elə bu dünyada yaşayır. Həmin aqibəti yaşayan təkcə bir şəhər olsaydı nə vardı ki...

Şişdağ Keyti səmtə gözünü dikib,
Keyti ağı deyib, boynunu büküb.
Deyirlər ki, Alagöldən perikib,
Sonam, a Kəlbəcər, sonam, a Göyçə!
Anam, a Kəlbəcər, anam, a Göyçə!

Bənddə məqsədyönlü şəkildə zəbt olunmuş toponomik ərazilərin adı çəkilir. "İnan bir bu sözümə: sən üçün göz yaşlarım, Göllənsə ləpələri ətək-ətəkdi, Göyçə" - şair qoynunda doğulub, boy atdığı ana Göyçəni inandıracağına çətinlik çəkəcəyini zənn edir.Lakin son ümidinin hələ də ümidləndiyini xatırlayır: "Ömrümün son anında ümidim, gümanım var, Yanağım torpağına söykənəcəkdi, Göyçə". Bu həsrətin sona yetməsinə inamını itirmək istəmir, çünki sonunda onu şirin vüsal gözlədiyindən əmindir: "Şirin öpüş alım bulaqlarından, Sərin meh istəyim yaylaqlarından, Tökülüm sinənə yanaqlarından, Ağlar gözlərinin yaşına dönüm".Doğma torpağının bulaqlarından alacağın öpüşə həsrət qalmağın hüznlü aqibəti hiss olunur. Hələ özünü istəyə bilmədiyimiz yaylaqların mehini də istəyə biləcəyinə inanır."Hüsnünə tamaşa eyləmək üçün, Uca qayaların qaşına dönüm" - söyləyir. Bu məqsədin çox yozumları var. Dilimizdə qayaların qaşı anlamında çoxmənalılıq vardır. Həm də "qaşına dönüm" ifadəsində "dönmək" feili geriyə qayıdım mənasını da verir. Yurd-yuva niskilli şair bu geri

dönüşün vacibliyini də nəzərə çatdırır, çünki "Müşgülüm düşüb dərinə,Bir dərdim həsrət birinə. Ər babamın yurd yerinə, Gəlib özgə dəyə düşüb". Özgələrin dəyə qurub, yurd saldığı yerlərdən bizim izimiz silinməkdədir. Bu, elə bir dərinliyə düşmüş müşküldür ki, onu hansı dəli quyuya atıbsa, indi dünyanın bütün ağıllıları yığılır, çıxara bilmirlər. Bəlkə də, istəsələr o quyuya daş atanların daşlarını çoxdan atardılar, amma nədənsə, dərdlərimiz bir-birinə həsrət qala-qala qalıb. Bu da şairin əhvalına təsirsiz ötüşmür: "Sərraf Şiruyəyəm, halım pərişan, Hər saçım həsrətdən verir bir nişan. Gözlərim ağlardı, ürəyim şan-şan, Ömrümün sən görən vədəsi deyil". Göründüyü kimi, sənətkarın yaradıcılığı yalnız yurd niskilli əsərlərlə məhdudlaşmır. Didaktik məzmunlu şeirlər də novatorluğu ilə seçilir:

Çoxu əməlinin oldu qurbanı,
Bir kimsə demədi, günah öldürdü.
Lənət də yağdırdı çoxu göylərə,
Dedilər - yazığı Allah öldürdü.

Etdiyimiz əməlləri törədərkən nəyin günah, nəyin savab olduğunun fərqinə varmırıq. Sən demə, ciddiyə almadığımız bir çox şeylər ömrümüzə günah kimi yazılır. Üzü göylərə ünvanladığımız lənətlərin məhvimizə bədəl olduğunun fərqinə varmırıq.Amma unutmaq lazım deyil ki, hər "yazığın" qismətində Allah tərəfindən müəyyən olunmuş bir ölüm ərməğanı var. Biz sadəcə olum və ölüm anları kəsişənə qədər bizə verilən zaman kəsiyinə məharətlə sahib çıxmalıyıq. "Tənbəl hey söylədi: "Allaha pənah", Bax, o yazığı da pənah öldürdü". Bu, doğrudan da, belədir, lazım olmayan anda həyatdan "tayımaut" götürməyin də nəticəsi ürək açan olmur."Çoxları özünü atdı meydana, Kürəyi dəyməyən yerə görmədim" -

qənaətindən də belə nəticə çıxır ki, uduzacağını bilə-bilə qələbə eşqinə düşmək də məğlubiyyətə aparır: "Yetişməmiş meyvə, dəyməmiş bostan, Zavala düşməsə, dərilər?Yox, yox!"

Qəm-kədər əlindən ürəyimdə yük,
Gərgədan yükündən ağır olubdu.
O qədər barmağım haqdan yazıbdı,
Qatır beli kimi yağır olubdu.

Bu bənddə şair çox maraqlı bir bənzətmə verir; haqdan yazan barmaqla yağır olmuş qatır beli.Müqayisə qeyri-adi olsa da, düşündürücüdür. Yəni bu qədər haqqa çağırış missiyalı yazılar yazılır, onların bir xeyri yoxdusa, bu qədər əziyyəti nə üçün çəkirik!? Qəribə budur ki, qatır insanlar üçün işləyirsə, insanlar bundan yetərincə faydalanır, amma insan insanı haqqa dəvət edirsə, bu nəticəsiz qalır. Bu da şairi heyvanların rəftarına da müdaxilə etmək zorunda qoyur: "Sus! Ey qəlbi təşnə, yaralı bülbül, Sənin ki, səsinə biganələr var. Dağılma bəxtimtək, ey qara tellər, Səni darıyacaq yad şanələr var". Deyəsən, bülbül də insanlar üçün haqq nəğməsi oxuyurmuş ona görə də, onun da səsinə biganə qalırlar. Sənətkar cansızlara qədər müraciətlərini davam etdirir: "Yanıb külə dönmə, ey şam, ey çıraq, Yarasa ürəkli pərvanələr var".Daha tutarlı əsaslara istinad edir: "Caynağı tutanların pulu dağlar oynadır, Fəqir-füqara üçün pul ova dönüb indi". Əgər vaxtı ilə dahi şairimiz Füzuli eşqin gücündən bir dağı bir dırnaq ilə qoparırdısa, indiki pullular bir dağı bir caynaq ilə də qoparırlar. Kasıb fəqirlər isə pul ovuna çıxsalar da, güllələri boşa çıxır. Bunun da özəl səbəbləri var. "Seyid tamahına satdı cəddini, Axund, molla din-imanı korladı". Aydınca görünür ki, hər həs öz ixtiyar sahibi olduğu sahəni korlayır:

"Gördükcə yaşılbaş, qırmızı donlu,Getdi qulluğuna xonçalı, xonlu. Zinalıq eylədi ətəyi unlu, Dəyirmançı dəyirmanı korladı". Ümumiyyətlə, Sərraf Şiruyənin didaktik fikirləri yetərincədir. Şairin bu cür əsərlərinin alt yapısında dünyagörmüş bir el ağsaqqalının nurlu siması görünür. "Şamın şöləsinə pərvanə yanar, Yarasa ömründə çıraq görməyib" və ya "Mən yaltağı tanıyıram, Qurumsağın tayı kimi" misraları fikrimizə haqq qazandırır:

Çay var kükrəsə də, suyu içilməz,
Sısqa var, damlası baldan seçilməz.
Elə günah var ki, ondan keçilməz,
Qan var bağışlanır, üzə çəkilmir.

Bu nümunədə maraqlı qarşılaşdırmalar verilmişdir.- Kükrəyən çayın suyunun içilmək şansı olmaya da bilər. - Amma ki, elə sısqa bulaq olar ki, onun bir qətrə suyu baldan da dadlı olar. Şair bu müqayisələrə günahı da əlavə edir.- "Günahdan keçilməz" ifadəsi bir neçə cür başa düşülür. Həm günahından keçmək olmaz, həm də elə günahlar var ki, onlardan yan keçmək mümkün olmur. Məsələn: qanı bağışlamq kimi. Bu da iki cür anlaşıla bilər. Bir kimisə tökdüyü qana görə bağışlamaq, bir də kimisə qana salmaq, onu qan tökməyə məcbur etmək. Qanın üzə çəkilməsi də müxtəlif cür anlaşıla bilər. Bu yerdə ikili məna ilə qarşılaşırıq, həm həqiqi, həm də məcazi. Qanı qurban kəsən zaman üzümüzə-alnımıza çəkirik ki, bu da həqiqətən üzə qan çəkilməsidir. Məcazi mənada qanın üzə çəkilməsi isə o deməkdir ki, tökülən qanı kiminsə üzünə gəlmək. Şairin həyati müşahidələri davam edir, "Kömür də qaradı, ancaq sürmətək, Nə qaşa, nə də ki, gözə çəkilmir". Bu misralarda isə eynirəngliliyin müxtəlif çalarlılığı üzə çıxır. Bir başqa şeirində isə dilimizdə

işləkliyi olmayan sözün işlədilməsi maraq doğurur: "Düzlükdən dəm vuran yalançı imiş, İlandan qorxanlar ilançı imiş, Cərrah cərrah deyil, palançı imiş, Dünyada nə qədər palançı varmış". Bu bənddə diqqəti çəkən "ilançı" sözüdür ki, onun ədəbi dildə və ya xalq danışıq dilində istifadəsinə rast gəlmək olmur. Başqa bir şeirində isə peyzaj lirikasının fərqli rəsmiylə qarşılaşırıq.

Sərin meh - çöllərin təmiz nəfəsi,
Yarpaq pıçıltısı, meşənin səsi.
Duman dərələrin həya pərdəsi,
Qayalar dağların oğludu, oğlu.

Bəndin hər misrasında bir yenilik nəfəsi göz oxşayır. Mehin nəfəslə, yarpaq pıçıltısının meşə səsiylə, dumanın həya pərdəsiylə təşbeh edilməsi çox uğurlu alınıb. Qayaların dağlarla belə qan qohumu olması fikri isə yeni deyim formasıdır. Bu ata-balalar həmişə bir-birinə dayaq olubdur. Təbiətdən yazdığı şeirlərdəki özünəməxsusluğu onun sevgi tutumlu şeirlərində də sezmək mümkündür: "İlk eşqin həsrəti, ilk eşqin dağı, Sevən ürəklərdə xal kimi qalır. Dönür xatirəyə ilk görüş günü, İlk öpüş dodaqda bal kimi qalır". Bu bənddə dörd dənə ilki olan obyektin poetik mənalandırılmasını görürük. Bunlar ilk eşqin həsrəti və dağı, ilk görüş və ilk öpüşdür. Əslində bu ilklər barədə ədəbiyyatda kifayət qədər poetik nümunələr var, lakin bunların hamısının bir arada bu cür əlaqələndirilməsi çox orijinal alınıb. Bu üzdən də yazar vurğulayır ki, "Mən eşq dəlisiyəm, sən rütbə, şöhrət, Mən səni ağlayım, sən məni ağla". Qəribə burasıdır ki, hərəsi bir şeyin dəlisi olan bu sevgi əhli - necə bir-biri üçün ağlaya bilər? Güman ona qalır ki, "Bəlkə, taleyimə, eşqimə mənim, Bitibsən, yeganə bənövşə gəl, gəl". O bənövşə misallı gözəl üzünü yan çevirəndə şair düşünür

ki, “Fələyin verdiyi dərdlərdən betər, O qız ürəyimi dağladı getdi”. Bu qız üzünü hansı tərəfə çevirdisə, orada bir şeir çiçəklədi:

Ayın yarısına yar vədə verib,
Hesablayın görün, ay yarıdımı?
Buludlu gecələr qoymur görünə,
Bilinmir Ay bütöv, Ay yarıdımı.

Sərraf Şiruyə yaradıcılığında sevgi rayihəli bu cür təcnislər az deyil. Onlardan bir neçəsini maraqlı örnəklər kimi göstərmək olar: “Gördüm camalını yar Aya dönüb,Bir günün çevrilib, yar, aya dönüb!Şiruyə, dərmansız yaraya dönüb,Az qalır canımı o gözlər ala”.Yaradıcılığının ümümi mahiyyəti xalq şeirinin gələnəklərindən bəhrələndiyi üçün, başqa janrlara nisbətən təcnis janrında yazmış olduğu şeirlərə şairin poeziyasında daha çox rast gəlinir. Ona görə də, deyə bilərik ki, poeziyasevərlərin sənətkara “Təcnis Şiruyə” adı verməsi heç də təsadüfi deyil. Hətta, klassik sənətkarlarımıza ithaf olunanları da var. Nümunə üçün baxaq: “Üfüqdən qızaran ağ da ban deyil,Qədəmi sayalı ağ daban deyil,Ağdaban sən görən Ağdaban deyil,Məzarı ay girov, ay əsir dədəm”.Təcnisin mövzusundan şeirin Aşıq Şəmşirə həsr edildiyini anlamaq olur. Bu tipli yetərincə misallar gətirə bilərik. Çoxşaxəli yaradıcılığa malik olan Sərraf Şiruyə öz oxucularını həmişə düşünməyə dəvət edir.

Elin Şiruyəsi, sözün sərrafı.
Bakı. SkyG. 2016. səh. 126-134.

VAHİD MƏMMƏDLİNİN ŞEİRLƏRİ – GÖZƏL HƏYAT ŞEİRDİR

"Şeirim, apar bizi Şeir-şeir olmağa..." - şeirdən sərməst olaq, bununla kifayətlənməyib "gecə qəzəl, hecalı gündüzlər sərbəst olaq" – kimi istəklərin müəllifi olan Vahid Məmmədli müasir Azərbaycan ədəbiyyatının seçilən imzalarındandır. Müəllifin fikrincə, "cismaniyik yer üzündə yalnız kəlmə əbədidir, bəzən isə bircə şeir yer üzünün məbədidir". Yəqin elə bu səbəblərdən yazar "Gözəl həyat bir şeirdir günlər, aylar sətirləri" qənaətinə gəlmişdir. Adətən şeiri həyatın müəyyən gözəllikləri ilə müqayisə edirik. Vahid Məmmədli isə məhz gözəl həyatı şeirə bənzədir. Şeir haqqında isə belə düşünür: "laləzardır, güldür şeir sevgi onun ətirləri". Ətir gülə-çiçəyə aiddir. Gül-çiçək xoş ətirsiz mənasını itirdiyi kimi şeir də sevgisiz mənasız qalar. Şeirlərinə sevgi ilə məna qatan şair yazır: "Qarşıdadı xoş gələcək, Dərddən, qəmnən gəl bir əl çək Yuxuma bir qız gələcək..." və həmin qızdan xahiş olunacaq ki, "Eşq sarayın hörür ruhum, meyli... sən Çək sınağa, istəyirsən çək məni". Bu sınaq anları ruhun eşq sarayı hördüyü məqama təsadüf etdiyindən aşiqdə özünəinam çox güclüdür:

İncimərəm sınaqlarda sınansam.
Bu şərəfdir, eşq yolunda sınarsam.
Bir ah çəksəm kilid nədi, sınar can.
Çək sınağa, istəyirsən çək məni.

Aşiq o qədər özünə arxayındır ki, "Yar nəfəsi bəsimdir Soyuqdan ölən soyuq..." ironiyası ilə təbiətin ahənginə tənə edir. "Soyuqdan ölən soyuq" epiteti həm

gözəl bir məcaz yaradır, həm də soyuğa meydan oxuyur. Təbiət və onun təbiiliyi şairin yaradıcılığında önəm kəsb edən mövzulardandır. "Neçə yol öpmüşəm qız bulaqları Dağlar, hallallıq ver, qoy çıxıb gedim..." misralarında işlənən "qız bulaqlar" başqa bir şeirdə "buz bulaqlar"a dönür:

İndi nədi yaxşı, yaman, - seçirəm.
Buz bulağın dodağından içirəm.
Neçə qızın ürəyindən keçirəm.
Ürəyimdə saxlamasam, günahdır.

Ürəyindən keçənləri ürəyində saxlamağın gileyləri belə ifadə olunur: "Dərd adlı bir vəfam var Yox dərmanı, davası İçimdə bir hava var, Sənsizliyin havası". Dərdin bu qədər vəfalı olması az qalır ki, vəfasızlığa bəraət qazandıra. Vəfasızlıq isə sənsizliklə əlbir olub. "İntizarın səbrimi edib varım, dövlətim" - misraları səbirsizliyin qələbəsinə kinayə edir. Keçmişə nəzər saldıqda görürük ki, "çürüyübdür köhnə taxt uyuyuruq baxtabaxt". Taxt çürüyürsə, demək artıq hökmdarın tacı da öz qüdrətindən məhrum olmuşdur. Daha taxt--taca deyil, bəxtəbəxt olacaqlara pənah aparmaq lazımdır. Belə məqamların sınağından çıxmağı bacarmayan "Özünü hamıdan ağıllı sayanlar..." üçün yazılmış şeir həm mükəmməl poetik bütövlüyü, həm də məna yükünə görə fərqlənən şeirdir:

Özünü hamıdan ağıllı sayanlar üçün
dünya bu gün aldatdığı sabahkı qocadır.
Dəlilərin çaydan keçib aşdığı dağ
Sənə güvəndiyim dağlardan ucadır.

- sətirləri ilə başlayan şeir "Qara qatığa batırıb yediyin, dost dediyinin dizindəki çörəyidir, Şəhvət və tamah qoxusu gələn çürük çərçivəli aynalar, pula aldadılmışların qapısı açıq ürəyidir..." - misraları ilə daha

dərin qatlara yol açır. “Qatıq qaradır” inkarı dilimizdə yalanın müdafiəsi anlamında işlənən ifadədir. Əgər yediyin çörək həmin “qara qatığa” batırılıbsa, o zaman “çörəyi dizinin üstündə olmaq” ifadəsi yada düşər. Beləliklə, hər iki ifadə birləşərək şeirin məna yükünü qüvvətləndirmişdir. Bu ifadə tərzi sonrakı sətirlərdə də davam edir: “Elə bilmə pul qazanmaq qismətdən, bəxtdən aslıdır, ağacda gözüaçıq yata bilmək yarpaqlı taxtdan asılıdır...” Bu misralarda pul qazanmağı bacarmaq ağacda yata bilməklə müqayisə olunur. Yarpaqlı taxt ağacın budaqlarıdır, orada yatmaq istəyinə yalnız həmin bacarığa malik insan can ata bilər. Bu həm də gözüaçıq yata bilmək qabiliyyətidir. Məlumdur ki, yatanda gözlərin ixtiyarı kirpiklərin qovuşmasında olur. Şeirin davamında daha maraqlı nüanslara toxunulur: “Hə bir də, düyü tökülür Londonda bu gün çapdan çıxmış şeir kitablarının vərəqləri arasından. Hansılar ki, yığılmışdı Somalinin ac uşaqları üçün Afrikanın çəltik tarlasından”. Bu misralar fəlsəfi çalarları ilə yanaşı, dünyanın siyasi gündəminə də güzgü tutur. Avropanın ən inkişaf etmiş şəhəri olan Londonla Afrikanın ən geridə qalmış ölkəsi olan Somalinin adları bəşəri bir təzad yaradır. Coğrafi cəhətdən aralarında uzun məkan məsafəsi olan bu yerlər arasında sürətli əlaqə varmış. Çəltik tarlası yetişib sona çatmamış onun düyüsü Avropanın yenicə çapdan çıxmış kitablarının vərəqləri arasından tökülür. Bu həm də planetin ayrı-ayrı yerlərində iqtisadi inkişafın fərqli olduğuna da işarədir. Afrika ilə Qərbin nağılları arasında uyğunsuzluq açıq-aydındır:

Nağıl döndü betərə
göydən alma tökülür.
Daş altında qayalar,
qaya daş-daş sökülür.

Sevgisiz qalan insan,
tez qocalır, bükülür.

Dünya xalqlarının taleyinə biganə qalmayan müəllif öz milli kimliyini də unutmur: "Turan güldür, Mən də Türkəm... Bir ləçəyim o taydadır" - sözləri ilə vətəninin ikiyə parçalanmasını nəzərə çatdırır. "Sinəm dağı Savalanın dağıdı Çiçəkləyib, düşmənlərim gül dərər" kimi sətirlərdə işlənən dağ sözünün omonimliyi ucalıqla yanaşı zülmə qatlaşmaq anlamına da gəlir. Şair düçar olduğumuz bu bəlaların kökündə tarixi səhvlərimizin olduğunu da nəzərə çatdırır: "Məlikləri Beyrəklərə yağıdı, Təpəgözlər adamlara yeriklər". Məlik dedikdə qıpçaq türkləri Beyrək dedikdə isə oğuz türkləri nəzərdə tutulur. Türkün boyları arasındakı anlaşılmazlıq Çaldıran döyüşünə, Teymurlənglə Bəyazidin qardaş qırğınlarına qədər davam edib. Türk cahangirlərinin tarixi səhvləri dünya tarixinin gedişini dəyişdiyinə görə müəllif dünyanın gələcəyindən nigaran suallara qərq olur:

Dəli Domrul, Qara Budaq, İç ərən
Qaraca Çoban, sapandına qoy məni
Bamsı Beyrək, Qara Günə, Alp Ərən
Yurd talandı, el soyulub, soy məni
Dədəm Qorqud, od ələyir göy hələ
Hara gedir bu dünyamız gör hələ.

Bu sualların ritorik olduğunun fərqinə varan yazar özünütəqdimdə heç bir tərəddüd etmir: "Mən Vahidəm Məmmədlitək soyum var" - deyərək "Ən dahi şair isə Yaradanın özüdür..." etirafı ilə qələmlə yoldaşlığını davam etdirir.

"Kaspi" qəzeti. 20-22 yanvar 2018

MİKAYIL MÜŞFİQİN "ÇOBAN" POEMASI

XX əsr Azərbaycan poeziyasının ömrü bütövlük simvoluna çevrilən nakam şairlərindən biri də Mikayıl Müşfiqdir. Onun müxtəlif məzmunlu lirik şeirləri, mənzum oçerk və mənzum nağıllarıyla yanaşı, "Çoban", "Mənim dostum", "Səhər", "Sındırılan saz" kimi poemaları da var.1933-cü ildə tamamlanan "Çoban" poeması xalq əfsanəsi əsasında qələmə alınmışdır. Əsər on yeddi parçadan və "Son"dan ibarətdir. Poema öz tarixinin memarı insana müraciətlə başlayır. Birinci hissədə əhvalatın baş verdiyi məkan barədə məlumat verilir. Hadisələr çox əski zamanlarda Azərbaycanın Abşeron civarında Quzğunun kənarında Səbayeldə baş verir. Əhalisinin yoxsul və ac olduğu xüsusi vurğulanan bu şəhərdə son dərəcə dəbdəbəli bir saray təsvir olunur. İkinci bölümdə bəlli olur ki, həmin saray Quş xan adlı hökmdarındır. Quş xan saray tikilib qurtardıqdan sonra memardan soruşur ki, bundan da gözəlini tikə bilərdinmi? Ustanın "Yarada bilərdim, xan, Nə yapsa yapar insan"- cavabı xanı qəzəbləndirir. Xan o boyda sənətkarı qılıncla tən yarı böldürür.

Poemada əsas hadisələr üçüncü bölümdən sonra başlayır. Şair insan taleyi və onun xalqı qarşısındakı öhdəliklərini xanın qızı Mərcan obrazında ümumiləşdirir. Gözəlliyi və özəlliyi ilə heyranlarını məftun etmiş bu qıza çoxlu elçilər gəlir. Lakin atası elçilərə belə bir sual verir ki, qızın neçə xalı var? Əgər kimsə bu sualın cavabını bilsə, qız onundur. Əslində poemanın psixoloji düyünü də burada vurulur. Ata qızının elçilərinə məntiqə sığmayan sualla müraciət edir. Bunu sualın cavabı tapılarkən aydın görmək olur. Ola bilsin ki, o vaxtlar gənc yazar olan Müşfiq bu sualla yaratdığı obrazın qüsurlarını daha da qabartmaq fikrində olmuşdur. Ölkəni idarə edən bir xan, qızının bədənindəki

xalların sayını yad kişilərdən soruşur... Lakin şair bu sualı verən obrazı belə səciyyələndirir:

Xan taleyə inanır,
Hər şeyi ondan sanır.
"İnsanın olsa baxtı,
Qızıldan olar taxtı.
Mən talesiz olsaydım,
Talesiz doğulsaydım,
Xan olmaz, qul olardım,
Muzdur, yoxsul olardım".

Əsəri oxuduqca insanı belə bir sual düşündürür ki, doğrudanmı Quş xan kimilər tale tərəfindən hifz olunur. Bu cür qəddar və səfeh insanlar dünyaya hökmranlıq etmək üçünmü gəlmişlər?!Növbəti bölümdə məlum olur ki, xanın qızı Mərcan tay-tuşlarıyla yay gələndə Xızı yaxınlığına yaylağa gedərmiş. Əsərin əsas mahiyyəti də bu yaylaq səfərində üzə çıxır. Çünki saray qızlarının gəzib dolaşdığı bu yerlərdə Dəmirdaş adlı igid bir çoban yaşayırmış. Şair öz qəhrəmanını daha yaxından tanıtmaq üçün əlavə haşiyələrə də yer verir. Bunlardan biri Dəmirdaşın qonşuluğunda yaşayan qızın bir neçə atlı tərəfindən qaçırılması və anasının ah-nalə etməsidir. O həm də qavalda yanıqlı şikəstə oxumağıyla da heyranedicidir. Oxuyarkən o, soydaşlarının çəkdikləri zillətləri də, bir gecə Mərcanın onu gizlicə çağırmağını da xatırlayır. Şair əsərin bu yerində maraqlı bir manevr edir. Dramatik əsərləri xatırladan remarka kimi keçidlər verir. Qavalı çalanın kimliyini axtaran xan qızı üstü-başı yamaqlı çobanı görən kimi siyah gözlərindən atəş axır. Bu epizodda Mərcanla çobanın pyesvari dialoqu verilir. Həmin dialoqda qızın qavalın niyə belə qəmli olmasını

soruşmasına çoban cavab verir ki, "Çünki el matəmlidir, Səbayel mahalında". Şair onların dialoqunda qəribə bir söhbətləşmə təsvir edir. Sanki el içindən çıxmış oğlan qızın ona atəşlə baxan gözlərinin fərqində deyil. Dəmirdaş əsasən əzilən təbəqənin ağır güzəranından şikayətlənir.

Yeddinci bölümdə şair süjetə yeni bir epizod əlavə edir. Xan gözəl havada ova çıxdığı vaxt Qorxmaz adlı bir çoban da sürüsünü otarırmış. Xanla vəzir sanki adi bir oyun oynayırlarmış kimi həmin çobanı sərrast nişan almağın mərcini edirlər. Xan oxunu çəkir və hədəf nişan alınanda soyuqqanlı şəkildə yenə də öz məntiqsiz məntiqinə əsaslanır; "Görünür, baxtı yoxmuş, Tale ona soyuqmuş". Şair hökmranların özbaşınalığını sərgiləyən bu epizodla həm də xanın fikirlərinə diqqəti çəkir. Doğrudanmı, tanrı Qorxmazı çoban olub, xanın bir nişan oxuyla ölməyi üçün yaradıb?! Doğrudanmı, bu cür səbəbsiz ölümlərə açıq-aşkar meydan verilir?! Bu suallara Dəmirdaş da cavab axtarmağa çalışır.

Neçin, neçin bu qansız
Qaçırır gündə bir qız?!
Xan yenə də qudurmuş
Neçin Qorxmazı vurmuş?

Şair yenə də onun bu fikirlərə qərq olmuş anlarını Mərcanla dialoqunda əks etdirir. Mərcan ona da qaval çalmaq öyrətməyi xahiş edəndə çoban kinayəli cavab verir ki, atan dağlara daha gözəl ün salır. Lakin onun belə kinayələrinə baxmayaraq, Mərcan sevgisini gizlətmir, etiraf edir. Çoban isə səni mənə verməzlər deyərək qızı uyarır. Həm də xatırladır ki, atan səni xallarının sayını bilənə verəcək. Həmin epizodda şair Mərcanın diliylə qəribə bir eyham vurur; "Qoy deyim: Xallarım bu! Yetər,

sıxma ruhumu". Lakin "bu" deyə təqdim olunan sayın neçə olduğu yenə də bəlli olmur. Çoban qıza sevgisinin qarşılığında qəribə bir şərt qoyur; "Desəm atanı öldür! Ağlayan xalqı güldür. Edərsənmi?" – sualı oxucunu çaşdırır. Xalq içindən çıxmış bir oğlan doğrudanmı bir qızı öz atasının qatili etmək istəyir?! Belə qarışıq suallar oxucunu düşündürdüyü zaman cavabını oxuyuruq; "Edərəm, Ölümə də gedərəm!" Müşfiqkimi şair bir qıza bu cavabı verdirmək üçün hansı meyarlara əsaslana bilərdi?! Qızının atasına qarşı çıxmasını yeniliyin köhnəlik üzərində qələbəsi kimimi verib, yoxsa eşqdən gözü kor olan bir qız ata qatili olmağa belə razıdırmı? Ya bəlkə də, ədalətsiz sarayda da ədalətli varislər yetişə bilər şüarına əsaslanıb!? Yaxud da ədalət necə olur-olsun bərpa olunmalıdır prinsipinəmi əsaslanıb, müəyyən etmək çətindir.

Məsələyə belə də yanaşmaq olar ki, ata öz qızının məhəbbətini də qazana bilməyib. Bəs onda başqalarının səadətini düşünən, sevməyi bacaran bir qız öz atasına necə qıya bilər? Suallar çoxalır, fakt odur ki, qız atasını öldürməyə də razı olur. Lakin çoban məsləhət görür ki, hələ vaxtı deyil, əvvəlcə üsyan hazırlayaq.Qız bildirir ki, yaxınlarda şəhərə köçəcəyik, bu gözəl yerlər sizə qalacaq. Çoban isə yenə də öz mövqeyində qalır ki, bizə yalnız bu gözəl dağ-dərə yox, həm də "O kor, o sağır kəndlər, Vergisi ağır kəndlər" qalır. Nədənsə xalqı təmsil edən bu el igidi kobud aşiq kimi təqdim olunur. Müəllif onun haqqında yazır ki, "Ələ almış Mərcanı, Hazırlayır üsyanı!" İnsanda belə təəssürat yaranır ki, bu üsyankar gənc onu sevən qızın hisslərindən öz planlarını həyata keçirmək üçün istifadə edir. Onların görüş səhnəsi belə təsvir olunur. "Girir ağaclıqlara, Görüşür sıra-sıra". Yəqin ki, şair bu epizodu əbəs yerə verməyib. Axı qızın atası onun bədənindəki xalların sayını soruşacaqdı...

Süjetə maraqlı bir detal da əlavə olunur ki, vəzirin oğlu Gülçin də Mərcanı sevir. O da qızın bədənində neçə xal olduğunu bilmir. Bununla belə o, qızla evlənib hakimiyyəti ələ almağın xəyallarını qurur. Lakin bu xəyalların ənənəvi bir sonluğu görünür; "Yapacaqdır baş hərəm". Yəni Mərcan da sadəcə hakimiyyətdə olanın bir neçə arvadından birisi olacaq. Baş hərəm olmaq isə onun hökmdar qızı olmağından miras qalıb. Vəzirin oğlunun da ürəyi o qədər genişdir ki, ora ürəyi istəyən qədər qadın yerləşdirə bilər. Şair qızın atasına qarşı çıxmasına haqq qazandırmaq üçün əlavə epizodlara da yer verir. Bunlardan biri belədir ki, vergini verə bilməyən kəndlinin əl-ayağını bağlayıb döyürlər. Bunu görən Mərcan "Zavallını buraxın!" - deyə əmr edir. Gördüyü bu səhnə onda çobanın ədaləti bərqərar etmək planlarına bir az da həvəsyaradır, saraydan meyli dönür. Hətta digər hərəmlərin də sarayı zindan adlandırmağı onda saraya qarşı ikrah hissi oyadır.

Başında sevda yeli əsən Dəmirdaş da "Əvvəl üsyan, sonra qız, Xanlığı yıxmalıyız!"- deyə düşünür. Həm də bu saray qızını dəfələrlə sınamaqdan sanki zövq alır. Ondan soruşur ki, başqa bir xan xalını tapıb desə, ona gedərsənmi? Qız isə qətiyyətlə cavabını verir ki, "Bir dəfə dedim ki, mən Səndən başqa heç kəsə Getməm başım kəsilsə!" Müasir dövrdən baxanda Dəmirdaş dardüşüncəli kənd uşağı təsiri bağışlayır. Mərcan isə ziyalı bir təbəqənin elitar nümayəndəsi kimi qəbul edilir. Çoban bildirir ki, qızın saraydan qaçmasıyla heç nə dəyişməyəcək. Məsələni kökündən həll etmək lazımdır, xanlıq yıxılmalıdır. Qız isə onu xəbərdar edir ki, sabah başqa elçilər gələndə o da gəlib istəsin.

Böyük məclis qurulur. Xan sualını verir, bilməyənlər gedirlər. Qalır Gülçin və Dəmirdaş. Gülçin də sualın cavabını bilmir. Sıra çobana çatanda xanı gülmək tutsa da,

sualını verir, çoban dərhal cavab verir ki, “Qızın yeddi xalı var”. Xan soruşanda ki, hardan bilirsən, çoban cavab verir ki, “Yuxuda saymışam mən”. Verilən cavab düzdür, lakin təsdiq cavabı da doğrudurmu? Axı bu yuxunu hansısa xan oğlu görə bilməzdimi? Əslində yəqin ki, əsl səbəb onların gizli görüşündədir, ya da qız ona xallarının sayını düzgün deyibmiş. Hər halda sualı verən qızın atasıydı və düzgün cavabın da necə tapılacağını düşünməliydi. Lakin xanı başqa şey düşündürür. O, qızını bu çobana necə versin?! Axı o daha layiqli bir namizəd axtarırdı.Bu yerdə şair xanın yenə də tale ilə bağlı düşüncələrinə ayna tutur. “Qazandığım bu şöhrət Bir çobana yaraşmaz. Yox, taleylə kar aşmaz”. Xan bu fikirlərdə ikən qızıyla çoban üsyanın planlarını cızırlar... Vəzir həyəcanla xana qızının qaçırılması xəbərini verir. Sevgililərin arxasınca atlılar hücum edir. Sevgililər çabuk çaparaq Zığa çatırlar. Artıq getməyə yer qalmır, 3 tərəfi su alır. Onlar suya girməyə məcbur olurlar. Xalq kütləsi də hücuma keçib sarayı ələ keçirir, Quş xanı öldürür. Lakin Mərcanla Dəmirdaş Xəzərin sularında qərq olurlar. “Son”da şair oxucularına belə bir sual ünvanlayır; “Tarixdə dağılan saraylar azmı? Döyüşdə boğulan alaylar azmı?”

“Köroğlu” dergisi. Eylül 2016. səh. 39- 42

NƏRİMAN HƏSƏNZADƏNİN "NURU PAŞA" POEMASI

Nəriman Həsənzadə "Nuru Paşa" (2009) poemasını tarixi mövzuda yazmışdır. Əsər on beş sərbəst şeir parçasından ibarətdir. Poema bədii cəhətdən bitkin əsər olsa da, vahid sujet xətti yoxdur. Əsər XX əsrin əvvəllərində Nuru Paşanın Azərbaycana gəlişindən və xilaskarlıq missiyasından bəhs edir. Bu gəlişin səbəbləri tarixi və müasir zaman müstəvisində təqdim olunur. Azərbaycanlıların soyqırıma məruz qalması detalı ilə iki türk dövlətinin tarixən keçdiyi inkişaf yoluna şairin münasibətini görmək olur. Publisistik tonun aparıcı olduğu poemada şair təcrübəsi, peşəkarlıq mətnin dilinin obrazlı olmasına əngəl törətmir. Buna nümunə əsasında baxaq: "Ağsuda su qurudumu? Göyçayda çay soğuldumu?"- misralarında əsas qırğın hədəflərindən olan Şamaxının yaxınlığında yerləşən şəhərlərin adı çəkilib. Lakin şair bunu sadəcə coğrafi uyarlığa görə etməyib. Həmin şəhərlərin adındakı "su" (Ağsu) və "çay" (Göyçay) sözləri bədii gözəllik yaratmaqla bərabər, şairə imkan verir ki, ifadə etmək istədiyi fikri daha mübaliğəli şəkildə desin. Yəni suyun və çayın qurudulması məcazi məna ilə yanaşı, həqiqi məna da kəsb edir.

Nəriman Həsənzadə böyük tarixi şəxsiyyətə həsr etdiyi bu poemasında gerçəkliklərlə yanaşı şair ilhamına da önəm vermişdir. Şair hiss etdiyi, duyduğu türk ruhunu əsərinə də hopdurmuşdur. Əsər belə başlayır ki, "Nuru paşa at belində, Türkiyədən, Karsadan gəlir". Müəllif bu gəlişin səbəbini, "Erməninin xəyanəti – rusdan gəlir, farsdan gəlir. Bakı qətl meydanıdı"- misralarında göstərir. XX əsrin əvvəllərində ölkəmizdə axıdılan günahsız qanların qarşısını almağa gələnin kim olduğu dəqiqliyi ilə tanıdılır;

"Alovların qucağına nazirin qardaşı gəlir". Bu ifadə boşuna işlədilməyib, qardaş köməyinə yetmək üçün nazir öz qardaşını Azərbaycana göndərir. Şair qəhrəmanını öz həqiqi epitetləri ilə oxucusuna təqdim edir: "Fatehlərin varisidir, Turanlı Şahzadəm mənim". Bu misralar nə qədər pafoslu görünsə də, bir o qədər də həqiqətin ifadəsidir. Məlumdur ki, türk sultanlarına "fateh" ləqəbi verilib. "Turanlı şahzadə" ifadəsi isə türkün coğrafi arealının göstəricisidir. Turanlı şahzadə üçün Turanın istənilən bir nöqtəsində köməyə ehtiyac duyularsa, oraya yardımçı olmaq əsas amaldır. Əsərin yazılmasında əsas məqsəd Paşanın niyə köməyə gəlməyə məcbur olduğunu göstərməkdir. Ona görə də, şair Azərbaycanın o zamankı mövcud durumunu belə canlandırır: "Ermənilər pusqudaydı top-tüfənglə. Gəncəlilər - yol üstündə duz-çörəklə". Yəni onun gəlişinin səbəbi Azərbaycanın xilaskarı missiyasını yerinə yetirmək olmuşdur. Ermənilər top-tüfənglə pusquda olsalar da, yerli əhali xilaskarını duz-çörəklə qarşılamağa hazır idi. Şair bu qətliamlarla paralel olaraq götərir ki, azərbaycanlıların qanının töküldüyü bir zamanda "Hələ Bakı Sovetində iclas gedir, məşvərətdi. Bu məşvərət qırğınlara bəraətdi Bu bəraət- bu millətə xəyanətdi". Müəllif xalqımızı bu qırğınlara gətirən tarixə də nəzər salır,qüdrətli türk imperiyalarını və imperatorlarını detalları ilə xatırladır:

Səlcuqların əli çatmır bu haraya, şahı matdı.
Şah babam Eldəniz yatmır, Atabəylər narahatdı.
Xətayinin qılıncını göndərərdi Səfəvilər,
dilində "Allahu-Əkbər!",
Türkün qılınc ləhcəsində danışardı ermənilə.

Bu misralarda şair dövlətçiliyimiz tarixinə xronoloji ardıcıllıqla nəzər salır. Səlcuqlar, Atabəylər, Səfəvilər

kimi beynəlxalq nüfuza malik olan türk imperatorluqlarının varislərinin çağdaş durumu ilə barışa bilmir. O cür imperiyaların qurucusu olan türklərin ermənilərlə onların başa düşəcəyi "qılınc ləhcəsində" danışmasını haqlı hesab edir.Bəllidir ki, türkün öz döyüş qaydaları var. Əsərdə o da xüsusilə önə çəkilib ki, "Türk qaçanı nişan almaz kürəyindən. Tikan çıxdı Avropanın, Rusiyanın ürəyindən".Türkün mərdi-mərdanə savaşına girməkdən çəkinən həmin adları çəkilən böyük dövlətlər tarixən sünni-şiə məsələsi ilə türkləri bir-birinə qarşı qoymağı bacarmışlar. Türkün qaçanı qovmadığı böyük sərkərdələrin əməllərində də sübut olunub. Bu kimi real həqiqətlər heç kəsə sirr deyil. Bununla belə, qovulmalı olan işğalçını qovmaq lazım olanda həmrəylik göstərmək vacib şərtdir. Yaranmış möcud tarixi şəraitdə türk sərkərdələri də Azərbaycanın köməyinə gəlməyi əsl qardaşlıq borcu bilirlər.Şair xilaskarın missiyasını qabartmaq üçün o gələnədək ölkəmizdə baş verən faciələrin böyüklüyünü təqdim edir: "Bir cəhənnəm səhnəsiydi, Şamaxı zəlzələsiydi, Şamaxıda qətl-qarət!" Bu misralarda ermənilərin törətdikləri soyqırımların həddi göstərilir. Amansız erməni-xristian birliyi varsa, onlara qarşı mərdanə duruş gətirən türk birliyi də var. Əslində poemadan çıxan məntiqi nəticə budur. Əsərin son bölümündə şairin ümidləri yenidən pöhrələnir:

Ey türk oğlu,
haraylasan onu nə vaxt,
- Nuru paşa doğulacaq,
doğulacaq, doğulacaq elə o vaxt.

Bununla da bir-birinə qardaşlıq dəstəyi göstərən iki türk dövlətinin apardığı milli siyasətə işarə edilir. Təbii ki, yenidən doğulacaq Nuru Paşalar əcdadları tərəfindən müəyyən edilmiş adət-ənənələrə böyük ruh yüksəkliyi ilə əməl etməlidirlər.

"Azad Azərbaycan" qəzeti. 18 fevral 2017

FİKRƏT QOCANIN ÇAĞDAŞ DÖVRDƏ YAZDIĞI POEMALARI

Müasir ədəbiyyatımızın öncül imzalarından biri də Fikrət Qocadır. Onun "Sönən deyil bu ocaq" kitabında müstəqillik illərində yazdığı bir sıra poemaları toplanmışdır. Bu poemalar istər mövzu və problematikasına, istərsə də bədii dilin orijinallığına görə diqqəti cəlb edir. Həmin əsərlərin bədii xüsusiyyətlərinə nəzər salmaqla fikirlərimizi təsdiqləyə bilərik. Altı parçadan ibarət olan "Cənətdən qovulanlar" poeması "Ol"- dedin kainat oldu"- sətirləri ilə başlayır. Göstərilir ki, Adəmlə Həvvanın tanrının sözündən çıxaraq cənnətdən qovulmasının cəzası bu günə qədər davam edir. Hələ də insanlar süni cənnətlər yaratmağa can atırlar. Əsərdə bir ideya diqqəti çəkir. Allah bir insan yaratdısa, sonralar bu çoxmillətlilik necə meydana çıxdı?! "Dünyanın hər yerində eynidi it, at, donuz! Amma insan Türkdü, Rusdu, Farsdı" sətirləri ilə bu müxtəlifliyə işarə edilir. Poemanın məğzi ondan ibarətdir ki, böyük dövlətlər kiçik dövlətləri, böyük xalqlar kiçik xalqları yer üzündə cənnət qurmaq adıyla məhv edir. Şairin də amalı bunları müasir insana çatdırmaqdır.

Əsərdə tanrı və onun insan həyatında rolu məsələsi də qoyulub. Müəllifin fikrincə, insan özü bir dara düşməyincə yadına düşmür ki, tanrı da təkdir. Bəzən yazarın ziddiyyətli mövqeyi ortaya çıxır. Həm tanrının yazdığı yazıya, taleyə inam var, həm də "Hər kəsin şərəfi, şöhrəti Özünün ağlı qədərdi..." qənaətinə gəlir. Sonra xalq olaraq düşdüyümüz mənəvi böhranların kökləri axtarılır, başqa millətlərlə müqayisələr aparmaqdansa, vahid Azərbaycan olmaq istəyənlərin olmamasından gileylənir. Şair qonşu dövlətlərin yardımını dəstəkləsə də, el məsəlini xatırladır ki, "qonşu işığına umud olan qaranlıqda qalar".

Özün əkib-becərməsən başında turp əkəcəklər deyə xəbərdarlıq edir. Müəllif "millət" və bu sözün tərkibindəki "illət" sözünə də açıqlama gətirir. Hər iki sözün izahı fonunda inkişaf və məhvə yuvarlanmaq anlayışlarını izah edir. İllət o zaman başlayır ki, min il əvvəl olmuş İmam Hüseyn müsibətinə başına, döşünə qara bağlayıb yas saxlayan xalq öz Qarabağ dərdinə, əsirlikdə olan qızlara, gəlinlərə, körpələrə yas saxlamır. Mükəmməl bir təzadla əsl mətləbini çatdıra bilir: "Fatimeyi-Zəhra bu günümüzü görsəydi, balalarını unudub dərdimizə şaxsey deyərdi". Bizsə, öz fəlakətlərimizin fərqində deyilmişik kimi, özümüzü xoşbəxt göstərməyə, başqalarına təsəlli verməyə meyl edirik. Bu yerdə müəllif milli düşüncədən irəli gələn bir deyimi xatırladır: "Türklər gözünüzdə yaş qalıbsa, öz halınıza ağlayın- deyərdi". Şairə təsir edən odur ki, indi biz bəşəriyyətin diqqətini özümüzə yönəldib, bizim problemlərin həllinə çağırmaqdansa, elə hey başqalarının fikrini çəkirik. Qəribə bir müqayisə edilir. "Adəmi Allah cənnətdən qovmuşdu. Bəzi yerlilərim cənnətdən özü qaçdı". İndi onlar Bakıda yeddinci mərtəbədə qaçaq həyatı yaşayırlar. Şair onları məqsədli şəkildə qaçqın adlandırmır. Fikrini sübut üçün qeyd edir ki, "Humanitar yardımla gələn saqqızı bazarda satır". Özü də bunu ehtiyac üzündən yox, öz kefindən edir. Bütün bunların sonucu ölkədə qəribə bir xaosa gətirib çıxardı. Həmin xaos çox mükəmməl bir dillə obrazlaşdırılıb: "Toxu prezident olmaq istəyir, Acı pul yığır icra başçısı keçsin". Sən demə, baş nazirlə yanaşı, ürək nazir, qarın nazir, göbək nazirlər də olurmuş. Bunların müqabilində isə cəfakeş el-oba, "Ac qarına vətən qeyrəti, azadlıq qeyrəti çəkir". Sona yaxın müəllif vətənimizin ikiyə parçalanmasına da toxunur. Əsər boyu ilk insanın cənnətdən qovulmasından sonra törədə biləcəyi cinayətlər Azərbaycanın timsalında göstərilir.

Yəni cənnətdən məhrum edilmiş insanlar Azərbaycan kimi bir məmləkəti də cənnət olmaq şansından məhrum edirlər. Şair sonda belə qənaətə gəlir ki, "Cənnətdən qovulmaqdı, bəlkə, insanın uğuru".Ola bilsin ki, bu uğur sözünün alt qatlarında müəllif ironiyası dayanır.

Onun 2011-ci ildə qələmə aldığı "Bakı-Quba yolu" poeması müstəqilliyimizin bərpasının iyirmi illiyinə həsr edilmişdir. Əsər nikbin əhval-ruhiyyə ilə lirik notlar üzərində yazılıb. Bakıdan Qubaya yol alan şairi yolların təmiri çaşdıracaq dərəcədə sevindirir. Bölgələrdəki quruculuq və abadlıq işləri onu heyran qoyur, "Təzə Heydər muzeyi yeni bir Tacmahaldı" fikirləri ilə heyranlığını ifadə edir. Xınalığın abadlaşıb göz oxşaması bir vətəndaş olaraq şairi fərəhləndirir. Müəllif həmin yolların bərpasına belə bədii məna verir: "Yol keçmişdən gələndi, Gələcəyə gedəndi". Şair xüsusi olaraq xatırladır ki,keçmişdən gələn yol XX əsrin əvvəllərində ermənilərin Qubada törətdikləri qırğınlarla kəsişir. Həmin vəhşiliyin başında duran Lalayanın əməllərinə lənət yağdırılır.Bütün bu zülmlərə rəğmən Azərbaycanın dünyada özünü təsdiqləyə bilməsi güclü vətəndaşlıq pafosu ilə çatdırılır. Müəllif Lalayan oğlu Balayana üz tutur ki, "Gəl Milli parkı dolan, Öz içində alış, yan". Azərbaycanın göz önündə olan inkişafını gör və böhtan dolu yazdıqlarından utan. Əsərin yekunu da nikbin sonluqla bitir, zəfər yürüşünə hər an hazır olmağımıza əminlik ifadə olunur. Müəllifin 2010-cu ildə yazılmış "Qəbələ" poeması da kiçik parçaların bir mövzu ətrafında cəm olunması yolu ilə qələmə alınıb. Əsərin ilk başlanğıcında məlum olur ki, şair yayın istisindən baş götürüb Qəbələyə qaçır. Lap uşaqlıq yaddaşında qalan Dürca, Qəmərvan yaylağını xatırlayır. Lakin Qəbələyə bu yaşında verilən qondarma adı olan Qutqaşın xoşuna gəlmir. Bölgəyə sonrakı gəlişi şairi sözün yaxşı mənasında

təəccübləndirir. Onun palçıqlı və keçilməz kimi tanıdığı yollar indi tamamilə abadlaşıb. Həmin yolların baxımsız vaxtlarında şair də gənc idi. Lakin indi qocalığını soyadı ilə boynuna alan şair ömrünün bu çağlarını Qəbələdən uzaqda, Bakıda 13-cü mərtəbədə yaşamasına sanki təəssüflənir. Qəbələdə keçirilən Beynəlxalq Musiqi Festivalı belə xarakterizə edilir: "Musiqi ulduzları Bütün dünyadan gəlib Qəbələdə sayrışır". Nəvəsi ilə rayonun müasirliyinə heyran qalan şair etiraf edir ki, "burda eyni zamanda dörd fəsil yaşayırdı". Son bölüm olan "Bizim eradan əvvəl" adlı hissədə Qəbələnin qədim tarixindən söz açılır. "Torpağın arxivindən Durub ayağa qalxır Ən qədim – yeni şəhər" sətirləri ilə Azərbaycanın qədim şəhərlərinin müasir sivilizasiya ilə uyğunlaşa bilməsinə sevinir.Poema gənc ölkəmizin səadətinəyazılmış himn təsiri bağışlayır.

Şairin "Dörd addım" poeması 2008-ci ildə yazılmışdır. Əsər təhnalığın şikayətləri ilə başlanır. Dörd addım sanki yalnızlığın ölçü vahididir. Sonra isə ümumi yaşamdan gileylər hiss olunur. Yaxın dost-tanışdan narazılıq edilir. Ehtiyacı olan anlarda yanında olmadıqları üçün onları qınayır da. Birdən əsərin axarında dəyişiklik yaranır. Lirik qəhrəmanın tanrıya şükranlığı başlayır. Özü-özünə etiraflar edir: "Hikkəm zindan olubdu Mənim yazıq ağlıma". Hətta hansısa qeyri-müəyyən ölümdən söz açılır. Qatil olduğunu da etiraf edir. Məlum olur ki, dörd divar elə zindanın rəmzi simvolu imiş. Bəzən oraya qanunu və ədaləti qorumaq üçün addım atanda da düşmək olur. Bu poemanın lirik qəhrəmanı da polis işləyərkən bir harın biznes adamını öldürdüyü üçün həbsxana divarları arasında düşüncələrə dalmağa məhkum edilmişdir; "Bu dörd divar daş deyil, Daşa dönmüş səbirdi" misraları ilə əsər tamamlanır. Bu sətirlərdəitirilmiş azadlığın susmağa məhkum olunmasının faciəsi nümayiş olunub.

Fikrət Qocanın "Gərək bu günləri görəydin özün" poeması ulu öndər Heydər Əliyevin səksən beş illiyinə ithaf edilib. Şair poemanın əvvəlində zaman haqqında fəlsəfi düşüncələrini bəyan edir. Nəhayət, bəlli olur ki, "hər min ilin sonunda Allahımız əzəldən Bu millətin səhvini, Qamətini düzəldən Bir xilaskar göndərir".Təbii ki, Allah bu millət üçün həmişə dəyərli insanlar göndərib, amma "Min-min gələn insandan Birisi Heydər olub". Şair qəhrəmanının uşaqlıq illərini, Naxçıvanda doğulmasını və qeyri--adi bir insan kimi həyata atılmasını böyük coşğu ilə oxucusuna çatdırır. Heydər Əliyevin "Kominist imperiyasının olimpinə ucaldı"ğını ən böyük insani uğur hesab edir. Onun bir müsəlman, bir türk olması ruslar üçün bir göz dağı, bir görk olduğu da vurğulanır. Qeyd edilir ki, Heydər Əliyevin bu ucalığını biri bacarığa, biri bəxtə yozur. Yolunu kəsmək üçün hər cür hiyləyə əl atırlar, bu da mane olmayanda canına qəsd etməyə hazır olublar. Lakin o, mümkünsüz işləri görməyə adət eləmişdi. İmperiya çökən zaman ailəsini qorumağı da bacarır. Bir səhər çağı Naxçıvana qayıdır və xalqının imdadına çatır. Azərbaycanı stabil inkişaf yoluna çıxarır. Lakin müəllif ona təəssüflənir ki, Heydər Əliyev ölkəmizdə üçdörd mərtəbəli körpülərin, yolların tikintisini və davamlı inkişaf strategiyasını öz gözləri ilə görə bilmədi. Şair poemaya epiloq kimi on il əvvəl yazdığı "Ata" şeirini əlavə edib.

Onun "Şəhidlər xiyabanı" poeması yeddi yarımbaşlıqdan ibarətdir. Poema bütövlükdə Milli Qəhrəman Çingiz Mustafayevə həsr olunub. Elə əsərin əvvəlindən qəhrəmanının müxalif olduğu antiinsanlıq təsvir edilir. Fikrət Qoca Çingizin əzəmətli obrazını canlandırmaq üçün onun şəxsiyyət bütövlüyünü təqdim edir: "Kürsü əvəzinə dırmaşıb öz hövsələsinə çıxmışdı". Şair o cəsur insanın cəsarətini qabartmaq üçün bu misraları yazır: "Altdan kəfən geyinmişdi, üstdən əzik-üzük paltara bənzər bir

şey". Ç.Mustafayevin vətənin dar günündə olan çağırışına Nübar xala da qoşulmuşdu, lakin oğullar buna razı olmamışdılar. O, Nübar xalanın çağırışına tənə edərək həmin qadını "saçı uzun, ağlı gödək" hesab edən deputatların tənəli cavablarını da vermişdi. O da qeyd edilir ki, Çingiz başında başından bahalı papaq gəzdirənlərə Qarabağ lazım olmadığını sübut edir. Çünki Çingiz rəsmən peşə sadiqliyinə and içən jurnalistlərdən deyildi. Onun şərait tələb edəndə bu yolu könüllü seçməsi alqışla təqdim olunur. Müəllif onun hönkürə-hönkürə Xocalı soyqırımında başı soyulmuş, gözü oyulmuş meyidləri, goreşən kimi eşilib pis günə qoyulmuş körpələri lentə almasını həm də ermənilərin amansızlıqlarını tarix unutmasın deyə xatırladır. Tarixin səhvləri də göstərilir ki, o cür qətliama baxmayaraq rəsmi Bakı radioda iki nəfərin öldüyünü xəbər vermişdi. Sonra şair onun Laçında apardığı çəkilişlərdən bəhs edir. Çingiz döyüş meydanını tərk edib qaçanları geri çağıranda balaca dəstənin böyük komandiri onu ələ salır. O isə cavabında bildirir ki, mən də Nübar xala kimi qadınları ön cəbhədə aslan ürəkli oğullarımız olduğuna əmin eləmişəm. Əvəzində isə sizi kimi qorxub qaçanları görürəm. Əsərin ən dramatik məqamlarından biri də odur ki, ona bir xalqın döyüş tarixini bu cür biabırçılıqla lentin yaddaşına köçürmək ağır gəlir. Poemanın sonluğu çox təsirli bitir, həmişə özündən qabaqda olub döyüşü çəkən kamerası, indi vurulmuş Çingizi çəkirdi. Əsər belə yekunlaşır ki, "Çingiz kimi vətəni candan artıq sevməkdi qəhrəmanlıq". Bu qəhrəmanlığın fövqündə çağdaş insanın vətəndaşlıq mövqeyi nümayiş olunur. Göründüyü kimi, Fikrət Qocanın da poemalarının əsas mövzusu müasir Azərbaycanın gerçəkliklərdir. Bu gerçəkliklər çağdaş əsərlərin çağdaş qəhrəmanlarının simasında özünü göstərir.

"525-ci qəzet". 12 yanvar 2017

ZƏLİMXAN YAQUBUN "YUNUS ƏMRƏ DASTANI"

Xalq şairi Zəlimxan Yaqubirihəcmli "Yunus Əmrə dastanı"nı1991-ci ildə qələmə almışdır.Səkkiz yarımbaşlığı olan poemada əsas əhvalatların təsviri nəsrlə verilsə də, çoxlu sayda qoşma və gəraylılara da istinad olunub. Əsərin nəsrlə olan müqəddiməsindən bəlli olur ki, poemanın yazılması üçün şairə qeybdən gələn səs yol göstərib, bu da dastanlarda qəhrəmanların buta alması movitini xatırladır. Girişdə daha çox Yunus Əmrədən əsər yazmaq üçün ilahi qüdrətə sahib olmaq və Yunus Əmrə ucalığına bələd olmaqdan söz açılır. Əsas fikirlər bu misralarda ümumiləşdirilib: "Yunus sözü demək üçün yurd dilini bilməlisən! Bir millətin xilaskarı qurd dilini bilməlisən!" İlk bölüm olan "Yunus dərgahı" beş bəndlik gəraylıdan ibarətdir. "Mübarək üzünü görməyə gəldim" adlı ikinci bölümün əsas ağırlıq mərkəzi bu misraların üstünə düşür: "Nəylə ölçüm, səni nəyə bənzədim, Ölçülməzi ölçə bilməz ölçülər". Bununla yanaşı, şair ulu ustada müasir dövrün bəlaları barədə də gileylənir: "Füzuli Bağdadda səksəkəlidi, Bir canın içində neçə can yatır. Nəsimi Hələbdən Şirvana baxır, Ələsgər Göyçədə nigaran yatır!" Bənddə müxtəlif tarixi zamanlarda yaşayan ədiblərin adı çəkilməklə ayrı-ayrı əsrlərdə ölkəmizin başına gətirilən bəlalar onların simasında ümumiləşdirilib. "Dəmir çarıq, dəmir əsa" bölümüylə əsərin ekspozisiya hissəsi yekunlaşır. Bu bölümdə Yunus Əmrənin şəriət, təriqət, mərifət, həqiqət qapılarından üzü ağ çıxması və ilahi sözə sahib olması bəlli olur. "Tapdığın qapısında" adlı bölümlə əsərin zavyazka mərhələsi başlayır. "Günlərin bir günündə Yunus zəmanənin böyük şeyxi Hacı Bəktaş Vəlinin tapşırığı ilə ulular ulusu Tapdıq Əmrənin qapısını döydü..." Şeyxi də haqq yolunda

xidmət üçün onu öz dərgahına qəbul edir. Yunus Əmrə bütün təbiətə, tanrının yaratdıqlarına könül verir. O, dağa, daşa olan sevgisini də sübut edirdi. Bir gün şeyxinin qızı Fatma bulaqdan gələrkən Yunusun qarşısına çıxır. Yunusa olan sevgisinin saflığı qızı da aliləşdirir. Qızın sevgi etirafından bəhs edən dörd misralıq bəndə diqqət etsək, sufizmin dörd mərhələsinin keçildiyini görmüş olarıq:

Hansı yana çıxıram, gözə sən görünürsən, (şəriət)
Çiçəklərə baxıram, gözə sən görünürsən! (təriqət)
Yatıram, oyanıram, gözə sən görünürsən, (mərifət)
Ocaq kimi yanıram, gözə sən görünürsən! (həqiqət)

Yunus Əmrəyə aşiq olan qızın dilindən verilən bu misralardan da görünür ki, ona könül verən də özü kimi ali məqama çatmış olur. Yunusun da qüdrəti ondadır ki, özünə qarşı olan sevgi ilə insanların daxili saflığına nail ola bilir. Fatma ona olan eşqi ilə mənəvi təkamülə çatmışdır. Yunus Əmrə bu sevgini anlasa da, etirazı ilə onun könlünü yıxmağı düzgün hesab etmir. Xeyli tərəddüd keçirir: “Desinmi gecikmisən, mənim öz sevgilim var”, “Desinmi Sarıköydə bir qız qoyub gəlmişəm”. Mümkün qədər qızın ürəyini qırmamağa çalışır. Atasının dərgahında hamının onu çox sevdiyini deyir. Amma qızı da aldatmaq istəmir. “Mən səni gözəlliyin tacı kimi sevirəm, Mən səni ən sevimli bacı kimi sevirəm” – deyərək onu boşuna ümidləndirmir. O bildirir ki, bu dərgaha yalnız atasından ərənlərin himmətini, peyğəmbərin şərafətini öyrənmək üçün gəlib. Öz missiyasına sadiq qalan şair ürəyində yeri olmayan Fatma sevgisindən mərdanə şəkildə imtina edir. “Ayrıldılar bir axşam, həmişəlik, əbədi, Qıza könül vermədi eşqin ulu məbədi!”

Əsərin "Mövlanə məclisində" adlanan bölümü kuliminasiya xarakteri daşıyır. "Haqqa qırx illik xidmətdən, dərsdən və tərbiyədən sonra Dərviş Yunus şeyxinin xeyir-duasını alıb, Tapdıq Əmrə dərgahından ayrıldı". O, Mövlanənin sorağıyla Konyaya gəlir. Mövlanə onu "Mənim Şəmsim ustad oldu, sənin isə Tapdığın, Heç olmadı həqiqətdən yayındığın, sapdığın" - deyərək böyük ehtiramla qəbul edir. Əsərin ən ibrətamiz yeri "Yunusla Osman Qazinin görüşü"dür. Bu hissədə Osmanlı imperiyasının ədalətli qanunlar üzərində qurulması tarixçəsinə də yer verilmişdir. Bununla yanaşı, sultanın sarayında hikmət sahiblərinə böyük ehtiram göstərilməsi ibrətamiz şəkildə qələmə alınmışdır. "Osman Qazi bilirdi ki, Yunusun ilahiləri, hikmətli sözləri bütün Anadoluya bir doğmalıq gətirir, qardaş qırğınını, qan davasını, tayfa çəkişmələrini sakitləşdirir: bu da sultanlığın nüfuzunu birə-beş artırırdı". Osman Qazi atası Ərtoğrul bəyin vəsiyyətinə əməl edərək yurdunun xilaskarı olmağı bacarırdı.

Zəlimxan Yaqub onun hökmdar qüdrətini belə göstərir: "Arxasında Bizans vardı, önündə monqol, Düşmənlərin kimliyindən yaxşı halıydı". Yəni dünyanın ən uzunömürlü imperiyası olan Bizansın hələ də var olduğu bir dönəmdə, üstəlik şərqdən qərbə monqol istilaları da tarixi gerçəkliyə çevrilirdi. Məhz belə bir şəraitdə bu güclərə dirəniş göstərə bilib, türkün ən üzünömürlü imperiyasını yarada bilmək, doğrudan da, türkanə bir çaba tələb edirdi. Buna görə də, hədəfə doğru inamla gedirdilər.Əyricədə ən uğurlu zəfər çalan osmanlıların La-Manşdan Bursaya qədər bütün ərazilərdə qələbə qazanmaları poemada qürurla yad edilir. Onlar yeni torpaqlara sadəcə sahib olmurdular, həm də həmin yerlərə türkün böyük mədəniyyətini aparırdılar. Poemada göstərilir ki, Osman Qazi bayram günü qılıncları qında saxlatdırırdı. Bu ilk baxışdan, bəlkə də, sıradan bir

detal kimi görünə bilər. Amma əslində türk xarakterinin bütövlüyünün simvollarından biri kimi anlaşılmalıdır. Bu detallara tarixi düşmənimiz ermənilər bizdən daha çox fikir veriblər. Məlumdur ki, son iki əsrdə onların türk soylu xalqlara qarşı qırğınları əsasən bayram günlərində həyata keçirilir. Türk kökənli hökmdarı isə bayram şənliyində Yunus Əmrədən oxuyan ozanlar başqa bir aləmə aparırlar. O, Kayı xanın dörd yüz atlı ilə yaratdığı qoşunun sayının indi qırx mini keçməsi ilə qürur duyurdu. Hökmdar Ozanlardan oxuduqları sözlərin müəllifini soruşur. "Dərviş Yunusun! Cavabını alanda əmr elədi ki, sizə üç gün vaxt verirəm, Yunus Əmrə hardadırsa onu tapmalısınız..." Əgər o gələ bilməsə, özüm onun ziyarətinə gedərəm deyir. Hər tərəfdə onun axtarışlarını müəllif incəliklərinə qədər diqqətə çatdırır. "Hər kimdən soruşursan, Deyir: "Yunus məndədi!", "Hamı Yunusam deyir, Gəzənlər çaş-baş qalır". Axır onu Tapdığın dərgahında axtarmağa gedirlər və öyrənirlər ki, o, bu yerlərdən yeddi ildir gedib.

Nəhayət, Yunus Əmrə özü axtarıldığını hiss edib bir axşam gəlib saraya çatır. Sultan buna sevinməklə yanaşı, həm də onu sarayda qalmağa və birlikdə dövləti ədalətlə idarə etməyə çağırır. "Təzəcə doğulan bir məmləkətin, Qüvvəti mən olum, ürəyi sən ol! Arxası mən olum, gərəyi sən ol!"- fikirləri ilə öz millətinin fəxri olan sənətkara böyük ehtiram göstərir. Şair ona cavab verir ki, "Mən dərviş Yunusam, dərvişin yeri, Oba içindədi, el içindədi". Məlum olur ki, onların ikisinin də əsas məramı xalqına əsl vətəndaş mövqeyi ilə xidmət etməkdir. Osman Qazi ona xoş niyyətlə təklif etdiyini inandırır. Birlikdə dövlətlərinə daha böyük xeyir vermiş olacaqlarını bildirir. Bu məqamda hökmdar müdrikliyi xalqın taleyini hər şeydən üstün bilməsində özünü göstərir. Həmin epizoda diqqət

etdikdə Nizaminin yaratdığı hökmdar obrazlarının da mübaliğə olmadığına inam yaranır. Bəlli olur ki, bir vaxtlar türk hökmdarları ilə şairləri eyni amala xidmət ediblər. Yunus Əmrə onun bu cür böyük amallarla yaşamasına sevinir və bildirir ki, hər yerdə sənə dəstək olacağam. "Səsinə səs verib ellər içində, Səs ollam, ün ollam. Hay-haray ollam".Əsl haqq şairi xalqını qoruyan sərkərdələrlə xalqın arasında körpü olmağı bacaranlardır. Sarayda yaşayaraq təxəyyülündəki xalqa məcazi mənada xidmət etməkdənsə, xalqın içində yaşayıb, millətin və məmləkətin bütövlüyünün simvolu olan saraya həqiqi xidmət etmək dövlətçilik naminədaha əlverişlidir. Osman Qazi ona şeyxim, dərvişim, dostum, ozanım deyə müraciət edir. Ondan xeyir-dua istəyir ki, haqq yolunda qılınc çalanda ayağı altında yer titrəməsin. Yunus Əmrə bildirir ki, "Gözüm gördü, könlüm duydu, qəlbim sevdi hökmünü, Səni bildim bu dövlətə ata, şanlı sultanım". Bu misralar bir ilahi şairin öz hökmdarına millətinin taleyini əmanət etməsinin təsdiqidir.Hətta, ən əsas məsləhətini də verir. "Səltənəti məhvərindən yıxsa bir tamah yıxar, Qoyma sərvət başınızı qata, şanlı sultanım". Bununla da hökmdar və şairin dövlət və dövlətçilik naminə bir-birilərinə arxa olduqlarını görmüş oluruq. Əslində poemada qabardılan əsas məsələ türkün dövlət gələnəyinin ədalətli idarəçiliyə əsaslandığını nümayiş etdirməkdir.

Əsərin "Molla Qasım sınağı" adlanan hissəsi zavyazkadır. Yunus Əmrənin şan-şöhrəti artdıqca təbii ki, paxıllığını çəkənlər də çoxalır. Bu da onun göstəricisidir ki, tarix boyu heç bir kəs, heç bir fərd hamı tərəfindən birmənalı qarşılanmayıb. Hər bir insan başqasını öz ürəyinə, öz ölçü meyarlarına görə dəyərləndirir. Şairin şeirlərini yandırmaq istəyən molla buna nail ola bilmir. O, şeir yazılmış vərəqləri cırıb suya atır, ancaq vərəqlər dil

açıb nəğmə oxuyur. Bu parçadan çıxan nəticə odur ki, "Batdı Molla Qasımlar, Bəşərin yaddaşında Bir Yunus Əmrə qaldı". Poemanın "Mən burdan getməyə gəldim" bölümünü final adlandırmaq olar. Bu hissədəYunus Əmrənin can üstə olarkən yurdunun hər yerindən ziyarətə gələnlərin ibrətamiz davranışı təsvir olunur. Ölümündən sonra hər kəs istəyir ki, şairi onların torpağında dəfn eləsinlər. Bir müdrik qoca deyir ki, "O təkcə bizim deyil, türk oğlu türk adlanan Ulu bir millətindi".Bu ulu millətə aid olan hər bir dahi sənətkar bəşəri yaşarlılığına söz və əməl birliyinin vəhdəti sayəsində nail olmuşdur. Axır qərar verirlər ki, şairi Əskişəhər yanında Sarıköydə dəfn etsinlər. İndiki dövrdə düşünürlər ki, onun Ərzurumda, Kirşəhirdə, Qaramanda, Konyada, Aksarayda, Sivasda qəbri vardır. Müəllifin son qənaəti bu olur ki, Yunusu görmək üçün haranısa gəzməyə ehtiyac yoxdur, onu görmək istəyən hər kəs hər yerdə görə bilər. Ən əsası isə öz qəlbinə həqiqi ziyarət etməklə Yunus Əmrə dərgahına çatmaq olar. Bu poema sadəcə bir türk yazarının həyat tarixçəsinin xronologiyası deyil. Əsər öz dil-üslub xüsusiyyətlərinə görə də, tamamilə türk ənənəsində kodlaşdırılıb. Türkün dastan təfəkkürünün qədim zamanlardan üzü bəri epik təsvirlərə himayədarlıq etməsi əsaslandırılıb. PoemadaYunus Əmrənin öz misralarından 18 dəfə istifadə edilməklə yanaşı, irili-xırdalı 18 nəsr parçası da yer almışdır. Heç bir təhkiyə mətni məcburən nəzmə gətirilməyib. Əsasən tərənnüm obyektləri şeirlərlə ifadə olunub. Mətndə nəzm və nəsr dilinin tarazlığı zərgər dəqiqliyi ilə gözlənilib. Bütövlükdə əsərin kompozisiyası türk milli düşüncəsi üzərində qurulub.

"Analoq.az" saytı. 30 oktyabr 2018

ZƏLİMXAN YAQUBUN "HÜSEYN SARAÇLI DASTANI"

Zəlimxan Yaqubun 2006-cı ilin payızında qələmə aldığı "Hüseyn Saraçlı dastanı" dastan-romanı nəsrlə nəzmin qarşılıqlı vəhdəti şəklində yazılmışdır. Əsərin nəsrlə olan parçalarının təhkiyəsi çox mükəmməldir. Dili son dərəcə səlis və rəvandır. Həmin hadisələrin təsviri nəzmlə verilsə, bəlkə də, əsərin dilində xoşagəlməz bir yorğunluq yaranardı. Poemanın yazılmasında dastançılıq ənənəsinə kifayət qədər əməl edilmiş vəo, üç ustadnamə ilə başlayır. Sonra isə müəllif buta almanı xatırladan yuxusunda bu əsərin yazılması üçün ustad aşığın özündən xeyir-dua aldığını nəql edir. Poema boyu müəllifin obrazını da müşahidə etmək olur. O, bəzən qəhrəmanı ilə həmsöhbət olur və ona həyati suallar verir. Elə ilk sualları da aşığın keçmişinə işıq salır. Aşıq bu qədər dərdli olmasının səbəbini on yaşı olarkən atası Qurban ağanın Saraçlının Yuxarı başında, Qaraqayanın döşündə, Qalxma arxının üstündə şura hökuməti tərəfindən rus beşaçılanı ilə güllələnməsi ilə izah edir. "Qurban kişinin ölümündən üç gün sonra hökümətdən kağız gəlir ki, onu güllələmək olmaz, bağışlamaq lazımdır". Bu epizodlarla keçən əsrdə mövcud quruluş tərəfindən xalqımızın başına gətirilən haqsız müsibətlərin iç üzü göstərilir. Qərarı verilməmiş icrası həyata keçirilən məqsədyönlü qətllərin məramı aydınlaşdırılır.

Aşıq ailənin ikinci övladı olduğu üçün atasının öldürülməsindən sonra anası Yetər xanımla ailəni dolandırmaq əziyyəti onun üzərinə düşür. Bu cür haqsızlıqların qurbanı yalnız onlar deyildilər. Poemada eyni taleyi yaşayan tarixi şəxslərdən bir neçəsinin adı çəkilir. Onlardan şair Ağacanın və müəllifin ana babası Sərdəroğlu Qurbanın da

1937-ci il sürgünlərinin qurbanı olması həmin dövrün reallıqlarını olduğu kimi göstərir. Əsas hadisələr müəlliflə aşığın söhbətləri fonunda söylənilir. Onların söhbətlərində tez-tez folklora əsaslanan haşiyələr olur. Borçalı və ətrafında olan Azərbaycan torpaqlarının kəndbəkənd adları çəkilir. Danışılan əhvalatların çoxundan Hüseyn Saraçlının şeirlərinin necə yaranması tarixçəsi bəlli olur. Aşığın uşaqlıq illəri və nəsil şəcərəsi barədə lazımlı məlumatların verilməsi ilə poemanın ekspozisiyası yekunlaşır. Hüseyn Saraçlının atasının dostu Tomarrı Qurban kişigilə Cücəkəndə getməsi və onun qızı Şahsənəmə vurulması ilə əsərin razvyazkası başlayır. Onun qızla əhdi-peyman bağlayıb anasına bu xəbəri çatdırması ilə əsərə düyün vurulur. Anası ona bildirir ki, bu sevda elə atasının da uşaqlıq arzusu olub. Ata qəbrindən xeyir-dua alıb nişan edirlər. 37-ci ilin fəlakətləri onları iki il nişanlı qalmağa məcbur edir. Evləndikdən sonra üç oğulları, üç qızları olur.

Bundan sonrakı bölümdə yenə müəllif yuxusunda iki dəfə aşığı gördüyünü qeyd edir. Yuxusunda aşığa verilən suallar və alınan cavablar türkün taleyindən narahatlığı əks etdirir. Bu hissədə çoxlu türk torpaqlarının adları çəkilir və onların indiki durumundan gileylər verilir. Bununla yanaşı, bir çox ustad aşıqların, kəndlərin, xalq oyunlarının, milli yeməklərin, yol-izlərin adları çəkilir, onları qorumağı türklüyü qorumaq kimi xarakterizə edir. Həm də Hüseyn Saraçlıyla bir çox başqa aşıqlar arasında olmuş əhvalatlar milli örnək kimi təqdim olunur. “Aradan 27 il keçib, mən niyə bu xatirəyə qayıtdım? Qayıtdım ona görə ki, köhnə kişilərin kişi xarakteri var idi”. Ümumiyyətlə, poemada Hüseyn Saraçlı ilə bağlı bir çox əhvalatlara yer verilmişdir. Onunla birgə digər sənətkarlarımız haqqında da ibrətamiz bilgilər almış oluruq. Digər bölümdə Hüseyn Saraçlının Göyçəyə Aşıq Ələsgərin ziyarətinə getməsi

əhvalatı söylənilir. Bu hissədə biz aşığın sazını, çəkməsini, papağını ustalardan böyük hörmət və sayğı ilə almasının şahidi oluruq. O, Göyçəyə çatanda gənc şairlərlə rastlaşır, onlarla şeirləşir, daha sonra Ağkilsəyə yol alır. Hamı Borçalı aşığını dərin hörmətlə qarşılayıb onun şərəfinə məclis qurur. Ələsgərin sonbeşik oğlu 70 yaşlı Aşıq Talıb da getdiyi toyu başa vurub, qonağının yanına tələsir. Hüseyn Saraçlı həm Aşıq Talıbla, həm də Ələsgərin qardaşı Məşədi Salahın nəvəsi İsmixanla deyişib saz-söz məclisi qurur. Müəllif qəhrəmanının Göyçə səfərini məqsədli şəkildə təfərrüatı ilə təsvir edir. Ermənilərin göyçəlilərə tutduğu divanlardan bəhs edir. Erməni zabiti Vahramın anasına yazdığı məktubun mətnindən onların necə amansızlıqlar etdiyi bəlli olur. “Elə bil aşığın sümüyünə dammışdı ki, bir vaxtlar Göyçə boyda bir mahal yerindən oynayacaq...” Ona görə də, Zəlimxan Yaqub da fürsətdən istifadə edib, Göyçə və göyçəlilərlə bağlı bildiklərini oxucularına çatdırır. Növrəs İman və Aşıq Ələsgərlə bağlı həqiqətləri qələmə alır.

Aşıq Ələsgərin yeddi ildə bir dəfə günün günorta çağları üç saat gömgöy axan çayın suyundan içib aşıqlıq vergisi aldığı qeyd olunur. O sudan içmək də hər adamın qismətinə düşmür. Beləcə Hüseyn Saraçlının Göyçə səfəri yeni dastanların və xatirələrin yaddaşa həkk olunması ilə başa çatır. O, yolüstü qayıdanda Kəlbəcərə də baş çəkir. Oranın meşəbəyinin oğlu Məhəmmədlə Güləndamın da toyunu edib Dədə Şəmşirin qonağı olur. “Onların heç biri bilmirdi, heç vaxt da bilməyəcəkdilər ki, bu gün toy-tamaşa meydanına çevrilən ana Kəlbəcər, Ağdaban kəndi, Aşıq Qurban ocağı, Ağdabanlı Qurbanın, Dədə Şəmşirin əlyazmaları da Kəlbəcər oğulları kimi şəhid olacaq, yanıb külə dönəcək və heç vaxt bu yaralar sağalmayacaq”. Əslində şairin bu səhnələri qələmə almaqda məqsədi,

torpaqlarımızın işğal olunmasıyla bərabər itirdiyimiz milli-mənəvi dəyərlərimizi də yada salmaqdır. Sonra aşığın Qarabağa səfəri, orada Aşıq Xaspoladla görüşündən və deyişməsindən bəhs olunur. 80-ci illərdə kərkük şairi Əbdüllətif Bəndəroğlu ilə bizim şairlərin görüş xatirələri danışılır. Şair bu xatirələri yada salmağın məqsədini belə izah edir: "Şərə-böhtana, qana qırğına saldılar Qarabağı. Borçalıdan köç başladı. Yüz ildi bu köç yavaş-yavaş gəlirdi, indi çox iti yerişlə gəlir. Nə Kərkükdə başlanan talanın qarşısını ala bilirik, nə Borçalıdan başlanan köçün yollarını kəsə bilirik, nə Qarabağımızı qaytara bilirik". Bu kimi narahatlıq dolu sətirləri oxuduqca məlum olur ki, əslində müəllif əsəri yazmaqla sadəcə aşığın həyat tarixçəsini təsvir etmək fikrində olmayıb. O, bir keşməkeşli həyat tarixçəsi fonunda XX əsrdə Azərbaycanın bilərəkdən parça-parça edilməsinin səbəb və məqsədlərini bir növ təhlil edir.

Şair yenə yuxusunda ustad aşıqla söhbət etdiklərini yazır. Onun özünə şəyird seçərkən hansı meyarlara üstünlük verməsindən bəhs edir. "Ay oğul, mən ağa nəslindən şəyird götürmürəm" sözləri aşığın dilindən verilən sitatdır. Həm də onun öz sözləri ilə şəyirdlərinin adları sadalanır. "Mənim şəyirdlərimin hər biri ad aldı, şan-şöhrət sahibi oldu. Sarallar Aşıq Əmir ilk şəyirdim olub. Onun xəzinəsi çox zəngin idi. Məhəmməd Sadaxlı, Əhməd Sadaxlı, Nurəddin Qasımlı, Sədi Ulaçlı, ... son şəyirdim xətrini çox istədiyim Aşıq Muraddı. Axırıncı dəfə sazımı Dəllərdə onun oğlunun sünnət toyunda çalmışam".Poemanın əsas leytmotivi Borçalıdan olan aşığın timsalında Borçalının aqibətinə nəzər salmaqdır. Hüseyn Saraçlıdan sonra o mahalın necə yoxluğa doğru getməsinin kədərini əks etdirməkdir. Əslən Borçalıdan olub, sonralar didərgin həyatı yaşayanların da obrazı

yaradılır. “Günlərin bir günü belə bir məktub İstanbuldan – Qul Mehdidən gəldi. Aydın oldu ki, onun şairliyi də var. Özü də şair Nəbinin eloğlusudu, Faxralı kəndindəndi. Hasannılardandı. İkinci Cahan savaşında almanlara əsir düşüb, öz xilas yolunu Türkiyədə tapıb”. Hüseyn Saraçlı tezcə Qul Mehdinin məktubuna cavab yazsa da, məktub yalnız onun məzarı üstündə oxuna bilir. Poemada aşığın haqq aşığı olmasına işarə edən çoxlu haşiyələr var. Onlardan biri də belədir. Aşıq Lök Candarına toya gedərkən yolda bir insanla rastlaşır.Həmin adamın qatil olduğunu və keçirdiyi hissləri anlayır. Gedib toya çatarkən bəlli olur ki, qatil elə həmin aşıq toyunu eləməyə gəldiyi oğlanı öldürübmüş.

Əsərdə Hüseyn Saraçlının müxtəlif bölgələrə səfərlərindən və orada qazandığı hörmətlərdən də bəhs edilir. Onun Aşıq İslam Ərdənərlə Borçalıda görüşü vətəndən didərgin düşənlərin vətənə dönüşünün simvolu kimi verilib. Təbrizin cəngavər aşığı Aşıq Hüseyn Cavanla Gəncədəki görüşü Təbriz həsrətini, vətənin parçalanmasını ifadə edir. Dərələyəzdə İbrahim kişinin bir həftə saz-söz məclisinin qonağı olması, Sərraf Qasımla deyişmələri bütövlük rəmzi kimi xarakterizə olunub. Bunların içərisində ən təsirli səfər Qazaxıstan səfəridir. Müəllifin otuzuncu illərdə Füzuli rayonunun Kərimbəyli kəndindən sürgün edilənlər haqqında ayrıca poeması olsa da, bu əsərdə də həmin məsələyə toxunulub. Əskiparadan sürgün edilən Bimar Mehralı adlı şairlə olan əhvalat repressiya illərinin bütün acınacaqlı anlarını göz önünə gətirir. Mehralının butası olan Gülnara elçi gedirlər. İki il sonra onlar aşığı Qırğızıstana oğullarının sünnət toyuna çağırırlar. Aşıq da uşağın adını Vətən qoyur. Aşıq qayıdandan altı ay sonra Bimar Mehralı ona məktub göndərir. Məktub Hüseyn Saraçlıya yetişəndən bir həftə

sonra Bimar ayrılığa dözə bilməyib ölür. Poemada Hüseyn Saraçlı ilə bağlı əhvalatlar qələmə alınarkən, məqamı gəldikcə digər sənətkarlarla bağlı epizodlar verilir. O, bütün şəyirdləriylə birgə Ağbaba mahalına qonaq gedir. Orada baş verən hadisələr söylənilərkən Aşıq Şenliyin Mehdixanların toyunda zəhərlənməsi hadisəsi də qələmə alınır. Eləcə də, Faxralıda şair Nəbinin qəbrini ziyarət edərkən bir çox başqa sənətkarlar haqqında da bilgi almış oluruq.

Əsərin final hissəsini Zəlimxan Yaqub "Kim idi Aşıq Hüseyn Saraçlı?" sualı ilə başlayır. Cavabı da özü verir ki, əslində onun kimliyi onun böyüklüyündə idi. Müəllif bu böyüklüyü belə qiymətləndirir. "Böyük sənət də özünü ağlayan, içinə enən, əslinə, kökünə qayıdan sənətdi". Sonluğa yaxın poemanın yazılmasının əsl səbəbinin faciələrimizin yaddan çıxarılmaması, mənəvi səfərbərliyə çağırış olduğu məlum olur. Aşığın 70 illik ömür yolunu qələmə almaqda şairin məramı əsl insan həyatı yaşayanları örnək kimi dəyərləndirməsidir. Aşıq 1987-ci ildə dünyasını dəyişsə də, şair onun qəbri üstə verdiyi sözə 20 il sonra əməl edir. Onun adına dastan bağlayır. "O mənim Şəmsim oldu, mən onun Mövlanası,- Aşıq Hüseyn Saraçlı" misraları ilə səmimi etiraflarını edir. Poemaya diqqətlə nəzər saldıqda sanki elmi tədqiqat təsiri bağışlayır. Hətta poemanı folklor toplusu da adlandırmaq olar. Əsərdə çoxlu atalar sözü və məsəllər, rəvayətlər, bayatılar işlədilməklə bərabər, bir çox aşıq havalarının, aşıqların və.s adları çəkilmişdir. Xeyli dastanların adlarına rast gəlirik.

"525-ci qəzet". 22 sentyabr 2016

MƏMMƏD ASLANIN AĞLAYAN QƏRƏNFİLİ

20 Yanvar hadisələrinə kəskin etiraz edilərək yazılmış əsərlərdən biri də Məmməd Aslanın "Ağla, qərənfil, ağla" poemasıdır. Hər bir vətəndaşımıza əsl yaddaş ağrısı kimi təqdim olunan bu əsər dəfələrlə şairin müxtəlif kitablarında işıq üzü görsə də, ilk dəfə ayrıca kitab halında 2014-cü ildə nəşr edilmişdir. Həmin nəşrin ön sözündə Eldar Kərimov yazır: "Ağla, Qərənfil, ağla" 1990-cı il 20 Yanvar faciəsi günündə, şəhidlər məzarlığına aparılan şəhidlərimizin arxasınca onların xatirəsinə həsr edilmiş ilk şeir oldu. 20 Yanvar faciəsinin ertəsi günü yazılan şeir xalqımızın başına gətirilən müsibəti öz açıqlığı ilə ortaya qoydu və tez bir vaxtda dillər əzbərinə çevrildi. Həmin şeirlə günahsız insanlara mərhəmət edilmədən işlədilmiş bu cinayət sadəcə tarix kitablarının səhifələrində deyil, həm də Azərbaycan xalqının yaddaşına həkk olundu". Sitatda da qeyd edildiyi kimi, bu əsər yazılarkən şeir adlandırılıb. Lakin əsərin həcminə və problematik yükünə görə bu şeiri poema kimi təqdim edə bilərik.

Müəllif özü əsərə "Qərənfil- şəhid qanı" başlıqlı nəsrlə giriş də yazıb. Həmin girişdə dörd dənə beş misralıq bəndlər var. Amma şair etiraf edir ki, "Qanı axıdılmış yaralara- istər insan olsun, istər torpaq, istərsə də yolkənarı ağacların qol-budağı - ümumiyyətlə, bu yaralarımıza məlhəm kimi qoyulan qərənfillərə bir şəhid qanı kimi baxdım. Balalarımıza yuxarıdakı misralarla yas saxladım. Ana-bacı dilindəki yas nisgilinin ağrı-acısının yerini verə biləcək ifadə aradım. Xalq dilindəki nisgilli bir sözü telləndirib, qəlbimə dolan dərdi boşaltmaq istədim". Məlum olur ki, şeir "Dağlara gün düşübdü: Açıl,

bənövşəm, açıl” və onun əksi olan “Dağlara qar düşübdü: Yumul, bənövşəm, yumul!..” misralarının ahənginə uyğun qurulub. Belə ki, gəraylı şeir şəkli kimi qafiyələnən bu əsər yeddi hecalıdır. Səbəbini yazar belə açıqlayır; “Bu şeirdən ikinci dəfə yararlanıb bayatı dili ilə şəhidlərimizə yas saxlamaq istədim”.

İlk baxışdan lirik şeirlər toplusu kimi görünən bu əsər özünəməxsus daxili süjetə malik bir poemadır. Belə ki, şair əsərin başlanğıcında göylərin- tanrının məskəninin qarışıq olduğunu xatırlatmağı unutmur. İkinci bənddən aydın olur ki, bunun səbəbi “sirr düyünlü kisə”lərə görə “dünyada vəsvəsə” olmasıdır. Bu vəsvəsə isə məhz “bu gecə nəsə” olacağına eyham vurur. Sonra şair bu ifrit, nifrət gecəni “qudurmuş bir it gecə” kimi təqdim edir, çünki “gecə fitnə toxuyur”. Elə bu zaman şairin verdiyi “Kim yazır, kim oxuyur?!” sualı ekspozisiyanı-girişi tamamlayır. Yada “Cırtdanın nağlı”ndakı divin sualı düşür: “Kim yatıb, kim oyaq?!” Yatanlara oyaqlar elə bir divan tutdular ki, neçə illərdir həmin cinayətkarların cəzalandırılması xəlbirlə gətirilən suya bənzəyir. Amma Cırtdan öz yoldaşlarını xilas etmək üçün oyada bilmir. Azğınlaşmış divə bənzəyən sovet ordusu xalqın qanını elə axıtdı ki, o qanı xəlbirlə də daşımaq mümkün oldu. Şair isə qan qoxuyan bu gecəni cəllad, zülmət, zillət gecə deyə lənətləyərək zavyazka mərhələsinə keçir. Orijinal bir düyün vurulur. Bu gecəni belə fərqli, özünəməxsus olmağa vadar edən sovet qoşunun Göy qübbəsini yerə çökdürərək, hönkür-hönkür ağlatmağı bacarmasına sarsılır. Qırmızı imperiya ordusunun törətdiyi bu qırğın “sanki dünya dağılır”mış kimi təsir bağışlayır. Ona görə ki, “bu gecə şər doğulur”. Bütün bəşər bu doğulan şərin necə meydan açdığını görüb donuxub. Belə bir hadisənin səbəbkarı ola biləcək gecə qurşun da, qanlı qoşun da doğa biləcək gücə malikdir. Bu gücün harada

istifadə edildiyini göstərməklə şair əsərin kuliminasiya nöqtəsini müəyyənləşdirməyə nail olur. Həmin gücün istifadə ediləcəyi obyekt əliyalın xalqımızdır ki, onun üstünə "tank gəlir dəstə-dəstə". O tankların "yoluna güllə çıxsaq" da, "əvəzi: güllə ancaq!" Lakin hara qaça bilərik, gedəcəyimiz yer yox. Əlacı kəsilən şair tarixi qəhrəmanları imdada səsləyir. Qarabəkirdən soraq çıxmayanda, "Gəlməzmi Ənvər paşa"- deyə sual verir. Elə Nuru paşa da qardaş harayına yetmək üçün gecikir.Həmin şəxsiyyətlərin adlarını çəkməklə müəllif XX əsrin əvvəllərindəki soyqırımların yenidən törədilməsinə eyham vurur. Bu mərhələdən sonra yazar razvyazkaya keçir. Vurğulanır ki, bu "düşünülmüş planlar" mütləq gerçəkləşdirilməliydi. Qəfil qışqıran toplarla gecə qan fışqırmalıydı, fışqırdı da. Məmməd Aslan bu qırğının niyəsini də açıqlayır:

Qırırlar-bizik deyə!
Haqqına düzük deyə!
Astarsız üzük deyə,
Ağla, qərənfil, ağla!

Bircə an da kəsilməyən güllələrdən ev-eşiklər gülləbarandır, gənclər, qocalar isə qurşuna tuş gəlir. Nədənsə, şair əsl günahkarların sırasına "Doxsan- bizə nəs gəldi"- deyə tarixi də əlavə edir. Belə bir tarixi fəlakəti yaşamağa məhkum edildikdən sonra bütün ümidlər üzülür ki, "çətin çıxaq sabaha..." Haqqa pənah gətirənlərin necə pənahsız qalması günahları qurşağa çıxartdı. Heyrətdən donmuş şair, özünü itirsə də, soruşmağa macal tapır ki; "can gedib, cəsəd hanı?!" Bəs öldürülənlərin meyidləri haradadır?! Axı açıq-aşkar görünür ki, "Qan götürdü dünyanı..." Cavanları da tanklar altında qoymaqdan həzz aldılar. O nakamların analarına isə yalnız sinələrini yırtıb, saçlarını

yolmaq qaldı. Onların övladlarının qanıyla Abşeron qan dənizinə döndü. Şəhidlərə bacı olan qərənfil də ağlamaqdan başqa neyləyə bilərdi ki?! Çünki "Gözəllər gözəl ağlar". Əsərin sonlarına yaxın şair qərənfilə "Ağla öz dərdinə də" deməyi unutmur. Xatırladır ki, artıq qərənfil bilməlidir ki, "Al qanıma batmısan". Bununla da, qərənfil özünü xonçalarda gülməkdən, toylarda gəlməkdən məhrum etmişdir. Hər gözə qərənfil dəyəndə yada yalnız o gecə düşər. Axı həmin gecə toyu yasa çevrilən qızlarımız da oldu. Finala yaxın şair qərənfili hər şey üçün ağlamağa çağırır. Onun da bircə səbəbi var: "Xeyirə şər üstün gəldi". Təqdim etdiyimiz kimi bu əsərə diqqətlə nəzər salanda onun ciddi süjet xəttinə malik, lirik olsa da, epik hadisələri sərgiləyən bir poema olduğunun şahidi oluruq.

"525-ci qəzet". 20 yanvar 2016

YUSİF NƏĞMƏKARIN "ÇANAQQALA" POEMASI

Türk tarixinin şanlı səhifələrindən olan Çanaqqala zəfərinə həsr edilmiş əsərlərdən biri də Yusif Nəğməkarın "Çanaqqala" (2015) poemasıdır. On dörd yarımbaşlıqdan ibarət olan poemada müəllifin Çanaqqala Tarix Muzeyində keçmişə səyahətlə duyğulandığını görürük. Bir neçə şərti yarımbaşlıqdan ibarət olan poemanın "Ön ün" bölümündə şair qoca tarixlə həmsöhbət olur. Qala sözünün Çanaqqala toponimində əsl mənasında mühafizə olunduğuna işarə edərək yazır: "Qala – hünər mərtəbəsi, Hünər, Çanaqqala oldu".Bu cür lirik planda verilən girişdən sonra hadisələrin epik məcrası başlayır. Növbəti hissədə Gelibolu yarımadasında baş verən döyüş canlandırılır. Avropalı zabitin türk libası geyinərək döyüşməsi xüsusi ilə qeyd edilir. Həmin alman zabitinin türklər tərəfindən vuruşaraq limanı topa tutmasının rus, fransız, ingilis birliyini diksindirdiyi əks olunur. Əsərdə qərb dövlətlərinin türkə qarşı həmrəyliyi zamanın nifrət toplusu halında bir millətin sınaqdan keçirilməsi kimi mənalandırılır. Düşmən on altı su əjdahası olan zirehli gəmiləri ilə hücuma keçir. Müasir silahlarla silahlanmış bu hərbi texnikanın qarşısına türk"Nüsrət" mina gəmisi ilə çıxmalı olur. Həmin mina gəmisi ilə əsas strateji nöqtələrin minalandığı göstərilir. "Boğazın Asiya tərəfi Minalanmış qalxan idi" sətirlərində döyüş trayektoriyasının istiqamətini müəyyən etmək olur.

Müəllif reallıqları qələmə almaqla, həm də türkün ağlasığmaz fədakarlığını inandırıcı formada təqdim edə bilir. Osmanlı ordusunun topla üç düşmən gəmisini batırmasınıdöyüşün gerçəkliyi kimi təqdim edir. Bu istəyə nail olmağın bir səbəbi düşmənə qarşı barışmaz mövqe olsa da, digər bir səbəbi türkün silahla düzgün davranışı və

hədəfi dəqiq nişan alması idi. Baxmayaraq ki, XX əsrin əvvəllərində osmanlı ordusu kifayət qədər zəifləmişdi, lakin türk genetikasında olan döyüş texnikasına bələdlik ona müasir hərbi sursatın qarşısında tab gətirməyə yardım edirdi. Bu savaşda türkün yalnız döyüş qabiliyyəti deyil, həm də milli duyğularının bir hədəfə yönlənməsi də qələbə üçün önəmli idi. Buna görə də, milli hisslərin qabardılmasında rolu olan ziyalıların əməyini də müəllif yaddan çıxarmır. "Çanaqqalaya gedən yol, Mehmet Akifdən keçirdi" misraları ilə belə ziyalıların mücadiləsinə də diqqət çəkir. Bir epizod da xüsusilə yada salınır ki, ölkənin ağır günlərində - 1915-ci ilin aprelində Daxiliyyə naziri Tələt Paşanın təklifi ilə İstanbulun taleyini düşünənlər toplantı keçirirlər. Şair həmin toplantının iştirakçıları olan bütün aydınların adlarını çəkir, hətta aralarında Azərbaycanlı mütəfəkkirlər də olduğunu yazır.

Bu toplantıdan iki ay sonra, iyunda "Savaş ədəbiyyatı kampaniyası" yaradılmış, dilbirlik, əlbirlik şüarı ilə qələbə üçün mücadilə edilmişdir. Şair həmin mücahidlərdən olan Ə.Hüseynzadənin işlərini belə yad edir: "Baxıb türkün qeyrətinə Əli bəy də qanad taxıb heyrətinə dizi üstə şeir yazır".Poemanın ibrətamiz bölümlərindən biri də "Xına" adlı parçadır. Həmin hissədə "Oğlunu qurban deyənlər Saçlarına xına qoydu" misraları ilə o dövrün ana-övlad-vətən məhəbbətinin vəhdəti nümayiş etdirilir. Türk anasının balasını vətən üçün qurban verməyə böyütdüyünə işarə edilir. Osmanlıların vətən üçün bu qədər çabaları Azərbaycanda da əks-səda doğurur. Onlara yardım üçün "Bakı xeyriyyə cəmiyyəti" yaradılır. Çünki savaşda döyüşən türk əsgərini yalnız vətəninin xilası maraqlandırırdı. Bunu göstərmək üçün müəllif yaralı çavuşun inadla dediyi "mən şəfanı neynirəm, yurdum şəfa tapmasa" sözlərini xatırladır.

Azərbaycandan türklərin köməyinə gedən insanların ümumiləşdirilmiş obrazı "Gülçöhrə" başlıqlı bölümdə əks olunub. Abşerondan olan iki sevgili- Əsədlə Gülçöhrə də həmin savaşa atılanlardandır. Əsərdə göstərilir ki, Əsəd yarından xeyir-dua alıb türk qardaşlarının köməyinə gedir. "Onu doğdu Mərdəkan, səslədi Çanaqqala" – yazaraq müəllif iki qardaş xalqın dar ayaqda bir-birinə həyan olmalarına işarə edir. Döyüşə yollandıqdan sonra Əsədin yolunu gözləməkdən tükənən Gülçöhrə uzun hörüklərini papaq altına yığıb arxasınca gedir. Əsədin şəhid olduğunu bildikdən sonra "Nakam eşqin heyfini Yağıdan almağa gəlmiş bu Azərbaycan qızı" da döyüşlərə atılır. Onun keçdiyi döyüş yolunu müəllif belə təsvir edir: "Hər yaralı mehmetciyə Yardımçıydı o, cəbhədə".Yaralı mehmetciklərə yardım etməyinə baxmayaraq müharibənin də öz qanunları var. Onun da doğma eli Mərdəkana şəhidlik sorağı gəlir."İman heykəli" adlı bölümdə yazar Seyid Onbaşının abidəsi önündəki düşüncələrini dilə gətirir. Atdığı üç mərmidən ikisi boşa çıxsa da, üçüncüsü düşmənin əsas gücünü yendiyi iftixarla xatırlanır. Müəllif bu savaşın gedişatını boşuna nəzmə çəkməyib. Əsas məqsəd bu savaşdan sonra türkün əldə etdiyi nailiyyətləri ibrət kimi göstərməkdir. Onların fədakarlığının nəticəsidir ki, müasir dünyada "Türk cocuqlarının dili, "Vətən" sözünə açılır". Bu döyüşün başqa savaşlardan fərqi onda idi ki, türkün bütün türkanə sifətləri özünü göstərirdi. Türk onun torpağını işğal üçün gələrək, döyüşdə həlak olan ingilis əsgərini də öz torpağında dəfn edir. Bu ancaq türkün əqidəsi, türkün insanlığı ola bilərdi.

Bəllidir ki, bu qələbədə Atatürkün xidmətləri danılmazdır. Buna görə də, "Mustafa Kamal eşqinə" adlı bölümdə ona olan sevgidən söz açılır. Onun komandanlığı altında "Hər əmrinə müntəzirdi Alay, tağım, bölük, dəstə"

fikirləri ilə düzgün hərbi idarə etmənin qələbə üçün nə qədər önəmli olduğu vurğulanır. Poemanın "Son ün" başlıqlı bölümündə bu qənaətə gəlinir ki, "Türk soyunun oyanışı, Çanaqqala zəfərimiz". Müəllif bu savaşın əsl mahiyyətini belə açıqlayır: "Çiyin-çiyinə düsturu – Çanaq-qala zəfərimiz". Əsərin sonunda Qarabağ müharibəsinə də toxunulur. "Siz ey Çanaqqala fədailəri, Əl verin Qarabağ şəhidlərinə" çağırışı ilə yeni bir qələbəyə səsləniş eşidilir. Əminliklə Çanaqqala zəfərinin Qarabağda təkrarlanmasına inam ifadə olunur.

"Kredo" qəzeti. 22 mart 2018

MƏMMƏD İLQARIN "QARATEL" POEMASININ MƏZİYYƏTLƏRİ

Müasir ədəbiyyatımızın görkəmli simalarından olan Məmməd İlqarın möhtəşəm əsərlərindən biri də "Qaratel" dastan-poemasıdır. Əsərin mövzusu kimi strukturu da orijinaldır. Belə ki, əsər klassik türk dastanları formasında nəzmlə nəsrin vəhdəti ilə yazılıb. Müəllif sanki ixtisarlara meydan verməmək, təfərrüatları incələmək üçün nəsrin də potensialından yararlanıb. Qəhrəmanın başına gələn əsas hadisələr nəsrlə nəql edilir.Əsər "Yolçuya bir neçə söz" sərlövhəsi ilə başlayır. Nəzmlə verilən girişdən sonra nəsrlə yolçunun təqdimatı gəlir. Səhhətində ciddi problemləri olan Yolçu ilahidən möhlət istəyir ki, Qaratelin qarşısında üzüqara olmasın, onun həyat tarixcəsini qələmə alana kimi ömür vəfa eləsin. Elə bu hissədə Qaratelin bioqrafik məlumatları ilə tanış oluruq. Onun təhsili, şəxsi həyatı barədə bilgilər verilir. Məlum olur ki, Yolçu dörd gündür Qazaxda Qaratelin döyüş yoldaşları ilə görüşüb onun haqqında məlumat toplamaqla məşğuldur. Ümumiyyətlə, poemada, Qaratel haqqında bilgiləri Yolçunun fəaliyyəti zəminində əldə edirik. Ölümü və yaşamı təmsil edən bu iki obraz o dünya ilə bu dünya arasında körpülər yaradır. İllər öncə həyatını itirmiş Qaratelin yenidən canlandırılması missiyası Yolçunun üzərinə düşür.

Sənədli film səciyyəsi güclü olan poemada Qaratelin tipik surəti yaradılmışdır. Əsərdə onun təqdimatından aydın olur ki, yoldaşları onu döyüşdən geri qaytarmaq istəyəndə inadkarlıq edib, əl qumbarasını göstərərmiş ki, ölərəm, amma əsir düşmərəm. Digər tərəfdən bir çox tarixi olaylar da dəqiqliyi ilə verilir. "1990-cı ilin 21 mart gecəsi Qazaxın Bağanıs Ayrım kəndi ermənilər tərəfindən

yandırıldı". Əjdaha tanklar lovğa-lovğa yırğalanaraq körpələrin kül cəsədlərini də məvh edirdilər. O tankların qarşısında təkbaşına dayanan Şəminin qızı Qaratel olur. Bəlkə də, müasir dövrümüzdən boylandıqda yazarın işlətdiyi "təkbaşına" sözünə etiraz etmək də olar, lakin hər bir zaman kəsiyinin özünəmünasib həqiqətləri olur. Bu həqiqətlərin xırdalıqlarını Yolçunun on il sonra apardığı araşdırmadan öyrənirik.Yolçunun ilk görüşü Qaratelbulağın üstündəki Qaratelin şəkli ilə olur. Şəkildəki qız Yolçunun onun haqqındakı zəhmli düşüncələrini çilik-çilik eləyir. Yəni onun barəsində eşitdiyi qəhrəmanlıqlar hara, sahib olduğu zərif qadın vücudu hara... Bu başgicəlləndirən təəssüratdan sonra Yolçu oradan Bakıya, Şəhidlər xiyabanına gəlir.

Yolçunun qəbri görməyi Qaratellə ikinci görüşü kimi xarakterizə olunur. O, qəbirlə xeyli dərdləşir, hətta qızın ölümündən sonra ölkədə baş verən hadisələrə də toxunur. Yenidən Qazaxa qayıdıb Qaratelin döyüşdüyü yerləri görmək qərarına gəlir. "Gedir arzuları talanan yerə, Qaratel qanına bələnən yerə, Gedir- Fələməzin döşünə baxsın". Bu sətirlərlə şair Qaratelin döyüşdüyü ərazilərin xəritəsini çəkir. Yolçu isə məqsədinə çatmaq üçün Bakı-Qazax yollarını yola gətirir.Yolçunun Qaratellə üçüncü görüşü yenə də Şəhidlər xiyabanında baş tutur. O, Qazaxın kədər çökmüş üzündən məzara şikayətlənir. Artıq yaşayan və ölən bu iki obraz arasında bir vəhdət yaranır. Yolçu bütün cavab almaq istədiyi sualları Qaratelin ünvanına yollayır. Bəzən özü də lazım olan ünvanlara baş çəkir. Beləliklə, 2000-ci ilin 14 iyununda Qazaxın Mərkəzi parkında Qarateli ölümündən əvvəl son dəfə görən Şikəst Vəli ilə görüş qələmə alınır. Şikəst Vəli də Yolçuya Qaratelin və Mərdanın necə vurulmasını dəqiqliyinə qədər danışır. Vəli onu əsir tutub aparan ermənilərin ermənicə danışıqlarından başa düşür ki, Qaratel hələ də sağdır.

"Mən Qarateli bu vaxta kimi ölmüş bilirdim. Amma indi eşidəndə ki, o hələ sağdı, həm də yaralı-yaralı döyüşür, heyrətə gəldim". Şair onun haqqında bilgiləri dəqiqləşdirmək üçün şahidin cümlələrinə istinad edir. Qaratelin ömrünün son anlarının yeganə şahidi Şikəst Vəli onun haqqında qürurlandırıcı məlumatlar verir.Vəlini əsir götürdükdən sonra o, Qarateli görə bilməsə də, erməni əsgərlərinin öz aralarında danışıqlarından öyrənir ki, Qaratel əsir düşmə-mək üçün özü-özünü partladıb. Öz canına qəsd etməklə nəticələnən bu intihar sıradan bir intihar deyildi. Qaratelin atdığı addım ölümsüzlüyə doğru atılmış addım idi. O, vətən üçün ölməyi əsir kimi yaşamaqdan daha şərəfli sayır. Məqsədinə çatmış türk qadını erməni zabitlərini heyrətə gətirir.

Poemada göstərilir ki, həm Qaratelin nəşini, həm də Şikəst Vəlini erməni əsirləri ilə dəyişirlər. Onun 1992-ci ilin 14 iyununda şəhid olduğunu yazan müəllif bir müqayisə də aparır ki, elə həmin saatlarda kişilər çayxanalara yığışıb bəşəri problemlərin "həlli" ilə məşğul olurdular. Onların mənasız hərəkətlərinə yazar belə münasibət bildirir: "Biri- Moskvaya lənət yağdırır, Biri-Moskvadan nicat gözləyir?!" Ortada konkret əməl yox, ancaq boş-boşuna söz güləşdirməklə məşğuldurlar. Bu müqayisəni aparmaqla şair, əsərin əvvəlində vurğuladığı TƏKBAŞINA zərfinə bir daha bəraət verir.Poemada Qaratelin vurulması xəbəri Qazax boyda ağır elin vurulmasına bərabər tutulur. Müəllif bəzən öz düşüncələrinə də yer verərək yazır ki, "Qeyrətinə qıymadığın bu boyda millət, İndi sənin qeyrətinə and içməlidi". Bununla yanaşı Qaratelin əsl xarakterini bu misralarla açır: "Sən sarıdan nigaranlıq, canıyananlıq Sənin "qara dəftər"inə düşmək kimiydi". Bircə günün içində qəhrəman olan bu qadının, qəhrəman adı almaq üçün ölmədiyi xüsusilə alqışlanır.

"Ölmüşdü ki, qalanlar qorxmasın yurd üçün ölməkdən". Əslində əsərin yazılmasına səbəb də elə bu ölməzliyin örnəyini unudulmaqdan xilas etməkdir. Son bölümdə Yolçunun yenidən şəhidlər məzarlığında Qaratellə dördüncü görüşü təsvir edilir. Onu bu görüşə Qaratelin göyərçin cildinə girmiş ruhu çağırır. Qaratelin qəbri üstə Azərbaycan Bayrağı Ordenli sözləri yazıldığı vurğulanır. Azərbaycanın Milli Qəhrəmanı yazılmaması Yolçunu çox məyus edir. Sonda müəllif ümid edir ki, "Vətəni darda qoymazlar! Bu qanı yerdə qoymazlar!!!" Belə olarsa, Qaratel kimi məğlubedilməz xanımların da qisası alınmış olar.

"Azad Azərbaycan" qəzeti. 14 iyun 2017

ELXAN ZALIN "ANIT MƏZAR DASTANI"

Elxan Zal Qaraxanlının "Anıt məzar dastanı" poeması nəzm və nəsrin qarşılıqlı əlaqəsi formasında yazılmışdır. Poemanın əsas qəhrəmanı Heydər Əliyev olsa da, müəllif bu tarixi şəxsiyyətin obrazı kontekstində dövlət və dövlətçilik, millət və millətçilik prinsiplərini poeziyaya gətirmişdir. Poema yurdumuzun tarixən şahid olduğu hadisələrə nəzər salmaqla başlanır. "Burda Keyxosrovun kəsilmiş başı, Tuluğun içində al qan içibdir" misraları ilə Tomris dönəmindən üzü bəri dövlətçilik tariximizə qısa nəzər salınır. Əsərin əvvəlindən bu torpaqda böyümüş türk qadınlarının şücaəti xatırladılır. İnsan başından qüllələr yapdıran Feyləqus oğlu İskəndərə Bərdə qızı şanlı Nüşabənin qadın qeyrətini göstərərək onu heyrətə gətirməsi şairin türk qadınının şərəfli keçmişinə ehtiramıdır. "Oquzun mübarək bahadırları, Qobuzla yaydılar ulu islamı" sətirləri iləşair həm də qopuzunu çalan Dədə Qorquddan, Leylayla Məcnun, Xosrovla Şirin hekayətini qələmə alan Nizami Gəncəvidən söz açır.

Mənəvi təkamülə gətirib çıxaran bu gerçəkliklərin səbəbini həmin dövrdəki türk dövlətlərinin qüdrəti ilə əlaqələndirir. Bunlarla yanaşı, türkün tarixi simalarından Çingiz xan, Nəsrəddin Tusi yad olunur. Qara qoyunlu, Ağ qoyunlu, qızılbaşlar kimi dövlətçilik ənənələrini misal çəkir. Bu dövlətlər "zülmətə bürünmüş orta çağları" işıqlı gələcəyə aparan əsas siyasi mərkəzlər kimi təqdim edilir. "Didilib-dağılmış bu torpaqları, Bir bayraq altında yığdı İsmayıl" deyərək əsərin əvvəlində İsmayıl şahın milli görəvini məqsədyönlü şəkildə nümayiş etdirir. Çünki əsər boyu Şah İsmayılla bağlı epizodlara bir neçə dəfə rast gəlirik. Onun qurduğu imperiyanı sonralar ruslar fürsəti

əldən verməyərək çökdürməyə can atdılar. Nəticə isə çox acınacaqlı oldu ki, "Qəflət mürgüsündə dəm alanda biz, Bakıdan aralı salındı Təbriz". Bu klassik tarixi və itirilmiş qüdrəti yada salmaqda müəllifin məqsədi keçmiş ilə indinin arasında məntiqli bir körpü yaratmaqdır. Şah İsmayıldan sonra yenidən dirçəlişi müşkilə çevrilən bir məmləkətdə "Xalqın gözlədiyi Heydərdi-gəldi" - sözləri tarixi dönəmləri əlaqələndirir. Maraqlı cəhət odur ki, şair nəzmlə təqdim etdiyi həmin girişdə sözlərin əksəriyyətini qədim türkcədə yazıb.

Nəzmlə verilən girişdən sonra "Bu ulu məzara əyil, Tanrını tanı, atanı bil, Anıt məzara gəl" başlıqlı fəsil gəlir. "Anıt Məzarda" başlıqlı bölümdə müəllif fikirlərini həm nəsrlə, həm də nəzmlə bölüşür. Belə təsvir olunur ki, fevral səhərlərinin birində şair dostu Natiq Namazovla əski türk üslubunda bir məzarın önündədir. Bu təsvir son dərəcə səlis nəsr dili ilə qələmə alınıb. Həmin məzar qədim türklərin xaqanların üstündə yapdıqları kurqanları xatırladır. Şair bu məzarın sahibi üçün istəyini dilə gətirir: "O Azərbaycan adlı bir abidə qurdu, mən ona könüllərdə abidə qurmaq istəyirəm". Həm də Heydər Əliyevin özəl cəhətini özünəməxsus düşüncə ilə ifadə edir: "Dünyanın yarısına hökm edən bir imperiya onun iradəsi ilə hesablaşırdı və biz də buna görə, onunla fəxr edirdik- böyük bir imperiyanın hesablaşdığı Azərbaycan oğluyla". Müəllif Heydər Əliyevin Azərbaycanı tanıtma üsulu kimi xalqımızın dahi söz adamlarını dünyada tanıtmaq yolunu seçməsini xüsusi rəğbət hissi ilə qeyd edir. Onun belə etməklə öz ölkəsini müstəqilliyə hazırlamasına da münasibət bildirmişdir. Şair Heydər Əliyevin Moskvada çıxan "Qoy ədalət zəfər çalsın" başlıqlı müsahibəsini bütün Sovetlər Birliyinin müzakirə etdiyini də bilərəkdən poemaya əlavə edir. Səbəbi odur ki, "Axı o, on yeddi

imperiya qurmuş fatehlər nəslindən idi. Onun rəhbərlik etdiyi ölkə imperiyanın bir hissəsi olsa da, imperiya özü onun babalarının qurduğu səltənətin davamı idi". Göründüyü kimi, poemada müəllifin əsas məqsədlərindən biri də mənsub olduğu millətin şanlı tarixini sərgiləməkdir. Şair bir məsələyə xüsusilə önəm verərək, diqqətə çatdırmaq niyyətindədir ki, "O, böyük bir imperiyanın başında dura bilərdi, o, dünyanın yarısına hökm edə bilərdi… Amma öz Azərbaycanının xilaskarı oldu". Bu səbəbdən də onunStalin kimi "xalqlar atası" yox, öz xalqının atası olduğu önə çəkilir.

Poemada nəsr hissələri üstünlük təşkil etsə də, əsərin məğzi şeir parçalarında açılır. Bu şeirlərin birmənalı olaraq hədəfi milli özünütəqdimdir."Türk oğlu boyun əyməz. Adsız məzarları uyudan kişilər hələ varsa, el matəm libası geyməz" tipli misralar buna sübutdur. Həmin şeir parçasında türkün boz qurd gələnəyindən tutmuş, müasir dünya düzənində oynadığı rola qədər hamısı obrazlaşdırılır. Əsərin nəsrlə yazılan hissəsində müəlliflə yanaşı digər bir ziyarətçinin də adı çəkilir. Natiq adlı bu obrazı şair qısaca belə xarakterizə edir. "Sadəcə bilir ki, örnəyi olmayan xalq siyasət cəngəlliyində qurda-quşa yem olur..." Poemanın əsas məziyyəti ondan ibarətdir ki, yazar əsərin qəhrəmanının timsalında türkün cahangirlik tarixini sərgiləyə bilmişdir. Heydər Əliyevi qırx atlı ilə yüz minlik çin ordusunun qarşısına çıxan Kürşadla müqayisə edərək, onun Gəncə qiyamçılarının qarşısına tək çıxmağını həmin sərkərdəyə bənzədir. Əsərdə qeyd edilir ki, bütün millətlərin tarixində qurucu atalar olur. Şair qəhrəmanını rusların Pyotru, amerikalıların Vaşinqtonu, Türkiyənin Fatehi və Atatürkü ilə müqayisə edir. Azərbaycanın da qurucu atası olmaq missiyası Heydər Əliyevin üzərinə düşdüyü vurğulanır. O da Şah İsmayıl kimi dayanıqlı

dövlət qura bildi.Bu səbəbdən də şair məzar önündə düşünür ki, onun cismi sevdiyi məmləkətdə uyusa da, ruhu Tanrıdağda "Ulular uçmağında", qırx pirin arasındadır. Ona görə də, rəhbərin dəfn günü on minlərlə ümidsizlik hisslərinə bürünmüş insan seli "Fəxri xiyabana" doğru axırdı. Səbəbi də belə göstərilir ki, o, hələ sovetlər dönəmindən ölkəsində müstəqilliyin təməlini yaradırdı. Bunu sübut edən amillərdən biri kimi Azərbaycan dövlətçiliyinin simvolu olan İsmayıl şaha heykəl qoydurması və Bakı rayonlarından birinə onun adının verilməsini qeyd edir.

Poemanın gedişində şair yenidən Şah İsmayılla bağlı fikirlərinə dönür. Bu dəfə onun milli dövlətçilik şüarının mahiyyətindən söz açır."Qızılbaşlıq duyğusu bizim içimizdədir, qızılbaşlıq bizim genetik kodumuzdadır. Qızıl-başlıq türkün İslam sevdasıdır, qızılbaşlıq Azərbaycan duyğusudur"- yazaraq İsmayıl şahın inandığı gerçəkliyin onun milli ruhundan qidalandığını nəzərə çatdırır. Şair qızıl-başların tarixinə və mahiyyətinə də diqqəti yönəldir, habelə Heydər adının həm də Şah İsmayılın atasının adı olmasını yada salır. Bununla yanaşı, səfəvilərin tarixində islamın həlledici rolu haqqında da mülahizələrini yürürdür. Hətta Şah İsmayılı peyğəmbər nəslindən olan biri kimi qələmə verir. Belə bir mübaliğə onun milli kimliyi barədə suallar yarada bilər. Azərbaycan ideyasının onun adıyla tarixdə təşəkkül tapdığı qeyd olunur. O, ilk mərkəzləşmiş türk Azərbaycan dövləti yaratmağı qarşısına məqsəd qoyur."Türküstandan gələn türk-İslam missionerləri əski türk inanclarını Əli kultuna sintez edə bilmişdilər və İslamın bu şəkildə izahı sadə türk insanına daha yaxın idi" kimi misallar bunu deməyə əsas verir. E.Z.Qaraxanlı poemada Əhməd Yəsəvinin və Hacı Bektaşın təlimlərinin mahiyyətindən də bəhs edir. Hətta türklük barədə özünəməxsus izahlar da verir:

"...Amma kəndlərdə və çöldə yaşayan köçəri türk əhalisi fars dilini anlamırdı. Buna görə şəhərlərdə yaşayanlar özlərini müsəlman, köçəri həyat sürənlər isə türk adlandırırdılar. Yəni türk məfhumu milli deyil, daha çox sosial mahiyyət daşıyırdı". Bu, təbii ki, müəllifin şəxsi qənaətinin təzahürüdür. Poemada Səfəvilər dövlətinin qurulmasının və apardığı mübarizələrin də özünəməxsus izahları verilmişdir. "Səfəvi dövləti İranda Azərbaycan dövlətinin üçüncü mərhələsidir" sözləri ilə İran coğrafi məkanında yaranmış türk mənşəli dövlətlərin varlığına eyham vurur.

Əsərin quruluşu ilə bağlı maraqlı manevrlərdən biri dörd bəndlik altılıqdan sonra Böyük Sufinin Dedi-Dedilər formasında verilən dialoqudur. "İstədilər" rədifli beş bəndlik gəraylıdan sonra şair Azərbaycan ulusunda, Tovuz şəhərində doğulmağına belə məna verir. "Böyük bir məmur da ola bilərdim, amma şair oldum... Savaşı olmayan bir xalqın "Savaş ayələri"ni yazdım". Lakin bu "savaşı olmayan" ifadəsi sual doğurur ki, necə ola bilər ki, bir xalqın milli genetikası türkdən törəmə olsun, amma onun savaşı olmasın. Təbii ki, olmayan savaşa da ayə yazmaq mümkün olmazdı. Hətta şair bu məqamda fürsətdən istifadə edib məmləkətimizdə onu qane etməyən çatışmazlıqlar barədə gileylənir. "İnsanın özünü azad etməsi üçün onun genetik kodunu azad etməsi lazmdır" qənaətini bölüşür. Müəyyən qədər din və dövlət barədə düşüncələrinə də yer ayırır: "Hərə allahı dərk etdiyi şəkildə, ona uyğun dövlət və cəmiyyət yaradır" tipli mülahizələrini də irəli sürür. Poemada əsas diqqət türkün tarixinə və bu tarixin düzgün araşdırılmasına yönəldilib. Şair "Şumernamə"si ilə Altay nəzəriyyəsinin tərəfdarlarını çaşbaş qoyan Oljas Süleymenovun Aralıq dənizi hövzəsində yaşayan xalqların dillərindəki türk komponentlərini müəyyən etməsini xüsusilə vurğulayır. Yəni Aralıq dənizi hövzəsi türklərin ana vətənləri olmuşdur,

Altaydan köç edib ora gələnləri genetik yaddaş geri qaytarır. Ən önəmlisi də odur ki, şair türklərin Azərbaycan və qonşu ərazilərə sonradan köçərək gəldiklərini yox, yerli xalq olduğunu əsaslandıra bilir. "Tarixə döndükcə altun saraylar, Çadırlar içində tarix doğuldu" kimi misraları olan beş bəndlik dördlükdən sonra mövzu türkün qədim tarixindən Azərbaycanın ən yeni tarixinə yönəlir. Qanlı 20 Yanvardan söz salınır. Onun baş vermə səbəbləri və nəticələri şərh edilir. Qarbaçovun Heydər Əliyevi Siyasi Bürodan məqsədli şəkildə uzaqlaşdırması bildirilir. SSRİ-də türk-müsəlman faktorunu azaltmaq üçün Qarbaçov bunları bilərəkdən edirdi: "Bəlkə də, o qanlı yanvar gecəsi Bakı küçələrində törədilən vəhşilik Qarbaçovun Heydər Əliyevə olan nifrətindən qaynaqlanırdı, onun xalqını qırmaqla ona göz dağı vermək istəyirdi. Bu adi nifrət deyildi, bu liliputun Qulliverə olan nifrətiydi" kimi şərhlərlə faciəyə öz baxış bucağını nümayiş etdirir. O dönəmlər həmin qırğına qarşı susan Türkiyə prezidentindən fərqli olaraq Heydər Əliyevin "bir millət, iki dövlət" konsepsiyasını irəli sürdüyü alqışlanır. Azərbaycan olmayan yerdə türk birliyi də ola bilməz həqiqətini təsdiqləyir. Bu iki türk dövlətinin uzunmüddətli müttəfiqlərə çevrilməsinin səbəbkarının da Heydər Əliyev olduğu söylənilir.Bu birlik müharibə vaxtı dərk edilməsi vacib olan ən mühüm məsələlərdən idi."Qarabağ savaşında bizim nizami ordumuz olmasa da, arslanürək igidlərimiz vardı və onlar bu məmləkəti daha böyük itkilərdən qorudular..." sözləri ilə yazar həmin müharibənin gerçəkliklərinə də nəzər yetirir. Vurğulanır ki, xalqımız bu günə bütöv halda gəlib çıxmasına görə "adsız məzarlara" borcludur. Bu əhvalatlar "Qoy bizə heç kimin yazığı gəlməsin" rədif misralı dörd bəndlik beşliklə tamamlanır...

Şair türkün varlığı ilə bağlı daha vacib məsələlərə toxunur. Adətən tarixdə döyüşkənlikləri ilə ad çıxaran türklərin 1893-cü ildə V.Tomsen tərəfindən tapılan yazılı abidələri həm də onların sivil mədəniyyətə sahib olduqlarını sübut etdiyini qeyd edir. "Bu əlifbanın oxunduğu gün türk etnosunun tarixinə baxış bucağı dəyişdi" - kimi faktlarla qərbin şərqə yenidən göz gəzdirməsini etiraf edir. Ona görə də, yazar təklif edir ki, dekabrın 15-nə təsadüf edən bu günü bütün türk xalqlarının əlifba bayramı hesab etmək lazımdır. "Biz yüz illər boyu yabançı təbliğatın təsiri altında əksiklik kompleksi ilə yaşamışıq, hətta siyasi hegemon olanda belə, mənən özümüzübaşqalarının vassalı etmişik" kimi etiraflar, gələcəkdə eyni tipli səhvlərə yol verməmək üçün diqqətə çatdırılır. Bütün bunlara rəğmən türk milli özünəqayıdışı əsas amildir. Bugünki dünyanın bütün güclü ölkələri öz milli köklərinə dönüş edərək inkişafa nail olmuşlar. Türkün də gələcək taleyi bundan asılıdır. Əgər əzəmətli keçmişi olmayan bir sıra avropa ölkələri yoxdan var etməyi bacarıbsa, onda gərək türkanə keçmişi olan türk dövlətləri daha da irəli getsinlər. Şair inanır ki, Yeseninin "türk gözəli" kimi vəsf etdiyi Bakı Türkiyə ilə Türküstan arasında daim körpü olacaq. Bakı müstəqil bir dövlətin paytaxtı olmaq üçün 20 Yanvar kimi tarixi imtahandan keçmişdir. Buna görə də müəllif yazır ki, "Hürrü almaq qəliz işdir, hürr yaşamaq ondan qəliz".

Əsərin sonlarına yaxın müəllif Heydər Əliyevi Atatürklə müqayisə edir. Necə ki, Atatürk birinci dünya müharibəsindən sonra Anadoludakı min illik hakimiyyətlərinə son qoyulmaq təhlükəsi olan türklərə bir ər kimi göndərilmişdi, eləcə də, əsrin sonlarında Heydər Əliyevin azərbaycanlılara bir ər kimi göndərildiyi etiraf edilir. Atatürk imperatorluğu xilas edə bilməsə də, Türkiyəni və türklüyü xilas edə bilmişdi. Heydər Əliyev də dövlət quruculuğunda

onun qoyduğu irsdən bəhrələndi. Türkün şanlı tarixini və hökmdarlarının həyatını dərindən bilən və bunu həmişə təbliğ edən Oljas Suleymenovun da Heydər Əliyevi o sərkərdələrin davamçısı hesab etdiyi yada salınır. Müəllif müstəqilliyin ilk illərində verdiyimiz qurbanların səbəbini də Heydər Əliyevin həmin dövrlər hakimiyyətdən uzaqda olmasında görür. O, milləti inandırdı ki, siyasi məharət hərbi məharətdən daha da səmərəli ola bilər. Əsərin sonlarına yaxın şair türk gəncliyini öz milli kimliyini dərk etmək üçün anıt məzarı ziyarətə səsləyir.

"Kredo" qəzeti. 26 fevral 2018

ELÇİN İSGƏNDƏRZADƏNİN POEMALARI

Elçin İsgəndərzadənin 2013-cü ildə nəşr olunan "Qürbət hücrəsində" kitabında səkkiz poeması yer almışdır. Bu poemalar bədii tutumu ilə yanaşı, tipoloji bölgüsünə görə də özünəməxsusdur. Müəllif poemalarının tiplərini özü müəyyənləşdirib. O, "Turan savaşçısının nəğmələri", "Şahmar şikəstəsi" və "Oğlum Əliyə dualar" əsərlərini sadəcə poema tipinə aid edib. "Biganəlik iqlimi"ni fraqmentlərlə poema, "Mavi Mərmərə"ni poema-rekviyem, "Adil Mirseyidin palitrası"nı poema-yeddi etüd tipində qələmə almışdır. "Eşq" əsərisimfonik muğam-poema, "Bu qala bizim qala" poeması isə simfonik poema kimi təqdim olunur. 2011-ci ilin iyulunda yazılan "Turan savaşçısının nəğmələri" poemasına "Böyük Ustad Çingiz Ağa Torekul oğlunun əziz xatirəsinə" epiqrafi əlavə edilmişdir. Eləcə də, 2011-ci ilin fevral-mart aylarında qələmə alınan "Şahmar şikəstəsi"nə "Ustad şairimiz Şahmar Əkbərzadənin 70 illiyinə" epiqrafı yazılmışdır. Bu epiqraflara əsaslanaraq həmin əsərləri poema-ithaf kimi dəyərləndirmək doğru olmur.

Eləcə də, "Bu qala bizim qala" əsərini poema-müraciət tipinə aid etmək düzgün sayılmır. Poemanın epiqrafında "Böyük Vətəndaş və Böyük Alim, Ustadımız, akademik Xudu Məmmədovun işıqlı xatirəsinə" sözləri yer alıb. Əsasən, sərbəst şeir ölçüsündə yazılan "Bu qala bizim qala" poemasının birinci bölümü "Gecələr səslər gəlir Azıx mağarasından - əcdadlarımın səsi" misralarıyla başlayır və belə də tamamlanır. Diqqət etsək, görərik ki, poemanın əsas ideyası da buradadır. Çünki gecələr Azıx mağarasından gələn həmin səslər bəzən Tanrı dağlarımızdan, bəzən də yovşan qoxulu türk çöllərindən

gəlir. Elə bu səslər şairi əsas nüansa tərəf çağırır və müəllifin demək istədiyi ilkin fikir də budur: "Azıx mağarası -Vətən torpağı, torpağın altında əcdadlarımız". Daha güclü çağırış məhz düşmən taptağında olan Azıx mağarasının azad edilməsilə bağlıdır. Poemanın yalnız üçüncü bölümündə Xudu Məmmədovun adı çəkilir və şair əsl niyyətini belə ifadə edir: "...səni Mərzilidə bir ağac kölgəsində ulduzlara baxarkən görmək istədim bu bahar". Məlumdur ki, Ağdamın Mərzili kəndi də erməni işğalı altındadır. Şairin həmin istəyinin həyata keçməsi əslində Qarabağın işğaldan azad olunması deməkdir. Təbii ki, müəllif burada öz məqsədinə Mərzili kəndini obrazlaşdıraraq nail olub.

Poemanın ağırlıq yükü "Yer üzü Türkün torpağı, Göy üzü Türkün bayrağı" misralarının üzərinə düşür. Yenə də əsas mətləb torpaqlarımızın işğaldan azad olunmasına yönəlib. Tanrı yer üzünü türkə torpaq olaraq yaradıbsa, onda həmin torpaqların ermənilər tərəfindən işğalı ilk növbədə tanrının iradəsinə qarşı çıxmaqdır. Elə bu səbəblərdən də poemanın qəhrəmanı haqqında belə fikirlə qarşılaşırıq: "indi sənin qərib ruhun Göy qübbəsi altında Qarabağda dolaşır". Elə poemanın sinfonik poema kimi təqdimatı da bundan irəli gəlir. Poemanın sonlarına yaxın şair haşiyə də çıxır. Bu, haçansa qədim insanın bir daş - kristial tapması ilə bağlıdır. Başqa bir qədim insanın bu daşı tapanın əlindən almasıyla iki qardaşın savaşı baş verərək, insan qanı tökülür. Daş alətlə zərbə vurulan kristialın bərq vurması insanı ovsunlayır. Bu hadisələrdən çox illər keçdikdən sonra "Və bir gün qədim insanın tapdığı ilk kristial Xudu Məmmədovun əlinə düşdü- O da məftun oldu bərq vuran bu kristiala". Rəssamların alimi, eləcə də alimlər rəssamı kimi təyin edilən Xudu Məmmədov kristialın sirrini mozaik qravürlərlə, naxışlarla çözürdü.

Bunun səbəbi belə göstərilir ki, "Kainatın rəmzi idi onunçün kristial- mozaik naxışların nə əvvəli, nə sonu var". Əsərin bütün fəlsəfi çalarları məhz bu hissədə üzə çıxır. Bəlli olur ki, bir-birini əvəzləyən naxışlar zamanın alın yazısıymış, həm də min illərdir ki, zamanın əllərində insan qanı var. Əsas fikir ona yönəlib ki, "Xudu Məmmədov zamanın əlindən insan qanını silirdi". Poema yenə də gecələr gah Azıx mağarasından, gah Tanrı dağlarımızdan, gah da yovşan qoxulu çöllərimizdən gələn səslərin sədaları ilə tamamlanır. 2011-ci ilin martında yazılan bu əsərin sonunda məlum olur ki, Xudu Məmmədov həmin gecə şairin yuxusunda sonsuzluğa qovuşsa da, silinməyən iz qoymuşdur. Göründüyü kimi, əsərin süjetini müəyyən etmək, ümumiyyətlə, süjeti izləmək mümkün olmur. Sadəcə, əsərdə qarşıya qoyulmuş məqsəd var və bu məqsədin oxucuya çatdırılmasının bədii həlli uğurlu alınıb. Müəllif müharibə, ümumiyyətlə, qan tökülməsi əleyhinə fikirlərini Xudu Məmmədovun, yəni yurdu işğalda olan bir insanın simasında obrazlaşdıra bilmişdir.

Şairin 2011-ci ilin avqustunda yazılan "Adil Mirseyidin palitrası" poema-yeddi etüdü sərbəst şeir ölçüsündə qələmə alınmış yeddi kiçik parçadan ibarətdir. Birinci və ikinci etüdlərdə Adil Mirseyidin çəkdiyi rəsmlərə baxan şairin təəssüratları yer almışdır. Üçüncü etüd isə konkret olaraq "Akvarel qadın" rəsminin sözlə ifadəsidir. Dördüncü etüddə şair Adil Mirseyidlə İçərişəhərdə keçirdiyi bir günün xatirələrindən yazır. Beşinci və altıncı etüdlərdə əsəri üzərində işləyərkən rəssamın keçirdiyi anlardan bəhs edilir. Yeddinci etüddə məlum olur ki, hərtərəfli istedada malik olan Adil Mirseyidin "şeirləri rəsm kimidi, rəsmləri şeir kimi". Şair həmin yeddi etüdlə rəssamın mükəmməl şəxsiyyətini obrazlaşdırmağa nail

olmuşdur. Poemadan məlum olur ki, Adil Mirseyid fələyi təlxək cildində qapısına qədər gətirsə də, onunla barışmır. Bir sözlə, rəssama həsr edilmiş bu poemada Adil Mirseyid surrealizminin təsiri də hiss olunur.Nümunə gətirdiyimiz poemalardan da göründüyü kimi, Elçin İsgəndərzadənin poema janrına müraciəti tamamilə orijinaldır. Belə ki, o, istər mövzuların seçimində, istərsə də mövzuya uyğun tipin müəyyənləşdirilməsində təkrarsız üslubdan istifadə edir. Poemalarında lazım olduğu qədər sözlərdən yararlanır, boşuna söz yığını ilə poemanı əbəs yerə yükləmir. Bu baxımdan onun poemalarının çağdaş Azərbaycan ədəbiyyatında öz yeri vardır.

"Azad Azərbaycan" qəzeti. 14 oktyabr 2016

KƏMALƏDDİN QƏDİMİN "KÖÇ"Ü

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Kəmaləddin Qədimdir. Onun yaradıcılığında "Köç" poeması xüsusi əhəmiyyətə malikdir.Əsərdə köç mövzusunun qabarıq şəkildə qoyulmasıyla qarşılaşırıq. Poema təsadüfən "Köç" adlandırılmayıb. "Köç" sözü təxminən 50 dəfə işlədilib, demək olar ki, həmin sözün bütün çoxmənalılığı üzə çıxarılıb. Heca vəznində yazılan bu poemada 6 qoşma, 8 gəraylıdan istifadə edilib. Bir bəndi isə üç yerdə təkrar verilib;

Biz yola vurulduq, yol bizi çəkdi,
Beləcə yollarda keçdi bizimki.
Vətəndə vətənçün həsrət çəkməkdi,
Vətəndən vətənə köçdü bizimki.

Bəllidir ki, bu bənd təsadüfən üç dəfə işlədilməyib. Təbii ki, yolçu yolda gərək, amma vətəndən vətənə köç hansı yolçuya gərəkdir ki?! Poemanın mərkəzi xəttində həmin sualın cavabına can atılır. Qeyd edildiyi kimi, poemada "köçmək" feilinin bir çox mənalandırılması ilə rastlaşmaq olar; "Mən ana bətnindən doğulmamışam, Mən ana bətnindən köçüb gəlmişəm". Biz bu mənalar içində daha çox vətəndən köçmək anlamının üzərində duracağıq. Şairi ən çox o düşündürür ki, hardan gəlib girdi lüğətimizə, hardan dilimizə calandı bu söz?! Niyə bizi göstərəndə "qaçqın" kimi nişan verdilər. "Bir şəhərcik də saldıq adına" - deyərək köçkünlük və qaçqınlıq həyatı yaşayanların problemlərini qabardır. Nə biləydik ki, vaqon da, çadır da, uçuq koma da, bu köçdə hələ son deyilmiş. Qəribə bir təklif də verilir; "Gərək bundan sonra "Qaçqınkoma" da,"Qaçqınkom" de-

məyim, “Köçkünkom” deyim”. Köçün “qüdrətinə” baxın vaqonu, çadırı, uçuq komanı da insan sığınacağı edərək yaşayış məskəninə çevirib. Ən əsası da odur ki, minlərlə insanı eyni taleyi yaşamağa məhkum edib. Hətta yeni bir komitə də yaradıb. Hələ ki, bu köç bir istiqamətlidir. Tilsimi sındıra bilsək, bu köç geri qayıdar. Şair başlıqlardan birinin adını “Tanrı Şuşadan köçür” qoyub. Bu hissədə “Köçür” rədifiylə dörd bəndlik gəraylı verilmişdir ki, sonuncu bəndi belədir;

Fağır müsəlman elə,
Baxır müsəlman elə.
Axır müsəlman ilə,
Tanrı Şuşadan köçür.

Bəndin üçüncü misrasına bir neçə yönümdən şərh vermək olar. Axır müsəlman, yəni axırıncı- sonuncu müsəlman ilə hamı köçür. Bu, o anlama gəlir ki, xristian dünyasının neçə illərdi “birgə layihə” kimi üzərində çalışdıqları planları uğurla həyata keçirilir. Müsəlmanlar allahlarını da götürüb Şuşadan çıxırlar. Elə bu səbəbdəndir ki, neçə illərdir o yerlərdə allahsızlıq hökm sürür. Düşmənlər orada narkoalverdən tutmuş, quldurluq yuvasına qədər hər işlə məşğul olurlar. Digər tərəfdən “axır” sözünü felin indiki zamanı kimi də düşünmək olar. Yəni tanrı da müsəlmanların bu axınına qoşulub Şuşadan köçür, bəndələrinə yaşatdığı köçkünlük həyatından özünə də pay ayırıb. Həmin misrada “axır” sözü “axır ki”, “nəhayət ki” modal sözünə də uyğun gəlir. “Tanrının” rədifli üç bəndlik mükəmməl gəraylıdan sonra qeyri-adi ürəkyaxan mənzərə ilə üz-üzə qalırıq;

Bir-bir düşmən əlinə,
Keçirdi yurd yerləri...

Eviynən-eşiyiynən,
İtiynən-pişiyiynən
Köçürdü yurd yerləri.

Növbəti yarımbaşlığın adı "Dayanıb durmuşuq üzü qibləyə..." adlanır. Həmin rədiflə dörd bəndlik qoşmada sənətkar çox aktual bir sual verir: kimdən- kimə?! Qədim türklərin yaşayış məskəni olan ərazilərin ermənilərə sığınacaq olması o torpaqlara qarşı bir həqarətdir. Ən pisi də odur ki, üzü qibləyə yerdə qalmışıq, meyidimizi basdırmağa doğma torpaq tapa bilmirik. İlk mənzilimiz həm də son mənzilimiz ola bilmir. "Özünü" rədifli dörd bəndlik gəraylıyla daha acınacaqlı qismətimizə güzgü tutulur. Vətən də, yurd da, hətta yuvasında qurd da qəribdir. Vətən vətəndən vətənə köç edəndə necə də qərib olurmuş... Türklük kultu olan qurd da bu qəribliyin ağrılarını öz çiyinlərində daşımaq zorunda qalır. Ən dəhşətlisi odur ki, ölüb canını qurtaranlara bəxtəvərlik oxumaq olar, dirilər isə diri-diri ölümə məhkumdurlar. "Hələ" rədifli beş bəndlik gəraylıda "kül qoymaq" ifadəsi həm məcazi, həm də həqiqi mənada düşünülə bilər.Yurdumuzun ocağını söndürüb, külünü qoyub köçmüşük. Digər tərəfdən qarğış anlamında "başına kül qoymaq" ifadəsi də var dilimizdə. Boş qalan yurdların külü beləcə göylərə sovrulub. Bizsə əlimizdə silah tutmaqdansa, gül tuturuq. Buna görə də, gülənlərimiz çoxalır, hətta gülünclərimiz də çoxalır. Kimlərəsə "yüngül" xasiyyətli təsiri bağışlayırıq. Amma sonucda düşünmək lazımdır ki, daşımız ağır olub düşəcək o yüngül düşüncəli düşmənlərin başına.

"Elə" rədifli beş bəndlik qoşmada da daxili gərginlik davam edir. Şair getdikcə daha ağır gerçəklikləri nəzərə çarpdırır. Bu boyda mülkün, yatırın içində ola-ola,

dərd dərdi çağırır, çadır çadırı. Tarix elə bir gərdiş edib ki, "Alaçıq-alaçıq, çadır-çadırıq, Çöllərdə, düzlərdə yesirik hələ". Göstərilən nümunədə yazarın vətəndaş harayının şahidi oluruq. Bu pıçıltılara diqqətlə qulaq asdıqda hay-qırtılı etiraz nidalarını da eşitmək olur. Üç bəndlik "Bizi" rədifli gəraylının daşıdığı ağırlıq üç min dəfə özündən ağırdır. Çünki torpağımızı yadların xışlamasıyla əsl ölümə məhkumluğumuzun bünövrəsi qoyulur. Həmin gəraylıda "Şuşası daşlanan bizik" ifadəsi bir neçə cür anlaşıla bilər. İlk öncə şüşənin daşa dönməsi təsiri bağışlayır, yəni Qarabağın ürəyinə- Şuşaya daş basılıb. Digər anlamda Şuşa daşa basılıb mənasını da verir. Həm də artıq bərkiyərək daşa dönür. Nə yazıq ki, bu daşlardan yenidən ev tikmək üçün istifadə etmək mümkünsüzdür. Bütün bunlara baxmayaraq, şair çox maraqlı bir yarımbaşlıq verir, "Dünya öz işindədir". Dünyanın nə vecinə ki, bir qoca çadırda "Öl" rədifli Qu nəğməsini oxuyur. Qu quşu elə bir quşdur ki, o, ömründə bir dəfə oxuyar, özü də oxuyan kimi canını tapşırar. Buna baxmayaraq Qu quşu sevgisini sübut eləmək üçün canı bahasına başa gəlsə də, nəğməsini oxuyur. Bununla da ölümü ilə sevdiyinə sübut edir ki, onun uğrunda ölümə də gedər. Əsərdə də qocanın Qu quşu kimi nəğmə oxuması həmin folklor nümunəsi ilə əlaqələndirilib. Yəni ömrü həmin torpaqlarda keçən qocalmış insanlar illərlə davam edən ayrılıqlara tab gətirməyərək Qu quşu kimi ölüm nəğməsini oxuyurlar. Qocanın oxuduğu nəğmə beş bəndlik gəraylıdır.

Nə Şuşa, nə İrəvan,
Ay gor gəzən binəva?
Nə savaş var, nə dava
Hələ barışıqdı öl...

Təbii ki, çadırlarda bundan daha şən, daha ahəngdar bir nəğmə yarana bilməzdi. O qoca yaxşı bilirdi ki, aradan illər keçəcək, vədəsi yetişib o da dünyadan köçəcək, amma öz doğma torpağında ona qəbir qismət olmayacaq. Ən pessimist düşüncələrə dalacaq: "Yaşa ölüncə yaşa, Öl də yaşadıqca öl...!" Cümlələrinın bədii quruluşu da çox mükəmməldir. Də ədatını çıxmaqla bütün sözlər feildir. Sətrin biri "yaşa" feli ilə başlayıb "yaşa" feli ilə, digəri isə "öl" feli ilə başlayıb "öl" feli ilə bitir. Şaquli istiqamətdə hər iki fel bir-birinə ziddiyyət yaradır. "Yaşa-Öl", "Yaşa-Öl". Maraqlısı budur ki, "yaşa" əmrinin arasında "ölüncə" feli bağlaması, "öl" əmrinin içində isə "yaşadıqca" feli bağlaması işlədilib. Bu "ölüm-qalım" savaşıyla çırpınan qocaya şair həmdərd olmaq istəyir, "Gecikdin" rədifli altı bəndlik qoşmayla "Atlı qardaş, çal atını gecikdin" hayqırır.

Digər yarımbaşlıq isə daha acınacaqlı məsələlərə toxunur: "Düşməni biz evin içində gəzdik". Şairi yandıran əsas mətləblərdən biri də budur ki, "İşə bax bu boyda köçün, karvanın, Elə sarvanı da özümüz olduq". Bu karvanı yerindən tərpədən, məcburən yola salan başqaları olsa da, özümüz öz köçümüzə bələdçilik etmək məcburiyyətində qaldıq. Sözümüz başımıza bəla oldu, elə sözümüzdən tutub bizi borclu çıxardılar. "Yoxsa Babəki də satdıq özümüz, Qaramı yaxmışıq Səhl-Sumbata?" misraları ilə düşmənlərin səhvlərini təsdiqləyən faktları sual atında qoymağa etiraz edir. 20 faiz torpaqlarımız işğal olunub. İşğalçıları ittiham etməkdənsə, bəzən daxili satqınlar axtarmışıq, şair də bu nüanslara toxunaraq, zərərçəkmiş tərəf olaraq birləşib xarici düşmənlərimizi ittiham etməyi məsləhət görür. Hətta min illər öncəki tarixi misal gətirərək Babək-Sumbat qarşıdurmasını xatırladır. Əgər hər işin səbəbkarları özümüzüksə, onda erməni əsilli Sumbatların nə günahı-

deyə kinayəli cavab gözləyir. Yazar qəti qərarını bildirir: "Axtarma düşməni ocaq başında".

Son yarımbaşlığa isə "Hələ vətən deyil, Vətən deyilən" adı verir. Bu hissədə "Arasında" rədifli dörd bəndlik gəraylı və "Qardaş" rədifli dörd bənd qoşma çox ağır poetik yük daşıyır; "Hələ vətən deyil, Vətən deyilən, Şuşasız adi bir torpaqdı, qardaş!" Nə qədər ki, tarixən alınmaz qala hesab etdiyimiz Şuşamız ermənilərə oylaq olub, o qədər də Vətən yarımcandır. Buna əsaslanaraq şair haqlı olaraq dörd bəndlik "Utanırıq" gəraylısında yazır: "Şuşada yellənməyən, Al bayraqdan utanırıq". "Belə" rədifli qoşmada köçkünlük həyatı yaşayanların güzaranına güzgü tutur. Öz əli, ayağı qan dadan, Vətənə təsəlli verir ki, qan yadları vətəndən qovalayıb çıxarar. "Bizdən əsgər olmur, çadırdan Vətən" - misrası beş sözdən ibarətdir. Cümlənin tən ortasında- 3-cü söz "olmur"- olmayır felidir. Bu inkarlıq həm, "əsgər olmur", həm də "Vətən olmur" fikrini qətiləşdirir. Obyektlər isə çox maraqlıdır. Bizdən- bütün vətəndaşlardan, çadırdan- müvəqqəti evciklərdən, nə əsgər olar, nə də Vətən. Çünki "biz" "çadırlılarıq", əsgər isə Vətənsizlər. Vətəni olmayan əsgər haranı qorumalı?! Belə çıxır ki, vətən işğal altında olarkən vətəndaşlıq mövqeyi məhv olur. Poema "Altına" rədifli dörd bəndlik qoşma ilə yekunlaşır. "Köç" poemasında Qarabağ müharibəsi ilə əlaqədar köçkünlüyə məcbur olanların taleyi orijinallıqla qələmə alınmışdır.

"Kaspi" qəzeti. 5-6 may 2018

BARAT VÜSALIN "ALDƏDƏ" POEMASI

Əməkdar İncəsənət Xadimi Barat Vüsalın 65 illiyi münasibəti ilə seçilmiş əsərlərinin iki cildliyi çap olunmuşdur. AYB-nin Qazax zona filialının sədri olan Barat Vüsalın bu iki cildliyinin ikinci cildində üç poeması yer almışdır. Onlardan ən irihəcmlisi 20 Yanvar şəhidlərinin əziz xatirəsinə ithaf olunan "Aldədə" poemasıdır. Heca vəznində qələmə alınan bu əsər proloqla başlayıb epiloqla tamamlanır. Əsərdə on yarımbaşlıqdan istifadə edilmişdir ki, bəzi bölümlər də bir neçə hissədən ibarətdir. Əsərin proloqunda yurdumuzun tarixinə ümumi baxış edilərək bildirilir ki, antitürklər boşuna haray çəkiblər ki, bizim tariximiz yoxdur, əslində bizim babalarımız tarix yazıb, amma onu öyrənənlər olmayıb. Buna inanmayanlara belə bir təcrübi nəsihət verilir: "Bu torpağın oğlunu götür təndirə tulla, Görəcəksən oturub söhbət edir günəşlə".

Poemanın ilk bölümü "Odda yanmayan kişi" adlanır. Bütövlükdə əsəri əhatə edən əfsanə və rəvayətlərin söyləmi bu hissədə də var. Ərəb padşahı bir bahar axşamı üç elçi göndərir ki, pir baba nəsə bir möcüzə göstərsə, ona toxunmayacaqlar, göstərə bilməsə ömrünü tamamlayacaqlar. Pir baba isə onların gəlişinin əsl mahiyyətini ürəyində hiss eləyir. Yəni onlar torpaqlarımızı işğal etmək üçün bəhanə uydurublar. Pir baba da onları qonaq edib, kabab çəkərkən şişdən istifadə etmir. Onun əl-qolunun yanmaması elçiləri çaşbaş salır. Amma gəlmələr kəsdikləri çörəyi tapdalayıb kişini təndirə atmaq qərarını verirlər. Onun qucağına bir quzu verib axşam yanan təndirə atırlar, səhər isə piri saç-saqqalı buz bağlamış halda təndirdən tapırlar. Qorxub getmək istəyən elçiləri Aldədə yenidən yeməyə dəvət edir və təndirdə qucağında bişən quzunun ətindən də yollarına

pay qoyur. Bəllidir ki, bu rəyavətin söyləmi əbəs yerə deyil. Yadellilər, daim bəhanələrlə gəliblər, buna baxmayaraq, türk həmişə onlara türkanə münasibət bildirib. Onların haqsızlığını sübut etməklə yanaşı, özünün çörək verən, mərd olduğunu da nümayiş etdirib.

Poemanın ikinci bölümü isə "Naltökən" adlanır. Baş verənlərə əsəbləşərək zəncir çeynəyən ərəb xəlifəsi pir babanı hüzuruna gətirməyi əmr edir. Yolçular piri bulaq başında xəyala dalarkən tapıb, əl-ayağını sarıyaraq ondan növbəti möcüzəni istəyirlər. Aldədə isə qımışır ki onsuz da bunların da yolu Naltökənədir. Elçilər yoxuşu çıxmaq istəyirlər, əvəzində belə bir hadisə baş verir: "Üç gündü ərəblər naltökəndədi, Yol gedib... bir addım atmamışdılar". Vətən torpağı yadelliləri onu tapdayıb işğal etməyə imkan verməmişdi. Lakin ərəblər də yeri gəlmişkən bizim torpaqları gözaltı edirlər. Bölmənin əsas ideyası bu misralarda aydın olur: "Gəlirlər, gedirlər yenə də, baba, Sən varsan, biz varıq, o yoxuş durur!" Bu tarixi həqiqətlərin etirafıdır.Ölkəmiz elə bir coğrafi məkanda yerləşir ki, əksər istilaçıların yolu buradan keçib. Bütün bunlara baxmayaraq, hələ də həm millətimiz, həm də ölkəmiz öz varlığına sahibdir. "Oxuyan qarğılar" adlı bölümdə ərəblərin əsl niyyətləri üzə çıxır. Artıq tamamilə məlum olur ki, onların Aldədə ilə heç bir şəxsi-qərəzlikləri yoxdur, əsas məqsəd onun vətəninin torpaqlarını ələ keçirməkdir. Ona görə də, bu dəfə daha konkret bəhanəylə gəlirlər. Xəlifə elçilərinə tapşırır ki, pirə böhtan atıb deyərsiniz ki, "Özgənin torpağını, Torpağına qatmısan". Aldədə onlara cavab verir ki, biz yalnız öz halal dədə-baba torpaqlarımıza sahibik. Ərəblər isə öz yanlışlarına inadla haqq qazandırırlar ki, özgələrdən aldığınız torpaqları bizə verməlisiniz. Kimdi bu özgələr, əgər o torpaqlar, doğrudan da, özgənindirsə, onda nə fərqi türkün əsarətindədir, yoxsa ərəbin?! Məhz bu hissədə poemanın niyə şəhidlərə ithaf

olunmasının əsl mahiyyəti üzə çıxır. Min illərdən bəri davam edən özgələrin torpaq iddiaları hələ də gündəmdədir. Hələ də torpaqlarımızı bölüşdürməkdən gözü doymayan bəhanə istehsalçıları torpaq iddialarından əl çəkmirlər. Bu da onu göstərir ki, əslində bizim bugünki problemlərimizin kökü çox qədimlərə gedib çıxır. Poemanın qəhrəmanı da yadellilərə açıqca meydan oxuyur ki, mənim belə sınmaz, odda yanmaz olmağımın da səbəbkarı öz torpağımdır. İndi mən öz torpağımı özgə torpağı bilib ondan necə əl çəkim?! Əgər inanmırsınızsa gəlin mənimlə vətənimi gəzin deyə onlara təklif edir. O, Yurd-Vətən nəğməsini oxuya-oxuya yola düşür. Aldədə getdiyi yerlərə qarğıdan nişan qoyur ki, elçilər də yolu tapıb gedə bilsinlər. Pirin bir günə gəzdiyi vətəni elçilər üç aya gəzdilər. Bu gəzilən ərazilərin adını çəkməklə şair bütöv Azərbaycanın xəritəsini cızır. Nişan üçün qoyulan qarğılar da nəğmə oxuyur. Lakin ərəbin biri bunun torpağa bağlılıq olmasına inanmır və bir qarğını çıxarıb başqa yerdə basdırır. Bu zaman "Elçilər nəğmə deyil, Bir hön-kürtü dinlədi". Bu epizodla Barat müəllim əsl türklüyün mahiyyətini onu anlamayanların diqqətinə çatdırır. O da məlum olur ki, tanrı öz ilahi qüdrətini türkə ərəbdən daha öncə izah etmişdir.

"Ağçayın Mahpeykəri aparması" bölümündə ərini axtaranda balasını itirən ananın ahını eşidib gələn Aldədə yeddi ildən bir daşan Ağçayı daşdırır. Bununla da "Aldədə həm oğlunu, həm də ki, ocağının İstisini itirdi".Onun itmiş oğlu Qoroğlunu qurd aparıbmış. Qurd türkün kultudur. Onun apardığı uşaq yeddi il evinə dönə bilmir. Balasının və arvadının həsrətindən xəstə düşən Aldədə "Yuxusunda bir qurdla Oynayan balasını, İgid oğlunu gördü".Atanın balasını tapmasında yuxu motivindən istifadə edildiyi kimi, onun oğlunu tanımasında da folklor elementindən

istifadə edilir. Ata öz oğlunu xalından tanıyır. Qurddan atanın halallıq istəməsi əsərin əsas ideyasını müəyyənləşdirir. Necə ki, türk başqasının torpağına göz dikmir, necə ki türkün qarğısı yad torpaqda oxumur (xarıbülbülü xatırlayaq), eləcə də, türk ona əziyyəti keçən hər bir kəsdən halallıq alır. Özü də bu halallığı ona öz milli kultu verir. Bu məqamda şairin ritorikası çox düşündürücüdür. "Qoroğluyla boz qurdun Qol-boyun dolaşması Qorxulu deyildimi?!" Bu, türkün düşmənlərini, ən adi bir fürsəti gözləyən işğalçıları rahat buraxmazdı. Əsərin ən əsas diqtəsi də odur ki, ata öz oğluna nə qədər Qoroğlu olduğunu desə də, uşaq özünü qurdun oğlu sanırdı. Nəhayət, uşaq böyüyəndə anlayır ki, Qor oğlu, ya da qurd oğlu olmağın fərqi yoxdur, əsas odur, Yurd oğlu olasan. Uşağın anasının xəyalı da ona yurdu qorumağı tapşırır. Ananın belə bir tövsiyəsi var.

...Baxma tufan aparıb,
Xan Arazdı, Tərtərdi,
Kürdü qoru, ay oğul,
Yurdu qoru, ay oğul!

Adı çəkilən üç çay bütöv Azərbaycanın simvoludur. Araz cənubla şimalın arasından keçən çaydır. Tərtər isə əsasən hazırda işğal olunmuş torpaqlarımızdan axır. Kür də öz başlanğıcını Türkiyədən götürür. Araz Kürə qovuşur, Kür də Xəzərə. Xəzərin ətrafında isə daha çox türk xalqları və türk dövlətləri yerləşir. Ana öz balasına bütöv türk torpaqlarını qorumağı məsləhət görür. Yenə də türkün başqalarının torpaqlarında gözü olmadığı, lakin öz torpaqlarına əsl sahiblik etməsi məsələsi qabardılır. Bu məsələdə Boz qurd da öz düzgün mövqeyini tutur. O da ata-anasının dediyi sözləri daim Qoroğluna təkrar edirdi.

"O ataydı, bu boz qurd. O anayadı bu da yurd". Əslində əsərin mərkəzi xəttini bu dörd ünsür təşkil edir. Ata - övladın milli kimliyinin təyini və türklərin milli kimlik kultu- Boz qurd. Ana- övladı dünyaya gətirən və Ana Yurdda ana dilinin daşıyıcısı. Bütün bu komponentlər milli şüuru formalaşdırır. Fərd kim olduğunun fərqinə varanda milli vəbəşəri olduğunun mahiyyətini anlayır. Və dərk edir ki, bütün bəşəriliyə çağırış səsləri əslində milli kimliyini qorumaq deməkdir. Öz yurdunun qayğısına qalmayan insana dünyanın qayğısı heç vaxt maraqlı ola bilməz. Qoroğluna da dünyadan ona pay düşən vətəninə sahiblənməyi öyrədirlər.

"Batan günəşin nuru" bölümü də ibrətamiz xarakter daşıyır. Ölümü yaxınlaşan Aldədə; "Hayanda dəfn etmək gərəkdi məni, Orda dayanacaq atım - demişdi".Türk kişisi döyüşə də, ölümə də gedəndə atına sadiq qalıb. At onu bütöv Azərbaycan coğrafiyasında gəzdirir. Səhənddən, Alvızdan, Ağrı dağdan, Kəpəzdən keçən at bütöv Azərbaycanı dolaşır. Belə anlaşılır ki, bu torpaqların hər qarışına canını tapşırmaq olar. "Ata qəbri" bölümündə hadisələrin düyünü açılır. Atası dünyasını dəyişəndən sonra düşmənlər oğlunu öldürmək istəyirlər. Onu tutmaq üçün Qara pəhlivanı göndərirlər. Bu ədalətsiz hücumun təsviri ilə şair poemanın əsas məqsədini nümayiş etdirir:

Atmışdı oxunu düşmən hədəfə,
Günahkar cummuşdu günahsız üstə.
Allah, bu torpaqda neçənci dəfə
Silahlı gəlmişdi silahsız üstə.

Qeyri-bərabər çarpışmada Qoroğlunu yenə də vətənin qayası, dərəsi, uçurumu, dumanı qoruyur. Xeyli təqib olunan Qoroğlu birdən ayaq saxlayır. O, Qara

pəhlivana bildirir ki, bircə addım da atsa, atasının qəbrini tapdayacaq. Təbii ki, düşmən buna inanmır. Lakin türk oğlu düşmənini də xəbərdar edir ki, bir addım da atsan, atamın qəbri səni yandıracaq. Düşmən düşmənliyini edir, qəbri tapdamaq istəyəndə qəbirdən yüksələn alovu görür. Qorxuya düşən düşmən aradan çıxır. "Can şirin olsa da, qorxma zalımdan, Tapdama, ay oğul, ata qəbrini!" - bu sadəcə adi bir tövsiyə deyil, haqlının haqq mübarizəsindən həmişə qalib çıxacağına əminlikdir.Bu tövsiyədən sonra şəhidlər mövzusuna keçid də rəmzi xarakter daşıyır. Can nə qədər şirin olsa da, şəhidlər ata-babalarının qəbri tapdanmasın deyə canlarından da keçiblər. Əsərin finalı olan "Şəhid qəbirləri" bölümündə min illər bundan əvvəl baş verən hadisələrin eyni bəhanələrlə çağdaş dövrdə də davam etməsi reallıq olaraq göstərilir. "Dövlət çevrilişi edirmiş guya, Bir uşaq evində yatdığı yerdə"- bu misralar 20 Yanvar qətliamının əsl mahiyyətini göstərir. Vaxtı ilə ərəb xəlifəsi Aldədənin üstünə hansı bəhanələrlə adam göndərmişdisə, indi də sovet dövləti eyni bəhanələrlə Azadlıq meydanına qoşun göndərdi. Məlum oldu ki, "Xalqı qorumurmuş xalqın dövləti, Xalqdan qoruyurmuş özünü dövlət?" Zaman dəyişsə də, köhnə düşmənlər öz məkrli məqsədlərini dəyişməyiblər. Bununla yanaşı, bütün məqsədyönlü parçalamalara, mənəvi aşınmalara baxmayaraq türkün türkanəliyi hələ də öz diqtəsini etməkdədir.

Həddi-hüdudu yox alçaqlığının,
Gör indi gəlmisən hara Pəhlivan?
Ölsəm də, bir addım ata bilmərəm,
Şəhid qardaşımın, şəhid bacımın
Qəbridi qarşıda... qara Pəhlivan!

Qara pəhlivan simvolik düşmən obrazıdır. Şəhidlərin qəbri isə bizə ölməzlik örnəyidir. Onlar bu torpaqda bu torpaq üçün can qoydular. Qara Pəhlivanlara onların qəbrini tapdamağa icazə vermək olmaz. Bu qəbirlər həm də vətənin ümumiləşdirilmiş obrazıdır. Poemada sadəcə mifik hadisələr təsvir olunmayıb. Tarixi rəvayətlərlə müasir dövrün reallıqları arasındakı bağlılıq verilib. Düşmənlərin hələ də öz düşmənçilik mövqeyində qaldığı bəlli olur. Poemanın məna və məntiq tutumu ilə bədii tutumu da bir-birini tamamlayır.

"525-ci qəzet". 13 avqust 2016

MUSA ƏLƏKBƏRLİNİN "MÜBARİZLİK DƏRSİ"

Musa Ələkbərlinin 2010-cu ildə qələmə aldığı "Mübarizlik dərsi" poeması proloqla başlayır. Poema qəhrəmanlıq sözünü qəhr olmaqdan qorumaq üçün düşmən üstünə təkbaşına yürüyən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun əziz xatirəsinə ithaf olunub. Poemada öz qanıyla bizlərə səfərbərliyi diktə edən bir məğlubedilməz obrazı yaradılmışdır. Həmin obrazmübarizliyi ilə Koroğlunu, Nəbini şüarlıqdan qurtararaq onların ənənəsinin həqiqət olduğunu sübut edə bilmiş real insandır. Poema yeddi bölümdən ibarətdir. İlk bölümdə Mübarizin bütöv bir qoşunu əvəz edərək düşmən üstünə təkbaşına yaraqlı-yasaqlı çıxması alqışlanılır. Bu alqışın səbəbi odur ki, ermənilərin yalana bürünmüş yazıq bir obraz yaratmasını, ATƏT-in, BMT-nin başqatan qətnaməsini illərlə nəticəsiz görməkdən usanan Mübariz qisas almaq üçün düşmən üstünə gedir. Müəllif onun psixoloji ovqatını tarixi həqiqətlərlə vəhdətdə qələmə alır. Belə təsvir olunur ki, onun hücuma keçdiyi həmin yay gecəsi sanki Xocalının-tarixdən silinmiş şəhərin bütün ruhları oyanmışdı. Həmin ruhlar Mübarizi daha da qətiyyətli olmağa həvəsləndirirdi. Müəllif onların dilindən başlarına gətirilən müsibətləri səsləndirməklə tarixi yad-daşa ekskursiya edir. Həm Mübarizin psixoloji durumunu tamlığı ilə çatdırır, həm də yaxın keçmişin gerçəkliklərini unudulmaqdan xilas edir. Qisasa çağıran bu səslər Mübarizi haqlı olduğuna daha da inandırıb qətiyyətini artırır.

O zaman 22 yaşında gənc olmağına baxmayaraq canından sevgi ilə keçməyi bacaran bu vətən oğlu döyüşə getmədən öncə hər şeyi gözünün qabağına gətirir. O, doğulduğu kəndi və valideynlərini, idmanda qazandığı uğurları, onu sevən xanımı nə qədər düşünsə də, heç nə

onu öz qərarından döndərə bilmir. "Mübarizlik yolunu Özü seçdi Mübariz" fikirlərindən də bəlli olduğu kimi o tamamilə özündən əmin idi. Əsərdə on bəndlik "Ağlama" rədifli gəraylıda işğal altında olan bütün rayonlarımızın adları çəkilir və onların işğaldan azad olunacağına böyük ümid bəslənilir. Mübarizin doğulduğu qədim Biləsuvarın qürur hissi belə tərənnüm olunur: "Kiçik Əliabad böyük vətənin Köksündə ürəktək döyünür indi". Onun böyüyüb boya-başa çatdığı ev indi müqəddəs bir məkana çevrilib, "təsəlli verməyə gələn adamlar Özləri təsəlli alıb gedirlər". Müəllif belə bir arzuyla çıxış edir ki, "Oğullar kişilik zəmanətini, Sənin qeyrətindən ala, Mübariz".

Adı dillərdən düşməyən Milli Qəhrəmanın bu cür addımı sozalan inamımızı özümüzə qaytardı. "Yağı haçanacan qovacaq bizi? – Onun qabağından qaçana kimi" sual və cavabı illərlə təsdiqini tapmış həqiqətdir. Ona görə də, Mübariz qaranlıq əriməmiş minalı yollardan cəsarətlə keçərək öz işini tamamlamalıydı. O, düşmənlə üz-üzə olan Tərtərə çatanda daha da əminləşir. "Efirdən, ekrandan illərdi bizə, "Düşmən arxalıdır" dərsi keçirlər" - fikirlərini darmadağın etməyə özünü tamamilə hazır hiss edir. Şair bu anda onun daxili pıçıltılarını da canlandırır: "ölümdən qorxmur Mübariz, Öldürüb, ölmək istəyir". "Özünə, sözünə qalib gələnin Dünyada heç nədən qorxusu olmur" sətirləri onun həmin andakı inamlı vəziyyətinin təsdiqidir. Şair Mübariz İbrahimovun bu cəsarətini 72 nəfərin canından keçərək islamı diriltdiyi döyüşlə müqayisə edir. "Millətin adından etdin bu cəhdi, sarsılan xalqına şərəf gətirdin" sözləri ilə bu addımın necə tarixi bir zərurət olduğunu xüsusilə vurğulayır.

O, min-min yaşıdının böyüməsi üçün bütün ağrıları təkbaşına çəkməyə qərar verdi. Onun həmin döyüş qərarı sirr olduğu üçün hər kəsdən xəbərsiz getməsi bildirilir.

Ona görə də, hərbi hissədə gecənin bir aləmi atasına zəng edib, əgər evə gedibsə qayıtmasını tələb edirlər. Atası cavab verir ki, onu ön cəbhədə axtarın. Təlaş keçirən atanın bircə arzusu olur ki, təki balası sağ olsun. Birdən yadına düşür ki, oğlu bir gün əvvəl zəng edib hallıq istəmişdi. Şair bu epizodla türk insanının vətən və övlad sevgisinin bütövlüyünü nümayiş etdirir. Əsərin sonlarına yaxın müəllif daha da inamlı görünür. "Yağı, daha ordum Mübarizləşib, Saya gəlməyəcək matəm günlərin" – deyə daxili gücünü göstərmiş olur. "Böyük qəbristanlar bəxş eyləyəcək, "Böyük Ermənistan" xülyası sənə!" – fikirləri ilə öz mövqeyini sərgiləyir. Yağıya bildirir ki, sənin Tanrı türkünə qənim kəsilməyin öz məhvinə səbəb olacaq. Əgər indiyə kimi səni yola vermişiksə, səbəbi odur ki, "Mənə böyüklüyüm imkan verməyir Hardasa sənintək xırdalanmağa".

Epiloqda bildirilir ki, "Çox-çox generallar yumağa dönüb, Dünyaya səs salıb gizir Mübariz!" Bu reallıq bütün dünyanın hərbi gücünə ünvanlanmış ismarıcdır. Yəni dünyanın ən təcrübəli generalları erməni fitnəkarlığını dəstəkləsə də, onların gücü Mübariz kimi gizirlərə yetməz. Əsərin sonunda müəllif belə bir inandırıcı arzuyla çıxış edir ki, "Yazdığım əsərin son nöqtəsini Adına yaraşan bir ucalıqda – Şuşa qalasında qoyacağam mən!" Bu inam Mübarizin ölümündən illər keçməsinə baxmayarq hələ də vətəndaşlarımızın qəlbini tərk etməyib.

"525-ci qəzet". 8 fevral 2017

BALAYAR SADİQİN ÇAĞDAŞ DÖVRDƏ YAZILMIŞ POEMALARI

Çağdaş yazarlar içərisində poemalara müraciət edən sənətkarlardan biri də Balayar Sadiqdir. Onun "Ömrün gəraylı çağları" kitabında altı poeması var. Bu poemalar "Qan", "Yol", "Başdaşı", "Edam günü", "Bir ovuc yaddaş torpağı", "Zindan görüşləri" başlığı ilə təqdim olunub. "Qan" poeması 1996-cı ildə nəsr və nəzmin əlaqələndirilməsi şəklində yazılmışdır. Eləcə də, poemanın tərkibindəki parçalar hər biri ayrıca şeir təsiri bağışlayır. Bununla belə, hər bir şeir özlüyündə çox mükəmməldir, mükəmməl poetik dili var. Əslində, poemanın əsas ağırlıq mərkəzi nəsr parçalarının üzərinə düşür. Əsərin yarısına qədər yuxu motivi üstünlük təşkil edir. Nəhayət, məlum olur ki, yuxusunda qəhrəmanın narahatlığına səbəb olan, gah atasının, gah babasının qəbri şəklində təzahür edən bu sirr, qan yaddaşımızın nağlı imiş. "Atamdan, babamdan keçib, Qanımda axan kişnərti" - misralarından da göründüyü kimi, poemanın əsas məğzini ulu keçmişin unudulmaması, at üstündə gəzən babaların mərdanəliyinə sadiq qalınması təşkil edir. Müəllif poemalarında ata qayıdışı, milli özünə qayıdış kimi səciyyələndirir.

"Yol" poeması da (1996) nəsr və nəzm hissələrindən ibarətdir. "Öz yolunu tutdu bu yol" sətirləri poemanın əsas mərkəzi yükünü daşıyır. Bu yol elə bir yoldur ki, oradan atan, baban keçib. Ona görə də, indi həmin yolun baxışları yaxamıza bağlanıb. Yol bizi ən düz olanla getməyə yönəldir. Məhz bu poemada da, yolun bu cür anlamının qabardılmasına cəhd edildiyini görürük. Yolun başlanğıc və bitiş nöqtələri məlum olduğu kimi naməlum da olur. Həm də dilimizdə ömür yolu deyilən bir ifadə də var. Biz bütün həqiqi və məcazi yollardan ömür yolu adlanan zaman kəsiyində yol salırıq. Yol sözü bizim dilimizdə həm

omonimliyi, həm də çoxmənalılığı olan sözdür. Əsərdə də bu sözün fəlsəfi çalarları ilə yanaşı ifadə imkanları da poetikləşdirilib. 1996-cı ildə yazılmış "Başdaşı" poeması isə həcm etibarilə çox kiçikdir. Lakin poemanı təşkil edən şeirlər mükəmməl poetizmə malikdir. "De indi harda dəfn edim, Gözü yaşlı göz yaşımı?!" tipli poetik tutumlu misralar çoxdur. Aydınca görünür ki, "göz yaşının göz yaşı" poetik kəşfdir. Onun dəfni isə ağlamağın axırına çıxar. Sözün hər mənasında dəfn sözü bədbinlik mənası ifadə etsə də, göz yaşının dəfnində bir nikbinlik anlamı var. Bu tipli mükəmməl misralar əsərdə üstünlük təşkil etsə də, ümumiyyətlə, poemada istifadə edilmiş beş şeirin başdaşı ilə əlaqəsini tapmaq olmur.

Şairin 1996-cı ildə qələmə alınmış digər bir kiçik-həcmli poeması isə "Edam günü"dür. Edam günü elə bir gündür ki, həmin gün dar ağacları yallı gedir. "Kirpiklərim dar ağacı Asıb özünü göz yaşım" kimi sətirlərdən də görründüyütək dar ağacının mücərrəd mənasına da toxunulur. Özünü asan göz yaşlarının aqibəti bəllidir ki, yox olmaqdır. Göz yaşlarının məhv edilməsi təbii ki, alqışa layiq bir işdir. Bu yönümdən yanaşanda kirpiklərin dar ağacı funksiyasını icra etməyinə dəstək olmaq istəyirsən. Şair sözü elə dolayı yolla qələmə alıb ki, ölüm doğuran dar ağacına rəğbət hissi yaradır. Yəni dar ağacı bəzən insanın xeyrinə də nəyinsə asılmasına səbəb ola bilərmiş. Əlsində məlum olur ki, edam günü mücərrəd bir zaman kəsiyidir. İnsan hər an rastlaşa biləcəyi ölümə hazır olmalı, həmişə əbədiyyət vaxtı ilə saatın neçə olduğunu bilməlidir. "Bir ovuc yaddaş torpağı" poeması da digər poemaları kimi eyni strukturda, 1998-ci ildə yazılıb. Bu əsərdə isə ölüm gəlib ömür yiyəsini çağırır. Yaddaşın mahiyyəti belə açılır ki, "Alnımdan keçən yolların Əriməyən qarı yaddaş". Bu yaddaş torpağı həm də torpağın yaddaşıdır. Bu, o yaddaşdır

ki, qəbir üçün torpağı qarış-qarış qazırlar. Ölümün torpağın qoynuna necə tapşırılması torpağın yaddaşına əbədi həkk olunur. Çürüyüb torpağa qarışan cəsəd isə yaddaşın torpağına çevrilir. Əsər çox mükəmməl misralarla yekunlaşır: "Ucaldı əcəl bayrağı, Kölgəsi bir ada düşdü". Əcəl də öz qələbəsini bayrağını ucaltmaqla nümayiş etdirirmiş. Bu bayrağın kölgəsində isə bir ad öz mənsub olduğu cismdən məhrum olur.

1996-cı ildə yazılmış "Zindan görüşləri"ndə isə nəsr parçaları yoxdur, lakin beş yarımbaşlıqdan istifadə edilmişdir. Əslində bu zindan məcazi məna daşıyır. Əldən verilmiş hər fürsət zindana düşmüş insanla müqayisə edilir. "Köhnə divar kimi uçulur ömür, Alnımdan tökülür alın yazısı" – deyən şair yaşam fəlsəfəsinə özünəməxsus məna verir. İkinci bölümdə isə ictimai narazılıqlar dilə gəlir, addımbaşı rastlaşdığımız haqsızlıqlar cazibədar bədii dillə qələmə alınır. Bir fikrə xüsusilə önəm verilir ki, azadlıq zindanların bətnindən doğulur. Qəribə bir təzadla qarşılaşırıq, Ölüm azadlıqdan utansa da, Zülm utanmır. Bununla belə, əsərin sonunda Azadlığın mütləq qalib olacağına inam var. Balayar Sadiqin "Sərhədçi ömrü" poeması isə proloqla başlayır. Bu əsər müasir Azərbaycan poemaları sırasında öz sanballı yerini tutur. Poemada qeyd edilir ki, torpağın altında şəhid yatanlar əsgər addımını laylatək duyurlar. Onların adi yaşam reallıqları qeyri-adi bədii tonla təqdim olunur.

Sərhədçi əsgərin kirpiklərindən,
Gecə ulduz-ulduz asır özünü.
Tətikdə dayanan barmağı üstə,
Alagöz səhərlər açır gözünü.

Poemada sərhəd sözü savaşda gözünü yuman şəhidin sonuncu mənzili, otağı kimi mənalandırılır. Yazar öncə vətənin ən ulu sərhədçisindən söz açamaq istəyir. Buna görə də, birinci bölüm "Ulu sərhədçi" adı ilə təqdim olunur. Bir millət özündən əlçatmaz, ünyetməz xatirələrtək uzaq düşəndə inləyən bayatılar, hönkürən ağılar yurdun qəm dolu salnaməsinə çevrilir. Belə bir zamanda ulu öndər Heydər Əliyev xalqına böyük yaradanın ərməğanıtək göndərilir: "Gəldi öndər gəlişiylə, Azərbaycan özünə gəldi"-misralarında gəlişlərin həmahəngliyi diqqəti çəkir. "Millətin öndəri Sərkərdə Heydər Vətənin ən ulu Sərhədçisidir" sətirləri ilə həmin böyük şəxsiyyətə ehtiramını bildirir.

İkinci bölüm "Qələbə sorağında" adlanır. Bölümün əvvəllərindən bir döyüşkənlik ruhu duyulur. Müəllif çadırda doğulan hər bir körpənin bələyinə "Baş Sarıtel" bükməyi məsləhət görür. Belə olarsa, döyüşçü qardaşlarımızla Qələbəni qarşılamağa gedə biləcəyimizə ümid bəslənilir. Üçüncü bölüm "Ərən salnaməsi-əsgər məktubu" adlanır. Bu elə bir məktubdur ki, bir əsgər anası bu məktubu əlinə alanda qonşu həyətdəki bir su sonası xoş xəbərdən dodağını dişləyər. Bu hissədə sərhədçi əsgərin xidməti vəzifəsi ilə vətəndaş mövqeyi önə çəkilir. O həm də bir vətən qızının gözlərini yolda qoyan bir vətən oğludur. Bu bölümü verməklə şair sərhədçi ömrünün bütövlüyünü göstərib.Epiloqda qeyd edilir ki, "Sərhədçi qəlbində vətən sevgisi, Şirin arzu kimi sərhədsiz olur". Bu sevgi sərhədçilərdən vətənin bütün vətəndaşlarına ötürülür. Misralardakı "sərhədçi" və "sərhədsiz" sözləri xoşagəlimli bir ahəng yaratmışdır. Sərhədçi üçün vətənin sərhədləri mövcud olsa da, arzuların sərhədi olmur. Ümumiyyətlə, poemaları oxuduqca bir şeyə tamamilə əmin olursan ki, Balayar Sadiq sözə zərgər dəqiqliyi ilə yanaşır. Ən gözəl ifadələri şeirdə mükəmməl şəkildə obrazlaşdırır. Bu fikirləri poemanın nəsr dilinə də

aid edə bilərik. Lakin bununla yanaşı, müəllifin nə demək istədiyi bu söz gözəlliyinin kölgəsində qalır. Yəni poemalarda konkret hədəfi tapmaq kifayət qədər çətinləşir. Bu çətinliyi asanlaşdıran yeganə səbəb poetik dildir.

"Xəzan" jurnalı. № 3 (15). May-iyun 2018. səh. 124-125

ƏLİ RZA XƏLƏFLİNİN POEMALARI

Əli Rza Xələflinin "Üzü Qarabağa" kitabında şeirləri ilə birlikdə poemaları da toplanmışdır. 2011-ci ildə qələmə alınmış "Azadlığın qanı yaxud doqquzuncu əsrə məktub" poeması tarixi keçmişə müraciət formasında yazılması ilə seçilir. Doqquzuncu əsri salamla səsləyən müəllif bu günlə keçmiş arasında zamansızlıq yaradır. Buna səbəb Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 sentyabr 2011-ci il tarixində Bakı şəhərində Babəkin abidəsinin ucaldılması ilə əlaqədar verdiyi sərəncamdır. Bu sərəncamın ölkənin dünənini gündəmə gətirməsi, gələcəyinə abidə ucaltması poemada poetik əksini tapmışdır. Şair doqquzuncu əsrə xitab edərək ondan soruşur ki, ruhumda, canımda Babək qalam oluduğu hələ yadından çıxmayıb ki? Poemanın ilk bəndinin belə sualla başlaması təsadüfü deyil, müəllif zamanı uyarır ki, sənin unutmaq və unutdurmaq istədiyin türk övladları mənim dövlətim tərəfindən mühafizə olunur, onlara dövlət başçısının xüsusi qayğısı ilə abidələr ucaldılır. Müəllif bunu həqiqətin tarixin dediyinə baş əyməsi kimi mənalandırır, ötmüş zamana suallar ünvanlayır, aradakı məsafənin sərhədləri çərçivəsində yaşanılmış haqsızlıqlara qarşı bu günün etirazını çatdırır. Dərdin sinəsində yanan yanğına bir dərədən baxıb gülən doqquzuncu əsrə müstəqil bir dövlətin vətəndaşı kimi münasibət bildirir. Vədənin, vaxtın məlhəm olduğunu deyənlərdən soruşur ki, Babək yarası sağalmaq əvəzinə niyə səbrini çeynəyən taleyin gözündə bəbək yarası bitirdi.

Min iki yüz ilin zəncirinin, pasının qəzəb önündə qırılıb tökülmək məqamının yetişməsi bəsirət gözündən kor olanların görə bilməsi kimi yozumlanır. Çünki min iki

yüz ilin kədəri, dərdi, Bəzzin zirvəsində, Arazın sularında göynəməkdən yorulub. Şair ölkə başçısı tərəfindən verilmiş fərmanla tikilmiş daş heykəli Bəzz qalasının yenidən ucaldılması kimi mənalandırır. O, eyni zamanda Babəki Azərbaycanın müqəddəs and yeri, Ana yasası kimi təqdim edir, ona görə ki, indi böhtanlar, fitnələr danışan dillərin imdad diləndiyi zamanın yetişdiyi məqamdır. Həmin fərmanla Həştadsər dərəsinin gözündən gülməsi, güllərə qərq olması tarixlə bu günün sövdələşməsi anlamına gəlir. Bildirilir ki, bunun səbəbi Babəkin heykəl geyimində atüstü Araz boyunca səfər başlaması, Xudafərinin, Təbrizin üstündən tüstünün çəkilməsidir. Hətta milli fədailər olan Bağır xanın, Səttar xanın Ərk qalasında təzimə durması da əsrlər sonra öz tarixi qəhrəmanı üçün edilmiş ehtiram kimi başa düşülür. Təbrizin can üstə, Qarabağın əsir olduğu bir dönəmdə şair doqquzuncu əsrdən dinin niyə susduğunu, onun cihadının harada olduğunu soruşur. Bugünki reallıqların fəlsəfəsinə varan müəllif çaşqınlıq içərisində qalır ki, Albaniyası dağıdılan, şərəf tariximizin ulduzu olan Cavanşir özü də bir nağıldırmı? Bu həqiqəti nağıla çevirmək istəyənlərin ermənilərin patriki və ya canişinləri olması, onların şəri ilə xalqımızın bəlaya salınması tarixin təkrar olunması kimi yaddaşı silkələyir.

Şair ana Boz qurdun övladı olan Babəkin obrazını yaradan, Elxan Biləgənli adıyla səhnəyə çıxan Abbas Mirzənin də xidmətlərini xallı gürzənin başının əzilməsitək diqqətə çatdırır. Həmçinin həmin xəbərdən Borçalının, Dərbəndin sevinməsi, Vurğundan Şəhriyaracan yayılması, Tahiri Söhrabın yuxuda Babəki salamlaması, Xətayi, Səfəvi məzarlığında bir çırağın yanması bütöv Azərbaycan sərhədlərinin cizgilərini ehtiva etmişdir. Diri dağında ruhların qurduğu məclisdə Qurbaninin Babək adına dastan bağlaması, Heydər ibn Kavus Afişinin öz soyundan ad, Səhl ibn

Sumbatın isə imdad diləməsi türkün düşmən önündə sıyrılmış qılınc kimi qəzəbli olmasına işarə edir. Şair uzaq keçmişdən Atillanı, yadlara pay edilmiş ərazilərdən Zəncan atlılarını, Mərənd ellərini, Göyçə güllərini bir torpaqda görüşdürür. Olub keçmişlərə baxmayaraq yenə də Qafqazdan Bəzzəcən ayaq üstə dura bilməyimizi zəfərə olan inam formasında ifadə edir. "Bakıda ürəyəm, Təbrizdə başam, Orxon-Yeniseydə Oğuz Xaqanam..." - sətirləri ilə zaman və məkan məfhumu türkün sərhədləri çərçivəsinə sığışdırılır. Bəxt tərəzisi deyilən ölçü vahidinin tarixin hökmü olması və düzgün hesablama aparmağa məhkum edilməsi türkün qüdrətinin nümayişi kimi əks olunmuşdur. Dədəmiz Qorqudun adına gülənlərə islam hara, xurafat hara sualı ilə müraciət edir:

Hicab da, namaz da məscid havası,
Millətin başını qatmaq üçündür.
Qurban da, nəzir də yorğan davası...
Başını bürüyüb yatmaq üçündür.

Verilmiş bənddə müasir dünyada gedən anlaşılmaz siyasi oyunlara həqiqəti əks etdirən güzgü tutulur. Əsl kitabın, əsl dinin Qarabağ olduğu doqquzuncu əsrə xitabən deyilsə də, əslində öz müasirlərinə səslənişdir. Ali Baş komandanın Babəki ordumuza sərkərdə təyin etməsiylə tarixin öz sözünü deməsi alqışlanır.

Kitabda yer alan digər poemalar "Allahların döyüşü", "Damcılı" və "Göyəzəndən bəri gəl" əsərləridir. Kiçikhəcmli "Allahların döyüşü" poemasında din adından süi-istifadə edənlərə etiraz ruhu duyulur. Birinin Allahı xəzinə, yatır kimi dərk etməsi, digərinin isə özünü Allahın pulu hiss etməsi Məkkəni ziyarət edib gələn kəsin əməli yoxdursa, sözü kələkdir nəticəsinə gətirir. Poemada

göstərilir ki, kiminçünsə allahlıq Dubay, Çin olan bir dünyada elə tamahgirlər var ki, röyalarında Allahın onların kəm-kəsirini düzəltməsini görmək istəyirlər. Belə çatışmazlıqlar əsərdə kinayə ilə qarşılanır və "Bəlkə, gizlənməkdi onun əlacı, Bəlkə, işə keçmir Allahlıq işi" tipli misralarla etiraz mövqeyi nümayiş etdirilir. Poemanın sonunda şair bu qənaətə gəlir ki, "Neçə ki, Allahlar hakimdi yerdə Demək Allahların Allahı yoxdu".

Ə. Xələflinin 2015-ci ildə heca vəznində yazılmış "Göyəzəndən bəri gəl" poeması isə iki hissəlidir. Əsərə "Vətən"ə müraciətlə yeddi bəndlik divani ilə giriş verilir. Sonra isə "Barat Vüsal, Göyəzəndən bəri gəl" misrası ilə başlayan "Yeri" rədifli qırx səkkiz bəndlik qoşmada Qazaxın o cümlədən, ölkəmizin bir sıra tarixi şəxsiyyətlərinin və yerlərinin adları sadalanır, sürükləndiyimiz müharibənin nəticələri dilə gətirilir:

Almaları bölə bilməz nağıllar,
Çat-çat oldu daş səbirli ağıllar!
Qarabağa qurban getdi oğullar,
Ərsiz qalan oğul doğmaz dul, yeri.

Poemanın ikinci hissəsi də eyni rədifli otuz bəndlik qoşmadan ibarətdir və "Barat Vüsal, aşıq teldə gəzinə" misrası ilə başlayır. Bu bölümdə nəinki, Qazaxın, ümumiyyətlə, Gəncə-Qazax bölgəsinin müasir ziyalılarının obrazına da rast gəlinir. Poema yeddi bəndlik "Salamat qal" rədifli divani ilə tamamlanır.

"525-ci qəzet". 30 oktyabr 2018

PƏRVİN "QADIN OLMAQ" ÜÇÜN ON HƏDƏF SEÇDİ

"Qələm adamlarının narahatlığının həmişə, hər zaman bir əlacı var: yazmaq!"- fikirləri Prezident mükafatçısı və təqaüdçüsü Pərvin Nurəliyevaya məxsusdur. O, on qadın və on taledən bəhs edən "Qadın olmaq" kitabına giriş sözünü də özü qələmə alıb. "Niyə məhz bu qadınlar?"- sualının cavabını da esseləri oxuduqca müəyyənləşdirmək olur.Kitab "Dahi ayaqyalın" essesi ilə başalyır. Bu esse Amerika rəqqası, 44 yaşlı Aysedora Dunkanın rəqsi qarşısında söz tapmayaraq, ona RƏQSlə cavab verən rus şairi Sergey Yeseninlə münasibətlərinə aydınlıq gətirir. Yeseninin möcüzə kimi baxdığı bu qadına hisslərini anlatmaq üçün söz aciz idi, o əsas deyildi ki, onların biri rus dilli, biri ingilis dilli idi. Yesenin üçüncü nigahını onunla bağlayır. Lakin bu evlilik sevgini nəinki adiləşdirir, daha betər münasibətlər ortaya qoyur; şair onu ən yaxın dostlarına da qısqanır. Nə yalan danışım, bu esseylə mənim Yesenin haqqında olan bütün ideal düşüncələrim çiliklənir. "Məktubların peşman olmuş müəllifi onlardan daha tez çatırdı ünvana"- cümləsi Yeseninin iradəsizliyini çılpaqlığıyla ortaya qoyur. Yesenin qadının kölgəsində qalmaqdan, sadəcə həyat yoldaşı olmaqdan qorxdu. Dəfələrlə yarımçıq qalmış ayrılıqlar yaşatdı onu sevən qadına. İki illik eşq nağılı onun cılızlığını isbatlayan bu sözlərlə yekunlaşır: "Başqasını sevirəm. Evliyəm. Xoşbəxtəm". Yesenin elə düşünürdü ki, Aysesora onun üçün adiləşib. Əslində isə o, bütün adi kişilərin edə biləcəyi adiliyi etdi...

İkinci yazı isə "Arxadakı qadın" adı ilə təqdim olunur. Bu esse kinorejissor Federiko Fellini ilə aktrisa Culyetta Mazinanın həyatından bəhs edir. Federikonun

arzularının qadınının xüsusi özəlliyinin onu anlaması olduğu yazının əsas leytmotivini təşkil edir. İki uşağını itirən Culyetta ana ola bilmədiyi kimi, ərini də ata edə bilmir. Lakin bu qadın ərini hər zaman "Ruhun Çernoblı"ndan xilas edə bilir. Pərvin xanım bu özəlliyi belə ifadə edir. "Onun təkcə özündən ibarət nə karyerası, nə də şəxsi həyatı ola bilərdi..." Öz məşhurluğunu, unudulmazlığını qurban verən qadının əri Federikodan "Dahi Fellini" yarada bildiyi, özünün isə yalnız ərinin 7 filminə çəkildiyi həmin fikirləri əsaslandırır. Həyat yoldaşının bütün "gizlin"lərini bilən xanımın onun qəlbini fəth etmiş yeganə qadın olmasıyla kifayətlənməsi bu araşdırmanın məğzini üzə çıxarır. "Qızıl toy"a hazırlaşdıqları ərəfədə Fellinini ölüm aparır və arvadı bundan beş ay sonra xərçəng xəstəliyindən ölür. Bu yazının digərlərindən özəlliyi odur ki, burada bir qadın və bir kişi, həm də bir evlilikdən söhbət gedir. Müəllifin yazının sonunda qoyduğu "Sirr nədə idi, görəsən?" - sualının cavabı da elə bu ola bilər. "Kişi kimi" adlanan üçüncü yazı fransız aktrisası Marina Vladiyə həsr olunub. Göstərilir ki,17 yaşında rejissor Andre Mişelin "Cadugər" filmində baş rola çəkilməklə cadugərlik missiyasına başlasa da, ona "kişi kimi qadın" statusunu Vladimir Visotski ilə tanışlıq qazandırıb. Bununla da Vladinin ilk dahi heyranıyla 13 illik sevgi hekayəsi yaranıb. Onun ilk nigahı Robert Osseyn, ikinci isə Jan Klod Brue ilə olmuşdur. O, 1973-cü ildə V.Visotski ilə evlənir və bu ikisinin də üçüncü ailəsi olur. Müəllif yazır ki, "Marina bütün varlığıyla həyat yoldaşını sevir, sözü, gitarası, rolları ilə birgə onu xilas etmək istəsə də, artıq gec idi..." Ərinin içki düşgünlüyünün və bu zəifliyinin onu məhv etməsinin qarşısını "kişi kimi qadın"ın ala bilməməsi bu əsərin yazılma mahiyyətinə diqqəti yönəldir. Qeyd edilir ki, bu

evlilik qəhrəmana 1987-ci ildə "Vladimir və ya dayandırılmış uçuş" əsərini yazdırır. Marinanın bu kişini həyatda yaşamağa məhkum edən qadın olmağını kişi kimi bacardığı ortaya qoyulur. Ölümündən sonra da onu ölümdən qoruyur.

Dördüncü esse isə Jorj Sand kimi tanıdığımız Amandina Avrora Lüsil Düpen adlı yazçının özəlliyindən bəhs edir. Pərvin xanım onun bilərəkdən o cür yaşadığını həyatından təsvir etdiyi məqamlarla əsaslandırmağa çalışıb. "Çoxu Jorj Sandı qayğıkeş ana hesab edirdi, amma iblis qadın adlandıranlar da az deyildi". Müəllif adamı özünə yoluxduran epitetiylə təqdim etdiyi bu qadının hər bir hərəkətinin sənət naminə olduğuna bizi inandırmaq istəyir.O, oğlu Moris və qızı Solanjın atası Kazimir Dudevadan ayrılıb sevgilisi Jül Sandanın yanına Parisə gedir və indi tanındığı imzanı da onun adından götürür. Hər gün 8 saat əsər yazmaqla nəşğul olan Jorj Sandın növbəti sevgiləri Alfred de Mütse, Frederix Şopen, Prosper Merime və başqaları olduğu bəlli olur. Pərvin xanım onun bu "kolleksiyalarını" təsriflənən feillərlə (nəzərə alaq ki, bu cür feillər şəxsə və zamana görə dəyişir) belə ifadə edir: "Ov"una sahib çıxır, alır aparır, qanadlandırır, uçurdur, yazdırır, qısqandırır, məhv eləyir..." Yəqin ki, bu onun həyatının qanunauyğun düsturu idi; özlərini güclülərin güclüsü sayan kişilərin məhv edilməsi. Bunu ancaq qadınlığın fövqündə olmaqla bacarmaq olardı.Merimedən sonra Aleksandr Morso, Jorj Marşal kimi aşiqlərini də yarıyolda qoyan yazar növbəti hədəfini seçir. Müssedən 6 yaş böyük olan Jorjxəstə sevgilisinin qayğısına qayğıkeş ana kimi qala-qala onun həkimi Pyetro Pocelloya vurulur. Nəticədə Müsse etiraf edir ki, nə ona qədər, nə də ondan sonra əsl sevgi vəcdləri duymayıb. Əsas detallardan biri budur ki,Şopen ilk

təəssüratında Jorj üçün "Ümumiyyətlə, qadındırmı?"-şübhəsiylə yanaşsa da, 6 aydan sonra ona məhz Jorj kimi qadın lazım olduğu qərarını verir. Sənətə eyni münasibət onların səadətinin əsl reallığı olsa da, müasirlərinin İblis qadının tərbiyəli, alicənab bəstəkarı ələ keçirdiyini fikirləşdiyinə də münasibət bildirilir. Hətta yazıçının qızı Şopenə anasının xəyanətkar olduğunu inandırmağa çalışır. Jorj isə bəstəkarın ölümündən sonra 27 il yaşayır. Müəllif təsiredici anların təsvirinə Şopenin "O, mənə söz vermişdi ki, mən onun qolları arasında öləcəyəm" – cümləsiylə yer verir. Jorj isə bu sözü ona görə tuta bilmədi ki, o yalnız Şopeni dinləyəndə kövrəlirdi. Onun ölümsüzlüyünə inanmışdı. Müəllif qeyd edir ki, Jorj həyatına daxil olanları zirvədən aşağı düşürmür, oradan geriyə yol yoxdu.

Beşinci yazı filosof Luiza Salomedən söz açır. Pərvin xanımın fateh qadın kimi xarakterizə etdiyi bu qadın üçün sevgi ideal harmoniyaydı, onun sevmək də, sevdirmək də istedadı vardı. Lakin sevənlərini məsafədən idarə etməyin mexanizminin sirrini gizlin saxlayırdı. Onun aşiqləri sadəcə məhkəmə icraatçısı kimi bir şey idilər. Filosofun bənzərsiz tarixçəsi 17 yaşında holland keşiş Henrix Qiyoya vurulmasıya başlayır. Sonra 32 yaşlı filosof Paul Re ona eşq elan edir, lakin dost kimi bərabər yaşayırlar. Paul onu filosof Fridrix Nitşe ilə tanış edir. Bizə qeyri-adi görünən həmin üçbucağın əsas məqamı da burada yaranır. Nitşenin evlilik təklifini rədd edən qadın üçlükdə yaşamaq alternativini ortaya qoyur və Nitşe Paulun evinə köçür. Yazının ağırlıq yükünü Lunun filosofları bir daha "filosof" etməsi daşıyır. Növbəti aşiq qafazlı qanı daşıyan şərqşünas Fridrix Andreasdır. O da evlilik təklifinə "yox" cavabı alsa da, özünü ödürəcəyini deyir və bu evlilik 40 il davam edir. Lakin o ailə də Lunun dəmir prinsiplərilə qurulur və nəticədə F.Andreasanın qulluqçudan övladı olur. Siyasətçi

Qeorq Ledebur onu ərinin əlindən almaq istəsə də, baş tutmur. 40 yaşlı qadının növbəti hədəfi 22 yaşlı şair Rayner Mariya Rilke olur. Digər bir heyranı İsveç psixiatoru Paul Byer onu Ziqmud Freyd ilə tanış edir.Bütün kişiləri "yox"uyla cəlb edən bu qadın bir dəfə ana olmaq şansı qazansa da, uşağını itirir. Tarixə isə "psixoanalizin anası" kimi düşür, "Nəyinsə anasıyam!"-deyir. 75 illik ömür Pis Qızın özünəməxsusluğuyla keçir.

"Şahzadə Qreys" adlanan növbəti yazıda Qreys Kellinin həyatından bəhs edilir. Müəllif yazır ki, "gözəl qadının həyatını, taleyini, xarici görünüşü diqtə edir..." Məlumat verilir ki,onun ilk "qurbanı" müəllimi Don Riçardson olsa da, Klark Qeybllı da özünə aşiq edə bilir. "Oskar" və iki dəfə "Qızıl qlobus" mükafatlarına sahib olan bu aktrisa 11 filmdə rol alıb. Essedə onun aktrisa və şahzadəlik məharəti nümunəvilik fonunda nəzərə çatdırılır. O, Monako knyazı III Renyenin evlənmək təklifinə "hə" deyir. Onların iki qızı və bir oğlu olur.Bu qadının sirrinin özünəinamı olması xüsusilə vurğulanır. Gözəl qadınlar isə həm də "sahibkar" olurlar. 52 yaşlı şahzadə avtomobil qəzasında öldükdən sonra əri 20 il yaşadı, amma evlənmədi. Yeddinci yazı "Dalinin dəlisi" başlığıyla təqdim olunur. Anasının məsləhəti ilə Yelena Dyankovanın fransızcadan tərcümədə "bayram" mənasını verən "Qala" sözünü özünə ləqəb götürməsi bildirilir.Onun ilk öncə fransız şairi Pol Eluarı çılğın aşiqə çevirməyi bacardığının şahidi oluruq. Onların nigahlarından bir qızları da olur. Müəllifin "ilham mühərriki" kimi təqdim etdiyi Yelenaya "Qala" möhrünü Pol vurur. Əsas nəzərə çarpan cəhət odur ki, "Qalanın Salvador Dali ilə tanışlığının səbəbkarı da Elüar oldu və onların arasında alovlanan məhəbbəti görüb sakitcə kənara çəkildi". Pərvin xanım Qalanın özündən 11 yaş kiçik rəssam Dali ilə görüşünü sənət hadisəsi kimi xarakterizə

edir. Pol öldükdən sonra Qalanın Dali ilə rəsmi nigaha girdiyi bildirilir. Onları yalnız Qalanın 88 yaşında ölümü ayırır. Qala həyatındakı kişiləri belə qiymətləndirir. "Elüar istedadlıydı, Dali isə DAHİ!" Onun dahi Dali imperiyasını kərpic-kərpiç hörməsi əsaslandırılır.

"Şeytan Liliya" adlanan səkkizinci essedə heykəltaraş Liliya Brikdən bəhs olunur. İlk öncə doğma dayısının ona evlənmək təklif etdiyi, sonra musiqi müəllimindən hamilə qaldığı haqqında məlumat verilir. Həmin uşaqdan xilas edilməklə ana olmaqdan ömürlük məhrum olur. Sevilmək üçün "ölüm"dən də istifadə edən bu qadın heykəltaraş Osip Briki ilə 1912-ci ildə evlənir. Lakin o bacısı Elzanın sevgilisi rus şairi Vladimir Mayakovskini özünə aşiq edir. Bunu ərinə də, bacısına da həzm etdirə bilən insan olması essenin ideyasının dərk edilməsinə yardım edir. Ər və bacı da bu sevgini xəyanət saymırlar. Çünki Mayakovskinin bu kifir qadını bütün nəzəriyyələrin fövqündə sevdiyinə oxucunu inandıra bilir. O qadının ömürlük "sevimlilik" sığortasını qazandığı nəzərə çatdırılır. Mayakovski ona həsr etdiyi ən gözəl sevgi əsəri olan "Pro eto"nu da iki aylıq sevgi blokadası zamanı qələmə alır.Lakin 1924-cü ildə Nyu-Yorka gedən Mayakovskinin Elli Consdan qızı dünyaya gəlir. Ana ola bilməmək Liliyanın qalib gələ bilməyəcəyi rəqabət olduğu da nəzərdən qaçmır. O, belə vaxtlarda yeni rəqiblər axtarmaq fəndini sınayırdı. Şairi uşağının anasından ayırmaq üçün ona modelyer Tatyana Yakovlena, aktrisa Veronika Polonskaya kimi müvəqqəti olacağına əmin olduğu məşuqələr tapır. Bununla belə, şairi depresiyaya salaraq əvvəlki əri ilə Avropa səyahətinə çıxdığı yazılır. Veronikadan da etiraz cavabı alan şair 36 illik həyatına bir güllə ilə son qoyur. Şairin ölümündən sonra Liliya ərindən boşanıb hərbiçi Primakovla ailə qurur. Bu əri xalq

düşməni elan edilib öldürüldükdən sonra Liliya Mayakovskişünas Vasili Katanyanla evlənir.Pərvin xanım həmin qadının həyatını bir neçə feillə belə ifadə edir: "Evində ədəbiyyat klubu açır, istedadlı adamlarla dostlaşır, film çəkir, aktrisalıq edir, heykəllər yonur, əsərlər yazır, aşiq olur, özünü sevdirir, ərə gedir, ayrılır, "intihar" edir". Növbəti intihar cəhdi 86 yaşında bir ovuc yuxu dərmanı içməklə baş tutur və o ayılmamaq şərti ilə yatır.

Doqquzuncu esse "Frida... Dieqo... və əzablar!" adlanır. Bu əsər meksikalı rəssam Frida Kalodan bəhs edir. Onun ən gözəl avtoportret müəllifi olaraq tarixə düşməsi xatırlanır. Bu qadın doğulmamış itirdiyi övladının da rəsmini çəkmişdi. Çoxlu qəzalar və 32 əməliyyat keçirmiş həmin qadın rəssam Dieqo Riveraya ərə getmək məqsədinə nail olur. Lakin bildirilir ki, "ona oğlan doğacam" arzusuna avtoqəza imkan vermir. Bir ildən çox yataqdan qalxa bilməyən rəssam qızı sevgilisi Alexandro tərk edir.Pərvin xanım "sınıq-salxaq" qız adlandırdığı qəhrəmanını məqsədinin qalibi kimi sevdirə bilir. İki dəfə ailəli olmuş Dieqonun vəfasız xarakterinə qarşı o, qalibiyyət mübarizəsi aparır. Dieqonun xəyanətlərini müəllif "mənəvi terrorizm" kəlməsiylə ehtiva edir. Fridanın sevgisini isə yalnız əndrəbadi sözüylə ifadə etmək mümkün olur. O hətta Dieqonun əlindən aldığı qadınları özünə aşiq edirmiş. Dieqo ona kiçik bacısı Kristina ilə xəyanət edəndə Frida bu dəfə onu bağışlamır və boşanırlar, lakin bir neçə il sonra yenidən evlənirlər. Rəssam qadın da ayrılan kimi ilk olaraq saçalarını kəsdi, kişi kostyumu geyindi. Amma o, ərinin dostu Lev Trotskini özünə aşiq edə bilir. Ancaq onu yanındakı qadının- arvadının hisslərinə hörmət etdiyi üçün əldən verir. Göstərilir ki,qanqrena verərək amputasiya edilən bir ayağı da onun həyata və Dieqoya olan sevgisinin sirrini vermir. "Bu vicdansız bədəni yandırarsız" – vəsiyyətini

etdiyi bildirilir. Sonuncu "Ledi Di... Qəlblərin kraliçası" adlanan esse Diana Frensis Spenserin həyat tarixçəsini əks etdirir. Diananın şahzadə Çarlzı ilk dəfə Eltop hausda görməsi və həmin vaxtlar Çarlzın Diananın bacısı Saradan xoşlanması süjetin düyününü vurur. Sara ilə münasibətin qarşısını isə şahzadənin anası Yelizaveta alır. Ana oğlunun ərli qadın Kamilla Parker Boulzla münasibətlərinin qarşısını almaq məqsədilə ələ düşmüş Diana kimi fürsətdən yararlandığı üçün müəllifin diqqətini çəkib. Lakin... Vindzor sarayında sevilməyən Diana krallıq qanunlarına zidd olsa da, ərindən ayrılır. 1992-ci ildən başlanan ayrılma prosesi 1996-cı ildə rəsmiləşdi. Diana pakistanlı kardiocərrah Hosnat Xan tərəfindən əsl sevgi ilə qəbul edilir. Daha sonra Misirli Dodi-Əl-Fadeylə qurulmuş münasibətlərini inkar etdikləri barədə bilgi verilir. Lakin onlar birlikdə avtomobil qəzasına düşərək əbədiyyətə qovuşdular. Kamella 1995-ci ildə Çarlz isə 1996-cı ildə boşansa da, onlar 2005-ci ildə ailə qurdular.Yazılarda qəhrəmanların real yaşantılarına üstünlük verilməklə yanaşı, həmin talelərə gənc bir qadının bədii-fəlsəfi münasibəti də öz əksini tapıb. Pərvin xanım qəhrəmanlarının yaxşılığa yozumlanan üstünlüyünü ibrət kimi təqdim etməklə bərabər, çatışmazlıqlarından da dərs götürməyi aşılaya bilmişdir.

"Kaspi" qəzeti. 16-18 yanvar 2015

ARZU HÜSEYNİN İÇİNDƏ YAŞAYAN MƏSUMLUQ

İstedadlı qələm sahiblərindən olan Arzu Hüseyn özünəməxus yaradıcılıq yolu keçən gənc yazar xanımlarımızdandır. O, ilk öncə AYB-nin üzvü oldu, sonra da Prezident təqaüdçüsü. Bu uğurların ardınca ilk şeirlər toplusu olan "Sonu əlvida" kitabı "aybKitab" layihəsi çərçivəsində işıq üzü gördü. Kitabda təqdim olunan şeirlər ümumilikdə həssas bir ürəyin səmimi pıçıltılarını ehtiva edir. Bu şeirlərin heç bir texniki qüsuru da nəzərə çarpmır. Həzinliyi ilə ürək oxşayan həmin şeirlərdə, nədənsə, qeyri-adi tapıntılar edilməsinə cəhd edilmir. Gənc yazar özünüifadədə hansısa bir kəşfə can atmır. Sadəcə hisslərini şeirləşdirir; "Bu yasaq sevgini gizlində daşı, Əlində tutarlar, ələ düşərsən"- nəsihətamiz saflığa bürünmüş misralar, yaxud da "Bütün ayrılıqlar ömürlük çəkir, Ömürlük məhəbbət olmur, əzizim". Adi bir aksiom; dünəndən ayrıldınsa ömürlük dünənə qayıda bilmirsən. Səbəb isə çox sadədir, səni dünənə qaytaracaq məhəbbət yoxdur. Nümunələrdən də göründüyü kimi, bu şeirlərin xüsusi araşdırmaya ehtiyacı yoxdur. İstənilən oxucu o şeirləri oxuyub oradakı səmimiliyə şahid ola bilər. Bununla belə, Arzunun kifayət qədər uğurlu misraları da cəm olub həmin kitaba.

Niyə ucalmısan bunca gözümdə,
Səni mən ucaltdım, mən dağ elədim.
Elə ucaltdım ki, səni özümdən
Yerdən göyə qədər uzaq elədim.

Bir dəfə ucalıq səhvi edən insan daha sonra ehtiyatlı olmağa çalışır: "Silmirəm izini yollarımdan ki, Bəlkə, o izlərlə mənə dönəsən". Nəticə heç də gözlənildiyi kimi olmur; "Gülüstanın gül yerinə, Samanla aldatdı səni". Maraqlı bir uyuşdurma. Saman taxıl zəmisinin yerində olur, zəmi də əvvəl yamyaşıl olur, sonra saralır, çəmənlik də. Amma fərqi odur ki, gülüstan xəzan ömrü yaşayanda o gözəllikdən heç bir əsər-əlamət qalmır. Lakin zəmi saralarkən sünbülləri insanın ən mühüm qidası üçün biçilir. Yerində qalan saman isə suda boğulanın ümid yerinə çevrilir. İnsan ümidlənəndə cəsarətlənir: "Söz verdik dağları dəlməyə amma, Gücümüz çatmadı çəpər aşmağa". Bu əslində istək ilə gerçəklik arasındakı ziddiyyətdir. "Sən məni hər öldürəndə, Üzümə saldım doğuldum"- ilk baxışdan sevindirici durumla qarşılaşırıq. Ölümə qalib gəlinib. Amma dərinliklərinə varanda bu qalibiyyət üzünə salıb dirilməyin hesabına başa gəlirmiş. Burada isə insanın özünə zidd getməsi, nəyinsə xatirinə iradəsinə güzəştetməsi aydın olur. Amma bunun "fəlsəfi tənhalıq, quru təbəssüm" olduğu tezliklə müəyyənləşir:- "Qəlbimə nə qədər kədər salırsan, məni ürəyinə salmırsan ancaq". Mən də "Sərxoş ümidlərim"in əlində qalıram.

Səni arzularda itirmişəm mən,
Kim tapar əbədi itik düşəni?
İllərlə saxlanan şərab kimisən,
Hər gecə yuxumda içirəm səni.

Bəlkə də, reallıqda itiriləcək adamın tapılmaq şansı var, amma arzulardan itik düşmək ən ağır cəza metodudur, həm özünə, həm də itirdiyinə qarşı. Buna görə də "bütün şeirlərim ayrılıq dadır" qənaətini anlamaq olar. Amma ayrılmaq üçün əvvəlin birliyi olmalıdır. "Biz nəsə yaşadıq,

nəsə yaşadıq, Qısa bir ətəkli, kürəyi açıq". Maraqlı bənzətmədir. "Dünən ikimizi gəzdirən yollar, Bu gün ayağımın altına gəlmir". Həmişə kiminsə ayağına yollarla gedirik. Amma yolu ayağımıza gətirmək gözəl işlədilib. "Bu da sevgimizin son noyabrı, Hələ ayrılığın dekabrı var..." Noyabr payızın son ayıdır. Dekabr isə qışın ilk ayı olsa da, ilin son ayıdır. Ayrılığın dekabrı gəldisə, artıq sondur. Çünki yanvarla yeni il yeni münasibətlər gətirir. Bu zaman "Səmadan gileyli nöqtələr düşər, Yarımçıq sevgilər tamamlanmasa". Məncə həmin gileyli nöqtələr bəxt ulduzunun simvollarıdır. Bəzən göydən ulduzun sönüb düşdüyünü görəndə haradasa bir insan ömrünün bitdiyi söylənilir. Yazar da həmin misralarda buna işarə edib. Anlaşılır ki, yarımçıq sevgilərin tamamlandığı an ya o sevginin bütövləşməsidir, ya da məhv olmasıdır. Əgər sevginin ulduzu sönüb gileyli nöqtəyə dönürsə, məlumdur ki, o sevgi ömrünü başa vurub.Onun şeirlərindən bəziləri sevgi mövzusundan kənara çıxır."Demirəm ki..." şeiri də belədir. Bu şeirin dili də müəyyən qədər neologizmlərə meyillidir.

Saatları internetdə itiririk.
Monitora zillənir gözümüz.
Virtuallaşdıqca həyat,
Virtuallaşırıq özümüz.
Virtuallaşır hisslər də,
Biz gülümsədikcə smayliklərdə.

Şeirin dilindən söz düşmüşkən, Arzunun şeirlərində bəzən qəbuledilməz dil qüsurlarına da rast gəlmək olur. Ən pisi də odur ki, bu özünü qrammatik formada biruzə verir. Bu isə dilimizin iltisaqiliyinin bilərəkdən (bəlkə də, bilməyərəkdən) pozulmasıdır. Məlumdur ki, türk mənşəli

dillərdə şəxs əvəzlikləri mənsubiyyətə görə dəyişmir. Lakin Arzu bəzi şeirlərində məcazlaşma yaratmağa cəhd göstərdiyi olub, böyük dil xətasına yol verir. "Bir **sənim** yox dözə məni" misrasında ikinci şəxsin təki olan əvəzliyin mənsubiyyət şəkilçisi "qəbul etdiyini" görürük. Həm də "dözmək" feili təsirsiz feil olduğu halda, onu təsirlik halda olan "məni" əvəzliyi ilə işlədib. Bu tipli başqa bir misal da çəkə bilərik "Mənim bu dünyada təkcə **sənim** var"... "İçimdə ağlayan şeir" də müəyyən qədər ümumilikdən kənara çıxan şeirlərdəndir.

Nə rəngdədir bilirsənmi,
Ac körpənin çörək eşqi?
Nə boyaya boyanıbdır,
Kardioloji xəstənin,
Həyat eşqi, ürək eşqi.

Suallar nə qədər ritorik olsa da, bir o qədər də diqqət çəkəndir. Ac körpənin çörək eşqinin nə rəngdə olduğu ilə maraqlanmayan laqeyd insanların çoxaldığı dünyamızda, Arzunun bu mövzuya belə həssaslıqla yanaşması təqdirəlayiqdir.Arzunun şeirlərinin əsas mövzusunu sevgi təşkil etsə də, bəzən onun da ruhani şeirlər yazmasının şahidi oluruq.

Qəm varmı məndən o yana,
Yol varmı qəmdən o yana,
Keçib özümdən o yana,
Özümə gəlməyim gəlir.

İlk misrada şairin özünü qəmin son məskəni kimi təqdim etdiyini görürük. Sonrakı misra bunu təsdiqləyir. Əgər qəm məndə bitirsə, qəmdən o yana yol başlamırsa,

deməli, sonsuzluq elə mənəm- insandır. Çünki insandan o yana keçsəm də, sonunda yenə özümə dönürəm.Onun poeziyasında doğma yurdu olan Qubadlıdan ayrı düşməyin də poetik ifadəsini görmək olar.

Qərib düşüb elim mənim,
Nə yurdum var, nə məskənim.
Viran olub evim mənim,
Qalıb qapısı salamat.

Son misralar dəhşətin dözülməz ifadəsidir. Yağmalanmış evin qapısı salamat qalıb. Bu əslində məcazi məna daşıyır. Yəni həqiqətdə salamat qalan qapı deyil, o qapının giriş-çıxış yolu olmasıdır ki, oradan da ancaq düşmənlər yol sala bilir. Amma yazımızı nikbin sonluqla tamamlayaq ki, ilk kitabı Arzu Hüseynin gələcək uğurlarının körpüsü olsun; "Sanıram hələ dəyuxudayam mən, Yanımda olarsan ayılan kimi".

"525-ci qəzet". 11 iyul 2015

NURANƏ NURUN "YOXLUĞUNA VƏ SAĞLIĞINA"

Ədəbi aləmdə xüsusi yol tutan Nuranə Nurun ikinci kitabı olan "Yoxluğuna və sağlığına" orijinallığı ilə diqqəti çəkir. Kitabın titul vərəqindəki tanışlıqla tamamilə razılaşmaq olar: "Kitabdakı şeirlərin quruluşu,deyim tərzi, dramaturgiyası müasir ədəbi prosesdə tamamilə yeni dəstixətdir, dialoqlar çal-çarpaz, münasibətlər əksliklərlə zəngindir". Deyilən fikirlərlə razılaşmamaq haqqımız yoxdur. Lakin yazarın şeirlərinin bədii quruluşu ənənəvi formadan tamamilə fərqlənir. Bu fərqin ən yaxşı izahını ön sözdə N.Həsənzadə vermişdir; "Bəzən qafiyəli, qafiyəsiz, bəzən hecada əsasən sərbəst yazılmış bu şeirlər epistolyar janrda qələmə alınmış bir məktub təsiri bağışlayır". Razılaşırıq ki, formaca sərbəst şeirin sərbəstliyinə istinad edən bu əsərlərdə güclü poetizm, fəlsəfi ümumiləşdirmələr, yeni deyimlər kifayət qədərdir. Ən yaxşısı konkret nümunələrlə fikrimizi əsaslandırmaqdır. Kitabdakı şeirlər müxtəlif mövzulu olsalar da, sevgiyə həsr edilmişlər xüsusi maraq oyadır. Titul vərəqində yazıldığı kimi "Sadəcə burada gedişlərin, günahların şəkli çəkilir və çox zaman gedəndə günah görülmür, əsas qalan günahlandırılır..." Bir sözlə, bu yazıların öz fəlsəfi biçimi vardır. "Kiçik həyəcanlarla başlayır böyük eşqlər" deyimindəki kiçik və böyük antonimliyinin özündə bir uyarlıq kök salıb. Həmin kiçik həyəcan olmasa, böyük eşqlərin də yolu bağlanar. Yazar isə başqa qərara gəlir. "Heç kim sən deyilsən, sevgilim, Mən də sənin "heç kimin" olmaq istəyirəm". Səbəbini də gizlətmir. "O gündən öyrətdiklərinlə Həyata imtahan verirəm". Nədənsə, bu imtahanın da xoşagəlməz nəticələri oldu. "Hesablamadığın təsadüfün oldum sənin Özümə həsr edə bilmədim səni Bağışla..."

Əslində bu ayrılığın kökündə bilə-bilə səhv etməyin etirafları dayanır. “Sən deyəndə inanmırdım, Gözlərimdən öpmə, ayrılıq gətirər Hanı o ayrılıq öpüm onun gözlərindən, Bəlkə, səni gətirə”- göstərilən parçada xalq inancının fəlsəfə yozumlarıyla qarşılaşırıq. Bu ayrılığın elə özünəməxsus ziddiyyətləri var ki, dərinliklərinə vardıqca yollar haçalanır: “Ürəyim səni elə istədi ki, Bir istəkan su içdim, heç susamamışdım”. Diqqət yetirdikdə sevənin bu istəyinin əslində yola vermək olduğunu anlamaq olar. Bu susuzluğun üstündən bir istəkan su içildi. Yəni bəzən nəyisə başından eləmək üçün “üstündən su iç getsin” ifadəsini işlədirik. Qəribəliklərlə qarşılaşmaqda davam edirik. “Düşünmək-unutmaq cəhdimdi, Qüsurlarını xatırlamaq da sənə toxunmaqdı... Yağışlar buludlara qayıdanda gəlimmi?!” “Heç dönməyəcəm!!!” hökmünü qətiliklə deyib. Könül sındırmaq istəmir, yumşaq-yumşaq ritorik sualla “daha gözləmə!” deyir, çünki yağışlar buludlara dönmür. Bir təbii proses olaraq su buxarlanır və bu zaman H2O dəyişməsə də, çox şeylər dəyişir.

Bütün nişanları dəyişmisən
Bu sevginin yollarında bilirəm...
İndi ki, belədir, Belə istədin,
Hazırlaş yola çıx, Mən də gəlirəm.

Bu elə bir gəlişdir ki, bütün yol hərəkət qaydalarını dəyişib. Əslində sən başqalarından fərqli sevdin etirafını dolayı yolla pıçıldayır.

Ömür kitabımda qatlandığım səhifə-sən
Arasında qurutduğum çiçək-xatirələrin
Vərəqlərin saralması həsrətin,

Oxunmamağı isə,
Həsrətin özünə həsrət qalmağımdır.

Müəllif bir neçə misradan ibarət olan bitkin əsərdə fikirlərini dolğun şəkildə, poetik boyalarla ortaya qoymağı bacarıb. "Bambaşqa eynilik var səndə... Mənim səndə görmədiyim heç nə sənə yaraşmır... Yoxluğun nə qədər çoxaldır səni..." Səndə görə bilmədiyim əslində naqis kəsirlərdir. O səbəbə görə bilmirəm ki, səndə mükəmməlliyə yaraşmayan heç nə yoxdur. Tamlığınla bütövləşirik: "Uzağa baxıram deyərdin mənə Uzaqgörən deyiləmmiş... Heç gözləmədiyim tərəfdən gəldin, amma Gözlədiyim tərəfdə də yoxsan indi..." Belə çıxır ki, mənim tərəfimdə deyilsən. Müxtəlif tərəflər meydana gəlir. Hər tərəfdən, sənin hərtərəfliliyin hiss olunur. Sən mənə, mən də sənə tərəfdarıq. Mənim tərəfimi saxlasan özünü haqsız çıxarmazsan, çünki birtərəfliyik. "Ayrılıqdan soruşduqlarımı Həsrətə danışdım varaq-varaq. Razılaşdıq birtəhər Məndən aldıqlarını geri ver, Ayrılaq!" Aydındır ki, məndən aldığın özünsən, özünü geri qaytar. Qəribədir özünü geri qaytaranda necə ayrılmaq olar ki?! Əslində "ayrılaq!" qərarı "ayrılmayaq!" hökmünün təsdiqidir. "Yeni çəkilmiş foto kimiyik hələ Baxılmaqdan doyulmayan. Xoşbəxt, qayğısız... Birdəfəlik itirmək itirəndən sonra axtarmaqdan yaxşıdır". Düzü, çox məntiqli qərardır, nə qədər bədii olsa da, bir o qədər həyatidir. "Üzünə baxıram gözlərin hanı? Dönüşün gedişinə xəyanətindi. Bir gün xəyalında xəyalın idim...Günəşin batışı doğuşundan da gözəl olur..."

Buxarlanmış şüşə üzərinə yazdığım
adlar kimi Yadımdasan.
Bir könül məsafə var aramızda.
Hər gün bir qurtum əlvida içirəm şərəfinə.

Gəl sənə məni unutmağı öyrədim.
Öyrənmək heç vaxt gec deyil.
Bu imtahanda düzləri qaralayanda
Səhvlərimin üzü ağ olur...
Eşqin harasından dönsən xeyirdi.

Buxarlanmış şüşə üzərindəki damcılar əridikdə "yazılmışlar" suya qərq olur. Özünəməxsus təşbehdir. Digər misralardakı "qaralayanda" və "ağ olur" təzadları da maraqlı poetizmdir. Başqa bir fərqlilik də odur ki, deyim əslində belədir. "Ziyanın harasından qayıtsan xeyirdir". Belə çıxır ki, eşqlə ziyan arasında bir bərabərlik işarəsi qoyulur. "Ən gözəl göründüyüm ayna idi gözlərin, İndi onlara baxa bilməmək təsəllisini Baxdığın yerlərdən alıram... Ən sevdiyim azadlığım idi qısqanclığın". Sənin gözlərində özümə baxırdım, özümdə səni görürdüm. Gözlərimizin ayrılığı birliyimizə xəyanətdir. Birlikdə qısqanclığın da sevimli azadlıq idi, sevgi azadlığı-mənə səni sevməyə izn vermişdin. "Yavaş-yavaş cümlələrimi tərk edir adın... Yalnız öz arxasını saxlayar gözdən asılan pərdə" - adın cümlələrimi tərk etdikcə hər dəfə yenidən təkrarlanır, yəni adın dilimdən düşmür. Deyəsən, bu adın səs və hərf tərkibi fərqli olduğu kimi forma və məzmunu da dəyişkəndir. "Hər gün ürəyimdən keçən Bircə dəfə bilmədi ki, hardan keçir". Sətirlərdə "ürəyindən keçirmək" frazeologiyasını ustalıqla omonimləşdirib. Ürəyimdən elə keçdin ki; "Səni qucaqlayıram, Qollarımın xətrinə". Məhəbbətə müxtəlif cür yanaşmanın nümunələri kifayət qədər çoxdur həmin kitabda. Lakin Nuranə Nurun özünəməxsus həyat fəlsəfəsi var. O da sakini olduğumuz dünyaya şair gözləriylə baxır. "Zamanın sayğacı 30-u göstərir". Bilirik ki, 1 saat 60 dəqiqədir. Bunun yarısı isə 30-dur, yəni bir saatlıq zamanın yarısı. Bir saatı bir ömürlə müqayisə etsək, 60 illik insan ömrünün yarısı 30 yaşdır.

“Heç kəs işığı qaranlıq qədər sevə bilməz, Gözlərim qaralanda bildim. Heç kəs yolları addım qədər sevə bilməz, Gündə bilmirəm neçə dəfə, Üzünü üzünə qoyub götürməz”. Nümunə özü şairin həyata baxışındakı xüsusiliyi üzə çıxarır.

Hər xəzan olan yarpaq,
Payız mövsümünə bir əlvidadır.
Hər yağış damcısı,
Ürəyə ən azı bir dəfə daman eşqdir.
Ürəyimə damıb ki,
bu il quraqlıq olacaq.

Kiçikhəcmli və mükəmməl şeirdə şair sevgisizliyin portretini ustalıqla canlandırıb. Bənzətmədən bənzətməyə profesional şəkildə keçərək tamamilə orijinal fikir yürüdüb. “Azadlıq bir qadının evi qədər, bir kişinin cibi qədər olur”. Qadın evinə, kişi də cibinə tez-tez əl gəzdirir. Amma hərəsi başqa məqsədlə. Hər ikisi sonucda təmizlik işi aparır, lakin müxtəlif üsullarla. Bunlara diqqət yetirmək isə söz ustasının nəzərindən qaçmayıb.“Hələ doğulmayanlarla, Hələ ölməyənlərin heç birinin həyatda olmadıqlarını dərk etmək və getmək...” Hər bir yazarın daim müraciət etdiyi yaşam və ölüm qarşıdurmasında yeni mənalandırmadır. Əgər hələ doğulmayanın da ən son yerinə yetirəcəyi iş getməkdirsə, gəlmək reallığı nə dərəcədə inandırıcıdır?! Şair bəzən təbii hadisələrə də bədii fon verir. “Günəş əritdiyi gecədən üzr istəyib Doğur hər gün üzümüzə. Havada yenə günah qoxusu var. Məncə günahkarların əvəzinə Onların əmmälləri cavabdeh olmalıdır”. Günah günahkarın əməllərini müdafiə edir. Necə ki, günəşin hərarəti gecənin sərinliyinə qənim kəsilir, onu dirigözlü öldürür. Bütün ölülərdən fərqli olaraq gecə

ölərkən gözləri açılır. “Axı böyüyə bilməmək yaşlanmaqdan qurtulmaq demək deyil. Hər şeyin sonunun səsidir səssizlik”. Yaşadığımız anlar bizi yaşlandırır, böyüsək də, böyüməsək də bu təbii prosesə müdaxilə imkanımız yoxdur:

Tayı itmiş ayaqqabı kimi,
qarşı-qarşıya dayanmışam yalqızlığımla.
O da bir gün itsə...
İlk dəfə ağlayacam utanmadan,
Doğulduğumda ağladığım kimi...
Ağlamaq...
İnsan belə doğulursa nəyi pisdir?
Ağlamaq...

Bu parçalar Füzulinin məşhur əsərindən Qeysin dünyaya gəlişi epizodunu yada salır. Şairin fikrincə ağlamaq yenidən doğulmağa bərabərdisə, burada pis heç nə yoxdur. “Gözlərim hələ də uşaqkən uçurtduğum çərpələngi axtarır göylərdə, Bəlkə də, hardasa, hansısa buludun üstündə yaşayır hələ də... Bəlkə, bulud da o vaxtdan ağlamır onun xətrinə”. Göyə çıxmış uşaqlığı çərpələngin altındakı buludlar nə qədər yağışa dönsələr də, göydən yerə yağdıra bilməzlər. Onun heca vəznində yazdığı şeirlərdə də poetik axtarışlar davam edir.

Yolunu bilməyən qayığın külək,
Yelkəninə yön vermirsə nə yazım.
Yanımdakı uzaqlığım kimisən,
Könlüm əl vermir ki, bu yolda azım.

Yanımdakı uzaqlığın elə yaxındadır ki, hərəmiz onun bir başında qalmışıq. “Yaşanmayan xatirələri yaşamaq qalacaq bizə”. “Yalnız bütün şifrələri sənin adınla açanda

xatırladım səni". Maraqlı nəticəyə gəlir. "Hər tapındığın şey sənindi-demək deyil". Qəribə paradoks "sənindi demək" qütbünün o biri tərəfində "sənindi demək deyilmiş" inkarı dayanır. "Nəsə damır içimə Dama-dama çoxalır". Əslində dama-dama göl olar. "Seçə bilmədiyimiz adımız kimidir həyatımız da". Etiraf edilir ki, bizim olan çox şeydə ixtiyar özümüzün deyil. "Heç bitməsin deyə başlamamaq isə səbəb deyil, bəlkə də, çarədir". Belə olanda ən məsləhətlisi budur ki; "İçində hava xoşdursa, Unut hansı mövsümdür". N.Nurun yaradıcılığında diqqət çəkən əsas nüanslardan biri də bədii dil məsələsidir. Xüsusi ustalıqla işlədilmiş bədii təsvir və ifadə vasitələri yetərincədir. "Mən sakit olanda dərin bir gölə, Ağlayanda sənə oxşayıram". "Sakit" və "ağlayanada" sözləri mətnda-xilində maraqlı təzad yaradıb. "Mənə "gülüm" deyəndə sən Güllərin solan vaxtıydı"-misraları da eyni tipdədir. Gülün ömrünün sonu solmağıdır. "Gülüm" və "solan" ifadələrində mükəmməl ziddiyyət yaradılıb. "Bütün günün xoş xatirələrini, Ayı, ulduzu əsir götürülmüş Tənha gecəyə danışıram ki, Darıxmasın". Gecənin gecəliyinə ona görə şübhə edilir ki, üzü səhərədir. "Ayı, ulduzu əsir götürülmüş tənha gecə" epiteti təptəzədir. "və dayaz qəmzədə boğulan təbəssümümdü. Suyun axıb öz çuxurunu tapdığı qədər günahkaram". "Dayaz qəmzə" də tamailə yeni bədii təyindir. Digər misradakı təşbeh də yenilik əlamətidir. Mükəmməl təyinlər silsiləsinə kifayət qədər orijinal nümunələr göstərə bilərik. "Bir gün getməliyəm deyə, dırnağından yaxaladığım ümidlərim də sürüşür əllərimdən". "Dırnağından yaxaladığım ümidlərim" ifadəsinə diqqət edək. Dırnaq lazımsız hesab edərək kəsib atdığımız yeganə orqandır. Ümidin dırnağı isə məcburən imtina etdiyimiz arzularımızdır, ürəyimizdən kəsib atmışıq. Əslində ümidimizin əlimizi üzdüyü yerindən tuturuq həmişə.

"Salacaq o, bura nə vaxtsa yolun, toplayacaq, Burda ağladığın gülüşlərini". "Ağladığın" feli sifəti "gülüşlərini" isminin bədii təyinidir. Həm də bu iki söz antiteza yaradır. Əsl peşəkarlıq da bundadır; bir ifadədə bir neçə bədii ifadə forması yarada bilmək. "Boz qafiyəli şeirləri necə oxuyum ki, Dilimə yatır, ürəyimə yox". Qafiyənin bozluğu da yeni epitetdir. Boz qafiyəli şeir də adamın duyğularına, zövqünə bozarır. "İndi qaranlıqda qaranlığı görə bilmədiyim üçün qorxuram... Səssizliyimin səsinə toxuna bilmirəm... Onsuz da pəltək şeirimin Qorxudan dili tutulub". "Pəltək şeir" birləşməsi poeziya üçün yeni təyinedici əlamətdir. "Günəşə sərəcəm bundan sonra günlərimi, Günəşlənsinlər! Yığmayacam artıq Üzümə ağ olan qara tellərimi". Bu parçada işlədilmiş "günəşlənsinlər" ifadəsi həm dilçiliyimiz, həm də ədəbiyyatşünaslığımız üçün tamam yeni tapıntıdır. "Ağ" və "qara" təzadı ənənəvi olsa da, üzün və telin rəngini təyin etməkdə özünəməxsus formada işlədilmişdir. "Öz kölgəsini tutmağa çalışan körpələr kimi Gerçək bildiyim şeylərə toxuna bilməmək... Qəlbin atəşində peşmanlıqlar bişirmək..." İlk cümlədə "öz kölgəsini tutmağa çalışan" feli sifət tərkibi "körpələr" isimləşmiş sifətinin təyinidir. Körpələrdən sonra işlədilmiş "kimi" bənzətmə qoşması isə misranı bütövlükdə müfəssəl təşbehə çevirir. "Peşmanlıqlar bişirmək" metaforası isə yeniliyin yeniliyidir. "Keçirib əllərini boğazıma bayaqdan qəhər" sətrində də qəhərin əllərinin hərəkətə gəlməsi onun törətdiyi cinayətə bəraət qazandıran metaforadır. "Mənə ümid olanlar Hər gün ümidlərinin yerini dəyişirlər... Öz eybinə kor olan hamı kimi Baxıram mən də olanlara" misralarındakı "kor" və "baxıram" əksliyi bədii təzad yaradıb. Korun baxması zülmətin nur saçması kimidir. Ümidlərinin yerini dəyişə-dəyişə, yeni əsərlərini gözləyir sənə ümid olanlar!

"Senet.az" saytı. 16 mart 2015

ŞƏFA VƏLİNIN "POÇTALYONA MƏKTUB"U

"Hamının atdığı yerdə Təkcə söz tutdu bu qızı!" - deyən Şəfa Vəlini SÖZ Prezident təqaüdünə, nazirlik mükafatına layiq olmağa qədər müşayiət etdi. 2017-ci ilin sonlarında isə "Poçtalyona məktub" da ünvanlandı. Həmin məktuba "Sənin kədərində miladdan öncə, Sənin sevincində işıq iliyəm..." – etirafları da əlavə olundu. Tamamilə orijinal və özünəməxsus misralardan ibarət şeirlər toplusu olan bu kitabda Şəfanın şeir dilində söyləmək istədiyi nağılları yer almışdır. "Güldüm... Gülüşüm də ağladı səni, Saxta təbəssümüm könül həyası..." – sətirləri kimi təkrarsız ifadələr kitabda yetərincədir. Əksər şeirlərində əvvəllər qarşılaşmadığımız yeni ifadələrlə rastlaşırıq. "Həsrətsiz sevmək də haram Ödəmişəm bu vergini" – tipli mükəmməl misraları olan şeirlərin yeganə qüsuru qafiyələnmə texnikasında olan "özbaşınalıq"dır. Bu o demək deyil ki, Şəfa əsl mükəmməl qafiyənin nə olduğunu bilmir. Çox yaxşı bilir. İnanmırsınızsa, bu bəndə diqqət edin:

İndi qaç görüm, ay ürək,
Bu taleyin biryarından.
Bəlkə, daha geri dönək,
Nağılların diyarından?

Bəli, Şəfa istəyəndə təkrarsız və bənzərsiz qafiyələr işlədə bilir. Daha bir nümunəyə baxaq:

Söz vermişəm gözlərinə
Yaraşacam damla-damla...
Qatıb ağu sözlərimə,
Göndərəcəm "xoş məramla..."

Bənddə həm yeni fikir, həm də yeni qafiyənin işlənməsi şeirin təntənəsi kimi qəbul edilməlidir. Çünki mükəmməl məzmun mükəmməl forma ilə daha cazibədar görünür. Onun yalnız məzmun mükəmməlliyinə hesablanmış misraları kifayət qədərdir. "Mən səndən gizlətdim məhəb-bətimi, Axırda daş olub başıma dəydi" – kimi ifadələr təzəliyi ilə maraq doğurur. İnsanın diqqətini daha çox "başına dəysin" frazemi çəkir. Müəllif bu frazemi nə qədər həqiqi mənada verməyə cəhd eləsə də, sözün məcazi mənası dərhal nəzərə çarpır və fikri daha da gözəlləşdirən elə budur. "Mənim ayrılığım günah olmadı, Yad sığal görməmiş telə bənzədi" – sətirlərində "bənzəmək" feili işlənsə də, bu fikirlərin bənzərsiz olduğu göz qabağındadır. "Bağışla, bilmədim elə gün gələr, sevgi zirvəsinə çıxan yıxılar" misraları da zirvədən yıxılmaq mövzusunda yazılmış başqa şeirlərdən ilk baxışdanca fərqlənir. "Yazıq oldu arzular da, Mənim səni sevməyimdə" – etirafı isə səmimi olduğu qədər də fərqlidir. Arzuların yazıq olmasının səbəbkarı, daha doğrusu, günahkarı sevgi imiş. Hansı ki, o arzuları arzusuna çatdırmaq sevgidən umulurmuş. Bəlkə də, "Yaman çoxdu səndən küsən Ummadım ki küsə bilim..." etirafı da arzuların taleyindən nigarançılığı əks etdirir. Çünki dönüb keçmişə baxanda bunları görürük:

Xana qurdum ürəyimin odundan
Yanlış vurdu naxışları o gözəl.
Sevən qəlbə bir təsəlli ağıldan,
Nə mən dönüm xatirəyə, nə sən gəl.

Bəndin ilk misrasındakı xana sözü etnoqrafik cizgiləriylə yanaşı, od mənşəli olması ilə diqqəti çəkir. Odla oynamağa başı qarışan gözəl vurduğu naxışların yanlışlarını çox gec anlayır. Bir də onda ayılır ki...

Sən uzaq... Çox uzaq coğrafi bir kəşf,
Adasan, körfəzsən, dənizsən, nəsən?
Bəlkə, savannalar, tropik meşə?
Bəlkə də, zərif, incə bənövşə...
Ya bəlkə, quruca bir səhrasan sən?!

Diqqət yetirsək, bənddə coğrafi terminlərin necə ustalıqla poetikləşdirildiyini görmək olar. Ümumiyyətlə, Şəfanın şeirlərində ümumişləkliyi az olan sözlərin yerində işlədilməsi maraqlı alınır: "Gəl çatdır əcəlini həsrətin, Son qoy sənsizliyin melodramına..." və ya "Bizim xoş günümüz ölüb büsbütün, Saniyəölçənin rəqəmlərində..." Gətirdiyimiz misallarda melodrama və saniyəölçən sözlərinin şeirdə sınağının uğurlu alındığını söyləmək olar. Bu cür sözlərin işlədilməsi ilə yanaşı Şəfanın şeirlərində "sözyaratma" cəhdlərinin də şahidi oluruq:

Ürəyim yenə də susar, danışmaz,
Küskün kədərlərə məkanlıq eylər.
Sənin yoxluğuna yenə alışmaz,
Amma sənsizlikdə sultanlıq eylər.

Bənddə işlədilmiş "məkanlıq" sözü dilimiz üçün qeyri-ənənəvidir. Yəni leksik şəkilçi artırılsa da, söz yenə öz əvvəlki "məkan"ını saxlayır. Sadə sözlə düzəltmə sözün arasında heç bir yeni məna fərqi nəzərə çarpmır. Bununla belə, onun şeirlərində ən ağlagəlməz sözlərin poetik tərəfini üzə çıxarmağa ciddi cəhd edildiyini görmək olur: "Kim dedi bu qisməti poz, Bəxt yazan da bitərəfdi". Əsasən siyasi motiv ehtiva edən bitərəf sözü bu misralarda ədalətpərəstlik anlamında işlənmişdir. Şəfa müraciət etdiyi mövzudan asılı olmayaraq öz hisslərini, özünəməxsusluğunu poetikləşdirməyə meyilli yazardır. O, sanki hər şeirinə bir

parçasını hopdurur. “Öpüm yatım şəklini Yolun düşsün yuxuma” və ya “Ayrılığın əvvəli Mənim sonuma qaçır” kimi nümunələr məxsusi yaşamın obrazlaşdırılmasıdır. Bəzən isə özünü bütövün tərkib hissəsi kimi anladır. “Bizim dövrün ayrılığı Bircə günə olur boyat...” - sətirlərində olduğutək. “Mən səni tərk etmədim, Səndən qabağa düşdüm” və ya “Yiyəsiz sevdanın saçı pırtlaşıq, Daha indən belə hörüyə gəlməz...” misralarında isə dilimizin poetik imkanlarının genişliyi nümayiş olunub. Təbii ki, ilk baxışdan “pırtlaşıq” sözünü poetik anlamda heç cür təsəvvür etmək olmur, lakin gətirdiyimiz nümunədə xüsusi ustalığın bəhrəsi göz qabağındadır. Başqa bir şeirində isə sırf Şəfaya məxsus bir ölçü vahidi ilə tanış oluruq:

Gözlərimin sevinci
Boyun-buxunun qədər...
Gözündəki sevinci
Yozdu yuxun nə qədər?

İndiyə kimi sevincin ölçü vahidi olaraq ən müxtəlif meyarlardan istifadə olunub. Bu cür yüz ölçüb bir biçmək də Şəfanın qismətinə düşüb. “Bu səhnə mənə tanışdı Yaraşar alqışlarıma” - sözlərində isə səhnə və alqış sözlərininin bir-biri üçün tamamlayıcı vuruq olduğunu peşəkarcasına göstərib. Səhnə əslində tamaşanın oynanıldığı yerdir, alqışlar isə səhnəyə yox, oradakı tamaşaya ünvanlanır. Həmin misrada isə metaforik köçürmənin gözəlliyi alqışa layiqdir. Təbii ki, misrada səhnə sözü həm də əvvəllər nə vaxtsa baş vermiş bir hadisənin təkrarı anlamına da gəlir. Yaxud da “Adımı əyninə geyən Bəzənən qara mərmərə” – misralarında başdaşı haqqında indiyə kimi deyilməmiş tamamilə orijinal bir qənaətə gəlinir. Haradan biləsən ki, “adın daşlara yazılsın” qarğışı

başdasını bəzənməyə həvəsləndirirmiş. Şəfa o qədər özünəməxsus müşahidələr aparır ki, sonunda bu qənaətə gəlir: "Həyatla qumar istəsən Oyunda basabas olur".Şəfa Vəli "Poçtalyona məktub" kitabında əsasən sevgili şeirlərini bir araya gətirsə də, ictimai mövzulu olanlarla yanaşı vətənpərvərlik mövzulu olanlara da rast gəlmək olur. Bunlardan biri də Milli Qəhrəman Mübariz İbrahimova ünvanlı şeirdir ki, müəllif qəhrəmanını tapındığım ərənim kimi təqdim edərək "Sevgisini torpağıma sərənim..." sözləri ilə öyür. Şəfa bir yazar olaraq hər müraciət obeyktində bir yaşam izi buraxır. "Bəxtsiz Bakı nağılım, Bağışla ki, xoşbəxtəm" misralarından da göründüyü kimi sonda xoşbəxtliyə sahiblənməyin sevincini yaşamaq olur. Şəfa xoşbəxtlik duyğularını qələmilə çox həzin bölüşərək səmimi etiraf edir ki, "Uçuram... Hey uçuram... Buludlanıbdı sözlər".

"Türküstan" qəzeti. 6-12 fevral 2018

ŞAHANƏ NAĞIL

"Sonun ardından başlayır bütün ilklər". Elə bu nağıl da beləcə başladı. Şair olub şeir kitabının olmamasına son qoyuldu, ilk şeirlər kitabı "Şahanənin nağılı"na döndü. Bu nağılın qəhrəmanı gənc yazar kimi Prezident təqaüdçüsü, nazirlik mükafatçısı olan Şahanə Müşfiqdir. Onun "aybki-tab" layihəsində çap olunan şeirlər toplusu daha təsəlli verə bilmədiyi üçün bir küncə çəkilib yazıq-yazıq baxan xəyal-ların acınacaqlı taleyini o qədər təsirli şəkildə sözə hopdu-rur ki, söz-söz susursan. Danışan isə səmimiliyi ilə ürəkləri fəth edən misralar olur:

Ağaclara yazdığım
Adında qalıb sevgim.
Bir də ki küçənizin
Yadında qalıb sevgim.

Sevmək və nəticədə "Tənhalıq... Güzgülərə olan qorxundur" – qənaətinə gəlmək özündə gizlətdiyi ağrıların izi ilə ələ keçir. O ağrıları əl boyda ürəyinə göy boyda sevgi verib, sevgisizlikdə boğulan bir insanın yaşam fəlsəfəsi kimi başa düşməmək mümkünsüzdür. Keçən hər dəqiqəsi günü yandıran bu insan həsrəti yuxu kimi min bir yerə yozaraq yaşamağın hər üzünə bələd olduğuna bütün səmimiyyəti ilə inandıra bilir. Yasaq sevdaya tamah salan Həvvanın qızı olaraq "Mən dağlar yandıran Tanrı ahıyam" pıçıltılarını, eşitmək istəyən hər bir qulağa söyləyir. Bu ahın mənbəyi də, mənsəbi də sevildiyinin fərqində olmayan seviləndir. Hələ ki, necə dəyər verildiyinin fərqinə varmayan həmin sevimli, üzünə gülən bəxti göz yaşları ilə hədələməklə məşğuldur. Gözlər isə sadəcə

yaşarmaq üçün yox, həm də baxışlara can vermək üçündür. Ən orijinalı isə bu baxışların ağlagəlməz hədəfidir:

Baxışımı göndərdim
Yollarına sərilsin.
Üstündən keç, sevdiyim,
Ayağın toz görməsin!

Müqəddəsliyin ən içdən etirafı "Küçələrə su səpmişəm" mahnısında da ifadə olunub, lakin Şahanə öz fikirlərini o qədər özünəməxsus şəkildə təqdim edir ki, bənzərsizliyə təslim olursan. Hər şey isə dözülməsi mümkün olmayan sənsizliyə qalib gəlmək üçündür. Müəllif olaraq etiraf edir ki, "Mənim sənsizliyim yaman paxıldı, Sənli günlərimi gözü götürmür". Bu mücərrəd varlıqla düşmənçilik etmək məğlubiyyətlə yekunlaşar, amma özünümüdafiə qələbəyə zəmin yaradır: "Ovcuma yığmışam xatirələri Sənsiz həyatımdan gizləmək üçün" - sətirləri sığına biləcəyi son ümid kimi nişan verilir. Bu da köməyə yetməyəndə "Bütün arzuları gözümdə boğub, Sevgim ürəyimdə yoxa çıxıram" – etirafı ilə üz-üzə qalırıq. Yoxluq ayrılıqların özünüifadəsidir. Hər ayrılığın isə gedənlə əl-ələ verməsi geriyə qalanındır. Və bu antitezaya özündən asılı olmayaraq pənah gətirərsən: "İlk dəfə sevdiyin biri son dəfə çıxıb gedəndə ayrılar canından can". Yaşam marağın bir başqa səmtə yön alar. Bir az da fəlsəfədə təsəlli arayarsan: "Həyatı asmışıq gözlərimizdən, Bir qırpım hər şeyin sonu deməkdi" – düşüncələri səni gözünü qırpmağa da qoymaz. Dünyamızın daha fərqli perfomansı ilə qarşılaşarsan:

Balığı suyundan atır özünü
Quşu göy üzündə yer tapa bilmir.

Dənizi qan qoxur, torpağı cəsəd,
Heç kim bu dünyanın gözünü silmir.

Bu dünya ən çox şəhid verərkən gözü yaşlı qalır və gözləri də yaşlı qoyur. Müşahidələrini ümumiləşdirən Şahanə Müşfiq "Şəhid" şeirində bütün faciələrin kəsişmə nöqtəsini göstərə bilir. "Sevgisini hayqırdığı gözlərindən sevgisinə yaşlar tökən nişanlı qız – Şəhid!" – tipli misralar da həmin kəsişmə nöqtəsinin nidalarıdır. Bu nidalar bəzən üsyankarlıq həddini də aşır, "Allahın da yoxdu, Allah, Səni tapşırram sevgimə" – sətirlərində olduğu kimi müxtəlif yozumluluq əmələ gətirir. İlk baxışdan qarğış təsiri bağışlayan bu misralarda Şahanə allahına qarşı ancaq sevgi nümayiş etdirə biləcəyini, onu yalnız sevgisinə hədəf edə biləcəyini etiraf etmişdir. "İlahi, bu dünyan hələ dözürsə, Borclusan bir ovuc düz adamlara" – deyərək sevgisinə qarşılıq haqqının olduğunu da gizlətməmişdir. Eləcə də, onun vətən sevgisi, azalmaqda olan bu hissin səbəblərini araşdırmağa, həmin səbəblərin həll edilməsi ilə vətənə sevginin əbədiyaşarlılığını sübut etməyə çağırışdır. "Manat-manat, qəpik-qəpik, kredit-kredit, qayğı-qayğı azalmısan övladının yaddaşından" – sözləri ilə həll olunması mümkün olan problemlərə görə vətəndən üz çevirənlərə acıyır, hər şeyin vətən üçün yaxşı olacağına ümid bəslənilir.

Şair insanların yalanında güvəni intihar etmiş bir sevginin aqibətini də düşünür. "Eşq səmamdakı ən parlaq ulduzum, Bir dünyalıq insan içərisində yalnızlığımsan" – müraciəti ilə yerlə göy arasında özünə yer edə bilməməyin dəhşətini, acizliyin təntənəsini əks etdirir. "Günəşin başına dolanan dünya Yalanın başına dolanır artıq" – fikrilərində bir ümidsizliyə qapılır, amma "Yadındamı demişdim, Ən gözəl sevən kəsdir, Ən möhtəşəm unudan..." – xatirəsini

yada salaraq möhtəşəmlikdən üz döndərməyəcəyini özünə etiraf edir. “Səssiz getmə, tutulacaq qulağım” – sətirlərində isə yalvarışdan daha çox gələcək üçün narahatlığın əndişəsi hiss olunur. Gedən isə ən çox darıxmaqla yad olunar. Bunun dözülməz olduğunu görən müəllif “Darıxmağı kim icad edibsə, onu görüm mənim kimi darıxsın” – deyərək özünə toxtaxlıq verir. Lakin fəsillər bir-birini əvəzləyir və gedənin dönüşü olmur:

Hər insanın öz fəsli vardır,
Dörd fəslim var mənim də...
Onun ilıq nəfəsi,
İsti qucağı,
Yağmurlu gözləri
Və...
Soyuq yoxluğu

Bəmzətmələr təşbehi mükəmməl sıralanma yaradan bu şeirdə yazdan qışa doğru bütün fəsillərin yolçusu oluruq. Hər birində o qədər incəliklə uyğunlaşdırılmış bənzərliyi görürük ki, bir andaca dörd fəsil yaşayırıq. Şahanənin “Cənnət və sevgi” şeirində isə sujet, əhvalatvari məzmun, bir-birinə məntiqlə bağlanan fikirlər öz Həvvasını cənnətdən vaz keçəcək qədər sevən Adəmin ayrılıq taleyinin sonra bütün sevənlərdə təkrar olunması gerçəkliyinə üsyan formasında qələmə alınıb. Nəyi qələmə alırsa, öz dünyasından yeni bir dünya yaradır Şahanə. “Gülüşünə and olsun ki, bilmirsən!” bu dünya nə qədər xoşbəxtdir səni kimi bir sakini olduğu üçün. Səni sevmək göy qurşağında qar axtarmaqdır “Gözlərindəki səmaya and olsun!”

“525-ci qəzet”. 21 noyabr 2018

EMİN PİRİ "TANRININ KÖLGƏSİ"NDƏ

"Mən sözümdə oluram, Heç özümdə olmuram"- deyərək ədəbi istedadı ilə seçilən gənc yazarlardan biri də Emin Piridir. O, bugünki uğurlarına imza atana qədər məxsusi ömür yolu keçmişdir. Uşaqlığında ayağı böyüdükcə ayaqqabısı yırtılmasın deyə dua edən Emin Piri "Anamın erkən ağaran saçlarında görünürdü ala bilmədiyi oyuncaqlar. Taleyin oyuncağına çevrilmişdik"- deyə bir uşaqlıq nağlı uydurub öz həqiqətlərindən. Bu həyati nağıllarda da uşaqların təbəqələşdiyi açıq-aşkar görünürdü: "Paltarının yamağını gizlətməkdi varlıların gözündən, Kasıb uşaqlarının oyunu". O böyüdükcə nağılları gerçəkləşdirməyə nail ola bildi. BDU-da bakalavr, ADPU-da magistr təhsili aldı.Prezident təqaüdçüsü olan Emin Piri 2014-cü ildə Gənclər və İdman Nazirliyinin "Gənclər mükafatı" ilə də təltif olunub. AYB-də Gənc Ədiblər Məktəbi 2-nin məsul katibi olmuş, həm də Gənclər Şurasının üzvüdür.

Onun ilk şeirlər kitabı olan "Tanrının kölgəsi" 2015-ci ildə "aybKitab" layihəsi çərçivəsində işıq üzü gördü. Kitabdakı şeirlər mövzu baxımından rəngarəng olsa da, janr məhdudluğu ilə yadda qalır. Heca vəznində şeirlər sanki bir eksperiment olaraq kitaba salınıb. Lakin həmin şeirlər öz mükəmməlliyi ilə daha çox diqqəti çəkir. Sərbəst formada isə mümkün qədər yenilikçi olmağa can atıb. "Başının üstə qaldırıb Yer kürəsini soxasan Mairan çökəkliyinə bir qadın ucbatından" fikirləri ilk baxışda çox cazibədar görünür. Lakin fakt odur ki, dünyanın ən dərin çökəkliyi olan Mairan da elə Yer kürəsindədir. Məhz bu yerdə də anlaşılmaz məntiqsizlik diqqəti çəkir. Bir qadının ucbatından dünyanın ən hündür yeri olan Himalaya çıxmaq daha alqışa layiq olardı. Onun poeziyasında sevgi

istəyi sadəcə eminsayağıdı; "Balıqlar dənizi sevdiyi kimi dünyada sevdiyin bir qadın olsa..." nə tora düşərsən, nə tora salarsan. Axı balıqlar dənizi susuz yaşaya bilmədikləri üçün sevirlər. Onlar dənizi ölümünə sevməyə məhkumdurlar. Bu məhkumluq insani sevgilərə keçsə, hər şey sevgidən doğulmazmı?! Onun "Sevgi" şeiri sevginin əsl düsturudur. Məlum olur ki, sevgilinlə birgə göyərçinə dən atmaq, dalğalı dənizdə onunla boğulub ölməkmiş sevgi. Daha bir bənzətmə: "Fanatı olduğun komandanın son dəqiqə vurduğu tarixi qoluna sevinərək bir-birinə sarılmaqdan da yaxındı Sevgi". Sonralar sevgi başqa şəkillərdə təzahür etməyə başlayır - "doğum evi önündən keçərkən sevdiyinin gizli təbəssümünə dodaqaltı qımışmaqla cavabındı sevgi". Ən maraqlısı odur ki, sevgi elə ailədaxili huzur imiş: "Gecə-yarısı körpə qığıltısına oyanıb səhərəcən növbəylə beşik yelləmək..."

Bəzən isə bu huzura insanların öz ürəklərinin istəyiylə, öz əlləriylə son qoyulur. "Kimlərinsə ömür boyu arzuladığı körpə səsi cərrah bıçağı ilə kəsilir..." Ya da bəzi körpələr dünyaya daş kimi düşürlər."Atılan daşlardan atılan uşaqlara xoşbəxtlik sarayı tikmək olardı".Bəlkə də, buna görə onun eşqanə düşüncələri tamam fərqlidir. "Səni sevmək müsəlman orucunda iftara gələn çoxillik şərab kimidi..." Oruc və şərab müqayisəsi qadağan gücüylə yanaşı, bir cəzb etmə xüsusiyyətinə də qadirdir. Bu, qovuşmağa olan ən son ümidin də ümidsizliyə yuvarlanması deməkdir. Necə ki, oruc tutan müsəlmana şərab qadağandır, eləcə də səni sevmək aşiqinə qadağandır. Bəlkə də, buna görə şairin vəsf edəcəyi gözələ verdiyi tələblər fərqlidir; "Mən şeir yazmıram, xanım, dadın bilmədiklərimə". Əgər sevgi dadını itirərsə, şair bunun da çarəsini tapa bilir. "Yaşayıb güldürmədim səni doyunca, qoy, ölüm... doyunca ağladım səni".

Sevgiyə başı qarışan şair təbiətin heç bir addımını da gözündən yayındırmır, hətta o qədər qıza ilişib utandığından dağlara qaçan, oturub ağac kölgəsində özünü küləyə verən küləyin mücərrədliyi də şairanə baxışlardan xilas ola bilmir. Yəqin ki, bunun da öz səbəbləri var. "Ağaclar sinəsindən cırıb yaşıl köynəyini yaydan insaf dilənir". İnsaf naminə yağmağa başlayan yağmurun da müşahidəsi bənzərsiz olur. "Dodağı çatlamış asfalt küçələr çəkib bu yağışı dodaqlarına dodaq boyası kimi göy üzüylə öpüşər". Bu yağışın "Zərbədən ürəyi gedib yıxılar, yollar sərilər ayaqların altına". Yağışla söhbətini bitirən yazar "Qar qardaş, mənə görə yox, atama görə yağma o, yalan danışmağı bacarmır, ata oğul arasına girmə, qar"- deyə onunla da dil tapmağa çalışır. Bəzən isə quruda yaşayanlardan uzaqlaşıb, sualtı aləmə də dəvət edir bizi; "Pullupulsuz, hamısı pula gedən balıqlar". Pul sözünün ustalıqla balıqla insan arasına girməsinin təsviri göz önündədir. Balıqçı qardaşa heç kimin ağlına gəlməyən məsləhətlərini edir. "Bir dəfə də öpüş qoy tilovuna, bəlkə, sevgiyə aldanıb bir balıq düşə "toruna".

Qəbul edilmiş ədəbi standartlara əsasən Eminin şeirlərində müharibə mövzusu daha güclü alınır. Bunu onun vaxtı ilə leytenant kimi zabit işləməsiylə əlaqələndirmək nə qədər doğru olar bilmirəm, lakin bir şair dünyagörüşünün təzahürü kimi başa düşmək daha qənaətbəxşdir. Müharibə onun şeirlərində sadəcə "eminsəl" status qazanıb.Torpağa basdırılan minalar çiçək açaraq anaların yuxularına qaçanda, o yuxuların qara xəbərin ardınca qaçdığının şahidi olmaqdan da betər bir hiss varmı ki?! Ayağı özündən qeyrətli çıxana təsəlli vermək olar, baxmayaraq ki onun "Cəbhədə qalan sağ ayağının təqaüdünü də sol ayağı alıb xərcləyir!"Ayağın əsl görəvi elə ayaqlamaqdı. O, cəbhədə qalan ayaq düşməni

ayaqlamaqdadır. Düşməni ayağına gətirən ayağın bir tayı isə o birinin yerinə aldığı təqaüdün qarşılığı olaraq, onun görməli olduğu işləri də görür.Həmin bədəni daşıyan müharibə qurbanına ayaqsızlıq dərdi çəkməyə imkan vermir. Bir dərdini iki eləmir, iki ayaqdan bir dərd yaradır. Ayaqsız şeirlər yazmaqla ürəyi soyumayan şair, cəbhədə əllərini itirənlərin də əllərindən sözlə tutub."İndi kitabları arasında qurutduğu Gül ləçəklərində axtarır Sevgilisinin cəbhədə itirdiyi əlləri".

Onun şeirlərindəki müharibə hər bir fərdin həyatına bir cür müdaxilə edir. Qızlara müharibənin təsiri belə olur ki, "Əsgər deyil, sevən qızın arzularını götürüb gedər hər atılan güllə". Analara müharibənin verdiyi "töhfələr" isə daha amansızdır; "Şəhər bombalanarkən itirmişdi altıaylıq körpəsini. Qoparmışdı əllərindən mərmilər. Bir qolu balasında biri özündə qalmışdı ananın..." Bu ananın taleyində bir romanı dünyaya gətirmək olar. "On altı il keçsə də, ana balasını axtarırdı, altı aylıq körpələr arasında". Bu müsibətlər insanlar tərəfindən insanlara edilən işgəncənin son həddidir. "Hamıdan çox uşaqları sevər müharibələr". Övladların həyatında müharibə daha ağlagəlməz şəkildə biruzə verir. "Bu qızcığaz da cuppulu barmaqlarıyla qıdıqlayır atasının baş daşını". Bu gün də davam edən vətən üçün cana qıymaq ləyaqəti insanların həssas nöqtələridir. "Şəhid məzarlarını mərmərə bükdük, daş qoyduq başlarına" - cümləsində çoxmənalılığın çoxluğu əlində aciz qalırsan. "Əmi deyib üstümə qaçır başdaşları, bir əsgərin ölüm günü başdaşının doğum günüymüş". Hər ölüm bir məzarın doğumuna bərabərdir, illər keçir və məzarlar doğulsa da, oradakı ölümlərin yaşı artmır. Emin lap uşaq olarkən şəhid olanlarla, onun indiki yaşı arasında əmi deyiləcək qədər zaman məsafəsi keçib. "Analar uşaq yox şəhid doğur daha". Bəlkə də, buna görə Emin hər şeydən

öz baxış tərzi ilə nəticə çıxarır; "Hər qız qalası yanında bir oğlan qalasın istər. Ancaq Şuşa qalasına qonaq getmək də keçir könlündən bizim Qız qalasının..."

Eminin şeirlərində gözüaçıq bir zəmanə adamının müşahidələrinin izlərini görmək olur. "Daram çəkilmiş neft boruları Atamın təzyiqli damarlarına bənzəyir. Ürəyinə qayıtmırsa, bəs, hara axır bu qan?" Çox mükəmməl bir bənzətmə üç misrada tamamlanıb. Damarlar və borular, qan və neft hər ikisi təzyiq yaradır. Amma ürək daha çox təzyiqə məruz qalır. Və etiraf edirsən ki, "Canavar südünə susayıb dodaqlarım Ergenekondan bəri ilk dəfə belə yalnızam..." Yalnız olsan da, milli kultun olan Boz Qurda tapınmağı yaddan çıxarmırsan. Emin Piri bənzərsizliyə israrla cəhd edən gənclərdəndir. Lakin bəzən nağıllara inanmayan qıza elə ürəkbulandıran nağıl danışır ki, poetik zövq hikkəsindən çatlayır; "Zəhərlənəndə qonşu uşağı balıq qaytaranda, ət qaytaranda boğazımda nağıl ilişib qalıb, ağzımdan şeir gəlib". Bu nağıl şahzadəsi sözünü şahzadəsayaq desəydi, daha bəlağətli olardı və o qızcığaz da inanardı... "Yalançı dindar"ın iç üzünü açan şair bildiklərini bölüşməkdən çəkinmir. "Sən özün günorta namazındasan, Fikrin bu gecəy çün bir xanım gəzir".

Emin "Allahın zarafatını" bəndələrlə edir. "Şeytan da bezikib çıxa özündən, içindən allahın özü boylana..." Hətta o, "Allah da göydən qışqıra: Emin bu zarafat deyil?!" - sözləriylə iblisə qoşulub getmək, Allahın dalınca qeybət etmək və mələkləri arxasıyca yalvartmaq iddiasındadır. Onsuz da, sonunda hər şeyin içindən allah çıxır. Buna əmin ola-ola, görəsən, niyə "Sənin üçün darıxmışıq, İlahi" şeirini yazdırır tanrı ona?! O da ilk bənddəcə sualına cavab arayır; "Bəlkə, kimsə keçib sənin yerinə, Bir yol göstər, karıxmışıq, İlahi!" - deyir. Bəzən də lap özünəməxsus bəndəliyi tutur Eminin: "...lap yolundan

çıxardıb allahsız edərlər səni. Qorxma sənincün dua edəcəm: Tanrı səni qorusun, Allah!" Çünki allah da görür ki, "Adam öldürənə medal havayı, Görüb dinməyənin işi bir ildir". Bu bir danılmazlıqdır ki, "Sən- dediyim hər şey Sənin istədiyin bu deyilmi, - məni Sənə basdırsınlar". Şairin bəzi düşüncələri isə daha da üzütanrıyadır; "özün öz Allahını unudarsan məni allah bilərsən özünə... Mənə bel bağlama..." Bütün bəndələr kimi şairlər də cismən ölümlüdür. Buna görə də, Əzrayıla deyir ki, "...Bir də gördün yaradana Çatdırıblar, - aramızda nəsə var!" Tanrısına bildirir ki, "Sənə də can borcum qalıb, nisyə dəftərinə yazarsan məni". Can borcunu canla-başla ödəmək üçün "Döyülməyə qapım yoxdu, Özüm özümü döyürəm" - söyləyərək müasir ədəbiyyatımızda öz sözünü deməkdədir Emin Piri.

"525-ci qəzet". 11 sentyabr 2015

ELMƏDDİN NİCATA MƏKTUB

Poeziya ruhumuzun şeirləşməsidir. "Qəlbi, ruhu daş adama, Nəsə həkk eləmək olmur". Amma qəlbinin döyüntüsünü poetikləşdirən şair dostumuz, Elməddin Nicat, "Sənə şəkk eləmək olmur". Niyəsini "Dağlar, yuxunuz çin olsun" adlı kitabına münasibət bəsləyərək təsdiqləyə bilərik. Müxtəlif mövzulu və müxəlif janrlı şeirlərinlə düşüncələrimizi əsarətdə saxlamağı bacarmısan. Təbriklərimi də, təşəkkürlərimi də ürəyimdən gələn kimi təhlil edəcəm və səndən bir xahişim olacaq. "Səni sevdiyimi hamıya danış, Məni sevdiyini heç kimə demə". Səbəbini özün də bilirsən ki, "İlk eşqi itirən sevən ürəklər, Eradan əvvəlki xarabalıqdır". Ona görə də, yekun qənaətin, son qərarın bu oldu ki, "Dünyanın ən ağır dərd şələsini, Elə şairlərnən sevənlər çəkir". Səni bu nəticəyə gətirən yollar çox uzundur:

Sevən kəs həsrətdən gərək qorxmasın,
Sevgi saray edər uçuq daxmasın.
Heç kəsin bəxtindən ulduz axmasın,
Məni məndən axan ulduz yandırır.

Səndən axan ulduz elə səmada sayrışır: "Yığıb öz başına ay-ulduzları, Həftə ulduzvari, ay ulduzvari". Qafiyənin gözəlliyi və özəlliyi öz yerində, amma həftəmizi, ayımızı səmada yaşamaq haradan gəldi ağlına?! Özüm bilirəm; "Ötən illər bir qərənfil həyatı, Xallı lalə-oxunmamış bayatı". Gözəl təşbehdir, artıq ədəbiyyatımızda niskil rəmzi kimi formalaşan qərənfili ötüb-keçmiş, kövrək xatirə simvoluna çevirərək, müdafiəyə qalxmısan. Lalənin bağrı qara xallı dörd ləçəyi ilə dörd misralıq bayatının

bənzəyişindən yaranmış gözəllik! Lalə çiçəyi də bir dənə olur, bayatı da bircə bənd. Elə əsl sevginin də bircə ünvanı olar: "Mənim o qız adlı məhəbbətim var, o qızın mən adlı oğlu yaşayır". Axı özün söz vermişdin ki, "Mən sənin yanından payız getmişəm, Haçansa yanına gələcəyəm mən". Bu payız iki anlam daşıyır, həm tərzi-hərəkət zərfliyi kimi, yəni sənin yanından gedəndə öləziyən payız idim, həm də zaman zərfliyi kimi ki, paralelində yaz dayanır. Sən o yazın adını da dolayısı ilə yada salırsan. "Qaranquş gələndə göz-qulaqda ol, Haçansa yanına gələcəyəm mən". Qaranquşlar baharda gəlir və sən payız-yaz, qış-yay tərs mütənasübliyindən elə bir düz mütənasüblük yaratmısan ki, ancaq heyrətlənmək olar. Sənsə hələ suallara qərq olmusan "Üstümə çevirib ordumu yoxsa, Könül, nə deyirsən bu məhəbbətə" və ustad Məmməd İsmayılın "Mən buna məhəbbət demərəm daha" misralarına qüvvət verən "Mən buna nə cürə məhəbbət deyim?" sualı ilə cavab qaytarırsan. Ustadla üst-üstə düşən qərarlarınız kifayət qədərdir. M.İsmayıl deyir ki, "Sən həmənsən, sən həmənsən, sən həmən, Hey baxıram qəlbimdəki sənə mən. Xəbər tutub sən də mənə baxasan". Sən də deyirsən ki, "Elə sənsən, elə sənsən, elə sən… Xəyalıyla varlığıma köçənim, Ay könlümü dərdinə yurd seçənim". Əsl doğmalıq, əsl könül istiliyi! Bununla belə özünəməxsus sevgi etirafların da danılmazdır:

Sevinc yola çıxıb, həsrət ilişgən,
Ürəyimdə qalıb sevgi tilişgən.
Gərək itik itirənlər demişkən,-
Gərək səni itirəndə gəzəydim.

Sevinc həmişə yol üstədir, bəlkə, haradasa onu gözləyənlər olduğunu yaxşı bilir, bu səbəbdən qaçaraqdır.

Həsrətsə gözləri yolda qoysa da, özü üçün heç kəsin gözü yolda qalmayacağından əmin olub, əlinə keçən ilk mənzili yuva seçir. Belə anlarda isə ürəyinə damır ki; "Bu gecənin o üzündə, Bir qaragöz qız ağlayır. Başından tüstü buğlanır, Od ruhu bumbuz ağlayır". Gecənin qaranlığı və qara gözlər- bir-biri üçün yaradılmış tapıntıların. Həmin yerdə yerinə düşən təzadlar- odlu ruh və bumbuz göz yaşları! Od işıq saçır, gözlər qaradır. Yəni, qaranlıq işığı və istiliyi beləmi təslim edir ki?! "Gözlərindən düşür yarpaq, Yuxalıb payız ağlayır". Yarpağın budaqla qovuşduğu yer onsuz da bioloji gözləridir, amma bu yarpaq öz budağından yox, payızın gözündən düşür. Gözdən düşmək frazemi isə bu misralarda ikili mənaya gətirib çıxarır. Yarpaq hansı günahın sahibidir ki, payızın gözündən düşür!? Aydın olur ki, təbiət mövzusuna da tamamilə yeni baxış bucağından göz gəzdirmisən:

Yığılan bənövşə qomu yaşamır,
Zirvədə səhranın qumu yaşamır.
Mən yaxşı bilirəm hamı yaşamır,
Yamyaşıl içində ağ-qara ömrü.

Açıqca görünür ki, poetik fikirlərində təbiətlə üzvi əlaqən kəsilmir. Əldə etmək istəyimiz bənövşəni əlimizdən xilas edə bilmir, ancaq onun gözümüz önündəki ölümündən elə bir bihuşedici həzz alırıq ki!!! Zirvənin payına qar, səhranın payına qum düşüb, bu ahəngi pozmaq bizim imkanımız xaricindədir. Ona görə ki, "Gözümü açıram göl ləpələnir. Kirpiyim altında ada yaşayır". Bu misraların açılışına sözmü çatdırmaq olar. Göz gilələrimiz yaşardıqca suya qərq olur, hər tərəfi su ilə əhatə olunmuş adaya bənzəyir. Bu bənzəyişi isə tapıb üzə çıxarmaq

yalnız sənin qüdrətin daxilində ola bilərdi. Amma sən nə deyirsən:

Uduzdum sevda cəngində
Yaxam əzabın çəngində
Sifətim nərgiz rəngində
Duruşum bənöşə kimi.

Sarışın nərgizlə, qaraşın bənövşənin vəsfi ədəbiyyatımızla birdir. Amma bu cür ifadə forması, nərgizin, bənövşənin insaniləşdirilərək təsviri niyə klassiklərimizin ağlına gəlməyib bəs?! Yəqin ona görə ki, "Ürəyimdən gələn səsdən, Özümü asdım yaşadım" deyərək bu pıçıltıları tanrı sənincün pünhanlayırmış. Bu da səbəbsiz deyil e "Ancaq tutur içimdəki arzumu, Dünya mənim içim boyda görünür". İçinə baxış keçirdikcə biz də orada nələrisə görə bilirik: "Səpilməyib qan toxumu, Ruhum qada, qan qoxumur, Ürəyimin qan qohumu, Ululardan ulu dərdim". Bu dərdə elə sahiblənmisən yaddan çıxarmısan ki, hamının dərdi var. Sənsə hələ öz rejissorluğundasan: "Bir ürək bənövşə şəklin, Ürəyi kövrəklər çəkir. Dərd ayrıca bir filmdi, Onu da ürəklər çəkir".O ürəklər ki, "Taleyi kəm görüb gözüm duruxdu, Həsrətim diribaş, bəxtim dunuxdu" - söyləyərək gileylənir, "Özümdən özümə acıq olmuşam, Qəlbi dərddən cızıq-cızıq olmuşam" etirafıyla üsyanına pənah gətirir. "Qəlb sınır təmir eləmir Susub səs-səmir eləmir. Gözlərim çimir eləmir, Yatsın mürgünü qorusun". Həqiqətən əsl tapıntı. Məncə, bunun köklərini folklorda axtarmaq yerinə düşər:

Sabahı var hər gecənin,
Dişi batmır göy gürzənin,

Bu qapı keçəl Həmzənin,-
Atını bağlama dünya.

"Koroğlu" dastanının ən məşhur epizodu, həm gözəl qafiyə, həm də danılması mümkün olmayan poetik kəşf. Folklor da folklordu də:

Həsrətim, istəyim söndü, soyudu,
Sevincim kiçildi, dərdim böyüdü,
Vüsalı gözümdən göz yaşı yudu,
Necə ki, Saranı sellər apadı.

Şifahi ədəbiyyata müraciətin yetkin bəhrəsini görürük. Öz sözləriylə desək: "Məni məndə tutmağa, Bir tələdir qurdular". Bilirsən axırı nə oldu?! "Əziyyət çəkmirəm iş axtarmaqda, Hər zaman başıma dərd iş eyləyir". Dərd də var, dərd də var, amma bu dərd ellə gəlib, lakin atalar misalının əksinə olaraq toy-bayram deyil:

Yağı çəmənimi, çölümü sevir,
Yəqin ki, taleyim zülümü sevir,
Çoxu qaçqınlıqdan ölümü sevir,
Qaçqın ölməyimdən yamam qorxuram.

Heç belə qorxuyla qorxuya düşdüyüm olmamışdı. O qədər səbəblər var ki, "Ölülər içində üzüm də olmaz", "Qaçqın çağrılaram o dünyada da". Amma bu dünyanın qıl körpüsü daha da dəhşətli imiş: "Sıxılıb həyatın məngənəsində "Səyyarı yardım"lar məntəqəsində, Dilənçi payının təntənəsində Bir qaçqın şeiri deyəcəm sizə". Deməyə ehtiyac qalmadı "Başa gələcək işlərin, Ürəyə daman yerisən". Ammahər yerdə özünə yer eləmək də yerbəyer olmalıdır:

Hayana baxıram dərd yerləridir,
"Kefin kök, damağın çağ olan yeri".
Onun həsrətinin yurd yerləridir,
Mənim saçlarımın ağ olan yeri.

Misralar özü, öz gözəlliyini faş edir, mən nə əlavə edim ki?! Əgər belə bir fikrə düşsəm məktubum bitməzlik xəstəliyinə tutular. Ən yaxşısı sağollaşmaqdır:

Baxıb bu günündə öyünmədiyim,
İkiyə bölünən məmləkət kimi,
Boy atıb qoynunda böyümədiyim,
Həsrətin çəkdiyim doğma kənd kimi,
Sən mənim yadıma yaman düşürsən.

"Azad Azərbaycan" qəzeti. 4 iyun 2013

FAİQ HÜSEYNBƏYLİ YARADICILIĞININ ÇALARLARI

"Bugünkü ədəbiyyat qatar relsinə bənzəyir. Bu relsə düşənlər nə yazır yazsın, imzası üstündədirsə, ingilis demiş, "no problem". Bu sözlər ədəbiyyatşünasın elmi əsərindən deyil, şairin şeirindən misralardır. Söhbət hələ də gənc yazarlar sırasını tərk eyməyən Faiq Hüseynbəylidən gedir. İlk prezident təqaüdçülərindən olan şairin yaradıcılıq konsepsiyasını bu il çap olunan "Yer üzü bir beşikdi" kitabındakı "Heç nə özlərindən icad eləmir, Şairlər Allahın dilindən yazır!"- misralarıyla müəyyən etmək olar. "Söz üstünə söz demədim, Dediyim söz sözü çəkməz" - fikrilərinin müəllifi, bu kitabında şeirlərini yazılma illərinə görə fəsillərə bölmüşdür. Açıq-aydın görünür ki, ildən-ilə şairin qələmində püxtələşmə gedir. "Sətir üstə yer qalmadı, Keçdim sətir altına. Sözlərimi xərcləsən, Gərək qalmaz altuna" - misralarından da yazarın nizamisayağı sözə məsuliyyətlə yanaşmasının şahidi oluruq. Elə əminliklə hökm verir ki, bunu yalnız sözü söz olanlar dilə gətirə bilərlər: "Yandır sözü, işıqlandır zülməti". Bu əminliyin içində sözün əzab-əziyyətlə yandırılıb-yaxılmasının da atəşini görə bilərik:

Söz kimi götürdü, söz götürən kim?
Sözünü tapan kim, söz itirən kim?
Kimdi söz aparan, söz gətirən kim?
Biz sözdən qaçmadıq, söz gəlir bizə.

Şairin sözə tapınması həyati bir məsuliyyət formasında təzahür edir; "Sözü yaman günə qoyur, anlamır, Samitin haqqını saitə verir". Söz haqqını qorumağa iddialı olan

Faiqin də şeirlərinin əsasında folklordan qədərincə yararlanmağın nəticəsini görə bilirik. “Bu arzular, ümidlər, Hansı yola can atır? Bir tərəfdə it hürür, Bir tərəfdə div yatır” - sətirləri Cırtdanı yol ayrıcında qoyan nağıl söyləyənə bir gileyin təzahürüdür. Elə qulağımız söz eşidib, nağıl dinləyəndə tanış olduğumuz ilk qəhrəman getməli olduğu yolla getmir. Uşaq yaddaşında “yolunu azmağın” bu cür ifadəsi şüuraltına həkk olunur. Bəlkə də, səhvlərə olan meylimiz də buradan qaynaqlanır ki, sonucda, onsuz da, Divə qalib gələcəyik. Amma bir nüansı unuduruq ki, “Məlikməmməd ömrümün divi getmir yuxuya, Hansı donu geyindirim gözümdəki qorxuya?” Beləcə nağıllar aləmindən real dünyaya çatanda görürük ki, “Kədər ilə qonşuyuq - Qoşadı eyvanımız”. Bu elə bir qonşuluqdur ki, köç qurtar, təsəllisi köməyə yetmir. “Yetənlər yetdi mənə, Yetməyənlər daş atdı...” – misralarından nəyin yetərincə olduğunu görürük.

Hətta Faiqin şeirlərində fəlsəfi yanaşmaların da yer aldığı bəllənir. “Bir udumluq xoş ömür dağların özü qədər dəniz səviyyəsindən uzaqdı” - fikrində, şairin yaşam fəlsəfəsinə öz mövqeyindən yanaşmasının nə qədər orijinal işlədilməsi ortadadır. Bu səbəbdən də, “Alın yazımın səhvini Pozub yenidən yazıram” - misralarında asilik axtarmaq məntiqə sığmır. Aydınca görünür ki, şair elədiyi səhvdən nəticə çıxarmağa o qədər aludə olub ki, bunu alın yazısına çevirməyi bacarır. “Hər kəsin Allahı var, Kim deyir Allah təkdi?”- sualı verilməmiş cavablandırılır. Əgər insanlar Allahlarını belə tanıyırlarsa, o zaman “Şeytan da bir mələkdi, Adamlar olmasaydı...” düşüncəsinə səbəb nədir?! Belə çıxır ki, şeytan insanları yox, insan şeytanı yoldan çıxarır: “Ruhum qalxır yuxarı, Canım aşağı düşür. Bu qansızlar içində Qanım aşağı düşür”. Təzadlar üzərində qurulmuş həmin bənddə poetik tamlıqla yanaşı, bəşəri təəssübkeşlik

də göz önündədir. İnsanlığın qanında qanmazlığın irsiyyətini daşıdığı bir dünyada "Ağlamaq-bətnində kədər daşıyan feildi"- fikri düşüncəmizi hərəkətə gətirir.

Faiqin şeirlərində diqqəti çəkən əsas məqamlardan biri də sözün çoxmənalılıq xüsusiyyətindən ustalıqla istifadə etməsidir. "Yola saldığım yollar Qayıdarmı üzümə? Yolların qolları var, Yollar düşür izimə"- İkinci və dördüncü misralardakı frazemlərin müxtəlif yozumluluğu hiss olunur. "Qayıdarmı üzümə" ifadəsi geriyə dönmək anlamıyla yanaşı, üzünə qayıtmaq, üzünə ağ olmaq mənasını da verir. Eləcə də, "yollar düşür izimə" misralarında "düşmək" feili həm "uyğun gəlir", həm də "uğur gətirir- ayağı düşərlidir" anlamında da başa düşülür. "Mən özüm bu dünyaya Gətirmişəm yolumu"- misralarında da oxşar əlamətləri sezə bilərik. Burada həm yolumu bu dünyadan salmışam, həm də doğuş anlamı verən dünyaya gətirmək ifadəsi var. Başqa bir nümunədə "Apara bilmədin özünü, Əcəlin apardı səni"- cümləsinin müxtəlifliyə yozulma əlamətlərini görürük. Özünü apara bilmək frazemi əslində xarakter xüsusiyyətilə bağlı bir ifadə olsa da, həmin misrada "aparmaq" feili "ölmək" feilinin harayına çatır. "Gözümdən gətirmişəm, Qan-yaş tökdüyüm fikri"- sətirlərində də fikirlər haçalanır. Yəni qan-yaş ağlamaq göz orqanı vasitəsilə olan bir hərəkətdir. Şeirdə bu mənayla yanaşı, "gözündən gətirmək" frazeologiyası ilə də qarşılaşırıq. "Sonuncu mənzilə yola salıram, Gətirə bilmirəm yola dünyanı"- cümləsində də yola salmaq və yola gətirmək ifadələri bir-birini tənzimləməklə qarşılaşdırılıb. Faiqin şeirlərində maraqlı özünəməxsusluq kimi onu göstərə bilərik ki, bəzən sətirlər bir-birini tamamlamaq üçün bir-birinə zidd olur. Düzünü etiraf etsək, xoşagəlimli bir ifadə forması meydana gəlir; "Gözümün odun aldılar, Gözüm odunu axtarır", "Əldən ələ

gəzmişəm, başa geyilməmişəm", "Rəngi çıxır yanağına, Tanımaq olmur insanı", "Ürəklər də döndü daşa, Dünya daş ilə dolmadı", "Yol özü addımlayır, Qaytar izimi, Allah!"- kimi nümunələrdə poetik bir bitkinlik var. Misralardakı fikirlər nə qədər bir-birini itələsələr də, sanki bir-birilərinə pərçimlənib. Buna bənzər digər nümunələrdə isə təzaddan törəyən ziddiyyətsizlik özünü göstərir. "Sual var ki, can verir, Sual var ki, can alır", "Bir az yaxın ol, nolar, Yerdən Tanrıya kimi...", "Xəyalımı uçurma, Xəyalımı qur, gedək!", "Deyirlər, ölənlər haqqa qovuşur, Onda, günahlarım diri günahdı", "Sinəmə dağ çəkir rəssam, Dağı çəkən düzü çəkməz?"- tipli misallarda da özünüifadənin təkrarsızlığına cəhdi görürük.

Bununla yanaşı, bəzi nümunələrdə ana dilinin ifadə imkanlarının genişliyinin şeirə uğurlu tətbiqini müşahidə edirik. Məsələn: "Sabaha meydan oxuyan Bu gün kimdi, dünən kimdi?" - cümləsində "bu gün və dünən" sözlərini sintaktik baxımdan həm mübtəda, həm də zaman zərfliyi kimi başa düşmək olar. Bir ayrı yerdə isə omonimliyin hesabına dilin poetik qüdrəti nümayiş etdirilir: "Əqrəblər saatı sancır, Saatda vaxt ölür ancaq". İlk baxışdan nəzərə çarpmasa da, əqrəb isminin həm saatın bir detalı olduğu, həm də həşarat adı olduğu məlum olur. Belə bir məntiqi (bəlkə də, heç məntiqə dəxli olmayan) nəticə çıxır ki, vaxtın ölümünə səbəb əqrəbin saatı sancmasıdır. Bir maraqlı detal da "ağrı"maq sözü üzərində aparılan eskperimentdə üzə çıxır. "Ağrı gah ağrıyır, gah ağrımayır- Hərdən bu ağrı da naşı ağrıyır..." və ya "Ağrı dağda dumanam, Dumanın ağrımasın..." Verilmiş münumələrdə həm "ağrı" ismini, həm "ağrı"maq feilini, həm də Ağrı dağı birləşməsində xüsusi ismi görmək olur. Maraqlı burasıdır ki, onun sözlə bu cür müxtəlif üsullarla oynaması sevgi məzmunlu şeirlərində də özünü göstərir. "Eşqim ilə

oynama, Uduzacaqsan mənə...” əminliyinin arzu olunan tərəfləri də varmış: “Yenidən vurulub hasil olasan, Arzunu, xəyalı atıb sevəsən”. Yenə də təzad vasitəsilə əslinəuyğunu tapmağın məharətini görürük: “Sənə açdım ürəyi, Bağla, soyuq dəyməsin”, “Dəyişmişəm qibləni, Sənə tutdum üzümü”, “Sən yandırdın özünü, Kül başına, ay Faiq”, “Məni sevdiklərim atmasın deyə, Mən özüm özümü atıb gəzirəm...” Bu misraların hər birinə açıqlama gətirsək, iş çox uzanar, lakin bəzi misralara xüsusi yanaşa bilərik. “Səndən sonra quşlar da Saçıma dənə gəlir”- sətirlərində “dən” sözünün həm quşlarla, həm saçlarla necə ustalıqla əlaqələndirilməsi alqışa layiqdir.Bəzən isə səmimi sevgi pıçıltılarının ürəkoxşayan ifadə formasını təqdim edir. “Mən niyə hələ də mənim Olmayan səni sevirəm?” - sualının cavabsızlığı kimi. “Mən sənin adını çəkmirəm daha, Adın dodağımdan qopub dincəlir...” İlk sətirdə sanki üsyankarcasına imtina qərarını duyuruq, amma sonrakı sətir dərhal fikrimizi dəyişir. Sən demə, adını çəkmirəm dediyinin adı heç dilindən düşmürmüş. “Nə gözəl dağ çəkirdin, Çöllərə düşdünmü, qız?” misralarında bir folklor şirinliyi ilə yanaşı, dağ və çöl sözlərinin yaratdığı ziddiyyətin qanunauyğunluğu da var.

Faiqin vətənpərvərlik mövzusunda yazılmış şeirlərinin əsasında “Vətən, sənin taleyini, Ürəyimə xal elədim” mahiyyəti dayandığı bəlli olur. Bəzən isə adi bir detalın qeyri-adi ifadəsini görürük: “Cavab atəşiylə susdurulan düşmən məğlubiyyətdən doğan zəfərdi”.Faiq Hüseyn-bəylinin bir sıra əsərləri bütövlükdə özünəməxsus kamilliyə malikdir. Buna “Zamanın koordinatorları”, “Gürcü qızı Teyyubə”, “Nyuton, Arximed və Tanrı”, “Söz akkordları”, “Səbəb”, “Əlahəzrət zaman” və sair şeirləri nümunə çəkə bilərik. Forma eksperimenti aparılan şeirlərinə isə “Yeddi məhəbbət məktubu”, “Gizlənqaç” şeirlərini göstərə bilərik.

"Gətirmişəm" şeiri "Şəngülüm, Şüngülüm, Məngülüm" əsərini xatırladır. Əruz qoxusu gələn şeirlərinə isə "Allah sözü", "Küsmüş mələyim məndən" və "Yıxılır" əsərlərini misal çəkə bilərik. Hətta onun qəzəllərində də uğurlu misralara rast gəlirik: "Məni bir dərdə sala ağlamaram, Fələyin hökmüdü bu, gülməlidi"- beytində "ağlamaram" və "gülməlidi" sözlərinin antitezası poetik çalar yarada bilib. "Faiq, aldanma səni məşhur edə şah əsərin, Şah da qurban olur aaa... verdiyi fərmana görə"- beytini həmin qəzəlin şah beyti hesab etsək yanılmarıq. Ümumilikdə, Faiq Hüseynbəylinin həmin kitabdakı bu fikirlərinə şərik çıxmaqda haqlıyıq: "Duyan könüllərə gömürəm sözü, Dodağa yazıram, dilə yazıram".

"Palitra" qəzeti. 12 dekabr 2015

RAMİL ƏHMƏD VƏ YA "ZAMAN TUNELİ"NDƏ ZAMANI SIFIRLAYAN ŞAİR

Çağdaş ədəbi gəncliyimizin ən məhsuldar gənclərindən biri Prezident təqaüdçüsü, Gənclər mükafatçısıRamil Əhməddir. Onun işlək qələmi tələbəlik illərinin ən sadiq yol yoldaşı oldu. Ramilpublisistik yazıları, dünya ədəbiyyatı və filmləri barəsində esseləri, şeirləri ilə diqqət çəkir. Onun orijinallığı ilə seçilən ilk kitabı - "Zaman tuneli" "AYBkitab" layihəsi çərçivəsində işıq üzü gördü. "Zaman tuneli"texniki tərtibatından tutmuş şeirlərdəki məcazlara qədər özünəməxsusluğu ilə fərqlənir. Kitab 7 bölmədən və 77 şeirdən ibarətdir. Burada keçmiş və gələcək iç-içə keçirilib, ağ və qara arasındakı xətt pozulub. Hamı və hər şey sınıq güzgünün göstərdiyi kimi yüzlərlə hissələrə bölünüb. "Zaman tuneli"ndə parçalanma təkcə məzmun qatında yox, həm də eksperimental formalarla, vizual oyunlarla təqdim olunur.

Buna misal olaraq "Neonağıl" şeirinin çap zamanı "apple"-ın rəmzi alma şəklində verilməsini göstərə bilərik. O, burada təkcə şair kimi yox, eyni zamanda rəssam kimi də bizi təəccübləndirir. Bu şeir, bəlkə də, alma haqqında bir poema yazılacaq tutuma malikdir. Şeir Cəlil Məmmədquluzadənin "İki alma"sındakı uşaqlıq almasevərliyi kimi başlanır. Lirik qəhrəman da həmin hekayədəki kimi uşaq vaxtı almanı bəyənmədiyi meyvələr sırasına daxil edibmiş, hətta dişləyib atırmış. (Bu dişləyin yeri sonralar görünəcək). Nə fərqi var ki, "alma almaya bənzər". Həmin dişlənmiş alma hələ öz budağındaykən Nyutonun başına düşür. Bu böyük alimin isə onun içindəki "qurdlardan" xəbəri yox imiş. Elə o qurdlar qoymadı ki, alma göyə üz tuta, təpəsiüstə yerə düşdü. Bircə Nyutonu fikir götürdü ki,

alma niyə göyə çıxmadı. Axı nağıllarda da göydən üç alma düşürdü. Bu alma axır-əvvəl gəldiyi yerə getməliydi axı. Ancaq almalar məcazi mənada göyə çıxmağa başladılar. Bir zamanlar dişlənib atılmaqla təhqir olunan alma, bolluğun heç də yaxşı xüsusiyyət olmadığının fərqinə vardı. İndi ən bərkgedən meyvələrlə bir sırada özünəlayiq qiymətlərlə satılır. Belə bir vaxtda Ramil Əhmədin gözünə görünən nənəsi deyir ki, "Vaxt gələcək yarımdişlək alma nağıl danışacaq adamlara". Nənə özü o nağılları uşaqlığında göydəndüşmə almalarla bitirirdisə, indi nəvəsi bir yarımdişlək almanın bütün nağılları necə gerçəyə çevirdiyinin şahididir.Artıq texnoloji simvola çevrilmiş alma markalı əşyalar hər cür nağılı həqiqətə çevirə bilir. Bunu müşahidə etmək və sadəcə bir neçə misra ilə şeirə gətirmək isə almanın işi deyil, bu Ramilin elmi və bədii təfəkkürünün sintezidir.

Kitabın texnikasında nəzərə çarpan digər bir cəhət isə "Əvəz-siz-lik" bölməsindədir. Belə ki, bu bölmədəki, hər bir şeir öz adı ilə yanaşı altı şəxs əvəzliyi ilə - mən, sən, o, biz, siz, onlar - şifrələnib. "Biz" başlığındakı "H" adlanan şeirin bütün misraları "h" samiti ilə başlayır. (Yada "Qəsideyi-şinniyə" düşür). Buradakı qeyri-müəyyən əvəzliklər sonda üç hərf üstəgəl üç hərf sayına bərabər olan hər şey(hər- 3 hərf və şey-3 hərf) sözünə çevrilir. Bu üçhərfli sözlərdən üçbucaq da əmələ gəlib. Mən bunu uğurlu bir eksperiment kimi qəbul edirəm. Forma özəlliklərindən keçək mövzu və məzmun cəhətlərinə. İlk öncə şeirlərin dili barədə onu deyim ki, müasir dilimizə hücüm etmiş əksər əcnəbi sözlər Ramilin şeirlərində vətəndaşlıq hüququ qazanıb. Şeirlərinə seçilmiş əndirəbadi adlara baxaq: "Metamorfoz", "Kapitalizm", "Metafizika", "ToPaz", "Metrobohema", "Underground". Düşünürəm ki, bu cür adlar sadəcə aldadıcı cazibədarlıq

üçündür. Ondansa ən yaxşısı "Bir qadının gündəliyi"ndəki kimi yeddi şeirin hər birinə həftənin birinin adını qoymaq daha xoşa gəlimli və bir azca da millifason ideyadır.

Ramilin şeirlərində ən özəl cəhətlərdən biri də həyati müşahidələrlə bədii təfəkkürün bir araya gəlib özünü təsdiqləməsidir. Kitab ilk olaraq əmr cümləsiylə başlayır. "Yolmayın, çobanyastığının günahsız çiçəklərini". Bu misralarda bütöv bir etnoqrafik yaddaşın izinə düşürük. Xalqın yaddaşında əsrlərlə daşlaşıb qalmış inanclara yeni açıq gözlə baxış görürük. "Cavabını bildiyiniz sualları başqasından soruşmayın". Əslində bu hökm yalnız "Sevir, sevmir..." suallarının cavabı deyil. Bu bütövlükdə insanlığa verilən bir əmrdir. Bir sualın ki, cavabını bilirsiniz, o zaman əbəs yerə çobanyastığına zülm etməyin. Təbii ki, bu anlamda çobanyastığı artıq məcazi mənalar kəsb edərək obrazlaşdırılır, eləcə də, parabüzənlər. Ramil şeirlərində küləyin, ağacın, suyun əvəzinə də danışmağı bacarır. Onun təbiət hadisələrinə verdiyi qeyri-adi yozumlara nəzər yetirək:

Külək adamı sorğu-suala tutur.
nimdaş paltonun deşiklərindən.
Yağış qeyri-romantik tərzdə
birbaşa ayaqqabının içinə yağır.

Külək və yağış ən çox bədiiləşdirilən təbiət hadisəsidir. Amma etiraf edək ki, gətirilmiş nümunədə bu hadisələrə tam yeni məna verilmişdir. Küləyin onsuz da əsərkən müəyyən uğultusu olur. Ramil bu uğultudan yalnız onun eşidə biləcəyi sözləri anlayır. Sən demə, külək köhnəlmiş paltoya sığınmış insanlara niyə sən də təzəsini geyə bilmirsən sualını verir. Bu isə əslində peyzaj kimi görünən misraların ictimai məzmun kəsb etməsidir. Əksər yazarların yağışın yağmasına romantik yanaşma ilə

tərənnümünü görmüşük. Ramil isə heç kəsin görmək istəmədiyi antiromantikanı insanın ayağına gətirir.Ramil "Hamımızın bildikləri"nə də öz bildiyi kimi qiymət verir, daha doğrusu bizim görüb görməzlikdən gəldiklərimizi, bilib susduqlarımızı cəsarətlə şeirlərində ifadə edir:

Hamı bir az Amerikadır,
başqasının evində kimyəvi silah axtaran.
Mən bilirəm. Yalanmı? Siz də bilirsiniz.
Hamı bir az Qəddafidir,
öz ölkəsinin kanalzasiyasında tapılan.
Mən bilirəm. Yalanmı? Siz də bilirsiniz.
Hamı bir az başqasıdır,
olmaq istədiyi, ola bilmədiyi başqası.
Mən bilirəm. Yalanmı? Siz də bilirsiniz.
Hamı bir az "rubl"dur,
miqrantları uzaqlaşdırmaq üçün
öz dəyərini itirən.
Mən bilirəm. Yalanmı? Siz də bilirsiniz.

Bizim folklorumuzda belə bir deyim var ki, ayının yüz oyunu bir armudun başındadır. Yəni əsas odur ki, sonda meşədəki ən yaxşı armudu ayı yesin. Eləcə də, dünyadakı bütün "pullu oyunların" əsl səbəbi də hamımıza məlumdur. Rubl xüsusi kağızdan hazırlanmış dünyanın adi cansız pullarından biridir. Axı bu yazıq pulun olmayan ağlı onu necə qiymətləndirə bilər. Hamımız bilirik ki, pulları qiymətə mindirən də, qiymətdən salan da insandır. Pul isə sadəcə vasitələrdən biridir. Elə bir vasitə ki, nümunədən də göründüyü kimi, "hamı bir az rubldur". Yəni mənafelər üstündə qurulan münasibətlər insanlararası olduğu kimi dövlətlərarası da olur. Süniləşmə insanlardan ölkələrə də keçib. "Hamı bir az başqasıdır, olmaq istədiyi,

ola bilmədiyi başqası”... Onun “Bircə hərf” şeiri isə belə yekunlaşır: “Və xoşbəxtliyə bircə hərf çatmır- o...” O, kimdirsə xoşbəxtlik olduğunu bilsəydi yerini tapardı. Həm də dilimizin özəlliyi ondadır ki, “o” əvəzliyi yeganə birhərfli sözdür. Ramil Əhməd də bunu çox ustalıqla gözdən yayındırmayıb. Məlumdur ki, xoşbəxtlik bir vaxt qafiyəsini tapmırdı, indi bir hərfli olub. İtə-itə gedir xoşbəxtlik. Bəlkə, “O”nu mutlu edib mutluluqla əvəzləyək... “Məni elə sevəsən ki, sevilməkdən yorulam”.

“525-ci qəzet”. 4 iyul 2015

RUSLAN DOSTƏLİNİN GƏNCLİK HESABATI

"Ürəyimi kəsik-kəsik edirəm, nə vaxt şeir yazıramsa qan çıxır"- misraları gənc qələm sahibi Ruslan Dostəliyə məxsusdur. Ruslan ilk kitabını 2016-cı ildə layiq görüldüyü Prezident təqaüdü hesabına çap etdirdi. "Ruslan dostumun kitabı" adlanan bu toplu "Günahlar içində batıram daha, elə bulanıram sözün qanına" – deyən gənc yazarın gənclik hesabatı adlandırıla bilər. Onun öz yaradıcılığına münasibətini bu sözləri ilə ifadə edə bilərik; "Nə çoxdur özünə gün ağlayanlar, mən də söz kövrəltdim, şeir ağladım". Ümumiyyətlə, Ruslanın poeziyasında sözə, şeirə ünvanlı fikirlər nəzərə çarpacaq qədərdir. "Bir ovuc küldən ötəri özünü yandırmayasan, basasan yaraya şeir" – sətirləri də fikrimizi təsdiqləyir. "Özünü yandırmaq" ifadəsi bizim dilimizdə həm həqiqi, həm də məcazi mənada işlənə bilir. Bəzən özün öz sirrinin üstünü bilməyərəkdən açanda deyirlər ki, "özünü yandırdın". Bu prizmadan yanaşanda Ruslan da öz misraları ilə özü özünü yandırır. Onun daxili aləmi ilə misraları vasitəsilə tanış oluruq. Özü yazır ki, "Sözdən dəstə tutur baxma çoxusu, Bir ləçək də girmir yuxuma daha". Əslində, bu fikirlərin arxasında müəllifin bir mühafizəkarlığı da var. O, sözü ucuz tutub, necə gəldi dəstələyənlərə qarşı olduğunu ifadə edir. Əsl söz adamları isə bir ləçək sözü yuxuda da görə bilmirlər. Elə bu səbəbdən onun "Əsəbiylə az oynayın, sözü oynadan şairin..." fikirləri ilə razılaşmaq olar. Axı o, əsl söz sərrafı olmağın incəliklərinə bələddir.

Yazar öz bələdçiliyini belə biruzə verir: "Ya yuxusuz qalır, ya susuz qalır, şair belə çəkir söz cəzasını..." Sözün söz sanbalını qoruyan və sözə məsuliyyətlə yanaşan Ruslanın şeirlərində mövzu əhatəliliyi diqqəti çəkir. O

həm də sözün alt qatlarına nüfuz etməyə, məcaziliyi hədəf seçməyə meyllidir. Belə bir nümunəyə baxaq: "Gözümüzü açmayaq, gözümüzdən düşərik". Gözü açıq olmaq, yaşadığımız dünyaya açıq gözlə baxmaq insantək yaşamağımızın əsas şərtlərindəndir. Ruslan isə "açmaq" feilinin çoxmənalılıq yaratmaq qabiliyyətindən məharətlə istifadə edib. Açmaq hərəkəti icra edilərkən gözün tərpənməsi nəticəsində gözümüzdə olan nəsnə düşə bilər. Bu həqiqi mənada olduğu kimi məcazi mənada da belədir. İnsan çox gözüaçıq olanda çox şey gözündən düşür. Bütün bunlar Ruslanın bir yaradıcı insan kimi yüksək müşahidə qabiliyyətinin nəticəsi olaraq ortaya çıxır. O, təbiət hadisələrinə də özünəməxsus baxış bucağı ilə yanaşır. Yağış haqqında "yağır, analara yardım eləyir, dəcəl uşaqları geyindirməyə" misralarında da bunu görmək olur. Diqqət yetirsək, bu sətirlərdəki epik gücü aydınca görə bilərik. Yəni bu epizodun təsvirini vermək üçün təhkiyə yolu ilə bir hekayə də yazmaq olardı. Lakin Ruslan konkret misralarla fikrini səlis şəkildə ifadə etməyi bacarıb. Ana dəcəl balasını geyindirmək üçün nə qədər yalvar-yaxar eləsə də, uşaq naz edir. Lakin yağış yağdığını görən dəcəl uşaq öz xoşluğuyla paltarını geyinir. Yağıb ətrafı suya qərq edən yağışın bu cür orijinal təqdimi Ruslanın böyük yaradıcılıq potensialından xəbər verir. Eləcə də, onun anasına həsr etdiyi şeirdə də eyni üslubu müşahidə edirik. On bir bəndlik həmin şeirdə övlad-ana münasibətinin doğmalığını görürük. Bu şeirdə Ruslan uşağın min bir qayğılarla böyüdülməsində ananın çəkdiyi əziyyəti poetik şəkildə yığcamlaşdıra bilib. Hansı ki, həmin şeirdə toxunulan motivlər əsasında bir roman yazmaq olardı. Əsərdə şairin ilk və son qənaəti bu olur ki, "bir ana eyləməz hamı yığışsa".

Ümumiyyətlə, Ruslanın yaradıcılığında uşaqlıq illərinə səyahət, xatirələrin canlandırılması təbii şəkildə, olduğu kimi oxucuya çatdırılır. "Mən də böyüməyə tərəf qaçardım, qarğı atım vardı, - onun belində..."- cümlə-sindən də göründüyü kimi, həm reallıq, həm də bədii təq-dimat nəzərə çarpır. O,eyni zamanda, uşaq oyunları ilə hə-yatın oyunları arasında bir bağlılıq görür. "Gizlənqaç oynu da dəyişib artıq, qaçan elə qaçır, bir də qayıtmır..." Bu misralarda uşaqlığın genetik yaddaşı ilə yanaşı, böyüyənlərin ictimai mövqeyi də öz əksini tapıb. Bu tipli şeirlərdə keçmişlə bu günün uğurlu sintezi daha çox maraq doğurur.

"Qaçıb dolablardan oğurladığın
qonaqçün ayrılmış konfetlər kimi
yeməli olasan, şirin olasan,
kim görsə üzündə gülüş yarana"

- sətirlərindən də aydın olur ki, gənc yazar özünəxas bir təşbeh yaratmaq üçün yaddaşının ən məhrəm xatirələrinə baş vurub. Körpə budaqlardan yay-ox düzəldib, günahsız göy üzünü oxlayan uşaq "Sonradan səngərdə döyüşən gördüm, taxta avtomatla "atdıqlarım"ı..."- deyərək etiraf edir. Bu etirafların içində uşaq dəcəlliyi də, bu dəcəlliyi yaradan səmimi istək də ifadə olunub: "Daşıma tuş gələn quşu sevmişəm, Düşmən kəsilmişəm quşlara belə". Çox maraqlı bir sığortalanma metodunu görürük. İnandırmağa çalışır ki, o quşlara daşı da sevərək atıb, daşına tuş gələn quşu da sevgisiz qoymayıb. Ruslan o qədər təbii xatirələri canlandırır ki, insanı öz keçmişinə boylanmağa vadar eləyir. O yazır: "Vaxt olub o qədər yorulmuşam ki, yıxılıb yatmışam otların üstə..." Bu sətirlərdə həm də bir təbiət məftununun həyat tarixçəsi əksini tapıb. Həmin tarixçənin davamına baxaq: "Durub görmüşəm ki, bir yağış yağıb,

damcı da dəyməyib xətrimə belə...” Ruslan öz reallıqları kimi başqalarının həqiqətlərinə də şair gözü ilə baxmağı bacarır. “Bu adam daşından balaca qalıb, bu daş yiyəsindən yaşca böyükdü” – misralarında başdaşının mənsub olduğu insanla daşın arasındakı zaman fərqinə diqqət yetirilir. Bəzən hər gün qarşılaşdığımız, lakin fərqində olmadığımız bu şeylər onun yaradıcılıq özəlliyidir. Ruslan xəstələnəndə də özünü xəstə kimi yox, şair kimi aparır. “Üç aydı təpik döyürəm, “Qara Qarayev” tərəfə...” misraları onun 2015-ci ildə səhhətində yaranan ciddi problemlər zamanı qələmə alınıb. Xəstəlik zamanı Ruslan öz durumunu belə təqdim edir: “Bir şair var, qələm nədi, üstündə dərman gəzdirir”. Həmin şair reallıqları belə məcazlaşdırır: “Sənədlərimi vermişəm, “Ağ ciyər” institutuna...” Onun ağ xalatlı qızlara yazdığı şeirin həcv və ya vəsf olduğunu müəyyən etmək çətin olur:

Məni necə sağaldacaq,
Heç bu qız qan ala bilmir...
Bir başqa cəllad gətirin,
Bu yaxşı can ala bilmir...

Bu cür hallarla qarşılaşan şair yazır ki, “Çoxları qoymadı bir salam yeri, siz elə bildiz ki, dəvə kinliyəm...” Bəzən isə öz günahlarına da sahib çıxır: “Elə bil, alnıma yazılıb mənim, ruhumu ən doğma kəsdən küsdürmək...” Bu küskünlüyün də, incikliyin də səbəbini onun öz şeirlərində tapmaq mümkündür: “Sənə bircə dəfə “sev-mirəm” dedim, o da ki, “aldatma günü”nə düşdü” – söyləyən müəllif yalan danışa bilmədiyini də poetik şəkildə ifadə edir. Hətta qarşı tərəfdən də əsl həqiqəti tələb edir. “Yalandan “se-vir-əm!” denən, gerçək-gerçək unut məni...” Bəzən isə son dərəcə özünəməxsus xarakter

nümayiş elətdirir. “Bilmirəm, neynirsən get elə, Tanrı, o qızın xətrini özünə qaytar...” Bu yerdə dilimizdəki “Allah xatirinə” frazemi yada düşür. Biz bəndələrdən Allaha xatir nəsə xahiş edirik. Ruslan isə bəndə üçün Allaha müraciət edir. Bu, əslində, Allahın yaratdığına qarşı böyük diqqət göstərməklə tanrının özünə qarşı diqqətcil olmaq anlamına gəlir. Bu diqqət onun hər bir insan taleyinə həssaslıqla yanaşmasında da özünü göstərir. O, sosial fərqlilikləri də qeyri-adi ifadə tərzi ilə təqdim etməyi bacarır.

Varlı kişilərin şərabı köhnə,
Kasıb kişilərin tütünü yeni...
İnsanı bir az da dərdi köhnəldir,
Onun təzəsini heç kim istəməz.
Baxırsan, görürsən təzə heç nə yox,
Dərdin təzələnir istər-istəməz...

Bu nümunəyə istənilən qədər şərh vermək olar, lakin əsas odur ki, bənd özü-özünü artıqlamasıyla ehtiva edə bilir.Onun şeirlərində vətənpərvərlik motivləri də diqqəti çəkir. “Şuşa sən boydadı mənim gözümdə, elə sən özün də Şuşa boydasan...” - sətirləri ithaf olsa da, həmin şeirdə bir yaddaş ağrısı var. “Turan andının eşqinə boz qurdlar yatmaz, ey türküm”- sətirləri də konkret bir nəfərə ünvanlansa da, ümumtürk insanına hesablanmış çağırışdır. Eləcə də, “Ay mən yaşdakılar, bir dövrdənik, bizimlə yaşıtdı Xocalı dərdi...”- misraları ilə onun şeirlərindəki Vətən obrazının özünəməxsusluğunu görmüş oluruq. Bəlkə də, Vətənin üzləşdiyi ağrı-acıların nəticəsidir ki, Ruslan yazır;“Mənim şeirlərim yeriyə bilməz, hamısı ikinci qrup əlildi”.

Onun yaradıcılığında məzmun yeniliyi ilə yanaşı, forma təzəliyinə də rast gəlinir. Belə ki, Ruslan bir sıra

şeirlərində çox orijinal rədiflərdən istifadə etmişdir. Bunlara misal olaraq“kisələ” (İçəriyə çatmaz əlin, kisələ, çölün kisələ), “mənlikdi” (Almağa hava al gətir, nə olsa pulu mənlikdi...),“üşüyür” (gəlsin bir yerdə üşüyək, kim gecə-gündüz üşüyür...) və.s kimi sözləri göstərə bilərik. Bununla yanaşı, onun qafiyələnmədə özünəxas cinaslara meyl etməsinin şahidi oluruq. Bu cür cinaslara“mey və sən- meyvəsən”, “yerdə ha-yer daha”, “ta niyə-tanıya”, “üzü nə qədər çıxıb- üzünə qədər çıxıb”, “söz bazam-sözbazam” və s. münunə gətirə bilərik. Ruslan kifayət qədər gənc yazar olsa da, həm də artıq püxtələşmiş bir şairdir. Bununla belə, bəzən diqqətindən yayınan kiçik qüsurları da olur. Məsələn: “Bahardan payına bir-iki gül düşür, Payız bütünlükdə şairlərindi”- misralarında “bir-iki” sayının yerinə “üç-dörd” sayı işlənsəydi, şeirin hecası da pozulmazdı. Təbii ki, bu cür texniki yanlışlıqlar başa düşüləndir. Əsas odur ki, Ruslan istedadlı və millidir. O, bir vətəndaş olaraq, nə etməli olduğunu bilən kəslərdəndir. Ən əsası isə sözə hörmətlə yanaşıb, sözün qədim hikmətinə dəyər verir. Şeirləri də Qarabağlı olan bu yazara uğurlar arzulayırıq.

“525-ci qəzet”. 18 aprel 2017

ELŞAD ƏRŞADOĞLU YARADICILIĞINDA POETİK DÜŞÜNCƏLƏR

Tələbəlik illərimizi eyni qrupda paylaşdığımız Elşad Ərşadoğlu "taleyinin iş vaxtında" yeni bir kələfin ucunu açmağa çalışıb. Üçüncü minillikdə çap olunan "Yarsan mənim ürəyimi", "Kələfin ucu"nu tapmağa yardım edir. İkinci kitabı olan "Kələfin ucu"nun özəlliklərini elə yazarın öz sözləriylə varaqlayaq: "Bu boyda azəri türkcəsində mən Ona bir söz tapıb deyə bilmirəm"- söyləyən Elşad poetik tapıntılar etməkdə heç bir çətinlik çəkmir, sanki o, özü tapıntıların əlinə keçir. Elə bu səbəbdən də "kəsilib özümə qənim taleyim"- deyir, ona görə ki, "Yaman qəribədir mənim taleyim". Hərdən olur ki, həmin tale "Zülmətdə yaşayır yuxular kimi". Bəzən, doğrudan da, Elşad öz gerçəkliklərini poeziyaya təslim edir. "Qaçıb tənhalığın əlindən hər gün, Girdim xəyalların qucağına mən" - etirafını etsə də, "Xəyal hava deyil, xəyal su deyil, Nə qədər xəyalla yaşamaq olar?"- sualı ətrafında baş sındırır. Gəldiyi qənaət isə poetik şəkildə əks olunur: "Xəyalınla birgə yatıb dururam, İndi tənhalığın acığına mən".

Şair qəribə səmimi etiraflarını da əsl poeziya dilində çatdırmaq istəyir: "Sən məndən səadət umma, əzizim, Mən özüm səadət dilənçisiyəm". Özünütəsdiq səbəbi də çox inandırıcı şəkildə ifadə olunur: "Mən sənə qəm-kədər verə bilərəm, O da çox çətin ki, gərəyin olsun". Başqa bir tutarlı səbəb də odur ki, "Ürəyimdə yaman darısqallıqdı, Yarısın söz tutub, yarısın Allah". Elşad hətta günahsızlığın cəzasını da özünəməxsus formada verir: "Yalandan özümə məhkəmə qurub, Sonra bağışlayıb, əhv edəcəyəm".

Şair "amansız hakim" olmaqla yanaşı, hərdənbir razılığa gələn həssas aşiq də olur: "Sənə bundan yaxşı nə təklif edim, Dörd otaq verirəm öz ürəyimdə". Şərtini də qoyur ki, müqavilədən boyun qaçırmaq fikrinə düşsən "Səni öldürüb öz əllərimlə mən, Sonra dəfn edəcəm düz ürəyimdə". Müəllif əsərlərində səmimiliyə o qədər aludə olur ki, "Səadət dilənçisi"nin gileylərini də şeirləşdirir: "Dünən həsrətimin bir yaşı oldu, Zəng edib təbrik də eyləmədin heç". Belə məqamlarda tələbkar aşiq olan şair müvəqqəti insanların adını "fəxri qonaqlar kitabı"na yazır. Müəllif bir şeirində ürəyə gedən yolların ayrıclarının özəlliklərini göstərir. Onun da ürəyinə yol tapmaq istəyirlər, o da bir ürəyə yol tapmaq istəyir, lakin hədəf seçdiyi şəxs "Ürəyinin hər yanına "Giriş qadağandır..." yazıb". Elşadın yaradıcılığında dərinliklər mənalı olduğuna görə, bəzən fikirləri dolayısı ilə çatdırır. Sadəcə bir kəlmə ölüm və ya intihar məsləhəti yerinə; "Bir kəndir, bir ağac, bir də cəsarət məni unutmaqçün edər kifayət"- deyərək mükəmməl köçürmə edir. Poetik düşüncələrində tələbkar olduğu qədər də məsuliyyətli olan müəllif son görüşdə "səni gözlərimə köçürüb gəldim" - söylədiyi andan "Gözlərimi qırpmamışam o vaxtdan Birdən gözlərimdən düşərsən deyə" - ehtiyatsızlıq etmədiyini nümayiş etdirir. Nümunədəki ikibaşlı sözlər müxtəlif məna çalarlığı yaradır. Bəllidir ki, gözdən düşmək frazeminin məcazi mənası məhəbbəti sıfıra endirir. Şair təxəyyülünün məhsulu olan gözəllə qeyri-müəyyən bir məkana getmək arzulayır. Elə bir yerə ki, oranın mövcudluğu məkansızlığa bərabərdir:

Gəl batmamış bu dünyada
biz günaha şərə gedək.

Şirin-şirin arzuların
çin olduğu yerə gedək.

Elşad sevgi tutumlu misralarla yanaşı, digər mövzularda da tapıntılara üstünlük verən müəlliflərdəndir. Qələmlə dostluqdan şikayətlənir ki, "Girib ürəyimin qılığına o Qoymadı bir dənə sirr qala məndə"- buna görə də, yeganə çıxış yolu qalır ki, səmimi etiraf etsin ki, "Mən yazıq aldandığımı Bilə-bilə aldanıram". Bu aldanışın bünövrəsi çox uzaqlara- uşaqlıq nağıllarına gedir: "Kül başıma işıq gələn səmt qaldı, İt səsinin marağına gəlmişəm". Folklorun təsiri hiss olunan bu misraların davamı fəlsəfi düşüncələr axarına düşür: "Bu dünyaya gəlmək fikrim yoxuydu, O dünyanın acığına gəlmişəm". Bu dünyadakı missiyasında sözün hörmətini saxlayan şair, sözdən də bunun qarşılığını görərək deyir: "Varağın üzünü qaraldan qələm, Hər yerdə üzümü ağ etdi mənim".

"525-ci qəzet". 20 sentyabr 2017

HƏR SƏTİRDƏ VƏTƏN SEVGİSİ

"Ya hələ uzanar, ya sona çatar,
Sevinc özgələrə yas ona çatar.
Kiminsə böyrünə qısılıb yatan-

Olmaq istəmirəm ömür düşkünü" – deyən qələm dostum Hafiz Təmirov (Hacxalıl) "Sevgi də bir vətəndir" kitabı ilə növbəti dəfə oxucularının görüşünə gəlib. Kitabda onun həm nəsr əsərləri, həm də şeirləri yer alıb. Bu yazıların bəziləri ilə tanış idim. Çünki Hafiz mənim eradan əvvəlki dostlarımdan olduğuna görə yeni yazılarımızı bir-birimizə isti-isti göndərirdik. Mən eradan əvvəlki dostlar dedikdə BDU-da oxuyarkən qazandığım qələm dostlarımı nəzərdə tuturam. Biz eyni fakultədə oxusaq da, Hafiz hazırda polis mayordur və Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətində Publisistika bölməsinin rəisidir.

Qəzetləri, saytları izləyəndə görürəm ki, o həm işinin, həm də yaradıcılığının öhdəsindən çox böyük məsuliyyətlə gəlir. Bunun bir göstəricisi də 2009-cu ildə gənc yazar kimi Prezident təqaüdünə layiq görülməsidir. Hafizin əvvəlki kitablarının oxucusu olsam da, onun haqqında yazmağım üçün illər boyu səbirlə gözlədi. O, özü də bilirdi ki, ona daha çox ərkim çatdığı üçün ürəklə "sən bir az gözlə"- deyə bilirdim. Nəhayət ki, qələmdaşımın kitabı haqqında fikirlərimi bölüşürəm. Bu kitab adındakı mənanı hər sətri ilə ehtiva edir. Hər yazıda hiss edirsən ki, doğrudan da, sevgi də bir vətəndir.

Bu vətən sevgisi onun bütün yazılarının nüvəsini təşkil edir. Hafiz bu sevgini ən müxtəlif formalarda təzahür etdirir. Bəzən ölkəmizin ictimai asayişinin keşiyində dayanan ibrətamiz ömür yolu sürən polislərimizdən, bəzən

də Vətən üçün canından keçən şəhidlərimizdən böyük sevgi ilə söz açır. O, "Sənin də alnına şəhidlik, ağır sınaqlardan keçmək yazıldı. "Minlərlə can qurban, sinəsi hərbə meydan olan" məmləkəti, bu doğma Vətəni qorumaq üçün soyuq səngərləri övladın kimi bağrına basıb ona keşik çəkdin" sözlərini Azərbaycan Polisinə ünvanlayır.

Müəllif 90 yaşlı polis veteranı Müseyib İlyasovun, 50 il DİN-in Mətbuat Xidmətinin fotomüxbiri işləmiş Üzeyir Muradovun, uzun illər daxili işlər orqanlarında xidmət etmiş general Rasim Musayevin, polis polkovniki-leytenantı Namiq Musayevin, Rusiyada "Komissar Kattanı" rütbəsi ilə tanınan həmyerlimiz, polis polkovniki Yaşar Mehdiyevin örnək ömür yolu ilə oxucuları yaxından tanış edir. Polis polkovniki Vasif Nəcəfovun xidmətləri ilə yanaşı "Antiterror əməliyyatlarının keçirilməsinin hüquqi, taktiki və psixoloji əsasları"ndan bəhs edən elmi iş yazdığı da vurğulanır. Ümumiyyətlə, "Sevgi də bir vətəndir"də Azərbaycan Polisinin keşməkeşli tarixi ilə tanış olmaq olur. Kitabda Nardaran hadisələrində həlak olan polis əməkdaşları Vüqar Nəsibov və İsmayıl Tağıyevin günahsızcasına öldürülməsinə qarşı üsyan ruhu da hiss olunur.

Eləcə də, polis serjantı Zaur Nurəliyevin xidmətdən sonra ailəsi ilə istirahət zamanı Şüvəlan çimərliyində batan iki nəfəri xilas edərkən həyatını itirməsi nümunəvi bir örnək kimi xatırlanır. Xocalının müdafiəsi zamanı sol ayağını itirən və onu ermənilərə əsir düşməsin deyə Vətən torpağına basdıran Əhliman Ağayevin şərəfli həyat tarixçəsindən bəhs edən yazısında da ibrət dərsi almış oluruq. Daşaltı əməliyyatının iştirakçısı polis kapitanı İsmayıl Cəfərovun da ömür yoluna nəzər salmaqla oxucusunun əsas diqqətini Azərbaycan Polisinin vətənpərvərlik mücadiləsinə

yönəldir. Şəhid polis Hamlet Həsənovun timsalında vətənsevərliyin bir nümunəsi göstərilir.

Bunlarla yanaşı, kitabda Hafizin ADMİU-da müəllimi olmuş Mehman Məmmədov, barəsində diplom işi yazdığı Zəlimxan Yaqub, kaman ustası Habil Əliyev haqqında yazıları da yer alır. Hafiz bir polis əməkdaşı olsa da, bəzən ixtisasından və istedadından irəli gələn ədəbi təhlil qabiliyyətini də nümayiş etdirir. Buna misal olaraq, polis mayoru Cəlaləddin Qasımovun "27 ildən sonra..." romanı haqqında əhatəli təhlil aparmasını göstərə bilərik.

Hafizin bəzi yazıları isə şair duyğularının müşahidəsinə hesablanıb. "Çörək satıb, çörək qazanan qadın" başlıqlı yazı da bu tipli yazılardandır. Dilənçilik edərək pul qazanan və çörək bişirib satmaqla pul qazanan qadınların müqayisəsində çox ibrətamiz məsləhətlər yer alıb. Eləcə də, körpə uşaqlara yardım edən "Canlı işıqfor" haqqındakı yazı da bədii təxəyyülün yox, bədii müşahidənin məhsuludur. O, nə qədər publisistikaya meyl etsə də, canındakı bədii kökən cümlələrin ifadə tutumunda özünü göstərir. Məsələn: "Ağlamaq infarktın dərmanıdır", "Vətənsizlik dili olub danışmamaq, odu olub alışmamaqdır" kimi cümlələrin bədii tutumu göz qabağındadır.

Vətən həsrəti, vətən məhəbbəti hər cümləsində hiss olunur. Özü də bunu etiraf edir ki, "İçi mən qarışıq, bu gün Azərbaycan adlı bir məmləkətdə yaşayanların əksəriyyətinin dərdinin şahı itirdiyimiz doğma yurd yerləri deyilmi?!" Bu ritorik sualın bir cavabı var, o da dərdlərimizin şahıdır. Doğulduğu Uzunoba (Kalinino) rayonunun İlməzli kəndindən deportasiya edilməyin acı xatirələrini uşaqlıq yaddaşından silə bilməyən Hafiz onları qələmi ilə bölüşür. "Dağ İlməzli məktəbinin müəllimləri və məzunları" yazısında da vətənsizlik göynərtisinin əskini nümayiş etdirir. Həmin fəryad şeirində də özünü göstərir: "Göz yaşımın

dağıtdığı, Bənd var – İlməzli adında". Əslində bu misranın mübaliğədən daha çox həqiqət olduğuna inam yaranır. Doğma yurdundan didərgin salınan bir insanın axıtdığı göz yaşları hər cür bəndi qırmağa qadirdir.Yurdundan didərgin salınmışların nə çəkdiyini yaxşı bilən Hafiz "Bir köçün hekayəsi" yazısında Dilqəm və Şahbazın öz yurd-yuvalarına gedərkən ermənilər tərəfindən əsir alınmaqlarını da unutmur, onların bu fədakarlıqlarının qələbə ilə nəticələnəcəyinə ümid edir.

Hafiz hətta dünyada baş verən hər hansı hadisə ilə Azərbaycan arasında bir bağlılıq görür. Həmin hadisəni öz düşüncə süzgəcindən orijinal şəkildə keçirir. Məsələn: Fransada baş verən partlayışla bağlı fikirləri ilə bir sıra mətləblərə işıq salır.

"Biz azərbaycanlılar həmişə "Firəngistana" və "firənglilərə" hörmət və sayğı ilə yanaşmışıq. Mirzə Fətəlinin "Müsyo Jordanı"nın bu gün işğal altındakı Qarabağda necə hörmət və izzət görməyini xatırlayın". Bunun qarşılığı olaraq Fransanın ermənininin dostu olduğunu açıq-aşkar nümayiş etdirməyinə qarşı barışmaz mövqedə dayanır. Ona görə ki, o, yanvar, mart, iyun, sentyabr və noyabr aylarından başqa, qalan bütün aylarda torpaqlarımızın işğal olunmasına təəssüflənir. Bu təəssüf "Təqvimin rəngi" yazısında üsyankar bir ruhla nümayiş olunur. Özü qeyd edir ki, "Tək bircə söz sərhədsizdir mənim üçün: Azərbaycan! Ana vətən!" Qalan bütün sözləri səmimiyyətlə etiraf etməyi bacarır Hafiz. "Eh Şuşam sənə deyil, sənsizliyə əyildim" - sətirləri ilə etdiyi etiraf kimi.

Hafizin yazılarında işğalçılara qarşı üsyanın güclü olması ilə yanaşı, elə bu günlərdə qazanacağımız qalibiyyətimizə, qələbəmizə güclü bir inam var. Bu inamı dilə gətirməkdən də çəkinmir: "Ancaq mən bir həqiqətə inanıram. O həqiqət bizi Ali Baş Komandanımız cənab İlham Əliyevin

"Vətən bizi çağırır" əmri ilə Qarabağa aparacaq, itirdiyimiz böyük Azərbaycanın hər yerində üçrəngli bayrağımızı dalğalandırmaq üçün səfərbər edəcək və haqqımız uğrunda əlli milyonluq bir ordu əl-ələ verəcək. Bu mütləq olacaq, Vallah, billah, Qarabağ haqqı olacaq!!!"

"525-ci qəzet". 19 aprel 2017

ƏDƏBİ GƏNCLİYİMİZİN 2015-Cİ İLDƏKİ FƏALİYYƏTİNƏ BİR BAXIŞ

Çağdaş gənc yazarlarımız müasir ədəbi proseslərə yetərincə təsir göstərməkdədir. Bu baxımdan gənc yazarların 2015-ci ildəki ədəbi çıxışlarını fundamental şəkildə araşdırmaq olar. Hətta araşdırmanı da bir neçə istiqamətdə aparmaq mümkündür. Bu yazıda aparılan bölgülər şərti xarakter daşıyır. Həm də məqalədə ən çox poeziya nümunələrinə istinad edilib. 2015-ci ildə "aybKitab" layihəsində gənclərin çap olunan kitablarına Könül Həsənqulunun "O zəminin sahili", Rauf Qərib Alagözün "Silə", Arzu Hüseynin "Sonu əlvida", Ramil Əhmədin "Zaman tuneli", Emin Pirinin "Tanrının kölgəsi" kitablarını misal çəkə bilərik. Bunlardan üçü haqqında yazım çap olunub.

"Ramil Əhməd və ya "Zaman tuneli"ndə zamanı sıfırlayan şair" məqaləmdə onun şeirlərini bu cür ehtiva etmişəm: "Ramilin şeirlərində ən özəl cəhətlərdən biri də həyati müşahidələrlə bədii təfəkkürün bir araya gəlib özünü təsdiqləməsidir". "Arzu Hüseynin içində yaşayan məsumluq" məqaləmdə onun şeirlərində gördüyüm özəlliyi belə təqdim etmişəm: "Suallar nə qədər ritorik olsa da, bir o qədər diqqət çəkəndir. Ac körpənin çörək eşqinin nə rəngdə olduğu ilə maraqlanmayan laqeyd insanların çoxaldığı dünyamızda Arzunun bu mövzuya belə həssaslıqla yanaşması təqdirəlayiqdir". "Emin Piri "Tanrının kölgəsi"ndə" məqaləmdə isə qeyd etmişəm ki, "kitabdakı şeirlər mövzu baxımından rəngarəng olsa da, janr məhdudluğu ilə yadda qalır. Heca vəznində şeirlər sanki bir eksperiment olaraq kitaba salınıb. Lakin həmin şeirlər öz mükəmməlliyi ilə daha çox diqqəti çəkir. Şair

sərbəst formada mümkün qədər yenilikçi olmağa can atıb".

Yola saldığımız ildə gənclərin daha çox üz tutduğu məkanlardan biri də "kitabevim.az" oldu. Orada Rauf Qərib Alagözün "Silə", Tural Turanın "Bələksiz qığılcım", Elşad Baratın "310-cu otaq", Vasif Zöhraboğlunun "Ömür bir günlük yuxudu" və s. kitabların təqdimatı keçirildi. Tural Turanın kitabındakı forma hoqqabazlığı şeirlər oxunarkən adamı yorur, misraları qabaq-qabağa yazmaq oxucunun işini çətinləşdirməkdən başqa bir işə yaramır. Kitabın özəlliyindən biri əski türk sözlərinə üstünlük verilməsidir. Bununla yanaşı "Alt yazılı uşaq" şeirindəki kimi "Gözlərim P.S, yanağım diptont" tipli eksperiment sətirlərə də rast gəlirik. Onun şeirlərinin leytmotivini milli təəssübkeşlik təşkil edir.

Elşad Baratın "310-cu otaq" kitabında da sanballı əsərlər toplanmışdır. Onun "Anan kömək edə "ana" yazmağa Bir səhifə "ana" yazasan, Dərk etməyəsən yazdığını" – kimi səmimilik və təmizlik süzülən misraları çoxdur. Elşadın "Mən nə itirmişəm ki?!" şeiri xüsusilə ciddi düşüncələrin vicdanla söhbəti əsasında yazılıb. Kitabın adını daşıyan şeir tələbəlik xatirəsinə dönmüş bir eşqin gileyindən bəhs edir və maraqlı bir sonluqla bitir: "Amma mən bilirdim ki, sən mənə ərə gəlirsən, kəndimizə yox". Onun vətəndaşlıq mövqeyi "Getməyə nə var ki, gedəndən sonra Körpəmin yad dildə dil açmağı var" misralarında əks olunub. Dilimizin necə yaşadılmasının qeydinə qalan Elşad şeirlərində qrammatik səhvlərə yol verir: "Mən sənəm, mən oyam, elə hər kəsəm" tipli uzlaşmanın pozulduğu cümlələrə bir sıra gənclərin yaradıcılığında rast gəlmək olur. Həmin gənclər bir yolluq qəbul etsinlər ki, bu cür təqdimatda dil qüsurundan başqa heç bir poetik tapıntı yoxdur. Amma "Bilirəm sən özün gələn deyilsən, Gülüm,

heç olmasa yazığın gəlsin” misralarında heç bir nöqsan tapmaq olmur.

Vasif Zöhraboğlunun “Ömür bir günlük yuxudu” kitabında “Bu heykəl gözəli, bu daş gözəli Sevib tapınmaqdan bütpərəst oldum”, “Ya sən gecikmişdin o gün görüşə, Ya mənim saatım düz işləmirdi”, “Gülüm, ayağından şikəst sevginin, Əlindən tutsan da yeriyə bilməz”, “Bu dünyada soyuq daşdan, Evi tikilmiş adamam”, “Ayaq altda atılandan Xalça naxışı sevmədi” və s. tipli mükəmməl, obrazlı ifadələrlə zəngin misralar işlədilmişdir. Bununla yanaşı, Vasifin kitabında qafiyəsi, hecası yerində olan, içdən yazılan, lakin adi, sıradan şeirlər də var. Həmin şeirlərə “Sevirəm desən də”, “Qayıdarmı”, “İstədim”, “Gəl”, “Qayıt”, “Qədrimi bilmədin”, “Görüşəkmi”, “Yağış yağır”, “Ağlayacam” və s. şeirlərini nümunə göstərə bilərik. “Yatmağa həvəsim yoxdu qəbirdə” şeiri uzadılıb səkkiz bənd edilib, lakin cəmi iki yerdə nəsə bir yeni fikir nəzərə çarpır: “Ey insan, deyilsən sən özbaşına, Dünyanın Allahı, Peyğəmbəri var” və “Allahın yanında basdırın məni, Yatmağa həvəsim yoxdu qəbirdə”. “Yenə xatirələr düyünə düşdü” və “Xəyalım illərin gözünə düşdü” misralarında “düyün” və “göz” sözləri, “...Nə dinir, danışır, nə mən duyuram... Gənclik illərimi xatırlayıram” sətirlərində “duymaq” və “xatırlamaq” feilləri qafiyə deyil. Eləcə də, “Bir eşq ilə” şeirinin üçüncü bəndindəki “köksümə”, “bəxtimə” və “üstümə” sözləri qafiyə deyil. “Aparır” rədifli dörd bəndlik şeirdə kimin, nəyi, haraya, niyə, nə zaman apardığı anlaşılmır, şeirin mənası naməlum qalır. “Məqamın cənnətdir, hicablı qadın” deyən şairin ölkəsində qadınların əksəriyyəti hicab örtmür, görəsən, onların hamısı məhz bu səbəbə görə cəhənnəməmi düşəcək?! İlk kitab olduğundan nəzərə çarpan qüsurları aradan qaldıracağına inanırıq. Axı o kitabda sözün həqiqi

mənasında mükəmməl bəndlərə də rast gəlirik: “Ay yaşıl geyimlim, ay yaz nəfəslim, Ömrümə gəlməyə bir az da ləngi. Ay vüsal həvəslim, sevgi həvəslim, Axı ayrılığın sarıdı rəngi”- bəndində ilk misradakı yaşıl rəngin son misrada necə poetikcəsinə saraldığını görürük. Həm də “ləngi” və “rəngi” qafiyələrindəki ənənəvilikdən qaçış da diqqəti çəkir.

Bunlardan əlavə 2015-ci ildə çap olunan kitablara Mətləb Ağanın “Yüzdə səksən”, Aybəniz Əliyarın “Qürubda günəş” və s. kimi kitablarını misal gətirə bilərik. Ötən il çap olunan kitablardan Aliyə Əsədovanın “Payız nəfəsi”nə AYB-də təqdimat keçirildi. Kitabda kifayət qədər uğurlu misralar yer alıb, lakin ümumilikdə şeirlərin məzmunu və söhbətin nədən getdiyi qaranlıq qalır. Amma xoşagəlimli sətirlər var: “dənizin sularını alaq əlimizə” misrasında həqiqi mənada dəniz suyunu ovcuna almaqla yanaşı, suyu ələ ala bilmək kimi frazem də özünü göstərir. Aliyənin yaşadığı bir şirin nağılı “hər şeyi özündən asılı edən boyunbağı”ya bənzətməsi də maraqlı alınıb.

Faiq Hüseynbəylinin “Yer üzü bir beşikdi” kitabına yazdığım məqalədə onun şeirlərinin bədii xüsusiyyətlərinə də nəzər salmışam: “Söz üstünə söz demədim, Dediyim söz sözü çəkməz”- fikrilərinin müəllifi, bu kitabında şeirlərini yazılma illərinə görə fəsillərə bölmüşdür. Açıq-aydın görünür ki, ildən-ilə şairin qələmində püxtələşmə gedir. “Sətir üstə yer qalmadı, Keçdim sətir altına. Sözlərimi xərcləsən, Gərək qalmaz altuna”- misralarından da gənc yazarın nizamisayağı sözə məsuliyyətlə yanaşmasının şahidi oluruq”. “Hətta, Faiqin şeirlərində yetərincə fəlsəfi yanaşmaların da yer aldığı bəllənir. “Bir udumluq xoş ömür dağların özü qədər dəniz səviyyəsindən uzaqdı”- fikrində, şairin yaşam fəlsəfəsinə öz

mövqeyindən yanaşmasının nə qədər orijinal işlədilməsi ortadadır”.

2015-ci ildə çap olunan kitablara Vəfa Mürsəlqızının “Qağayı gülüşü”nü də əlavə edə bilərik. Bu kitabdakı şeirlərdən aydın olur ki, artıq Vəfanın qələmi yetərincə püxtələşib və özünəməxsusluq qazanıb. “Bu leyla gecəylə gəl vidalaşaq” misrasında gecənin qaranlığıyla Leylinin qarabənizliyi orijinal epitet yaratmışdır. Vəfanın “İsmin mənsizlik adlı Yeddinci halı varmış”, “Düşən alma deyil, sevgi bitəndə, Dünyanın başına sanki daş düşür”, “Hər cüt olan cüt sayılmır, Hər tək qalan Allah olmaz”, “Birinci görüşdə ağıl olmur ki, Sonuncu görüşü dərk eyləməyə” kimi bədii tutumlu fikirləri yetərincədir. Kitabdakı şeirlərdə yetkin bir qadın düşüncəsinin fəlsəfəsi əks olunub. Həmin düşüncənin fərqinə varmaq üçün “Bütün qadınlardan yüksəkdə durduğum nöqtə həmişə bir boy səndən alçaq olub”- sətirlərindəki ümumiləşməyə nəzər salmaq kifayətdir.

Ötən il gənc yazarların nəsr sahəsində də uğurlu kitabları işıq üzü gördü. Bunlara Nuran Gündüzoğlunun “Baal-Zevulun marionetləri”ni, Savalan Talıblının “Kitab”ını, Günel İmranın “Qapqara Günəş” povestini və Pərvin Nurəliyevanın “Qadın olmaq” esselər kitabını misal çəkə bilərik. Pərvinin kitabı haqqında məqaləm belə yekunlaşır: “Yazılarda qəhrəmanların real yaşantılarına üstünlük verilməklə yanaşı, həmin talelərə gənc bir qadının bədii-fəlsəfi münasibəti də öz əksini tapıb. Pərvin xanım qəhrəmanlarının yaxşılığa yozumlanan üstünlüyünü ibrət kimi təqdim etməklə bərabər, çatışmazlıqlarından da dərs götürməyi aşılaya bilmişdir”. Mənim tərcüməmdə Mehmet Nuri Parmaksızın “Həsrət, eşq və sükut” kitabı “aybKitab” layihəsində nəşr edildi. Maraqlı və qəribə fakt odur ki, yalnız Günel Eyvazlının “Ədəbiyyat qəzeti”nin

demək olar ki, bütün saylarında irihəcmli yazıları çap edildi.

2015-ci ilin Prezident təqaüdçüləri olan yazarların da sanballı əsərləri diqqəti çəkir. Yeqzar Cəfərli, Gülsadə İbrahimli, Şəbnəm Tofiq qızı, Elçin Aslangil və başqaları kifayət qədər fəal oldular. Bu təqaüdçülərin əvvəlki illərdəkindən özəlliyi bölgələrdən olan gənclərin üstünlük təşkil etməsi idi. Xüsusilə, AYB-nin Qazax zona filialının təmsilçiləri ilboyu özlərini doğrultdular. Ötənilki təqaüdçülərdən olub, Tovuzda yaşayan Mehman Rasimoğlunun "Könlüm məhəbbətin harayındadır" kitabı nəşr olundu. Kitabda "Bomboş çərçivəyəm- içimdə xəyal", "Darıxmaq gör məni nə hala saldı! Gözümlə hər yerə səni düzürəm", "Mən bəxti keçələm, sən qaravəlli, Üzündə gül açdı, dindi: "Ayrılaq", "Asır gəlişinə gözümü yollar, İllərdi zəlildi baxışım necə!" və s. kimi uğurlu misralara rast gəlmək olur. Tovuzlu təqaüdçü Rübabə Sahib isə daha çox mətbuatda publisistik çıxışlarıyla yadda qaldı. Onun şeirlərinin lirizmi özünəməxsusdur. "İtib dodağımın zümzüməsi də, Bahar yanağımın gül qəmzəsi də, Eşqimin ədalı əndazəsi də Ruhumda boğulub, yar, səssizəm mən"- bəndində Rübabə poetik əndazəni həm təkrarsız qafiyələrlə, həm də obrazlı deyimi ilə gözləmişdir.

Kəlbəcərli olsa da, Şəmkirdə məskunlaşan təqaüdçümüz Elməddin Nicatla Türkiyənin Qəhrəmanmaraş şəhərində keçirilən 18-ci "Dolunay" şeir şölənində ölkəmizi təmsil etdik. Onun "Sahibsiz yurd, mamırsız daş Hardasa gördümü sevir"- deyə təqdim etdiyi lirik qəhrəmanı "Namərdin yerə tullamır, Dolanıb mərdini sevir" – misralarıyla bizə daha yaxından təqdim edilir. Elməddin kimi kifayət qədər təcrübəli yazarın da şeirlərinə diqqət yetirəndə qüsurlar nəzərə çarpır. "Bu yağışlar yumayacaq, Bu ilki yaz toz içində" sətirləri nə qədər mükəmməldirsə, onun

davamı olan "Hər kəs çölündən dolanır, Hər kəs batır öz içində" sətirlərində nə demək istədiyi aydın olmur, fikir çatmır. "Unut" şeirində qafiyələndirilmiş misralara baxaq: "...Unut başladığın yerdən" və "...Bu məhəbbət lap əzəldən". Təbii ki, "yer" və "əzəl" söz kökləri qafiyə yaratmır. Bəzən isə səhvlərə qurban getmək dilin üzərinə düşür: "Biz ki, belə deməmişdik, Bəxt bizi gətdi oyuna"-misralarında "gətirdi" feili qurban verilir.

Ağstafada yaşayıb-yaradan təqaüdçümüz Rüfət Axundlunun "Başım üstə hər çalarlı buludlar, Sinəm üstə dağlarım var silsilə. Gözlərimdə donub qalan kadrlar, Baxışlarda sükunətli fasilə..." bəndindən də görünür ki, o, yeni fikir deməyə cəhd etməklə yanaşı, maraqlı qafiyələr də tapmışdır... Digər bir şeirində "Sol çiynindən mələkləri, Yıxasan, rahat olasan" misraları da ilk baxışdan özünü gizləyən tapıntılarla zəngindir. Dini dünyagörüşə əsasən sol çiyindəki mələklər günahlarımızı yazır. Şeirin tapıntısı da odur ki, şair sadəcə "günah etməyin" çağırışına hesablanan fikirlərini günahları yazan mələklərdən xilas olmaqda görür. Yəni nə günah edin, nə də sol çiyninizdə mələk gəzdirmək məcburiyyətində qalın. Rüfətin şeirlərində bəndlərarası qırılmaz güclü əlaqə var. "Yuxarı" şeirində, doğrudan da, bütün proseslər əslində aşağıdan yuxarıya doğru hərəkətə uyğundur. Lakin bir bənddə "altdan yuxarı batmaq" məsələsində istiqamət dəyişir. Əslində, batan üstdən aşağı batar və ilk baxışdan elə görünür ki, "batır" sözü sadəcə digər bəndlərin qafiyəsinə uyğunlaşdırılıb. Batanda, təbii ki, ayaqlarımızdan üzü yuxarı batırıq. İlk əvvəl ayaqlarımız üzü aşağı gedir. Biz üzü aşağıya doğru getdikcə batma prosesi üzüyuxarı davam edir. Batmaq nəyisə aşağı aparırsa özü yuxarıya doğru can atır. O, özü yuxarı çıxmasa, batırmağa nail ola bilməz.

Qazaxda yaşayan təqaüdçümüz Taleh Mansur keçən il vətənpərvərlik layihəsini həyata keçirməklə bərabər, bədii yaradıcılıqla da məşğul oldu. Onun yaradıcılığında nəzərə çarpan əsas cəhət nəzmdən nəsrə kəskin keçiddə özünü göstərdi. Talehin dünyamızda 11 gün qonaq olmuş Fatimə adlı bir qızcığazın əziz xatirəsinə ithaf etdiyi "Ruh düzündə intihar" hekayəsi "525-ci qəzet"də çap olunub. Əsərdə ucuz araqdan içib, sanballı danışan yazar obrazı yaradılmışdır. Əsərin qəhrəmanlarını Taleh belə təqdim edir; "Zamandan fərqli olaraq Nəsib çox tez ailə qurmuşdu... Zaman ali təhsil alsa da, işləmirdi... Nə yaxşı ki, ömür-gün yoldaşı Şəfa kənd məktəbində müəllim işləyib, üç uşağı birtəhər saxlayırdı". Taleh əsərin düyününü belə vurur: "Bir gün evə gələndə ömür-gün yoldaşı Şəfanın ilk məhəbbətinə yazdığı şeirləri yandırıb buxarıda cücə ütdüyünü görmüşdü..." Müəllifin fikrincə, insan faciəsi deyilən o idi ki, ömür-gün yoldaşın ilk məhəbbətinə yazdığın şeirləri yandırıb ac uşaqlarını doyurmaq üçün bişirmək istədiyi cücəni ütsün. Müəllif sanki yaratdığı obrazla bütövləşir, ikisinin də beynindən yer üzündəki bütün insanların başından keçən ən qarmaqarışıq fikirlər keçirdi. "Bu düşüncə seli onu dəhşətli dərəcədə narahat edirdi. Sanki Tanrı beynində qiyaməti məşq edirdi". Bütün bu ağrıları yaşayan obraz bildiyi ən uzaq yerə- Ruh düzünə, arxın üstünə, ərik ağacının altına gəlir. Ömründə ilk dəfəydi ki, halqa düzəldib, intihar haqda düşünən Zaman sonunu elə ustalıqla yaxınlaşdırırdı ki, guya ömrü boyu bu işlə məşğul olub. Ömrünün ən xoş anlarında Əsmərin qollarında ölməyi arzulayan kişi bir ağacın budağında dünyadan köçdü.

Şəfa Vəli Gəncədə yazıb-yaradan təqaüdçülərdəndir. Şəfa ona göstərilən etimadı doğrultduğu üçün 2015-ci ildəki uğurlu fəaliyyətinə görə Gənclər və İdman

Nazirliyinin mükafatına layiq görüldü. Onun "Ədəbiyyat qəzeti"nin yanvar sayında çıxmış "Ağarmış gün" hekayəsi "bircə dəfə onu öpməklə mələkliyini, saflığını itirmiş Sevda"nın taleyindən bəhs edir. Yazar bu hekayəsilə insan və zaman məfhumunu yeni biçimdə təqdim etməyi bacarmışdır. Şəfa bu əsərdə həm də milli düşüncəmizdəki kəsirləri qabarda bilmişdir. "Özlüyündə qət elədiyi bir qərar vardı ki, əgər bir qız, bir oğlandan ötrü ölməyi gözə alırsa, deməli, o heç də yaxşı qız deyil..." Hekayədə tapa bilməyəcəyimizə əmin olaraq itirdiklərimizin təəssüfü ustalıqla işlənmişdir. "İndi isə... İllər sonra başqa cür düşünürdü... Heç kəs onun uğruna heç nədən keçməmişdi. Heç kəs onun üçün bir də qayıdıb mələk olmamışdı". Sevdiyi qızın imzasında öz adını – Sevda Turan – bilən oğlan infarkt keçirir... Nəsriylə yanaşı "Ağlasam, özüm oluram, Güldür, olum istədiyin" kimi misraları olan şeirləri də var. Qoyulan şərtə qarşı ehmalca öz alternativini irəli sürür. Əgər güldürüb istədiyinə sahib ola bilmirsənsə, ağladıb özündən çıxarmaq da lazım deyil. "Şəfa Vəlinin şeirləri haqqında" yazısında Qəşəm Nəcəfzadə onu belə xarakterizə edib: "Öz xarakterinə uyğun dostları var, Elçin Aslangil, Gülnar Səma, Elməddin Nicat, Səadət Ələkbərova, İntiqam Yaşar və başqaları... Bir sözlə, Şəfa və onun komandası Azərbaycanda mini poeziya festivalları keçirirlər".

Prezident təqaüdçüsü olan Orxan Camal daha çox Cavidan imzasıyla yazmağa üstünlük verdi. Onun "Allah" rədifli qəzəlində məzmun mükəmməlliyi "aləmləri, yeri, hikmətləri, sirləri, batinləri, Peyğəmbəri, sərvəri, kimləri, əjdərləri, şairləri" kimi qafiyəsiz qüsurları ört-basdır edə bilmir. Hecada yazdığı bir sıra şeirlərində obrazlı ifadələrə rast gəlinir: "Mənim ürəyimi verəydi Allah, Sənə bircə günlük bir əzab kimi!", "Soyuq baxışlardan üşüyürəm

mən, Mənimçün gözlərin qarlı uçurum!" Orxan həm də qələm dostları haqqında fikirlərini mətbuatda işıqlandırır.

Ramil Mərzili Ağdamın Mərzili kəndindən olsa da, başqa bir kəndində müvəqqəti məskunlaşan təqaüdçüdür. "Bir sozalmış ümid idi içimdəki həsrət yüküm, Qəm hopdurdu varlığıma əlçim-əlçim, büküm-büküm" sətirlərində özünəxas ölçü vahidiylə dərdini ölçür. "İndi də həsrətlə sınağa çəkir, Bilmirmi bu eşqin közüyəm, Allah?!" - sətirləriylə başlanan şeir uğurlu alınıb. "Yorğun kirpiklərim səlis dərzitək, Nəmdən libas tikir yanaqlarıma" və ya "Gündüzləri dünyanın dörd bir yanın dolaşan, Dərdlər mənim qəlbimdə gecələyir, deyəsən" - fikirlərindən də məlum olduğu kimi Ramil dərdlərinə qarşı son dərəcə həssasdır: "Ayaqlarım altında məni göyə qaldıran kədər yatır bir yığın..." və ya "Çatdan ehtiyatlı ol, sol küncdə bir balaca sevinc var, ona sığın..." misralarının işləndiyi şeirin forması da məzmunutək maraqlıdır.

Əvvəlki illərin təqaüdçülərindən olan Günay Ümid, Sevinc Yunuslu, Afət Viləşsoy və s. yazarlarımız da passiv olmadılar. Afətin ilk sətirləri "Sən Allah adamı, mən "şeytan" qadın, Mən çatan muradın atı ölümdü", son misraları "Sənlə yaşamağın "adı yoxdu"sa, Sənsiz yaşamağın adı ölümdü..." olan şeirindən də bəlli olduğu kimi o, yetkin bir qələm sahibidir. Dediyimizin təsdiqinə "Göz qırpmır taleyin oyunlarına, Axırda ömürlük uyuyur adam" - kimi xeyli nümunələr göstərə bilərik.

AYB Gənclər Şurasının sədri Elşad Ərşadoğlunun şeirləri həmişə xüsusiliyi ilə seçilib. "Ayrılıq - ölümün məsdər forması" şeirindəki tapıntılar da buna sübutdur. "Ağ saç kölgə salmaz üz ağlığına, İllərin, zəhmətin gücünə çıxır. Nəsə, görmədiyi günlərin rəngi, Get-gedə adamın saçına çıxır" - misraları da həmin şeirdəndir. Onun adamların var oluşuna da münasibəti özəldir. "Ondandır

ağlaya-ağlaya gəlir, Dünyadan kiriyib gedir adamlar". Həm də həmin adamların yaşam tərzini də diqqətdə saxlayır: "İnsafınız olsun, tərif edənlər, Görmürsüz, əriyib gedir adamlar?" misralarında insanların xarakteristikasını verir. "Savaşda hamı uduzur, Fərqi yox, qələbə filan Çalan boş şeydi, boş şeydi..." fikirləri də özünəməxsusluğuyla seçilir. "Bir kişi var idi..." şeirini əlləri zəhmətin xəritəsi olan babasının xatirəsinə həsr edib. Şair qəhrəmanını belə təqdim edir: "Dastan, nağıl, bayatılı sinəsi Akademiyanın Folklor İnstitutu qədər zəngin kişi..."

Özünü təsdiqləmiş imzalardan biri də Fərid Hüseyndir. Onun şeirləri fəlsəfi düşüncələrinin obrazlı şəklidə ölçü-biçimsiz nümayişidir: "Vicdan artdıqca insan ancaq öz günahlarını xatırlayır, günahlar xatirəyə çevrildikcə, xoşbəxtlik qaçır içindəki "müharibə ölkəsi"ndən". Onun dastan təfəkküründən qaynaqlanan, lakin modernizmə istiqamətlənən fikirləri də var. "Xatirələrin düyməsini açanda od tutur keçmişin və indin yanır, gələcəyin kül olur..." Terrora "ithaf" edərək yazdığı şeirdə şair qlobal bir mövzunu fərdi süzgəcindən keçirir. "Tələsik yaşamaq lazımdı - Ölüm vaxtını irəli çəkiblər, əcəl saatını dəyişdiriblər Əzrailin..." "1937-ci il, NKVD-də Fərid Hüseynin müstəntiqə dedikləri" maraqlı tapıntılardır. "İfşa edirəm özümü: xatirələrim gündəliklərimə xəbərlədilər gördüklərini". Lev Tolstoya ithaf olunan şeirində yazır: "Bizə yeriməyi öyrədirlər ki, hər kəs öz ayağı ilə getsin ölməyə". Onun "Yalan"ı da həqiqəti çatdırır: "Radioümidlər verdilər bizə. Bir gün qandıq ki, səadəti vaxtı dəyişdirilən veriliş kimi gözləmişik".

Hafiz Hacxalıl imzası da artıq özünü təsdiqləmiş imzalardandır. "Bu dərd mizrablıq yox, təzanəlikdi. Axı bu baharda təzə nə var ki" şeirində bu baharın ağaclarının sərxoş, havalı, çiçəklərinin Leyli misalı, dərdinin bir kəlməlik, bircə misralıq olması da onu təzələyə bilmir və

sonda məlum olur ki, "Baharı gözləmir yurdsuz adamlar". Hafizin "Kəndimizə" şeirində də bir yanğı var. "Göz yaşımın dağıtdığı, Bənd var, İlməzli adında". Burada bənd həm şeir bəndi, həm su bəndi-bərəsi kimi anlaşıla bilər. Hafizin məcazları da təkrarsızdı; "Gözlərin ac yarğan kimi, Gözləyər, atılım ölüm". Əsas fikir odur ki, sənin gözündən düşmək mənə ölümdür. "Xoşbəxtlik" şeirində "Ay ata yavrusu, ana quzusu, Qulun qul içində azadı olmur" fikirləri bənzərsizdir.

Gənc yazarlar içərisində Səxavət Sahilin də imzası seçilir. Onun narla İsanı əlaqələndirməsi və bu mövzuda silsilə yaratması uğurlu alınıb. "Yarpaqları tökülən nar budağında yetim qalıb quş yuvası, İsanın başındakı tikanları xatırlayıram", misralarıyla başlayan şeiri bizə İsanın əllərini, İsanın göylərə dikilən gözlərini, İsanın sözlərini xatırladır. "Nar ağacının ölüm rəqsi"ndə "Çiçəkləmiş nar ağacı rəqs eləyir qara yelin mahnısı üstə, oynatdıqca budağını küləklər, şabaş kimi səpələnir çiçəklər". "Ave Maria"da isə əslində narın öz edəcəklərini guya şair öncəgörən kimi ona əvvəldən xəbər verir: "Budaqların gül açacaq, böyüyəcək, nar olacaq. Yaşıl-yaşıl yarpaqların arasında bar olacaq". "Nar qız"da deyilir ki, "Çoxillik nar şərabı kimi məni məst eləyən nar qız, gör nə vaxtdır sərxoşam ayılmadan, ölürəm artıq, məni torpaq gözləyir".

2015-ci ildə Gənc Ədiblər Məktəbinin məzunlarının da əksəriyyəti bölgələrdən idi. Bunlara Pərvanə Nizaməddini, Elnarə Nuru, Ruslan Dostəlini və s. nümunə göstərə bilərik. R.Dostəli həm də AYB-nin üzvü olan istedadlı gənclərdəndir. Ötən il o, Qazaxıstanda təhsil almağa başlasa da, möhkəm xəstələndi və bu xəstəlikdən də şaircəsinə bəhrələnməyi bacardı. "Bir şair var, qələm nədi, Üstündə dərman gəzdirir...", "Sənədlərimi vermişəm "Ağ ciyər" İnstitutuna..." misraları da beləcə yarandı. Onun

şeirlərində sözlə zarafat üstünlük təşkil edir. “Sənə bircə dəfə, “sevmirəm”, dedim, o da ki, “aldatma günü”nə düşdü...”. “O... “iyirmi faiz” nə boydadırsa, Bu xalqın o boyda davası çatmır..! Biz dağa qaçırıq hava almağa, Şuşada dağların havası çatmır..!”, “Üzü qırışan bayrağım, təki belin bükülməsin!!!” fikirləri onun vətən ünvanlı düşüncələrini əks etdirir.

Ötən il Dünya Gənc Türk Yazarlar Birliyinin ədəbiyyata xidmət edən layihələri də yadda qalan oldu. Həmin təşkilatın yaradıcı gənclərindən olan Əfsanə Ələsgərlinin nəsri də maraqlıdır. Onun “Ümid” hekayəsi müharibə mövzusunda daha bir detalı ortaya qoyur. Dəyanət adlı çılğın və cəsarəti ilə seçilən döyüşçünün həyatı örnək gətirilir. Döyüşlərin birində onun başına belə bir hadisə gəlir. “Qəfildən ayağı nəyəsə ilişdi... gəlincik idi. Ancaq ağ paltarı qırmızı damcılarla dolu idi. Damcı ləkələrinin izi qonşu otağa kimi yol alırdı. Təxminən, beş-altı yaşlı qızcığaz gəlinciyindən uzaqda həyata əlvida demişdi”. Bunun ardınca Əfsanə müharibənin dəhşətini ifadə etməyə cəhd edir: “...ağzından vurularaq çarpayının yanında yerdə gənc qadının cəsədindən başqa bir şey görə bilmədi. Birdən çarpayının altından bir qaraltı gözünə dəydi. Üstü güllü qadın koftası hərəkət edirdi”. Dəyanət “hərəkət edən güllü koftanın” altından sağ qalmış bir uşaq tapır. Özü ölsə də, körpənin sağ qalmasına çalışır. Gözlərini əbədi yummağın bir addımlığındakı Dəyanətin qucağındakı körpənin imdadına bu dəfə Fərhad yetişir. Dəyanət “Ümid sizə əmanət”- deyib gözlərini yumur. Hadisələrin bundan sonrası Ümidin müdavim olması, içindəki cavabsız “mən kiməm?” sualıyla çarpışmasıyla oxucuya təqdim olunur. Lakin müəllif demək istədiklərini saçları ağarmış polkovnik-leytenantın diliylə verir: “Kim olursunuz, olun,

bu torpaqda doğulub boya başa çatmısınız. O torpağı da qorumaq sizin işinizdir!”

“DGTYB”-nin Şəkidə yaşayan aktiv üzvlərindən olan Tural Adişirin də keçən il fəal yazarlardan olub. “Biləsən tülkünün bəyliyi haçan, Biləsən nədəndi bu olacaqlar” misraları klassik ustadnamələri xatırladır. Turalın bir bəndinə nəzər salaq: “Qardaş irəlidi axı, qarından Axı bu dünyada ağ elə ağdı. Adam var doymadı yerin varından, Ucalıb göyün də südünü sağdı” bəndinin ilk misrası “qarın qardaşdan irəlidir” atalar sözünü yada salır. Lakin atalar sözünün əksinə olaraq qarına yox, qardaşa önəm verilir. Son misradakı “ucalmaq” sözü isə çaşqınlıq yaradır. Adətən, bu sözü müsbət mənada işlədirik, lakin verilmiş nümunədə sözün kinayəmi, yoxsa həqiqi mənadamı işlədildiyini ayırd etmək olmur. “Mən bir vaxt gözümü torpağa sıxdım, Yerində bənövşə bitmədi ancaq”, “Elə ağaclarıq, höyüş yanarıq, Dünya yığışsa da yanmaz qurumuz” sətirləri onun yaradıcılığı barədə təəssürat yaradır.

Fuad Cəfərli də DGTYB-nın istedadlı gənclərindəndir. “Dəqiq xatırlamıram, Bircə onu xatırlayıram ki, Onlar adamlıqdan, mənsə işdən yeni ayrılmışdım”- fikirləriylə yeni bir ayrılıq növü gətirir poeziyaya. “Növbəti yoxluq” şeiri adi monoloqdur, kəsəcə, demək istədiyi budur: “Daha nifrətdirsə nifrət etmək, sevməkdirsə, sevmək istəyirəm”. “Saman Çöpü” şeirinin mahiyyəti buradadır: “Atam deyir ehtiyatlı ol, oğul, batan saman çöpündən yapışar. Daha atam bilmir ki, məndən heç kim yapışmaz”. “Etiraz edirəm” şeirində də yeni nəfəs var: “Etiraz edirəm, möhtərəm hakim, etiraz edirəm! Biz böyük olmaq üçün böyümək istədik, daha kiminsə, nəyinsə qarşısında kiçilmək üçün deyil”. “Sabahın şeiri” çox maraqlı bir məntiq üzərində qurulub. Şeirin əvvəlində məlum olur ki, onun şair olacağına heç kim inanmırmış. Amma Fuad bu faktı çox orijinal bir

bənzətməylə verir: "Üç rəngli bayrağım kimi o yoxluğun içində yenidən ucalacağıma", "Yalnız biz inanırdıq vətənin azad, mənimsə şair olamağıma". Deməli, bir zamanlar üçrəngli bayrağın ucalmağına, vətənin azad olmağına heç kim inanmırdı, amma illərdir ki, biz artıq bu reallığın içində yaşayırıq. İndi də "Vətənimizin bütün, mənimsə şair olmağım üçün arzularımızı qurban elədik. Heç kəs inanmırdı, Nə atam, nə anam, nə də kürək-kürəyə verib savaşdığım dostlar, heç kəs..." Lakin yazar düşünür ki, ağlagəlməz inanılmazlığa da həmin məntiqlə yanaşsaq, bir gün bu da həqiqət olacaq.

DGTYB-nin üzvü olan Ruslan Nadirin də qələmində fərqlilik nəzərə çarpır. "Açılan sabahlara ümid bağlayarsan, o sabahlar ki, hər açılanda ömründən bir gün qoparar". Onun "Mən Türkəm" şeiri pafosuyla yanaşı milli qürur örnəyi kimi də özəldir. Bundan əlavə "Qaranlıq gecələrtək, Gözümüzdə qaralıb. Günah hörümçək kimi Bizi toruna salıb" sətirləri Ruslanın özünəməxsus təfəkkür tərzi olduğundan xəbər verir. "Ana" şeirində anasızlığın ağrıları əks olunur; "Uca dağ başında qar olar demə, Başımın daşında qar dağa dönüb. Arabir başıma tumar çəkən yox, Bilmirəm dirilər harada ölüb?!"

Cahandar Aybər də DGTYB-nin fərqli imzalarındandır. "Kişilər alırsa hələ qadını, Deməli, qadınlar kölədi hələ" düşüncələri insan azadlığının buxovlarını qırmağa əsaslanır. Cahandarın dünyəvi fəlsəfəsinə müasirlərinin heç birində rast gəlinmir: "Bu dünya Tanrının beyni-başıdı, Biz onun fikrindən keçirik hələ..." Yaradanla yaradılan fəlsəfəsinin bu cür dərki bir gənc üçün tükənməyə gedən yolun sonunun görünməsi təhlükəsi də sayıla bilər. Və ya "Balıqlar yaşamır sularda, Hava haram edilib, haram, Sularda əbədi boğulmaq, Cəza kəsilib balıqlara" fikirləriylə balıqların suda yaşamağını onların suda boğulmağı adlandırmaq düzgün

deyil. Gənclik havasının başında dolandığı bir vaxtda sevgidən şeir yazan Cahandarın bu mövzuda da qəribəliyi diqqət çəkir: "Yalan olar sənə doğmam demək də, Hansı ana bir cüt sevgili doğdu?! Bütün sevgililər yaddı, ögeydi, Dünyada bir doğma sevgili yoxdu". "Tarixdən 5-6 kəlimə" şeiri isə həm formaca, həm də məzmunca "hoqqa ədəbiyyatı" nümunəsidir. Ola bilsin ki, nə vaxtsa bunu da yenilik kimi qəbul edəcəklər: "Yadıma gəlir 838-ci il martın 14-ü... Babəkin başının necə kəsilməsi, başsız bədəninin uca bir ağacdan necə asılması..." Zaur Sahil də DGTYB-nin seçilən imzalarındandır. "Unutmağa gəlmişdim, Unutmağın adı yox" - deyən gənc şair burada qəribə qanunauyğunsuzluqdan bəhs etmək istəsə də, uğurlu manevr etməyib. Çünki unutmaq insanın ruh halının elə bir hadisəsidir ki, onu adlandırmaq üçün bütün sözlərdən istifadə etmək mümkündür. Həmin bəndin son iki misrasında isə Zaur Sahilin poetik tapıntısı nəzərə çarpır: "Kədərini nuş etdim, Kədərinin dadı yox". Buradakı əlamət- dadsızlıq özü kədərin ən gözəl ifadə formasıdır. Başqa bir şeirində də gənc müəllifin kədər-sevinc təzadında azdığının şahidi oluruq: "Mən elə kədərlə çox xoşbəxt idim, Nədən sevinc ilə sevindirirlər?"

Sevil İşığın da yaradıcılığında hər günün sabaha açılan ümid qapısı var sevgi adında: "Səhəri açıram gülüşlərinlə, Gecələr gözünün qarasındadır. Sən harda olursan ol, mənim üçün, Yaşamaq dünyanın orasındadır". Həyata bu qədər sevgiylə tutunan bir gənc qızın lirik obrazı da nümunə sayıla biləcək bəşəri duyğuların tərənnümçüsüdür: "Tanrının ən gözəl yaratdığısan, Sənə heç bir adı qoya bilmirəm". "İstəsən, ömrümün dar ağacı ol, Səndən asılmaq da etibarlıdır", yaxud "Mənim ürəyimin sahibi sənsən, Evin yiyəsindən qonaq olarmı?" - misraları isə Sevil İşıq yaradıcılığının hazırkı dönəmdə ən "bəzəkli"

forması sayıla bilər. Sərvər Kamranlının şeirlərində ən maraqlı cəhət heç vaxt ağla gəlməyəcək iki nəsnəni qarşılaşdırmağı, yaxud eyniləşdirməyidir: "Sevib-sevilənlər yaxşı yanırlar, Gəl yanaq, isinsin dünyanın canı"- deyimində bu fərqlilik göz önündədir. "Gözündən boylanır sözlü baxışlar" misrasında onun poetik dünyasına boylanmaq olur. Sərvərin yaradıcılığında kiçik bir nüans vardır ki, onu Nofəl Ümid, Şahanə Müşfiq və Qoşqar Qaraçaylının da yaradıcılığına şamil etmək mümkündür. Bu, onun bir gənc kimi fikirlərini həyatımıza daxil olan yeni deyimlərlə oxucusuna çatdırmaq cəhdidir.

Çinarə Ömray nəsr sahəsində kifayət qədər özünü təsdiqləmiş yazarlarımızdandır. Onun "Bir cüt ayaqqabı" hekayəsinin sayəsində yaradıcılığıyla tanış olmağa cəhd edək. Yazıçı öz qəhrəmanını, yəni Gözəli bəri başdan diqqət hədəfinə çevirir: "Gülüşlərində qəribə bir qəddarlıq, kin var idi". Cismən 16 yaşında olsa da, mənən çox qoca sayılacaq Gözəlin ailəsinin təqdimatı da yazıçının dilindən verilir: "Ailədə anası, özü və özündən böyük iki qardaşının olduğunu da bilirdim". Baş qəhrəmanın oxuculara təqdimi hadisələrin məktəbdə cərəyan etməsi ilə başlayır. Şagirdlərə tapşırılan "Valideynlərim" adlı inşa yazısını müəllim Gözələ geri qaytarır, təkrar yazmasını istəyir və tapşırır: "Yazına bir az sevgi qat". Gözəl inşasını əsl ruh adamı kimi yazır. Onun atası haqqındakı xatirələri bir cüt ayaqqabıdan o yana keçmir. Atası dünyadan köçdüyü vaxt yolun ortasında qalan bir cüt ayaqqabı uşaq təxəyyülündə gah suallar yaradır, gah da müxtəlif sualların cavabı olur. Niyə nənəsi ucadan çığırır, acıqlanırdı, niyə atası "rəhmətə ayaqyalın gedib", niyə anası atasının ayaqqabısını evə gətirmədi – kimi sualların ardınca onun dərk etdiyi acı həqiqətlər də vardır. Gözəlin valideyn sevgisindən məhrumluğu onun mənəvi fəlakətinin səbəbi kimi izah

edilir və səbəbin doğurduğu nəticə daha böyük faciədir. Gözəlin ruhi vəziyyəti belə canlandırılır: "Sevdiyim bütün oğlanlardan da məni bir dəfə qucaqlamalarından sonra ayrılıram. Ən böyük arzum bir gün öz gücümə, öz pulumla o bir cüt ayaqqabını alıb, elə həmin gün də rəhmətə - atamın yanına getməkdi!" Çinarə Ömray hekayəni də gözlənilməz sonluqla bitirir, müdir Gözəl Yusifzadənin inşasının 1-ci yerə çıxdığını bildirir. Səhərisi isə metronun yaxınlığında qucağında bir cüt ayaqqabı olan qız meyidi tapılır- Gözəl qucağında ayaqqabı intihar edir.

Fərrux Rəhimli də gənclər arasında seçilən yazarlardandır. Çünki Fərruxun bir şairtək tapıntıları, bənzətmələri adət etdiyimiz ifadələrdən çox uzaqdır: "Ürək döyünməyi bəzən unudur. Bu qədər həsrətə dözəmməz axı", "Mən gərək yollardan çəkim gözümü, Sevgi limanının növbəsi olmur. Nahaq aldadıram özüm-özümü, Sevən ürəklərin tövbəsi olmur". Fərrux Rəhimlinin vətənpərvərlik ideyası isə daha inamlı və sarsılmazdır: "Əfsanə deyildir Turan söyləmi". Eləcə də, Ulucay Akifin şeirlərində bir genetik yaddaş qorunur: "Sən hardan biləsən ağlamaq nədir, Sənin çəmənlikdə qaçan vaxtındır. Sevgi kitabını bağlamaq nədir, Sənin o kitabı açan vaxtındır". Bu misralarda onun bəşər övladının "vücudnamə"sinə işarə etdiyi görünür, "sevginin də öz vaxtı var" kimi əski dünyagörüşün tərənnümünü izləyirik. Lakin Ulucayın daxilindəki şair qeyri-müəyyən fikirlidir. Bunu da onun özünün gənclik çılğınlığı ilə izah etmək mümkündür. Məsələn, o, "Redaktə edə bilmədiyim hisslərim"də niyə və nədən yazdığını qəribə bir üsulla açıqlayır: "Qalaq-qalaq şeirlər Səpələsəm də ayaqlarının altına, Bir telinə dəyməz ədəbiyyat, bilirəm. Sən olmadıqdan sonra şeirlərin canı cəhənnəmə... Bircə "sevirəm" sözünə görədir Bu qədər şeir yazmağım..."

Aqşin Evrən yaşıdları arasında kifayət qədər qəbul olunan imzalardandır. O, "Unutmağın resepti"ndə nəhəng ayrılığın qoyulmağa yeri olmadığından söz açır. Onun düşüncəsinə görə bir atom bombası siqaret yandıraraq qızılı dişlərini qabardıb tüstüsünü səmaya üfürər. O, gündəlik həyat tərzimizdəki adiliklərin əslində özünəməxsus genetik yaddaş olduğunun fərqindədir: "Pensiyasını corabına qoyan sonuncu nənə də öldü, Daha pulun da dadı-duzu qalmadı..." Aqşinin şeirlərində avtobioqrafik təqdimat güclüdür.- "Uşaqlığımı oraya - ilk dəfə meyvə oğurladığım nar ağacına bağlayıb qaçdım, Dalımca ağlayıb dabanlarını "Yer"ə döydü uşaqlığım...", "Mən parfüm vitrinlərində axtarmışam ana qoxusunu", "Torpağını bütöv saxlamaq üçün əlinin yarısını itiribmiş atam", - kimi fikirlər gənc şairin yaradıcılığında deşifrə edilmiş genetik yaddaşdır.

Əsasən bölgələrdə yaşayıb, püxtələşməkdə olan Nəbi Hüseyni, Məhəmməd Mehdixanlı, Turanə Turan, Günel Bayramsoy, Əli Namazov, Toğrul Kərimli, Eşqin Abdullayev, Bəhruz Xəlil, Məhəmməd Turan, Elvin Nəsirli və digərlərinin yaradıcılıqlarında da nəzərə çarpacaq qədər irəliləyiş vardır. Aysel Abdullazadə və Anar Əlizadənin yazılarındakı fərdi üslub gözləntiləri onların ədəbi mühitdə fərqliliyi hesab oluna bilər. Tural Cəfərin şeirlərində də püxtələşməyə meyli göstərən məqamlar vardır. "Şahidi olaydı bu sevgimizə, Fevralın sonuncu kövrək səhəri"- sətirlərində vaxt naməlumluğu vardır. Axı, fevral ayı üç il 28, dördüncü il isə 29 gündən ibarət olur. "Titrək baxışlarla baxaydın mənə, Yanağın olardı dan yeri kimi"- misralarında işlədilən təşbeh uğurludur. 2015-ci ildə gənc yazarların yazılarının elektron mətbuatda davamlı işıqlandırılmasında da gənc imzaların xidmətləri oldu. Bignews.az-da Əntiqə Səməndər, 2015-ci ildə fəaliyyətə başlayan manera.az-da Şəhla Aslan, yenibaxis.az-da Aysel

Abdullazadə və senet.az əməkdaşları müasir ədəbi imzaların tanınmasında və yazılan hər əsərin müzakirəyə təqdim olunmasında köməklərini əsirgəmədilər. Göründüyü kimi, 2015-ci il gənc yazarların yaradıcılığında müəyyən uğurlu mərhələ kimi qiymətləndirilə bilər. Bu mərhələnin belə yüksələn xətlə inkişafı isə, əlbəttə ki, AYB-nin gənclər siyasəti və AYB-nin Gənclərlə İş üzrə Katibliyinin gənclərə dəstək olmasıyla bilavasitə əlaqəlidir.

"525-ci qəzet". 4-7 iyun 2016

"ULDUZ" JURNALINDA ƏDƏBİ MÜZAKİRƏ

Moderator: Gülnar Səma
Nasir: Pərvin
Şair: Ulucay Akif

Gülnar Səma: İlk öncə layihəmizin uğurlu və davamlı olmasını arzulayıram, daha sonra təşəkkür edirəm ki, gəldiniz. İndi isə söhbətimizə başlayaq. "Ədəbiyyat qəzeti"nin oktyabr nömrələrində irihəcmli müzakirələr gedib. Orada konkret deyilməyib ki, Pərvinin yazdığı yaxşıdır, ya pisdir, yaxud Ulucayın yazdığı yaxşıdır, ya pisdir. Söz ümumiyə deyilib, ümumiyə deyilən sözün də ənənəvi olaraq heç vaxt bir effekti olmayıb. Mən istəyirəm, ümumiyyətlə, bizim bu müzakirəmizin başqa müzakirələrdən fərqi onda olsun ki, konkret mətnlərə və imzalara müraciət edək. Həm yazı gələcəkdə oxunsun və münasibət olsun, həm də fakt əsasında deyək. Hər halda, Pərvin xanım da ədəbiyyatşünasdır, tədqiqatçıdır, mən də tədqiqatla məşğulam, Ulucay, sən də magistrsən tədqiqat işlərinin içindəsən. Ona görə də, çalışaq ki, bir az bu məsələləri nəzərə alaq. İlk olaraq başlayaq hal-hazırkı çağdaş dövrümüzün ədəbi prosesinə olan münasibətimizdən.

Pərvin: Əslində bir dövr haqqında danışmaq üçün o zamanın üzərindən bir qədər vaxt keçməlidir. Çünki müəyyən zaman keçəndən sonra bəlli bir dövr daha yaxşı, daha aydın görünür. Vaxt mütləq şəkildə öz təsirini göstərir, ədəbiyyat meyarlarından başqa tarix meyarları da var ki, onlar da ədəbi əsərlərin dəyərləndirilməsində rol oynayır. Amma bununla belə indi içərisində olduğumuz, hər gün müşahidə etdiyimiz mühit haqqında, imzaları tanınan, oxunan müəlliflər haqqında müəyyən fikir söyləmək olar, sadəcə, bəlkə də, obyektivliyi yüz faiz qoruyub saxlamaq

çətin olar bir az. Həmçinin onu da deyim ki, artıq universitetlərdə "Müasir ədəbi proses" fənni tədris olunur, bu fənni mən də tədris edirəm və elmin çağdaş ədəbi mühitə ciddi münasibətini çox bəyənirəm...

Gülnar Səma: Mən əlavə edim ki, 2013-cü ildən bəri hər il ədəbi proses akademiyanın Ədəbiyyat İnstitutunda izlənilir, kitablar çap olunur. Son iki cildlik "Müasir Azərbaycan ədəbiyyatı tarixi" kitabı nəşr edilib. Bu, o deməkdir ki, ədəbi proses diqqətdədir.

Pərvin: Bəli. Eyni zamanda müstəqillik dövrü Azərbaycan ədəbiyyatı üç cildliyi çap olundu. Burada da, demək olar ki, müxtəlif oçerklərdə, yazılarda son dövr gənc yazıçıların və şairlərin də yaradıcılığı yer alıb. Son illərdə böyük bir axın gəldi ədəbiyyata. Bunun bir səbəbi də internetdi, çünki hər adam yazısını, peşəkarlığından asılı olmayaraq, yayımlamaq, tirajlamaq imkanına malikdir. Amma bununla belə, yəni ədəbi mühitə yeni-yeni gənclərin, müəlliflərin gəlməsinə baxmayaraq, ciddi ədəbi jurnal redaktorları şikayət edirlər ki, yaxşı əsərlər tapa bilmirik çap etməyə.

Gülnar Səma: Bu məsələdə mən həmişə deyirəm ki, yeni gələn gənclərdən mənim elə də böyük narazılığım yoxdur. Ortada kifayət qədər qaneedici mətnlər var. O ki qaldı jurnalların və ya digər dərgilərin, qəzetlərin, mətbuat orqanlarının hansısa mətni tapıb çap edə bilməməsində, məncə, kifayət qədər özlərində günah var. O üzdən ki, bizim hamımızın istinad etdiyimiz, ədəbi mətbuatımız olan "Ədəbiyyat qəzeti"nin konkret toxunulmaz imzaları var ki, o imzalardan o yana səddi keçmək olmur. Əgər onların öz toxunulmaz imzaları onlara, onları qane edəcək mətn gətirə bilmirsə, bu Ulucayın, Gülnarın və ya Pərvinin günahı deyil. İmkan versinlər biz də ora gedə bilək, o

səddi aşaq, mətnlərimizə baxsınlar, doğrudan da, qane etməsə, onda onlara haqq vermək olar.

Ulucay Akif: Mən bura gəlməmişdən qabaq "Ədəbiyyat qəzetində" ədəbi tənqid haqqında müzakirəni oxudum. Nizami Cəfərov idi akademikimiz, professor Nizaməddin Şəmsizadə idi...

Gülnar Səma: Vaqif Yusifli, Cavanşir Yusifli, Elnarə Akimova, Məti Osmanoğlu, bir də Azər müəllimin özü idi.

Ulucay Akif: Hə, o müzakirədən sonra elə mən gördüm ki, əslində bu durğunluğun, bizim dərgilərin, qəzetlərin redaktorlarının narazılığının səbəbi elə bizim tənqidçilərimizin bir qədər passiv olmasıdır. Klassik rus ədəbiyyatına baxanda görürsən ki, Belinski tanınmış imzalardan yazmırdı, gənc imzalardan yazırdı...

Gülnar Səma: Bilirsən, Ulucay, mən bir müdaxilə etmək istəyirəm. Tənqidçi passivdir nəyə deyirsiniz, o mənə çatmır. O mənada ki, məsəlçün mənim ən azından 15-20 nəfər gənc yazar haqqında yazım var. Və 2015-ci il ədəbi prosesindən bəhs edən bir yazım var. Hansınız biriniz o yazını bir dəfə oxudunuz, bir münasibət bildirdiniz ki, Gülnar, burada nə var, nə yox. Məsəlçün, sən oxudun dedinmi ki, Gülnar, Pərvin haqqında yazında hanısasa qüsurlar var, hansısa yaxşı tərəflər var. Yaxud Arzu Hüseyn, Faiq Hüseynbəyli, Elməddin Nicat, Emin Piri, Ramil Əhməd və s. gənclər haqqında mənim bu qədər yazım var. Əgər sən bunu oxumamısansa, bu barədə məlumatın yoxdursa, buna fikir bildirmirsənsə, bu, o demək deyil ki, bu proses getmir.

Pərvin: Gənclərin bir-birini oxumaması bir problemdir, yazıçının özü haqqında yazılana reaksiya verməməsi ayrı problem. Məsələn, Gülnar xanım, siz deyirsiz ki, Ulucay başqa gənc yazarlar haqqında olan məqalələrinizi oxumayıb, reaksiya verməyib. Bu da

qüsurdur, yəni bu cür yazıları oxuyub nəticə çıxara bilər gənc müəllif. Amma daha böyük qüsur odur ki, haqqında yazdığın adam reaksiya vermir məqaləyə. Yəni müəllif öz mətninin arxasında durub o araşdırmaçıya bir ciddi reaksiya vermir ki, bax sən bunu düz yozmusan, bunu səhv deyirsən, bu müqayisə yanlışdı və s. Bir-birini oxumamaq isə doğrudan da, qəribədir. Hər gün saytlardan nə qədər yaxşı ya zəif mətn oxumalı oluram. Yalnız ona görə ki, xəbərim olsun, bilim ki, bu imzanın arxasında nə durur. Ümumiyyətlə, son illərdə yaradıcı gənclərdə bir süstlük var, bu süstlüyün səbəbi nədir bilmirsən... Həmişə yuxuludular, yorğun səs, səliqəsiz görkəm bir imicə çevrilib.

Gülnar Səma: Razıyam. Sanki mən! Ancaq mən! Məndən başqa heç nə! Mən yazım, oxunum, tərifənim, ayrı kiminsə yazdığı mənə maraqlı deyil və kiminsə yazdığına olan münasibət də mənə maraqlı deyil. Sadəcə, mən fiquru var ortada. Ona görə də əgər biz hal-hazırda hər həftə çap olunan Vaqif Yusiflinin, Elnarə Akimovanın, Cavanşir Yusiflinin, Məti Osmanoğlunun və adlarını çox çəkə bilərəm, bu ədəbiyyatşünaslıqla məşğul olan, birbaşa tənqidlə məşğul olan müəlliflərin ortaya qoyduğu mətnləri, gündəlik mətbuatımızda dərc edilən mətnləri oxumuruqsa, onlardan xəbərsiziksə, bu o demək deyil ki, tənqid yoxdur. Elə "Ədəbi proses-2016" kitabında Qürbət müəllimin 2016-cı ilin ədəbi tənqidindən bəhs edən yazısı var və o yazıda 2016-cı ildə ədəbi tənqiddə baş verən proseslər izlənilib. Əgər olmasaydı o boyda çəkilən məqalə adları, kitab adları haradan olardı. Deməli, ortada nəsə var. Bizim xəbərimiz olmayan bir şey o demək deyil ki, yoxdur.

Ulucay Akif: Yox, mənim dediyim bilirsən nədir, o tanınmış imzanın yazdığı yazı ilə digər birinin yazdığı imza tamam fərqlidir...

Gülnar Səma: İmza necə tanınır? İmza ya gündəlik dərc edilməlidir, tanınmalıdır, ya da məsəlçün mən Ulucay haqqında bir yazı yazmışam, Ulucay da gəlib onu Pərvinə deyir ki, Gülnar mənim haqqımda belə bir yazı yazmışdı çox yaxşı idi. Belə-belə tanınır də. Başqa bunun tanınmaq variantı yoxdur. Əgər mətbuatda çap etmirlərsə, Ulucay özü onun haqqında yazılan yazıya qarşı biganədirsə, bu imza dediyimiz, bu müəllif dediyimiz necə məşhurlaşar, o mənə çatmır.

Ulucay Akif: Deyim də, necə məşhurlaşar. Məsələn, sanbalı yaxud məşhur tənqidçi deyək, yaşlı, qocaman tənqidçi deyək, həmin tənqidçi gənc bir yazıçı haqqında yazı yazsa, artıq nüfuzu olan bir tənqidçi, yəni heç tanınmayan müəllif də təqdim olunar.

Pərvin: Vaqif Yusiflinin son dövr gənc müəlliflərin az qala hamısı haqqında geniş məqalələri var. Elnarə Akimova bütün ədəbi gəncliyin yeni çıxan yazılarına, kitablarına, romanlarına reaksiya verir, məqalələr yazır.

Gülnar Səma: Bəli, Vaqif Yusiflinin yazıları...

Ulucay Akif: Amma bir Vaqif Yusifli ilə bizim ümumi ədəbi tənqid prosesini necə qiymətləndirmək olar?

Pərvin: Ulucay, məncə, bu işləmək istəməyən adamın böyükləri günahlandırmasından başqa bir şey deyil. Məgər ədəbi tənqid bizə yazmaq öyrətməlidir, yaxud ruh, ilham verməlidir? Siz deyirsiz, ümumiyyətlə, tənqidçilər gənc müəlliflərin yazılarını görmürlər, oxumurlar, biz də deyirik ki, lap o qədər deyil, yaxşı əsərlərə reaksiya var. Amma yenə də ədəbi meyar bu deyil, bir gənc haqqında bütün tənqidçilər durmadan tərif

yağdırsalar belə, o adam çalışmaq, əziyyət çəkmək istəmirsə, heç nə alınan deyil.

Gülnar Səma: Bəli haqlısız, çox böyük problemdi tənbəllik. Mən elə öz yaşıdlarıma baxıram və heyrət edirəm ki, necə tez yorulurlar, necə qaçırlar əziyyətdən.

Pərvin: Mən bunu tələbələrimə də deyirəm. Məsələ burasındadır ki, dəhşətli dərəcədə gənc nəsildə bir yorğunluq, həvəssizlik var. Elə bil hər şeyi yaşayıb və doyub artıq. Bəlkə, əslində öz yaradıcılıq planları var, o yol ilə gedir adam. Amma eyni zamanda süni bir yorğunluq imici yaranıb. Bu yaxınlarda cavan həmkarlarımdan birindən soruşdum ki, siz nəyə görə belə yuxulu danışırsınız həmişə, cavab verdi ki, mən yorğun adamam. Sonra çox düşündüm ki, biz nağıllardan, bədii əsərlərdən oxumuşduq ki, adətən qoca, əldən düşmüş adam həyatdan şikayət edir, deyir yoruldum filan...

Gülnar Səma: Saxta obraz yaratmağa cəhd edirlər. Elə bilirlər bu cür görünməklə yaradıcı adama oxşayacaqlar. Mən istəyirəm ki, artıq biz ümumidən bir az xüsusiyə tərəf keçək. Məsəlçün, Pərvin xanım, həm nasir kimi, həm bir ədəbiyyat tədqiqatçısı kimi sizin tamamilə haqqınız var ki, müasir ədəbi prosesə, gənclərə münasibət bildirəsiniz. Sizin diqqətinizi cəlb edən xüsusi imzalar varmı?

Pərvin: Əlbəttə, mənimlə eyni vaxtda ədəbiyyata gələn ayrı-ayrı imzalar var ki, mən onların hamısının yazılarını izləyirəm.

Gülnar Səma: Yaxşıdır ki, siz gənc ədiblər birin, mən gənc ədiblər ikinin, Ulucay da üçün nümayəndəsidir.

Pərvin: Gənc Ədiblər Məktəbindən bir çox imzalar gəldi ədəbi mühitə, bu gün elə çox oxunan, ardıcıl yaradıcılıqla məşğul olan onlardır. O zaman elə görüşlərdə oxuyurduq yazılarımızı, fikirlərimizi deyirdik. İndi də demək olar ki, hamısını oxuyuram.

Gülnar Səma: İstərdim konkret adlar çəkəsiniz...

Pərvin: Əlbəttə, birinci gənc ədiblər məktəbindən bu gün ədəbi mühitdə Elxan Qaraqan, Qismət Rüstəmov, Cavid Zeynallı, Fərid Hüseyn, mərhum Zərdüşt Şəfizadə, xanımlardan Günel Eminli (bu yaxınlarda kitabı təqdim olundu, mütləq oxuyacam), Ülviyyə Heydərova, Feyziyyə Soltanmurad bütün bunlar bir nəsil ədəbiyyata gəldi ki, onlar hərəsi öz sahəsində, öz janrında maraqlı qələm sahibləridirlər. Artıq bu birinci Gənc Ədiblər Məktəbinin üzərindən az qala 8-9 ildən çox vaxt keçir. Bu müddətdə zaman göstərdi ki, yeni gələn gənclər müəyyən mənada öz imzalarını təsdiq edə bildilər. Öz yaradıcılıqlarındakı ardıcıllıqla, davamlı işləməklə, hər kəs özünəməxsus olması ilə özünü göstərə bildi. Məsələn, elə o zaman Elxan Qaraqanın "A" romanının Milli Kitab Mükafatını alması böyük hadisə idi, ədəbi gəncliyin qələbəsi idi. Qismətin ilk şeirləri nə qədər təsirli idisə, zamanla o şeirlər bir az da cilalandı. Hazırda Qismət həm də ciddi bir esseist kimi, çox maraqlı mətnlərin tərcüməçisi kimi tanınır. "Meqapolis hüznləri" şeirlər, "Gələcəyin tarixi" esselər kitabları son dərəcə sanballıdır. Daha sonra Cavid Zeynallının "Günəşi gözləyənlər" romanını çox böyük maraqla oxumuşdum. Cavidlə bu roman ətrafında müsahibəmiz də olmuşdu. Cavidin mənim düşüncəmdə çox cilalı nəsr dili var. Nəsr dilini publisistika dilindən seçən yazıçıdır. "Günəşi gözləyənlər"i bəyəndim, sonrakı "Leyla"nı "Günəşi gözləyənlər" qədər bəyənmədim. Hər halda, Cavid nasir kimi zəngin, koloritli dilin üzərində çox çalışan yazıçıdır. Fərid Hüseynin şeirlərini, esselərini, "Təbir Caizsə" silsiləsini çox bəyənmişəm, özü ilə də söhbətlərimiz olub bu haqda.

Gülnar Səma: Mən hesab edirəm ki, bu sözlər Fəridin, Cavidin Gənc Ədiblər Məktəbi qələm yoldaşının yox, sadəcə ədəbiyyatçı, tədqiqatçı Pərvinin sözləridir.

Pərvin: Əlbəttə, mənim sözlərimdə heç bir qohumbazlıq, dostbazlıq ola bilməz... (gülür) Ülviyyə Heydərovanın "Noutbuk" hekayəsini çox bəyənmişdim, son vaxtlarda çap olunan "Kirayə arzular" silsiləsi haqqında da müsbət fikirlərimi özünə demişəm. Feyziyyənin təsirli, qadın duyğularını, qorxunu, həyəcanı ifadə edən şeirləri ilə yanaşı, çox gözəl esseləri də var. "525-ci qəzet"də silsilə şəkildə çap olunurdu. O zaman magistr yoldaşlarım mənə deyirdi ki, sən də çap olunursan "525-ci qəzet"də, amma biz Feyziyyəni oxuyuruq.

Gülnar Səma: Sizin bu açıqlamanızdan belə başa düşdüm ki, siz ədəbi prosesi birbaşa izləyirsiniz. İstəyirəm eyni sualı Ulucaya verək. Ulucay, sənin öz həmyaşıdların, öz qələm yoldaşların Gənc Ədiblər Məktəbi -3 haqqında fikirlərin, onların kitablarına, əsərlərinə, lap sosial şəbəkələrdə paylaşdığı yazılarına olan münasibətin konkret adlarla daha çox bəyəndiyin, hələ ümid etdiyin, ümumiyyətlə, qəbul etmədiyin imzalar kimlərdir. Təbii ki, öz növbəmdə mən də adlar çəkib deyəcəyəm.

Ulucay Akif: Təbii ki, Pərvin xanımın adlarını çəkdiyi imzalar mənim də hörmətim olan imzalardır. Bir-iki xanım istisna olmaqla, yəni onları, ümumiyyətlə, tanımıram.

Pərvin: Təəssüf ki...

Ulucay Akif: Hə, təəssüf ki... Amma siz deyəndən sonra tanış olacam onların da yazdıqları ilə.

Gülnar Səma: Elə bu söhbətimizin məqsədi o tanışlığa xidmət edir.

Ulucay Akif: Birinci gənc ədiblərin digər üzvlərinin yaradıcılığını yaxından izləyirəm və çox bəyənirəm. O nəslə aiddir, Şəhriyar del Gerani, mən onun şeirlərini də çox bəyənirəm və hal-hazırda gənc şairlər arasında ruhuma ən yaxın olandır.

Gülnar Səma: Şəhriyar del Geraninin mükafata layiq olan kitabını mən oxudum. Şəhriyarın o kitabdakı şeirlərində əslində qeyri-adi bir şey tapmadım, amma özünə də bir dəfə etiraf elədim, esseləri çox təsirli və mükəmməl idi. Şeirləri mənə sıradan şeirlər kimi gəldi. Şişirdildiyi qədər də qeyri-adi gəlmədi.

Pərvin: Şəhriyar yeni nəslin ən maraqlı və istedadlı şairlərindəndir. Şəhriyar poeziyaya çox ciddi yanaşır, yəni şeir yazmaq əyləncə deyil onun üçün.

Gülnar Səma: Həm də ürəklə yanaşır.

Pərvin: Mən bu sıraya Fərid Hüseyn, daha gənc olan Ramil Əhmədi də qatıram, onların şeirləri intellektual oxucuya daha çox təsir edər. Amma bunla belə poeziyanın tələbi olan emosianallıq, hisslər, zəriflik kimi vacib şərtlərə də əməl edirlər.

Gülnar Səma: İndi yenə qayıdaq Ulucayın özünə ki, Ulucay, sənin hal-hazırkı üçüncü gənc ədiblər, lap gənc ədiblərin üzvü olmayan digər müasir yazarlarımız haqqında fikirlərin necədir?

Ulucay Akif: Ümumi baxdıqda gənc ədiblər üçə əslində vəziyyət məni qane eləmir. İstedad qalsın bir qırağa, passivdirlər.

Gülnar Səma: Səhv eləmirəmsə "Ulduz" jurnalının bir nömrəsi də sənə həvalə olunmuşdu.

Ulucay Akif: Hə, mən redaktorluq eləmişdim gənc ədiblər üçə ayrılan sayına. Həddindən artıq passivdirlər və nəsə gözləyirlər. Elə bilirlər ki, bunların yazdıqlarına görə nəsə etməlidirlər bunlara, amma bu elə deyil. Ədəbiyyat əslində fiziki bir iş deyil. Mən usta deyiləm ki, gedim daş daşıyım pul gözləyim. Ədəbiyyat sənin ruhunun tələbatıdır. Sən bunu nəyinsə qarşılığında eləmirsən. Şəxsən mənim üçün özümüifadə tərzidir.

Gülnar Səma: Bəs ona görəmi, sən özün deyirdin ki, bütün şeirlərimin canı cəhənnəmə, sən olmayandan sonra. Hardasa, ciddi bir müsahibədə sən özünü inkar edib, poetik gündəmə gələndə başqa cür deyirsən axı.

Ulucay Akif: Yox, əslində orada dediyim elə həmin şeydir ki, bütün şeirlərimin canı cəhənnəmə, əgər sən yoxsansa. Mən onu demək istəyirəm ki, mənim məqsədim sənsən, mənim məqsədim şeir deyil. Belə nəticəyə də gəlmək olar ki, mənim məqsədim ədəbiyyatdan maddi baxımından nəsə qazanmaq deyil, ancaq özümü ifadə etməyə çalışıram.

Gülnar Səma: Amma problem ondadır ki, indi bəzi insanlar sanki məqsədlə gəlirlər. Gəlsinlər, Birliyə üzv olsunlar, təqaüd alsınlar, missiyaları bitsin, çıxıb getsinlər. Hətta utanmaz-utanmaz bunu açıq şəkildə ifadə də edirlər ki, başqa bir fikrim yoxdur, elə buna görə gəlirəm. Bəs yaxşı, yaradıcılığa ciddi yanaşan, gecəsini gündüzünə qatanların illərlə çəkdiyi əziyyət? Sənlə onun nə fərqi olmalıdır?

Ulucay Akif: İstedadsızlığın və durğunluğun da səbəbi elə budur.

Gülnar Səma: Mənə elə gəlir ki, biz o cür insanlara qarşı sərt təpki göstərib, həqiqətən yol kəsənləri olmalıyıq.

Pərvin: O insanlara qarşı təpkini zaman göstərir. Məsəlçün, Gənc Ədiblər Məktəbi-1-in yüzlərlə üzvü var idi, əlli nəfər bitirdi. Gəlin görək, bu gün ədəbi mühitdə neçə nəfər qalıb.

Gülnar Səma: Necə olur ki, mən dissertasiya da yaza bilirəm, məqalə də yaza bilirəm, işdəki işimi də görürəm, bütün bunlarla yanaşı, hər axşam bir gün Ulucayın, bir gün Eminin, bir gün Vüsal Yurdoğlunun kitabını və ya on-on beş şeirini oxuyuram ki, hazırkı ədəbi prosesdən xəbərim olsun. Sabah Ulucay haqqında

danışanda deməyim ki, yox mən Ulucayı qəbul edirəm və ya etmirəm. Niyə qəbul edirsən, hansı mətninə əsasən, niyə qəbul etmirsən hansı mətninə əsasən. Məsəlçün, mən son gənc ədiblərin görüşünə çox gəlmədiyimə görə çoxunu yaxından tanımıram, amma əvvəldən də tanıdığım Sevil İşığa gənc ədiblər müsbət mənada təsir edib. Yaxud Vüsal Yurdoğlunun, Habil Rzanurun şeirlərinin yaxşılığa doğru dəyişməsinə təsiri oldu. Ola bilsin ki, mənim tanımadığım başqa imzalar var, ona görə səndən soruşdum.

Ulucay Akif: Gənc ədiblər 3-ün içində təkcə şairlər yox, həm də gözəl nasirlər var. Biri Müşviq Şükürlüdür. Amma Müşviq xaraktercə bir az pessimist, bir az xaotik adamdır. Ona görə də məhsuldar deyil o qədər də.

Pərvin: Məsələn, hansı hekayəsi var ki, məsləhət görərdiniz ki, mən gedib onu oxuyum və həmin hekayə haqqında yazı yazım.

Ulucay Akif: Adı yadımdan çıxıb. Anasına aid yazdığı essesi idi...

Pərvin: Üç hekayəsini deyin. Həqiqətən mənə maraqlıdır ki, siz öz həmkarınızın əsərini tövsiyə edəsiniz.

Ulucay Akif: İndi sizə bir söz deyəcəm, gülməyiniz gələcək, bəlkə də, mən Müşviqin oxuduğum yazıları heç yerdə dərc olunmayıb. Müşviq onu şəxsən mənə gətirib. Bu adam elə bir adamdır ki, dərc olunmağı xoşlamır.

Gülnar Səma: Səndən qələm yoldaşı kimi məsləhət bildiyini soruşur.

Pərvin: Ən azından hekayənin adını, mövzusunu deyin, nə sizi təsirləndirdi, onu deyin.

Ulucay Akif: Sevililər günü haqqında yazdığı bir hekayəsi var idi. Xəyali olaraq sevdiyi qızla görüşməsi haqqında yazı yazmışdı. Amma o hekayənin adı mənim yadımda qalmayıb, gətirdi elə oxudum və oxuyanda hiss edirsən ki, bu adam cümlənin birini belə boşuna yazmaq

istəməyib. Ona görə onun yazdığı hekayələr mənə çox xoş təsir edir. Görürsən ki, bu adam, doğrudan da, yazmağı bacaran biridir. Elə-belə yer tutsun deyə yazdığı bir cümləsi yoxdur. Bütün cümlələri hansısa bir məqsədlə yazıb qoyub.

Gülnar Səma: Başqa kimlərə sən bələdsən və bizə tanıda bilərsən.

Ulucay Akif: Orxan Cuvarlı var, keçən il gənc ədiblərdə oldu, indi Türkiyədə magistraturada oxuyur. O da nasirdir. "Ulduz" jurnalında da onun iki-üç hekayəsi dərc olunub. Bir də ki, Elçin Toran var nasirlərdən. "Kəpənəyin ölümü"nü yazmışdı.

Gülnar Səma: "Kəpənəyin ölümü" "Ulduz"un siz çıxartdığınız nömrəsində vardı, mən oxumuşdum.

Ulucay Akif: Bu adını çəkdiyim üç nasir də dərc olunmağı heç xoşlamırlar.

Pərvin: Sizcə niyə?

Ulucay Akif: Onu bilmirəm, məsələn, Müşviq özünü çox vaxt yetərsiz sayır. Deyir ki, hələ mənlik deyil. Amma onun yazdıqlarını özünüz indi istəyərsiniz, oxuyarsınız və görəcəksiniz ki, ədəbi prosesdə mənəm-mənəm deyən, hətta orta və yaşlı nəslin nümayəndələrinin çoxundan qat-qat güclü yazır.

Pərvin: Məsələn, kimdən güclü yazır Müşviq Şükürlü?

Ulucay Akif: Mən axı tənqidçi deyiləm...

Pərvin: Çox maraqlı məqama gəlib çatdıq. Konkret olaraq Müşviqdən söhbət getmir, onun hekayələrini oxumamışam, oxuyacam yaxın günlərdə. Qəribədir ki, son illərdə müşahidə edirəm, hansısa, cavan, özünə yazıçı deyən biri çıxır ortaya. Bir dənə ciddi mətni yoxdur, amma üç-beş dostu onun haqqında danışanda deyir ki, bizim bir çox yaşlı yazıçılardan yaxşı yazır. Bizim yaşlı yazıçılarımız gəlib bu səviyyəyə çatmaq üçün, oxucunu qazanmaq üçün

ömrünü sərf edib. Amma bu cavan həvəskar bir normal hekayə yazıb arxasında durmayıbsa necə müqayisə eləmək olar? Mən də soruşuram ki, hansı yaşlı ya orta nəsil yazıçıdan yaxşı yazır. Məsələn, Sabir Əhmədlidən, Elçindən, Seyran Səxavətdən ya da İlqar Fəhmidən yaxşı yazır?

Ulucay Akif: Şəxsi fikrim ola bilər, mən tənqidçi deyiləm deyə...

Gülnar Səma: Bilirsiniz Pərvin xanım, onlar Elçin, Anar, Sabir Əhmədli, Seyran Səxavət yaradıcılığına bələd deyillər deyə, elə bilirlər öz yazdıqları şedevrdir.

Pərvin: Bəli. Sosial şəbəkədə insan bir dənə şeirini qoyur səhər durub deyirsiniz ki, sən Ramiz Rövşəndən yaxşı şairsən. Bir dənə bapbalaca hekayəsini qoyur, durub deyirsiz ki, bu Çexov səviyyəsində hekayədir. Soruşmaq istərdim ondan ki, sən Çexovdan neçə hekayə oxumusan?

Gülnar Səma: Bəli problem ondadır ki, müqayisə elədikləri, adlarını əzbərlədikləri yazıçıların əsərlərindən xəbərsizdirlər.

Pərvin: Bu gün heç bir şey etməyən insanın iddiası böyükdür. Konkret olaraq yeni gələn nəslin Vaqif Səmədoğluna, Ramiz Rövşənə, lap elə son on ildə imzasını tanıtdıran Fəridin, Şəhriyarın özünə aqressiyasını hiss edirəm. Aqressiya da ondan ibarətdir ki, sanki biz bunlardan yaxşıyıq, çəkilsinlər kənara, meydanı bizə versinlər. Amma soruşanda nə yazmısan, ortadan da aşağı şeirlərini şedevr kimi qələmə verirlər.

Ulucay Akif: Amma o aqressiyanın da hamıda olduğunu düşünməyin. Gənc ədiblər üçdə elə gənclər var ki, içi mən daxil, həmin o adını çəkdiyiniz yazıçıları sevirlər, yaradıcılığını da izləyirlər. Həmin o aqressiv yanaşanlar, deyirlər e boş qazanın səsi bərk çıxar, o məsələdir ki, əslində insan özü biləndə ki, yaxşı yazmır,

onda başlayır başqasını tənqid etməyə. Bir adam özü yaxşı yazırsa, başqasının pis yazması, yaxşı yazması onu narahat etməz. Ümumiyyətlə, öz işində olan birini başqa birinin işi çox maraqlandırmır. Məsələn, birinin zəif yazması məni narahat eləməz, çünki o öz imzası ilə yazır. Ona görə də, həmin o aqressiv yanaşanlar özlərinin qabında heç nə olmadığını bilənlərdir.

Gülnar Səma: Məsələn?

Ulucay Akif: Elə gənc ədiblərdə əksəriyyəti.

Gülnar Səma: Gəl ümumi söhbət etməyək çünki həmişə başqa müzakirələrdə və başqa tənqidçilərin dilindən ümumiyə deyilən söhbət olanda mən onlara aqressiv yanaşmışam və sərt reaksiya bildirmişəm ki, əgər sözü ümumiyə deyirsənsə, konkret kimin səhvidirsə, ona demirsənsə, heç demə.

Ulucay Akif: Mənim adını çəkdiyim, sən də adını çəkdiyin iki-üç şairin, mən də iki-üç nasirin adını çəkdim.

Gülnar Səma: İnkar elədiklərindən, qəbul eləmədiklərindən də ad çəkmək lazımdır.

Ulucay Akif: O birilərini o qədər tanımıram ki, heç adlarını və familyalarını, təxəllüslərini düz əməlli bilmirəm.

Gülnar Səma: Belə çıxır ki, sən özün də biganələrə bir nümunəsən.

Ulucay Akif: Həmin o gənc ədiblərin biri Qazaxdan qalxıb gəlir ki, bu gün məsələn, Qəşəm Nəcəfzadə ilə görüş var. Rayonlardan, bölgələrdən gələnlər olacaq də gənc ədiblərə görə. Gələcək, iki saat oturacaq, Qəşəm Nəcəfzadəyə qulaq asacaq, fotoqraf bunun şəklini çəkəcək, tədbir qurtardı, əl çaldı, bu çıxdı getdi, axşam da feysbukda həmin o şəklini paylaşacaq Yazıçılar Birliyini taq edəcək ki, bu gün Yazıçılar Birliyində filankəslə görüş oldu. Kimlərdir, bunlar, mənim yadımda heç bir şeylə

qalmırlar. Bizim feysbukda qrupumuz var, gənc ədiblər üçün. Mən oradakı paylaşımlardan bilirəm ki, bu gənc ədiblərdəndir. Mən onu imza olaraq tanımıram deyə yadımda da qalmır.

Pərvin: Bəlkə, ad çəkmək istəmirsən.

Gülnar Səma: Ad çəkmək istəmir başqa söhbətdir, gətirdiyi bəhanələr başqa söhbətdir. Məsəlçün, bizim gənc ədiblər ikidən də əllidən yuxarı sertifikat alan oldu. Demək olar ki, mən onların əksəriyyətini tanıyırdım və əksəriyyəti ilə də münasibətim var idi. Elə həmin dövrlərdə də, ondan sonrakı dövrlərdə də çoxunun ədəbi prosesdəki mövqeyini izləyirdim. Hal-hazırda onların içində daha çox mübarizlik göstərən Şəfa Vəlidir. Hansı ki, heç Bakıda deyil, ədəbi mühitin içində deyil. Söhbət ondan gedir ki, içində bir fədakar ədəbiyyat sevgisi var. Həm özünün şeirlərini, əsərlərini yazır, həm də sənin, mənim, onun, bunun yazdığı əsərləri oxuyur, hələ vaxt ayırıb o əsərlər haqqında nəsə yazır da. Bu fədakarlığı qarşılıqsız, təmənnasız, içindən gələrək edir. Amma bizim gənc ədiblərdən mənimlə eyni bölgədən olan Taleh Mansur, Rüfət Axundlu, Elməddin Nicat indi sanki bir arxayınlaşma mərhələsinə keçiblər. Sankı artıq üzv oldum, təqaüd aldım işim bitdi. Taleh çox istedadlı bir yazardır, amma heç kitab çıxarmaq haqqında düşünmək istəmir. Yaxud Rüfəti götürək.

Ulucay Akif: Talehin həm də problemləri də var səhhəti ilə bağlı.

Gülnar Səma: Şükür, səhhəti ilə bağlı problemlər hamısı qaldı arxada. İndi hər şey qaydasındadır, hər şey yaxşıdır. Mənə elə gəlir ki, özlərini missiyalarını başa vurmuş kimi hesab edirlər. Bunlar mənə daha yaxın olduğu üçün, biz bir gəlib bir fəaliyyət göstərdiyimiz üçün

bunların konkret olaraq adlarını çəkirəm. Yaxşı, missiyan bitdisə, iki il hər ay rayondan durub gəlmək nəyə görə idi?

Pərvin: Əslinə qalanda hər insanın öz yaradıcılıq planları var.

Gülnar Səma: Onlarla müqayisədə gənc ədiblərdən sonra Emin Piri məni qane elədi. Hətta getdi kənddə müəllim işlədi, amma ortaya iki kitab qoydu. Görürsən ki, məsuliyyət var, ciddi yanaşır.

Ulucay Akif: Təbii ki, bələləri də var.

Gülnar Səma: Məncə, biz kifayət qədər problemlərə toxunduq, kifayət qədər də adlar çəkdik. Növbəti müzakirələrin hər birini konkret bir mövzuya həsr edərik. Ona görə də, fikirlərimizi yekunlaşdıraq. Sizlərə təşəkkürlər. Ümid edirəm ki, yeni layihəmiz uğurlu alınar. Verilən reaksiyalar da yəqin ki, obyektiv olar.

"Ulduz" jurnalı. Dekabr. 2017. səh. 39-46

SÖZ-SƏS-RƏNG ÜÇLÜYÜ:
onları bir araya necə gətirməli?

Əvvəl söz olub, müzakirəsiz! Bəs sonra: səsmi, rəsmmi? – müzakirə açmaq da olar, açmamaq da! Məsələ ondadır ki, bir vaxtlar rəssamı bəstəkarın iş otağında, bəstəkarı yazıçının evində, yazıçını rəssamın emalatxanasında tapardın. İndi hərə öz hücərsinə çəkilib. Sözün səsdən, səsin rəngdən xəbəri yoxdur. Niyə? Budəfəki müzakirəmiz sözügedən problemə həsr olunub. Sözü, səsi, rəngi deyə bilmərik, amma yazıçı-rəssam-bəstəkarı bir yerə yığa bildik. Gənc ədəbiyyatşünas, şair Gülnar Səma, tanınmış rəssamlar Esmira Rəhimli və Gülnarə Mahmud,Bakı Musiqi Akademiyasının professoru, Əməkdar İncəsənət Xadimi, bəstəkar-pianoçu Ceyhun Allahverdiyev, bəlkə də, həyatda ilk dəfə rastlaşırdı. Göylə əlləşənləri "Ulduz" görüşdürdü...

Ceyhun Allahverdiyev: Belə mühüm bir məsələyə müraciət etdiyinizə görə sizə təşəkkür edirəm, Bu, ciddi bir məsələdir və hər üç yaradıcı ittifaqın sədarəti çərçivəsində həll olunmalıdır. Əvvəllər kiçik həcmli filmlər çəkiləndə belə mütləq bəstəkar, ssenarist, rəssam birgə işləyirdi. Nəticə də uğurlu alınırdı. İndi belə deyil, özfəaliyyət çox şeyi üstələyib, istedadlı, ciddi insanlar müəyyən qədər kənara çəkiliblər.

Gülnar Səma: Əslində, məqdəsimiz "bu problemləri necə həll etmək olar"mövzusunda fikir mübadiləsi aparmaqdır. İstərdim, Gülnarə xanım da fikrini bizimlə bölüşsün.

Gülnarə Mahmud: Mən də rəssamam, Rəssamlar İttifaqının üzvüyəm. Rəssamlıq da musiqi ilə əlaqəlidir. İnsan gərək gözəl musiqi dinləsin ki, çəkdiyi rəsmlərdə də onu ifadə edə bilsin. Ceyhun müəllim çox gözəl qeyd etdi

ki, musiqidə özfəaliyyətlər daha çoxdur, onlar adamın zövqünü oxşamır.

Gülnar Səma: Mən bir məsələyə toxunmaq istəyirəm: bədii yaradıcılıqla, ədəbiyyatşünaslıqla məşğul olsam da, vaxt tapan kimi sərgilərə, konsertlərə gedirəm. Siz necə, öz sahənizlə yanaşı, başqa sənət sahələrinə maraq göstərib əlaqələr qurursunuzmu,hansısa bir yazarın kitab təqdimatına gedirsinizmi?

Esmira Rəhimli: Çalışırıq ki, iştirak eləyək. Biz işləyirik, ona görə də, işdən hər dəfə icazə alıb getmək çox çətin olur. Bu, bizimçün çox önəmlidir, çox vacibdir ki, həmin tədbirlərdə, sərgilərdə iştirak edək.

Gülnar Səma: Bəs siz necə, Ceyhun müəllim?

Ceyhun Allahverdiyev: Ümumiyyətlə, çox çətindir. Birincisi, informasiya məsələsi var ki, bəzən xəbərin olmur. Xəbərin olduğu zaman da elə bir iş sistemində çalışırıq ki, vaxt ayırmaq çətindir.

Gülnar Səma: Nəzərə alsaq ki, bu üç ittifaq – Yazıçılar, Bəstəkarlar, Rəssamlar İttifaqları bir-birinə yaxın ərazidə yerləşir, əslində daha sıx əlaqə qurmaq olar. Ancaq həqiqət budur ki, yaradıcı insanlar bir-birindən ayrılı düşüb.

Ceyhun Allahverdiyev: Vaxtilə bu ittifaqların səlahiyyətləri həddindən artıq çox idi. Bu gün səlahiyyət deyəndə mütləq maddi məsələ yada düşür. Qara Qarayev, Fikrət Əmirov sədr olan vaxtlarda onların sözü nazirlikdən də yüksək idi. Bu gün isə çox səhti, formal qurumlara bənzəyir, bəzən düşünürsən ki, ümumiyyətlə, bu qurumların fəaliyyəti lazımdırmı? Əgər bir konsert təşkil eləmək üçün özün drijorla danışırsansa, arkestr dəvət edirsənsə, konserti təkbaşına təşkil edirsənsə qurumlar nə üçündür?!

Gülnar Səma: Yəni bəstəkar olaraq tək çalışırsansa, qurumdan bir kömək yoxdursa, ancaq belə qənaətə gəlmək olar.

Ceyhun Allahverdiyev: Bunun obyektiv və subyektiv tərəfləri var, təbii ki. Bir də ideologiya məsələsi var ki, bu gün insanlara nəyi aşılayırlar. Bu gün internet zəmanəsidir, mənim şəxsən yutubda böyük əksəriyyət əsərlərim var. Mənim Avstriyada, Parisdə, dəfələrlə Türkiyədə, Kiprdə, Yaponiyada, Amerikada çox yerlərdə müəllif konsertlərim olub. Bunların bir qismini yutubda yerləşdirmişəm. Məni axtarmaq istəyən, musiqimi öyrənmək istəyən açır oradan baxır. Bu da çox azdır. Bu yaxınlarda sizin dinlədiyiniz "Əbədi sevgimsən" kantatası birbaşa vətənlə bağlıdır.

Gülnar Səma: Mən həmin musiqinin mətniylə bağlı sual vermək istərdim, şeirin müəllifi kimdir?

Ceyhun Allahverdiyev: Şeirin müəllifi mənim bir çox mahnılarımın söz yazarı Maya Heydərqızıdır. Bizim onunla Filarmoniyada da mahnı və romanslardan ibarət konsertimiz olub.

Gülnar Səma: Bəs, Maya xanımdan başqa sizin əməkdaşlıq elədiyiniz yazarlar varmı?

Ceyhun Allahverdiyev: Fikrət Qoca ilə məktəbdə oxuduğum vaxtlarda görüşmüşdük.

Gülnar Səma: Ceyhun müəllim, nəticəyə baxanda artıq kifayət qədər uğurlu bir bəstəkarsınız. Ortaya ciddi əsərlər qoymuş birisiniz. İndiki bizim gənc yazarların, ən çox halda 20-25, yaxud 30 yaş arasında olan yazarların əsərlərinə müraciət etmək sizin üçün necə olar?

Ceyhun Allahverdiyev: Mən bu məsələdə yaş məsələsini tamamilə silirəm. Yaş insanın fiziki göstəricisidir pasportla.

Gülnar Səma: Gənc yazarların problemi nədir, ortada nəticəsi olan digər insanlar haradasa özlərinə sığışdırmırlar ki, bu gənc bizim səviyyəmizdə deyil. Mənim kimi bir bəstəkar, gedib xaricdə konsertlər vermiş biri hələ sadəcə Yazıçılar Birliyinin üzvü olan, bir kitabı çıxmış müəllifə necə müraciət edim - bu cür kriteriyalar olmalıdırmı?

Ceyhun Allahverdiyev: Belə anlayış yaradıcı insan üçün ümumiyyətlə olmamalıdır.

Gülnar Səma: Bu cür anlayışı olmayan, tanıdığınız, bildiyiniz bəstəkar adları çəkə bilərsinizmi?

Ceyhun Allahverdiyev: Mən bu barədə heç kəsin yerinə cavab vermək istəmirəm. Amma bizim gənc tələbələrimiz var ki, onlardan biri Macarıstanda kvartet janrında qızıl medal aldı. Bir başqa tələbəm Astarxanda medal aldı, ikisinin burada Filarmoniyada diplom işləri səsləndi. Tələbər arasında da çox istedadlı bəstəkarlar var.

Gülnar Səma: Məncə, bu müsahibədən sonra onların yazarlarla, xüsusilə gənc yazarlarla əməkdaşlığına bir təkan verilər.

Ceyhun Allahverdiyev: Bizim sinfimizdə romanslar da yazılır, onların arasında gənc yazarlarla ünsiyyətdə olanlar da var. Onlar Mədəniyyət kanalının elan etdiyi romans müsabiqəsində yazarlarla birgə qalib olmuşdular. Mən özüm isə dörd romans yazmışam, onlar hamısı kitab halında çıxıb. Bu gün ən çox danışılan janr isə mahnı janrıdır, lakin bəstəkar yalnız mahnı janrı ilə bağlanmamalıdır.

Gülnar Səma: Bildiyimiz problemlər var ki, qeyri-ciddi yazarlar və bəstəkarlar qəbul edilməz bir mətni, qəbul edilməz bir mahnı halında təqdim edirlər. Onların qarşısını almaq üçün biz ciddi yaradıcılıqla məşğul olanlar addım atmalıyıq. Hər hansı bir əsərimizi bir-birimizə

təqdim edib, ortaya bir məhsul qoyaq, nəticə olsun. Bəlkə, nümunə olaraq davamı gələcək və beləliklə, hansısa bir qurum səviyyəsində olmasa da, fərdlər şəklində inkişaf eləyib mükəmməl bir sonluq olacaq.

Ceyhun Allahverdiyev: Yox, biz bir balaca otaqda dünya problemlərini həll eləmək iqtidarında deyilik. Amma fəaliyyətimizlə qismən buna kömək etmək iqtidarındayıq. Mən Arif Məlikovun tələbəsi olmuşam, Qara Qarayev Şestakoviçin tələbəsi olub. Bu ənənə bu gün Azərbaycan bəstəkarlıq məktəbində davam edir. Lakin o dediyimiz məsələlərin qabağına çıxmaq bu gün mümkün deyil.

Gülnar Səma: Mümkün olmasa da, biz cəhd eləməliyik axı.

Ceyhun Allahverdiyev: Cəhd eləmək nə deməkdir, bax Gülnarə xanım öz fəaliyyətini göstərdi, sərgisi oldu. Esmira xanım da fəaliyyətdədir.

Gülnar Səma: Bəs əməkdaşlıq formasında?

Ceyhun Allahverdiyev: Əməkdaşlıq eləməkdə nəyi nəzərdə tutursunuz?

Gülnar Səma: Daha fərqli mətnlərə və müəlliflərə müraciət.

Ceyhun Allahverdiyev: Bu gün klassiklərimiz səslənmirsə, əgər Arif Məlikovun üç baleti səhnəyə qoyulmursa, ona xaricdə olan müraciət burada yoxdursa, özünüz müqayisə edin. Bu məsələlərdən biz yan keçsək ki, ancaq mahnı və mətn düşüncəsi ilə kiminsə qabağına çıxacağıq, qeyri-mümkündür.

Gülnar Səma: Böyük əsərlərin təqdimatı, ola bilsin ki, tam olaraq məsuliyyətli bir yoldur. Ona görə də çətinliklər var.

Ceyhun Allahverdiyev: Xeyr, bir-iki solist çatmırsa, onu yaxın ölkələrdən dəvət etmək olar. Bəstəkar deyiləndə

mahnı janrı yox, başlayır operadan, baletdən, simfoniyadan, kantatadan, poemadan, konsert janrından. Bu gün simfoniya yazmaq qüdrətində neçə bəstəkarımız var, sualına cavan vermək mənimçün çətindir.

Gülnar Səma: Həmin bəstəkarları da qorxudan sadaladığınız problemlər olmasın?

Ceyhun Allahverdiyev: Məsələ yalnız o problemlə bağlı deyil, ifa problemləri də var. Bəstəkarın nəşriyyatı da yoxdur. Komputerdə yığılma məsələsi də fərdi xüsusiyyətdir, o da çox baha başa gəlir.

Gülnar Səma: Onların çapı başqa kitablarla müqayisədə texniki cəhətdənmi problemlidir?

Ceyhun Allahverdiyev: Bu cür kitabları xüsusi adamlar yığandan sonra nəşriyyata hazır aparırıq. Orada hər nöqtə bir işarədir. Sözdə bir hərf səhv düşsə də, cümlə içində mənanı başa düşmək olur. Musiqidə bir dənə səhv getdi o artıq başqa intonasiyadır. Mən altı il Arif Məlikovun bütün külliyatının musiqi redaktoru olmuşam, Prezident aparatının sifarişiylə. Hərçənd ki, bir qəpik də qonorar vermədilər, 27 cildə zəhmət çəkdim. Bəstəkar üçün çətin odur ki, siz mahnı çap olunmuş kitabı vərəqləyəndə musiqi səslənməyəcək, amma bu, şair və rəssam üçün çox rahatdır. Bəstəkarın simfonik musiqi üçün yazdığı əsəri göstərəcəyi yeganə yer filarmoniyadır.

Esmira Rəhimli: Mən də müdaxilə etmək istəyirəm ki, təsəvvürünüzə gətirin, ən səviyyəsiz bir müğənninin oxumağını eşidib deyirsiniz ki, bu biabırçılıqdır. Amma doqquz milyonluq xalq onu sevir, ona bayılır. Bu kütlənin zövqü məsələsidir. Onu heç vaxt dəbdən salmaq olmur.

Gülnar Səma: Ümumiyyətlə, sənətşünaslıqda belə bir tendensiya var ki, mütəxəsislər tərəfindən çox yüksək səviyyədə dəyərləndirilən əsər kütləvi şəkildə o qədər də qəbul edilməsin. Doğrudan da, bayağı bir mətn kütləni öz

əsarətində saxlaya bilirsə, bu o demək deyil ki, ona qarşı nəsə edilməməlidir. Alternativ cəhd olmalıdır.

Ceyhun Allahverdiyev: Bu gün fəxri ad daşıyanlar rahat yolla toyxanada, restoranda oxuyanlardır. Məsələlər o qədər də asan deyil, biz Esmira xanımla, Gülnarə xanımla bir mahnı yazdıq göstərdik. Ən yaxşı halda gəlib alqışlayıb, həmən də unudub gedirlər. Onun arxası gəlməlidir, efirdə o mahnı verilməlidir. Vaxtilə rəssamlar musiqi sahəsində çox ciddi işlər görüblər. Onların tərtibatı ilə tamaşalar hazırlanıb. Bu gün də həmin dekorlarla tamaşalar qoyulur.

Gülnar Səma: Söz dekorlardan düşmüşkən, rəssamlarla əməkdaşlıq özünü göstərməlidir. Esmira xanım bu mövzu ilə bağlı münasibət bildirsin, çünki biz məsələni müzakirə formasında qoymuşuq. Problemlərimiz var, bunu necə həll edə bilərik, hansı çıxış yolumuz var, ümumiyyətlə, hansısa bir çıxış yolu varmı ki, qeyri-ciddi əsərlərin tüğyan etməsinin yerini ciddi əsərlərə verək?

Esmira Rəhimli: Əslində bu məsələ də dövlətin bilavasitə nəzarətində olmalıdır.

Gülnar Səma: Mütəxəsislər də meydanı boş buraxmamalıdırlar axı.

Ceyhun Allahverdiyev: Mübarizə aparılmalıdır deyirsiniz. Bu mübarizənin bir forması kimi olmazmı ki, siz gəlib dinlədiyiniz əsərləri işıqlandırasınız. Ortaya çıxan yaxşı bir fəaliyyəti qəzet və ya jurnal məqaləsində yazmaq gərəkdir.

Esmira Rəhimli: Biz özümüz populyar edirik bayağı işləri.

Ceyhun Allahverdiyev: Gedin sözünü demiş bəstəkarlardan da müsahibə alın.

Gülnar Səma: Əslində bizim məqsədimiz odur ki, bir cəhd olunsun. Bir yerdən başlamaq lazımdır.

Ceyhun Allahverdiyev: İnsanların doğrudan da, bir uğurlu fəaliyyəti varsa, onu heç kəslə müqayisə eləmədən işıqlandırmaq lazımdır.

Esmira Rəhimli: Düşünürəm ki, indi çıxan bayağı mahnıları gələcək nəsillər ələkdən keçirəcəkdir.

Gülnar Səma: Bizim bugünki mövzumuz bu deyil, bizim əsas istədiyimiz odur ki, yaradıcı insanlar arasında əlaqə qurulsun.

Ceyhun Allahverdiyev: Təklif verin, necə fikirləşirsiniz?

Gülnar Səma: Tanıdığınız hər hansı bir bəstəkarı və ya rəssamı hər hansı bir yazarla əlaqələndirib ortaya mətn qoya bilərik. Tutaq ki, mən kitab çıxarıramsa, həmin kitab üçün Esmira xanım nəsə bir rəsm işləyə bilər. Tamamilə geri çəkiləndə meydanda başqa şeylər olur.

Esmira Rəhimli: Bilmirəm bu nə ilə əlaqədardır, bizim millət malı-mülkü, daş-qaşı çox sevir. Bizim azərbaycanlılar rəsm əsərini alıb divardan asmaz. Ancaq çoxlu bahalı maşınları az qala kolleksiya kimi alırlar. Amma bir sənət əsərini havayı da versələr, evindən asmaz. O elə bilir ki, əşyalar daha dəyərlidir, nəinki sənət əsəri. Ona görə də hansısa bir ciddi incəsənət hadisəsinin reallaşmasına sponsorluq etməzlər.

Gülnar Səma: İndi elə bir vəziyyət yaranıb ki, rəssamın işi ilə ancaq rəssam, bəstəkarın işi ilə ancaq bəstərəkar maraqlanır. Yazar üçün rəssamın əsəri o qədər də önəm daşımır sanki. Bunlar bir-birilərinin əsərlərinə ögey münasibət bəsləyirlər. Bir-birinə dəstək üçün nəsə bir dəyişiklik olmalıdır axı. Məsələn, Esmira xanım, indiyə kimi hansısa bir yazarın əsərinə nəsə bir rəsm çəkmisinizmi?

Esmira Rəhimli: Gülnarə xanım Mətanət Ulu Şirvanlının kitabının üzünü işləyib. Mənsə öz kitabımın qrafik rəsmlərini özüm çəkirəm.

Gülnar Səma: Bir məsələyə də toxunaq, məsələn bunun xərci necə olur. Müəllif olaraq kitanın rəsm tərtibatı üçün müraciət edəndə neçəyə başa gəlir?

Esmira Rəhimli: Bəzən satışda elə bir şey olur ki, onun qiyməti üstündə olmur, satıcı müştəriyə baxıb qiymət deyir.

Gülnar Səma: Bəs müştəriyə baxandan sonra qiymət neçə olur?

Esmira Rəhimli: Müştəri var ki, onun üçün hədiyyə olunur, elə müştəri də var ki, ona 50 manata, eləsi də var ki, çox baha.

Gülnar Səma: Bir yazar üçün nə qədər xərc lazımdır ki, onun kitabında profesional bir rəsm əsəri yer alsın.

Ceyhun Allahverdiyev: O da rəssamın fərdi xüsusiyyətinə baxır. Sənət meyarı ilə ona qiyməti kim qoya bilər.

Gülnar Səma: İndi çap olunan kitablarda komputer qrafikası baş alıb gedir. Bundan kənara çıxmaq, orijinal əsərlərə müraciət etmək üçün nə qədər xərc çəkilməlidir?

Esmira Rəhimli: Bir kitabın üzünə rəsm çəkmək, arasındakı qrafik işləri işləmək təxminən 200 manatadək olar.

Gülnar Səma: Bəs eyni şeylər musiqidə necə olar?

Ceyhun Allahverdiyev: Musiqinin hansı janrından söhbət gedir?

Gülnar Səma: Daha çox kütləvi janrlardan söhbət gedir, təbii ki, böyük janrlar daha ciddi məbləğ tələb edər.

Ceyhun Allahverdiyev: Not kitablarından söhbət gedir, yoxsa nədən?

Gülnar Səma: Şeirlərə mahnı bəstələmək, romanslar yazmaq, ifa olunması? Söhbət, ümumiyyətlə, yaradıcılar arasındakı münasibətdən gedir. Məsələn, mənə bir bəstəkar desə ki, şeirini hədiyyə et, mən edərəm.

Ceyhun Allahverdiyev: Mən bir neçə mahnı yazmışam, bu janrda deyə bilmərəm ki, böyük bir fəaliyyətim var. İfa edənlərə Lalə Məmmədovanı, Samir Cəfərovu, Kamilə Nəbiyevanı, Bəyimxanımı və bir çox belələrini göstərə bilərəm. İndiyə qədər mən heç bir mahnıma görə heç kəsdən qonorar istəməmişəm.

Gülnar Səma: İstənilən halda heç kəsə sirr deyil ki, iş prosesində hansısa bir məbləğ olur.

Ceyhun Allahverdiyev: Xalq artisti Nəzakət Teymurova üçün üç konsert proqramı verdik. Azərbaycanda ilk dəfə belə bir proyekt oldu. Bir səsli xalq musiqisini polifonik musiqiyə çevirmək böyük zəhmət tələb edirdi. Amma başqa müğənni vardı ki, bir mahnım üçün mənə böyük məbləğdə pul təklif edirdi. Sadəcə, bir anormal təklifi oldu ki, mən sözləri dəyişdirəcəm. Dedim, qapını o tərəfdən ört. Bununla da məsələ bitdi.

Gülnar Səma: Deməli, sevindirici haldır ki, bu cür ciddi yaradıcılıqla məşğul olan insanlar var. Tamamilə əminəm ki, siz tək deyilsiniz. Sadəcə olaraq, belə insanların bəzən çətinliklər qarşısında geri çəkilməklərinə mane olmaq lazımdır.

Ceyhun Allahverdiyev: Bu gün biz kimlə mübarizə aparmalıyıq, hədəf yoxdur.

Gülnar Səma: Əslində hədəf çoxdur, müxtəlif hədəflər var.

Ceyhun Allahverdiyev: Tamamilə yararsız olan, sənət nümunəsi olmayan bir şeyi sənət səviyyəsində qiymətləndirirlər, bu yaradıcı insana bıçaq vurur. Onda nə qədər iradə olmalıdır ki, o dözsün, yaşasın, nəsə də

yaratsın. O narahat simaları işıqlandırmaq üçün həyat bir balaca dəyişməlidir.

Gülnar Səma: Bizim indi apardığımız müzakirəni çap edəcəyimiz dərgi "Ulduz" jurnalıdır. Həmin jurnal AYB-nin orqanlarından biridir. Bu cür tribunalar rəssamlar və ya bəstəkarlar üçün də varmı?

Ceyhun Allahverdiyev: Var, bizim öz jurnalımız var. Musiqi Akademiyasının da, Bəstəkarlar İttifaqının da jurnalı var.

Gülnar Səma: "Ulduz" jurnalını siz vərəqləsəniz, orada həddindən artıq gənc imza tapa bilərsiniz ki, onları jurnal sizə təqdim edir, özünüz tanımırsınız. Sizin jurnallar necə?

Ceyhun Allahverdiyev: Mənim müəllif konsertimdən sonra bir jurnalist gəldi, belə bir müsahibə apardı. Mənim o biri qardaşım da bəstəkardır, Əməkdar incəsənət xadimidir, professordur bu göstərdiyim jurnallarda onun haqqında da yazılıb.

Gülnar Səma: Növbəti müzakirələrin birində də onu dəvət edərik. Gördüyünüz kimi "Ulduz" jurnalının hər dəfə son səhifəsində daha çox yeniyetmələrə məxsus rəsmlər yer alır. Yazarlar tərəfindən əməkdaşlığa cəhdlər edilir. İstədiyimiz odur ki, bunlar kütləviləşsin.

Gülnarə Mahmud: Bayaqdan tənqid edirdik ki, sənətkarlıqdan, incəsənətdən daha çox əşayaları sevirlər. İndi də qeyd etmək istəyirəm ki, bizim insanlar həddindən artıq istedadlıdır. Onları üzə çıxarmaq üçün yaxşı ki arada müsabiqələr keçirildi, çox maraqlı ifaçılar çıxdı ortaya.

Gülnar Səma: Bir vaxtlar muğamın və ya aşıq sənətinin problemlərindən danışılırdı. Sonra həmin sahəyə dövlət dəstəyi oldu və inkişaf göz qabağındadır. İndi gərək biz də öz problemlərimizdən danışaq ki, problemin olduğu nəzərə çarpsın, həlli üçün kimsə nəsə eləsin.

Ceyhun Allahverdiyev: Mən təklif edirəm ki, efirdə bir veriliş açaq.

Gülnar Səma: Çox əla olar.

Ceyhun Allahverdiyev: Televiziyada bu problemləri qabardaq. Həm də sənət adamlarının fəaliyyətini nümayiş etdirək. Həmçinin gələcək nəsil başlayır məktəbdən.

Esmira Rəhimli: Uşaq vaxtından bədii qiraət formalaşmalıdır.

Gülnar Səma: Məktəb deyirsiniz, xatırladım. Akademiyanın bir məktəbdə layihəsi var idi, mən orada uşaqlar üçün sual hazırlayırdım. Yuxarı siniflərə belə bir sual verdim ki, müasir ədəbi dərgilərdən hansıları tanıyırsınız, heç olmasa bir nəfər "Ədəbiyyat qəzeti"nin də adını çəkə bilmədi. Ən azından məktəbin ədəbiyyat müəllimi var də.

Ceyhun Allahverdiyev: Ədəbiyyat müəlliminin də öz problemləri var. O gəlib sinifdə "Ədəbiyyat qəzeti" var, gedin, açın oxuyun deməklə məsələ həll olunmayacaq.

Gülnar Səma: Ona görə də gəlin fikirlərimizi konkretləşdirək, nəticə xarakterli təkliflər irəli sürək.

Esmira Rəhimli: Təbii ki, bu mövzu elə burada qalmamalıdır.

Gülnar Səma: Müsahibəmizin çapından sonra olacaq reaksiyalara görə, lazım olarsa, növbətini təşkil edərik.

Esmira Rəhimli: Veriliş açmaq ideyası əla idi. Verilişə baxanlarda bu mövzuda bir fikir oyansa, o da böyük işdir.

Ceyhun Allahverdiyev: Mən yenə də təşəkkür formasında deyirəm, yaxşı ki bu problemləri düşünən insanlar var. Hamıda inqilabi cəsarət yoxdur ki, getsin inqilab eləsin. Bu məsələləri təbii ki, qabartmaq lazımdır. Mən normal verilişlərə dəvət alanda gedirəm, böyük

əksəriyyətinə getmirəm. Heç görmüsünüz ki, normal fikir söyləyən insan üçün efirdə kifayət qədər vaxt ayrılsın? Artıq bütün özünə hörmət edən insanlar onlardan qaçır. Mədəniyyət kanalında, Azərbaycan televiziyasında harada ki hörmətli verilişlərdir, o verilişlərə getməyə dəyər.

Gülnar Səma: Sizin əlavəniz varmı, Gülnarə xanım?

Gülnarə Mahmud: Düzdür, ümumi bir fikrə gəlmədik, amma həll yolunu da əslində tapa bilmədik. Hansısa bir bəstəkarmı, yazıçımı, rəssammı bir-birinin işindən bəhrələnə bilər. Bəstəkar məsələn, hər hansı bir sərgiyə gedib əsərə baxırsa, ondan ilham alıb nəyisə bəstələyə bilər.

Gülnar Səma: Yəni çapdan öncə sizə təqdim edilən hər hansı bir kitaba illüstrasiyamı, üz qabığımı çəkə bilərsiniz?

Esmira Rəhimli: Lazım gələndə nəsə bir əsər çəkmək, yaranır. Boş vaxtı olan adam bu işi üç günə, olmayan adam bir aya hazır edər.

Gülnar Səma: Ən azından bir neçə kitabda rəssam olaraq təqdim olunmağın özü də müəyyən zəncirin bir halqasıdır. Müəyyən vaxtdan sonra müəlliflər özləri müraciət edə bilərlər ki, bu rəssam işinin peşəkarıdır. Mən ümid edirəm ki, bu müsahibədən sonra sizləri də rəssam olaraq öz kitablarında görmək istəyənlər olacaq. Biz artıq bir nəticəyə gəlməliyik.

Ceyhun Allahverdiyev: Nəticə bu qədər asan olsaydı, bu qədər müzakirə də olmazdı.

Gülnar Səma: Ümid edirəm ki, bu müzakirədən sonra yaradıcı insanlar ən azından bir-birinin yaradıcılığına maraq göstərəcək, sözün, rəngin, səsin ahəngində yeni sənət nümunələri yaranacaq.

"Ulduz" jurnalı. Noyabr. 2018. səh. 17-21

Mündəricat

Ön söz yerinə..... 3

Heydər Əliyev və Azərbaycan ədəbiyyatı..... 4

İlham Əliyev və Azərbaycan ədəbiyyatı 13

Cümhuriyyət dövrü ədəbiyyatına bir baxış 20

Elçinin "Kölgə" hekayəsində kölgələrin

ardındakı işıqlı mətləblər..... 29

"Füyuzat"ın iki yazarı"na bir baxış..... 34

"Molla Nəsrəddin" Ensiklopediyası:

böyük salnamənin işıqlı səhifələri..... 40

Aqil Abbasın yağdırdığı "Dolu" 45

Cavidanə uçurum..... 51

Tahir Talıblının "Vaxt vaxtında gəlir" kitabı..... 60

Alın yazısına yazı (Arif Əmrahoğlu) 65

Əbülfət İslamı xatırlayarkən..... 68

Vaqif Yusifli – 70 71

Yanar ürəyin işığında (Mədət Əyyuboğlu) 74

Necip Saraçoğlunun "Gülə həsrət" duyğuları 80

Çanaqqala zəfəri və ya 26 minanın türkanəliyi 82

İnci Okumuşu oxuyuruq..... 89

Ömrün yarım əsri (Fərqanə Mehdiyeva)..... 94

Məmməd İsmayılın lirikası 99
Rəşad Məcidin "Çiyələk qadın"ı 108
İbrahim İlyaslının "Yuxuma söykənmiş adam"ı 114
Akif Səmədin söz ağrısı 119
Elşən Əzimin güldən ağır sözü 123
İsa Cavadoğlu şeirlərində təbiət 131
Saqif Qaratorpağın kitabına 134
Şeir boyda şair (Sərraf Şiruyə) 141
Vahid Məmmədlinin şeirləri - gözəl həyat şeirdir 148
Mikayıl Müşfiqin "Çoban" poeması.. 152
Nəriman Həsənzadənin "Nuru Paşa" poeması 158
Fikrət Qocanın çağdaş dövrdə yazdığı poemaları..... 161
Zəlimxan Yaqubun "Yunus Əmrə dastanı" 167
Zəlimxan Yaqubun "Hüseyn Saraçlı dastanı" 173
Məmməd Aslanın ağlayan qərənfili 179
Yusif Nəğməkarın "Çanaqqala" poeması 183
Məmməd İlqarın "Qaratel" poemasının məziyyətləri 187
Elxan Zalın "Anıt məzar dastanı" 191
Elçin İsgəndərzadənin poemaları 199
Kəmaləddin Qədimin "Köç"ü 203
Barat Vüsalın "Aldədə" poeması 209
Musa Ələkbərlinin "Mübarizlik dərsi" 216

Balayar Sadiqin çağdaş dövrdə yazılmış poemaları .. 219
Əli Rza Xələflinin poemaları 224
Pərvin "Qadın olmaq" üçün on hədəf seçdi 228
Arzu Hüseynin içində yaşayan məsumluq 236
Nuranə Nurun "Yoxluğuna və sağlığına" 241
Şəfa Vəlinin "Poçtalyona məktub"u 249
Şahanə nağıl 254
Emin Piri "Tanrının kölgəsi"ndə 258
Elməddin Nicata məktub 264
Faiq Hüseynbəyli yaradıcılığının çalarları 270
Ramil Əhməd və ya "Zaman tuneli"ndə zamanı
sıfırlayan şair 276
Ruslan Dostəlinin gənclik hesabatı 281
Elşad Ərşadoğlu yaradıcılığında poetik düşüncələr .. 287
Hər sətirdə vətən sevgisi (Hafiz Hacxalıl) 290
Ədəbi gəncliyimizin 2015-ci ildəki
fəaliyyətinə bir baxış 295
"Ulduz" jurnalında ədəbi müzakirə..... 315
Söz-Səs-Rəng üçlüyü 331

SÖZÜMÜZ SÖZDÜR

QEYD ÜÇÜN----------

"Elm və təhsil" nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Texniki redaktor: Yadigar Mirbağırzadə

Çapa imzalanmış 14.01.2019
Şərti çap vərəqi 6,5. Sifariş № 19.
Kağız formatı 84x108 1/16. Tiraj 100 .

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4